ƏLİYAR ORUCOV

# POLİTOLOGİYA

Dərs vəsaiti

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN RESPUBLİKASI**
**FÖVQƏLADƏ HALLAR NAZİRLİYİNİN**
**AKADEMİYASI**

**ƏLİYAR AĞAGÜL oğlu ORUCOV**

# POLİTOLOGİYA

## DƏRS VƏSAİTİ

*AzərbaycanRespublikasıFövqəladə Hallar*
*Nazirliyinin Akademiyasının Elmi şurasının*
*31 0ktyabr 2017-ci il tarixli iclasının*
*qərarı ilə təsdiq edilmişdir. /Protokol № 09/*

**BAKI-2017**

**Elmi redaktor:**
Filologiya üzrə elmlər doktoru,
professor **Cəfərova Bahar Cumay qızı**
(Fövqəladə Hallar Nazirliyinin Akademiyasının
Humanitar fənlər kafedrasının müdiri)
**Rəyçilər:**
Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent
**Bağırov Şahin Xanoğlan oğlu**
(AMEA Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi)

Tarix üzrə fəlsəfə doktoru, dosent
**İbrahimzadə Fizuli Zeynalabdin oğlu**
(Fövqəladə Hallar Nazirliyinin Akademiyasının
Humanitar fənlər kafedrasının baş müəllimi)

Fəlsəfə üzrə fəlsəfə doktoru
**Hüseynov Həbib Məzahir oğlu**
(AMEA Fəlsəfə İnstitutunun şöbə müdiri)

Fəlsəfə üzrə fəlsəfə doktoru
**Axundov İldırım Əzim oğlu**
(Fövqəladə Hallar Nazirliyinin Akademiyasının
Tədris söbəsinin böyük metodisti)

**Orucov Ə.A.** Politologiya. Dərs vəsaiti. Bakı:”Ecoprint”, 2017, 184s.

*Dərs vəsaiti Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təsdiq edilmiş Politologiya fənninin proqramına müvafiq olaraq yazılmışdır.*

*Dərs vəsaiti siyasət haqqında elm olan politologiyanın anlayış və kateqoriyalarının, onun başlıca problemlərinin təhlilinə həsr olunmuşdur. Kitabda hər bir mövzunun plana uyğun olaraq fənn üzrə tərtib edilmiş mühazirə mətnləri verilmişdir. Dərs vəsaiti Fövqəladə Hallar Nazirliyinin Akademiyasının “Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi” və “Yanğın təhlükəsizliyi mühəndisliyi” ixtisasları üzrə təhsil alan kursantlar üçün nəzərdə tutulsa da bu vəsaitdən digər ali məktəblərin tələbələri, magistrantları və aspirantları da istifadə edə bilərlər.*

*Müəllif elmi fəaliyyətində bəhrələndiyi və əvəzsiz rolları olduğu bütün müəllimlərinə, yaxınlarına təşəkkürünü bildirir.*

DOI: https://doi.org/10.36719/2017/184

# GIRIŞ

Hazırkı şəraitdə politologiya fənninin dünya siyasətində və beynəlxalq siyasi münasibətlərdə baş verən mürəkkəb siyasi proseslər kontekstində öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir və özünəməxsus aktuallığı ilə səciyyələnir. Son illər respublikamızda cəmiyyət həyatının bütün sahələrində, eləcə də siyasi, iqtisadivə təhsil sistemində ciddi islahatlar həyata keçirilmişdir.Mənəvi həyatın xüsusi sferası olan təhsil sahəsindəki islahatların məqsədi onu daha da təkmilləşdirməkdən, müasirdövrün tələblərinə uyğunlaşdırmaqdan vədünya standartlarına cavab verməkdən ibarətdir.Bu islahatlar humanitar-sosial elmlərin eləcə də politologiyanın tədrisi sahəsində müəyyən əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur.

Politologiyanın predmetini təşkil edən siyasət insanların həyatfəaliyyətinin bütün sferalarına nüfuz və təsir edir.Təsadüfi deyil ki, gündəlik həyatda siyasətin rolu daim artır.Bu baxımdan hazırda siyasət haqqında elm olan politologiyanı dərindən və əhatəli mənimsəmək cəhdi ölkəmizdə həyata keçirilən siyasi və iqtisadi islahatların uğurlu həllində cəmiyyət üzvlərin fəallığına ciddi təsir göstərə bilər.Cəmiyyət üzvlərinin siyasi biliyinin artırılmasında, onların siyasi həyata fəal cəlb edilməsi metodlarından biri tədris müəssisələrində siyasi biliklərin mənimsədilməsidir.Məhz politologiya fənni də bu çətin və olduqca məsuliyyətli vəzifənin yerinə yetirilməsinə xidmət edir.O, tələbələrin (kursant və müdavimlərin) siyasidünyagörüşünün formalaşmasına, siyasi elm haqqında bilik və təsəvvürlərinin dərinləşməsi əsasında onlarda siyasi şüur və mədəniyyətin formalaşmasında səmərəli rol oynayır.

Zənnimizcə, bu dərs vəsaiti politologiya fənninin aktual əhəmiyyət kəsb edən problemləri ilə maraqlananların siyasitəfəkkür tərzinə və siyasi dünyagörüşünün zənginləşməsinə,kursant və müəllimlərin də tələbatının ödənilməsinə müəyyən faydalı təsir göstərəcəkdir.

# I BÖLMƏ

# POLİTOLOGİYA SIYASƏT HAQQINDA ELMDİR

## 1. Siyasi elmin meydana gəlməsi və inkişafı

Siyasi fikrin inkişaf tarixi qədim dövrdən başlayır.İlk siyasi təlimlər Şərqdə formalaşmışdır. Qədim Misirdə, Babilistanda dini-mifoloji təsəvvürlər insanların siyasi fikirlərinə öz təsirini göstərmişdir. Qədim Çində və Hindistanda siyasi ideyalar quldarlıq quruluşunun müdafiəsinə əsaslanır. Hindistanda e.ə.II-I minilliklərdə siyasi ideyalar, vedlər, brahmanizm, buddizm, Upanişadlar və Manu qanunlarında öz əksini tapmışdır. Qədim Çində siyasi təlimlər daosizm və konfutsizmdə ifadə olunmuşdur. Konfutsi öz baxışlarında dövlətin idarəolunmasını iyerarxik qaydada, zorakılıq olmadan həyata keçirilməsini təbliğ edirdi. Qədim Yunanıstanda və Romada siyasi fikrin inkişafında “Yeddi böyük müdrik” Solon, Biant, Fales, Periandr, Kleobul, Pittak, Hilon xüsusi rol oynamışlar. Qədim Yunanıstanda siyasi fikir Sokratla davam etdirilmişdir. Eyni zamanda aristokratiya tərəfdarı olan Sokrat demokratiyaya mənfi münasibət bəsləmişdir. Qədim yunan siyasi fikrinin inkişafında Platonun xidməti xüsusilə qeyd olunmalıdır. O, “Dövlət”, “Qanunlar” və s. əsərlərində siyasət, dövlət və hakimiyyət haqqında dəyərli fikirlər irəli sürmüşdür. Platon aristokratik respublika quruluşu kimi dövlət modelinə üstünlük verərək demokratiya, oliqarxiya, timokratiya və tiraniya dövlət quruluşlarını tənqid etmişdir. Platonla bərabər qədim yunan siyasi fikrinin inkişafında Aristoteldə xüsusi rol oynamışdır. Onun “Politika”, “Etika”, “Afina siyasəti”, “Poetika” və s. əsərlərində insanın fəaliyyət və inkişaf imkanlarının məhdudlaşdırmayan dövlət quruluşundan politiya, monarxiya və aristokratiyanı düzgün, tiraniya, oliqarxiya və demokratiyanı isə düzgün olmayan dövlət quruluşu kimi qeyd olunmuşdur.Eyni zamanda qədim Yunanıstanda Aristotel “monarxiya”,“oliqarxiya”,

“aristokratiya”,“demokratiya” kimi anlayışları işlətməklə siyasi rejimləri müəyyənləşdirmişdir.O vaxtdan başlayaraq siyasət bütün cəmiyyətlərin real həyatının vacib atributuna çevrilir.Qədim Romada siyasi fikrin inkişafında Mark Tuli Siseronun xidməti danılmazdır. Onun siyasi görüşləri “Respublika”, “Dövlət haqqında” və“Qanunlar haqqında” traktatlarında öz əksini tapmışdı. Siyasi baxışlarında qanunlara və qanunçuluğa böyük yer verən Siserondan sonra Romada siyasi fikrin inkişafında Stoiklər fəlsəfi-siyasi cərəyanı mühim rol oynamışdır. Stoiklər fəlsəfi-siyasi cərəyanın nümayəndəsi olan Zenona görə dövləti müdrik filosoflar idarə etməlidir. Bu cərəyanın digər nümayəndəsi olan Senekaya görə yaranan dövlətlər təsadüfün nəticəsidir və ayrı-ayrı insanlar tərəfindən yaradılır. Stoiklərin sonuncu nümayəndəsi olan imperator Mark Avqustin Avreli isə hakimiyyətin iki növdən-kilsə hakimiyyəti və dünyəvi hakimiyyətdən ibarət olduğunu ifadə etmiş, hər şeydən əvvəl Allahdan gələn kilsə hakimiyyətini ali hakimiyyət kimi qəbul etmişdir. İctimai inkişafın müasir mərhələsi siyasətin rolunun artması ilə səciyyələnir.Bu gün siyasət cəmiyyət həyatının bütün sferalarını əhatə edir.Siyasət ictimai həyatın elə sahəsi hesab olunur ki, ən mühüm ictimai problemlər burada mənalandırılır, onların mexanizmi və həlli yolları ilk növbədə siyasət sferalarında işlənib hazırlanır.Politologiya öz vasitə və metodları ilə siyasətin və hakimiyyətinsirlərinə nüfuz etməyə, siyasi elitanın, liderlərin, partiyaların və kütlələrin siyasi fəaliyyətinin əsil mahiyyətini açıqlamağa imkan yaradır.Müasir politologiyanın çox əhəmiyyətli aspekti siyasi fəaliyyətin səbəblərini və məqsədlərini üzə çıxarmaqdan ibarətdir.Siyasət haqqında elm olan politologiyanın ən köklü problemləri məhz siyasət, siyasi hakimiyyət və dövlətdir.Məhz bu üç problem haqqında dərin və əhatəli biliklərə yiyələnmədən siyasi elmin digər məsələləri, anlayışları və kateqoriyaları sistemi barədə düzgün təsəvvürə malik olmaq çətindir.

Müasir dövrdə müxtəlif ölkələrdəpolitologiya və ya siyasi elm adlanan bilik sahəsi siyasəti, hakimiyyətlə fərdlərin və cəmiyyətin qarşılıqlı əlaqəsini öyrənir. Siyasət insanların həyatı ilə sıx bağlıdır.

O, cəmiyyətin üzvlərinin həyat fəaliyyətinin bütün tərəflərinə spesifik təsir göstərir. Siyasət insanın təbiəti ilə şərtlənir.Qeyd edək ki, siyasi elm olan politologiyanın təşəkkülü və inkişafı mürəkkəb və çoxaspektli problemdir.Bir termin olaraq politologiya sözü yunanca politika sözündən götürülmüş, mənası dövlət işi və ya ictimai iş, loqos-bilik, təlim deməkdir.Bu elm siyasət, siyasi həyat haqqında bilikləri ifadə edir.Qeyd olunduğu kimi politologiyanın yaranma tarixi çox qədimdir.Politologiya elminin müstəqil olaraq formalaşması, onunsosial və humanitar elmlərin ümumi sistemindən ayrılması prosesi XIX əsrin sonu -XX əsrin əvvəllərində bir neçə onilliklər davam etmişdir.Onun hansı ölkədə hansı konkret zamanda yarandığını iddia etmək şərti xarakter daşıyır.Bütövlükdə bu elmin vətəni ABŞ hesab edilir. Onun ABŞ-da təşəkkülü 1880-cı ilə təsadüf edir.Həmin dövrdə Kolumbiya Universitetinin (əvvəllər Kolumbiya kolleci) idarə heyəti tanınmış alim Berdcessin təşəbbüsü ilə politoloji siyasi elm məktəbinin yaradılması barədə qərar qəbul etdi.O, zamandan etibarən Kolumbiya Universite- tinin təşəbbüsü ilə Con Hopkins Universitetinin və ABŞ-ın digər böyük ali məktəblərinin alimləri bu istiqamətdə ciddi fəaliyyət göstərdilər.Siyasi elm kafedrası ilk dəfə 1857-ci ildə ABŞ-da Kolumbiya kollecinin bazasında yaradılmışdı.XX əsrin əvvəllərinədək "yeni" elm kimi başa düşülən politologiya eyni məna kəsb edən üç müxtəlif terminlərlə adlandırıldı. XX əsrin ikinci yarısından etibarən Rusiyada politologiya termini digər iki termini-yəni "siyasi elmi" və "siyasət haqqında elmi" sıxışdırıb aradan qaldırdı və indiyə qədər siyasət haqqında elm həmin ölkədə politologiya adlanır. Azərbaycanda isə keçmiş postsovet ölkəsi olduğuna görə Rusiyadakı kimi ali təhsil müəssələrində politologiya adı ilə tədris edilir.Bu elmin yeni inkişaf mərhələsi XX əsrin 40-cı illərinin ikinci yarısından etibarən başlanır.

Politologiyanın inkişafında 1948-ci ildə Parisdə YUNESKO-nun təşəbbüsü ilə təşkil olunan beynəlxalq kollokvium mühüm rol oynadı. 1949-cu ildə YUNESKO çərçivəsində bu günə qədər fəaliyyət göstərən Beynəlxalq siyasi elm assosasiyası

yaradıldı.Onun vəzifəsi bütün dünyada politololoji tədqiqatları əlaqələndirməkdən ibarətdir.Hazırda bu elm dünyanın industrial cəhətdən inkişaf etmiş ölkələrində ictimai elmlər arasında mühüm yer tutur.Azərbaycanın ali məktəblərində politologiya 1991-ci ildən sosial elmlərə aid fənn kimi tədris olunur.Politologiya cəmiyyətin siyasi sferası haqqında nizama salınmış, kompleks biliklərin əldə edilməsinə istiqamətlənir, onun qanunlarını dərk etməyə yönəlir.O, təbii olaraq siyasət haqqında elm kimi çıxış edir.Bu mənada politologiya həyat fəaliyyətinin müəyyən sferası haqqında nəzəri təsəvvürlər kompleksini araşdıran inteqral elmə aid edilə bilər.

## 2. Politologiyanın predmeti,kateqoriyaları, funksiyaları,metodları

Politologiyanın predmetini-şəxsiyyətin, siyasi təsisatların və təşkilatların, sosial qrupların, siniflərin, millətlərin və dövlətin fəaliyyətində təzahür edən cəmiyyətin siyasi sferasının fəaliyyəti və inkişaf qanunauyğunluqları təşkil edir.Siyasət haqqında elm obyektiv gerçəkliyin təhlili baxımdan müxtəlif səviyyələrə malikdir.Şərti olaraq politoloji biliklərin nisbi müstəqillik kəsb edən üç səviyyəsi haqqında mülahizə yürütmək olar: siyasi fəlsəfə, konkret nəzəri təhlil səviyyəsi-siyasət nəzəriyyəsivə empirik təhlil səviyyəsi-tətbiqi politologiya.

Siyasi fəlsəfənin spesifikliyi ondan ibarətdir ki, siyasətin mənalandırılması onu dünyagörüşü nöqteyi-nəzərindən qiymətləndirməklə, elecə də cəmiyyət həyatının digər sferaları ilə qarşılıqlı əlaqədə nəzərdən keçirməklə şərtlənir.

İnsan və siyasət siyasi təhlilin məğzidir.Əgər siyasi fəlsəfə siyasətdə əsasən keçmişi mənalandırırsa, siyasət nəzəriyyəsi onun haqqında indiki, müasir bilikdir.İdrakın bu cür spesifikliyi ondan ibarətdir ki, siyasəti bütöv hadisə olmaqla, onun daha ümumi və sabit xüsusiyyətlərinin, qanunauyğunluğunun və fundamental prob-

lemlərinin təhlilinin köməyi ilətəhlilin makro səviyyəsi ilə nəzərdən keçirir.

Empirik təhlil səviyyəsində siyasətin sosial məzmunu, onun konkret texnologiyası, siyasətin həyata keçirilməsinin praktiki üsulları, formaları və metodları-təhlilin mikro səviyyəsi nəzərdən keçirilir.

Politologiya elminin başlıca məqsədi cəmiyyətin siyasi sisteminin strukturunu və fəaliyyətini tədqiq etməkdən ibarətdir. Belə demək olar ki, politologiyanın predmetini həm də sistemin, siyasi münasibətlərin təşkilini və fəaliyyətini müəyyənləşdirən qanunları öyrənmək təşkil edir.O, dövlətin müasir inkişaf mərhələsinin və bütün dünya birliyinin qarşıya qoyduğu xeyli siyasi məsələlərə cavab verir.Politologiya siyasət, siyasi proseslərin texnologiyası haqqında elm kimi mənalanır.Bu elmin predmeti sözün geniş və dar mənasında başa düşülsə də,bu iki dərketmə səviyyəsi bir-birinə zidd deyildir.Geniş mənada politologiya (siyasi elm kimi) siyasəti öyrənən fənlər (elmlər) kompleksi baxımdan səciyyələnməklə özündə bütün siyasi bilikləri birləşdirir, sözün dar və daha ciddi mənasında politologiya (və ya siyasətin ümumi nəzəriyyəsi) məhz sosial subyektlərin hakimiyyətə münasibətdə spesifik qanunauyğunluqlar qrupu ilə bağlılıq kəsb edir, hakimiyyətdə olanlarla hakimiyyətə tabe olanlar, idarə edənlərlə idarə olunanlar arasındakı münasibətlər mexanizminin xüsusi tipini tədqiq edir.Politologiyanın əsas tədqiqat obyektini üç fundamental problem-siyasət, dövlət və hakimiyyət təşkil edir.Bu üç fenomen bir-biri ilə sıx bağlıdır.Dövlət və siyasətin hakimiyyətlə əlaqələndirilməsi politologiyanın predmetinin spesifik məqamlarındandır.Çünki siyasət hakimiyyət, hakimiyyət isə dövlət vasitəsi ilə həyata keçirilir.Politologiya dövləti və hakimiyyət münasibətlərini cəmiyyətin başlıca siyasi təsisatları kimi nəzərdən keçirir.Müasir politoloji ədəbiyyatda dövlət nəinki siyasətin subyekti və hakimiyyətin daşıyıcısı kimi, həm də beynəlxalq aləmdə dövlətin suverenliyinin daşıyıcısı baxımdan tədqiq edilir.Politologiya elminin öyrəndiyi problemlər sistemində digər

siyasi təsisatlarda (siyasi partiyalar,siyasi hərəkatlar, siyasi təşkilatlar) əhəmiyyətli yer tutur.Parlament mexanizmi, parlament demokratiyası, seçki sistemi, kütləvi informasiya vasitələrinin siyasi funksiyaları və s. bir qayda olaraq politoloqların diqqətindən kənarda qalmır.Anlayışlara və kateqoriyalara malik hər cür elm mövcud olmaq hüququ ilə səciyyələnir.Kateqoriyalar elmin predmetinin əhəmiyyətli tərəflərini əks etdirən başlıca anlayışlardır.Anlayış və kateqoriya elmin elə dilidir ki, onu bilmədən konkret elmi problem çərçivəsində effektli ünsiyyət mümkün deyildir. Kateqoriyalar elmi idrakın inkişafı gedişində və ictimai praktika əsasında formalaşır.Onlar təfəkkürün sosial gerçəkliyin mahiyyətinə nüfuz etməsini mənalandırır.Hər bir müstəqil elm kimi politologiya da öz xüsusi anlayışlar-kateqoriyalar sisteminə aiddir. Bu elmin mərkəzi kateqoriyası "siyasi" anlayışdır.Kateqoriyalarelmin son dərəcə ümumi anlayışlarıdır.Buna görə elmin çıxış nöqtəsini təşkil edən kateqoriyaların müəyyən edilməsi çox vacibdir.Çünki hər hansı elmin fundamenti məhz onların vasitəsilə möhkəmlənir. Politologiyanın başlıca kateqoriyalarına siyasət, siyasi, siyasi həyat, siyasi sfera, siyasi aləm, cəmiyyətin siyasi sistemi, siyasi hakimiyyət, tabeçilik, hökmranlıq, qayda və s. aiddir.Onların köməyi ilə öyrənilən məkanın ümumi həcmi, onda təcəssüm olunan spesifik hadisələrin məcmusu, elmin obyekti və predmeti müəyyənləşir. Kateqoriyaların digər qrupunun köməyi ilə başlıca siyasi qüvvələr və siyasətin təsisatlı komponentləri: siyasətin subyektləri, siyasi elita, liderlər, dövlət, siyasi partiyalar, ictimai təşkilatlar, təzyiq qrupları və s. tədqiq edilir.

Politologiyanın siyasi şüuru əhatə edən özünəməxsus anlayışlar və kateqoriyalar dairəsini siyasi bilik, siyasi mədəniyyət, siyasi mühit, siyasi sosiallaşma və s. təşkil edir. Onları şərti olaraq humanitar kateqoriyalar kimi müəyyənləşdirmək olar. Politologiyanın sosial-iqtisadi və humanitar elmlərdən istifadə etdiyi kateqoriyalarıda vardır: sivilizasiya, cəmiyyət, əhali, xalq, azadlıq, mədəniyyət, tə-

rəqqi və s. Bu elmlə sosiologiyanın və hüquqşünaslığın qovuşuğunda yerləşən kateqoriyalarda diqqəti cəlb edir: hüquqi dövlət, vətəndaş cəmiyyəti, ictimai rəy, sosial qruplar və təbəqələr, sosial təsisatlar və s.

Politologiyanın sosial əhəmiyyəti, müasir cəmiyyətə təsiri onun funksiyalarında təzahür edir.Funksiya latın dilində həyata keçirmə, yerinə yetirmə kimi mənalanır.Birsözlə, digər hadisələrdən asılı olan və onların dəyişikliyə məruz qalması nəticəsində dəyişən hadisə kimi səciyyələnir.

Politologiya cəmiyyətdə sosial əhəmiyyət kəsb edən bir sıra funksiyalar yerinə yetirir.Bu elmin başlıca funksiyalarına konseptual-təsviri, izahedici, idrakı proqnozlaşdırıcı, metodoloji-qiymətləndirici, inteqrasiyaedici, idarəedici, tərbiyə, tətbiqi, humanitar funksiyalar aiddir.

Politologiyanı öyrənərkən onun metodları barədə aydın təsəvvürə malik olmaq vacibdir.Çünki siyasi hadisə və proseslər müxtəlif metodların köməyi ilə dərk edilir.Metod sözü yunan sözü olub tədqiqat üsulu mənasını verir.Metod dedikdə tədqiqat predmetinin məzmununun açıqlanmasına imkan yaradan məntiqi üsul və vasitələrin məcmusu başa düşülür.Siyasi elmin metodlarından normativ, sosioloji, antropoloji, təsisatlı, biheviorist, psixoloji, sistemli, struktur-funksional və müqayisəli metodları göstərmək olar.

Məqsədlərdən asılı olaraq politologiyanın metodlarını bir neçə qrupa ayırmaq olar:

Ümumməntiqi metodlar (təhlil, sintez, induksiya, deduksiya, modelləşdirmə və s.). Bu metodlar idraki prosesin qayda və prosedurаlarını müəyyənləşdirir.

Obyekt haqqında ilk informasiyanın əldə olunmasına istiqamətlənən empirik tədqiqat metodları (müşahidə, kontent-təhlil, yəni müəyyən informasiyanı, sorğunu, eksprimenti və s. ifadə edən müxtəlif sənədlərin öyrənilməsi).

Siyasi reallığı, siyasi hadisələrin müəyyən qədər başa düşülməsini və şərhini əks etdirən ümumi fundamental metodlar.Onları siyasi reallığın nəzəri şərhi modeli adlandırırlar.

Politologiyanın predmetini öyrənərkən onun sosial-iqtisadi və humanitar biliklər sistemində yerini müəyyənləşdirmək lazımdır.Hər şeydən əvvəl, politologiya cəmiyyətin və ictimai münasibətlərin mürəkkəb sistemin öyrənilməsinə istiqamətlənən elmlərdən biridir.Məlumdur ki, şəxsiyyət və cəmiyyət haqqında əhəmiyyətli təsəvvürü məhz fəlsəfə elmi təcəssüm etdirir. Politologiyanın fəlsəfə ilə münasibətləri özünəməxsus ziddiyyətli, birmənalı olmayan səviyyədə təşəkkül tapır. “Siyasətin fəlsəfəsi”, eləcə də “Siyasi fəlsəfə” terminlərindən istifadə edilməsi geniş yayılmışdır. Politoloji problemlərin fəlsəfi cəhətdən mənalandırılması zəruri metodoloji prinsipdir, siyasi elmin komponentidir.Bu elm fəlsəfə ilə yanaşı iqtisadiyyatla, tarix elmi ilə, sosioloji biliklərlə sıx əlaqədardır. Politologiya elminə ən yaxın elmlərdən biri də hüquqdur.Bundan başqa, bu elm sosial psixologiya, siyasi psixologiya, siyasi coğrafiya, siyasi antropologiya, siyasi astrologiya və digər elmlərlə özünəməxsus əlaqəyə malikdir.

## 3.İntibah və maarifçilik dövrlərinin, XIX –XX əsrlərinsiyasi ideyaları

Orta əsrlərdə siyasi fikrin inkişafını şərh edərkən burada Qərbdə və Şərqdə siyasi ideyaların inkişaf xüsusiyyətlərini aydınlaşdırmaq lazımdır.Şərqdə siyasi fikrin inkişafında islam dinin təsiri qaçılmaz bir faktor kimi əks olunmalıdır. Əl-Fərabinin, Əl-Biruninin, İbn Baccənin, İbn Sinanın, İbn Rüşdün, İbn Xəldunun və s. siyasi baxışları orta əsrlər islam Şərqində siyasi ideyaların inkişafı tarixində müstəsna rol oynamışdı. Orta əsrlərdə Avropada siyasi fikrin inkişafında Foma Akvinalının siyasi baxışları özünəməxsus

yer tutur. Onun siyasi baxışları xristian siyasi məfkurəsinin formalaşmasına ciddi təsir göstərmişdir.

XV əsdən başlayaraq Qərb aləmində baş verən bir sıra dəyişikliklər, yəni artıq müsəlman filosoflarının vasitəsilə antik irslə tanışlıq, müsəlman alimlərinin elmi-fəlsəfi və siyasibaxışlarının mənimsənilməsi və s. oyanış anlamında intibah dövrü adlandırılan bir epoxanın başlanmasına səbəb oldu.O, dövrün ən başlıca səciyyəsi dindən, kilsə institundan ayrılma, sekulyarlaşma prosesi olmuşdur.Yəni artıq təkcə iqtisadiyyat, elm, fəlsəfə, incəsənət deyil, siyasətdə dindən ayrılmağa başlayırdı. İntibah dövrünün ideya mərkəzində insan dururdu.Bu dövrdə insanın idealı isə hərtərəfli inkişaf etmiş şəxsiyyət olmaq idi.Məsələn, florensiyalı rəssam və humanist Alberti arxitektura və təsviri incəsənətin nəzəriyyəçisi, mexanik, kartoqraf, riyaziyyatçı, etik, estetik, filosof və görkəmli pedaqoq idi.Bu dövrün nümayəndələrinə C.Piko della Mirandola, Botoçelli, Leonardo Da Vinçi, N.Makiavellinin, J.Boden, Rafael, T.Mor, F.Bekon, T.Hobbsun, B.Spinozanın, P.Qassed və s. kimi mütəffəkirlər aiddir.

İtalyan mütəfəkkiri Nikkolo Makiavellinin siyasi görüşləri dövrün siyasi fikrinin inkişafına müsbət təsir göstərmişdi. Onun dövlətin və hakimiyyətin təbiəti, dövlət idarəçiliyinin formaları, hakimiyyətin güc vasitəsilə idarə olunması, cəmiyyətdə formalaşan xüsusi mülkiyyətin insanların həyat və fəaliyyətinə təsiri və s. kimi baxışları aktual olaraq qalmaqdadır. Həmçinin Jan Bodenin Fransa dövlət suverenliyi ideyasının irəli sürməsi, ingilis dövlət xadimi Tomas Morun “Utopiya” əsərində xüsusi mülkiyyətin ləğvi fikirləri, Frensis Bekonun cəmiyyətin iqtisadi-siyasi inkişafında mərkəzləşmiş dövlətin əhəmiyyəti kimi siyasi ideyaları mühim əhəmiyyətə malik idi. Eyni zamanda Tomas Hobbsun hakimiyyətin ictimai müqavilə əsasında yaradılması fikri, xüsusi mülkiyyətin insanın xarakterinə təsiri haqqında, mütləq monarxiya tərəfdarı kimi düşüncələri, Pyer Qassedin ictimai müqavilə nəzəriyyəsi, Benedik Spinozanın

dövlət və hakimiyyət haqqında siyasi baxışları Qərb siyasi təfəkkürünün inkişafına əhəmiyyətli dərəcə də müsbət təsir göstərmişdi.

Qeyd edək ki, maarifçilik ilk dəfə olaraq Qərbi Avropa ölkələrində kapitalizmin təşəkkülü dövründə yaranmışdır.O, məzmunca çox geniş olub, ictimai, siyasi, hüquqi, əxlaqi və bədii ideyalar, baxışlar sistemindən ibarətdir.

Ümumiyyətlə, maarifçilərin humanizminin əsas prinsipi belədir ki, dövlətin bütün iqtisadi, mədəni və siyasi fəaliyyətinin əsasını insana xidmət təşkil etməlidir, yəni hər şeydə insan vasitə deyil, məqsəd olmalıdır, onun getdikcə artan tələbatı hərtərəfli ödənilməlidir. Maarifçilərin nümayəndələrinə XVII əsr ingilis maarifçiləri Con Lokku, Corc Berkli və David Yumu, XVIII əsr fransız maarifçiləri Şarl Lui Monteskyeni, Fransua-Mari Aruye Volteri, Deni Didronu, Klod Adrian Helvetsini,Jan Jak Russonu və alman maarifçiləri Qotfrid Leybnitsi, QotfridLessinqi, İohann Qotfrid Herderi, Georq Vilhelm Fridrix Hegeli, İmmanuil Kantı və digərlərini aid etmək olar. Fərdi azadlıq və burjua liberalizmi ideyalarının müəllifi olan Con Lokk ilk dəfə hakimiyyətin bölünməsi prinsipini irəli sürmüşdür. Konstitusiyalı monarxiya tərəfdarı olan Con Lokk xalqı hakimiyyətin mənbəyi hesab edirdi. XVIII əsr fransız maarifçiləri olan Monteskye, Russo, Didro, Volter vəHelvetsinin vətəndaşların hüquq və azadlıqları, dövlətin meydana gəlməsi, onun mahiyyəti, hakimiyyətin bölgüsü, hökmdarla xalq arasında münasibətlər və s. kimi siyasi ideyaları fransız siyasi təfəkkürünün inkişafında əsas rol oynamışdı. Alman maarifçiləri olan İ.Kantın, G.Hegelin cəmiyyətdə yaranan ziddiyyətlər, ədalətsizliyi doğuran səbəblər, hakimiyyət formaları, dövlət, iqtisadiyyat, siyasət münasibətləri və s. haqqında siyasi ideyalarına da diqqət yetirilməlidir. Qeyd etdiyimiz mütəfəkkirlər alman siyasi fikrinin inkişafına öz tövhələrini vermişlər. Son olaraq onu da qeyd etmək olar ki, maarifçilik ideoloji, fəlsəfi cərəyan olmaqla bərabər, həm də siyasi cərəyan idi. XIX-XX əsrlərdə Qərbdə təşəkkül tapan siyasi ideyalara maarifçilik siyasi cərəyanı ilə yanaşı ekzistensiyalizmi,

praqmatizmi, həyat fəlsəfəsini, pozitivizmi, neopozitivizmi, freydizm və yeni freydizmi, personalizmi və s. aid etmək olar.

Qeyd etmək lazımdır ki, XX əsr həyatın bütün sahələrində böhranlar əsridir. Müəyyən ictimai quruluşun əsaslarını dəyişdirən sosial çevrilişlər həyatın ayrılmaz əlamətinə çevrilir. Cəmiyyətin düşdüyü iqtisadi böhranlar çox vaxt öz həllini açıq antihumanizm formalarında tapır. Onların içərisində ən dəhşətlisi-bütün xalqları ümumdünya faciəsi ruhunu hiss etməyə məcbur edən dünya müharibələri olmuşdur. Adama elə gəlir ki, militarizmin dəhşətli təcrübəsini dərk etdikdən sonra insanlar sosial konfliktləri müharibələrdən istifadə etmədən həll edəcəkdir. Lakin hazırda lokal müharibələr kütləvi xarakterli hadisələrdir və bəşəriyyəti yeni bir ümumdünya yanğınına sürükləyə biləcək bir amildir. Bundan əlavə, yer kürəsində ekoloji təhlükə təsəvvüredilməz sürətlə irəliləyir. Elmi-texniki inqilabi nailiyyətlər bəzən xeyirdən çox şəri doğuran mənbəyə çevrilir. Adamların həyat şəraitinin pisləşməsi, təbiətin öz təbii xassələrini getdikcə daha çox itirməsi, maddi ehtiyatların tükənməsi hər bir insanın həyatında özünün təsirini göstərir. Nəticədə insanların sağlamlığı təhlükə altına düşür, psixi vəziyyəti (indiki, həm də gələcək nəsillərin) pisləşir. Ona görə də XX əsr də «mədəniyyətin böhranı» anlayışı cəmiyyətin mənəvi həyatına möhkəm daxil olmuşdur. Dəyərlərin yenidən qiymətləndirilməsi hər bir yeni nəslə xas olan hadisədir. Lakin XX əsrdə həyati qaydaları və oriyentirlərin transformasiyası insan və onun təbiəti haqqında əbədi təsəvvürlərin təzədən idraki süzgəcdən keçirilməsi ilə müşayiət olunur. Sosial və təbii qüsurların aradan qaldırılmasında elmə bəslənilən ümidlər ruh düşgünlüyü, elmə inamsızlıqla əvəz olunmuşdur. XX əsr siyasi- fəlsəfi fikrinin spesifik cəhətlərdən biri də odur ki, fəlsəfi-siyasi məktəb və cərəyanların əksəriyyətinin marksizmə əks mövqedən çıxış etməsidir. Bunu onunla izah etmək olar ki, uzun illər marksizm (sonralar isə marksizm leninizm) praktikada kommunizm ideallarını reallaşdırmağa çalışan cəmiyyətin siyasət və ideologiyasının məhək daşı olmuşdur. Marksizmin fəlsəfi

prinsiplərinin xüsusilə dialektik və tarixi materializm prinsiplərinin düzgün olmadığını sübut etməyə cəhd edən bir çox fəlsəfi-siyasi cərəyanlar onun sübut və arqumentsiz tənqidinə üstünlük verirlər. Uzun illər fəlsəfənin inkişafı ancaq ideoloji qarşıdurma sahəsində də özünü göstərirdi. Həqiqi fəlsəfi problemləri həll etmək əvəzinə tərəflər bir-birinin fəlsəfi konsepsiyalarında zəif yerlər və səhvlər axtarmaqla məşğul olurdular. Lakin bu zaman həqiqi fəlsəfi konsepsiyalar yaradılmasına meyl də güclənirdi.

Ümumiyyətlə, XX əsr fəlsəfəsi müxtəlif istiqamətlər üzrə inkişaf etmişdir. Buraya dini fəlsəfənin çoxsaylı formaları, həmçinin pozitivizmin ən yeni növləri də daxildir.

XIX əsrdə və XX əsrin əvvəllərində elmin rolunun artması fəlsəfəyə və siyasətə də öz təsirini göstərmişdir. Hətta sayentizm (latınca: bilik, elm sözündədir) istiqaməti də meydana gəlmişdi ki, burada da fəlsəfənin konkret elmə meyilli olan müəyyən təfəkkür tipinə arxalanması irəli sürülürdü.

Sayentizmin tərəfdarları pozitiv elmlərə (başlıca olaraq təbiətşünaslığa) istiqamət götürərək fəlsəfədən ənənəvi dünyagörüşü problematikası çıxarmağı, fəlsəfənin tarixən qərarlaşmış predmetindən imtina edilməsini, ona dəqiq elmlər tipindən quruluş verməyi planlaşdırırdılar. Sayentizm istiqamətinə çox vaxt neopozitivizmi (analitik fəlsəfəni), «elm fəlsəfəsini», strukturalizmi aid edirlər. Ümumi fəlsəfi sayentist konsepsiyalarla yanaşı, müxtəlif spesifik nəzəriyyələr də yayılmağa başlamışdır. Bunlar: «industrial», «postindustrial», «texnotron», «informasiya» və digər ictimai quruluş tipologiyasına uyğun modellər əsasında təşkil olunmuşdur. Sayentist fəlsəfi təsəvvürlərin işlənilməsində ən böyük çətinlik metodologiya sahəsində özünü göstərmişdir. Belə aydın olurdu ki, nəzəri bilikləri tam şəkildə empirik faktlara müncər etmək qeyri-mümkündür. Sayentizm praktikası bir daha göstərdi ki, fəlsəfi problemləri tam şəkildə təcrid etmək olmaz.

İkinci spesifik fəlsəfi konsepsiya antropoloji konsepsiya hesab olunur. Bu istiqamət humanitar-antropoloji sahənin ön plana çıxa-

rılması və antisayenizm meyillərinin güclənməsi ilə bağlı idi. Bu zaman «insani məzmun» başlıca prinsip elan olunurdu. Antropoloqizm çərçivəsində fəlsəfi antropologiya, həyat fəlsəfəsi, ekzistensializm, personalizm və s. cərəyanlar formalaşmışdır. Onların fərqli xüsusiyyətləri təkcə əqlə münasibətdə deyil, sırf fəlsəfi məzmunun formalaşması mexanizmində xristianlıq ilə doğma cəhətlərə malik olmasındadır. Bu istiqamətin tərəfdarlarını təbii elmi təfəkkürün və onun normalarının ümumiliyinin qəbul edilməməsi birləşdirir. Bu cərəyanların arasındakı sərhədlər demək olar ki, yoxdur.

**Praqmatizm -** XIX əsrin 70-ci illərində Kembricdə (ştat Massaçusets) toplaşan və Pirs tərəfindən "Metafizik klub" adlandırılan kiçik bir elmi işçilər qrupunun fəaliyyəti nəticəsində meydana gəlmişdir. Praqmatizm fəlsəfi-siyasi təliminin əsasları ABŞ filosofu Çarlz Sanders Pirs (1839-1914) tərəfindən qoyulmuşdur. O, bu cərəyanın proqramını formulə edib onun adını təklif etmişdir. Pirsə görə, praqmatizm real həyatla bağlı olan alim, tədqiqatçı üçün səciyyəvi olan "laboratoriya ruhu"nun ifadəsinə xidmət göstərməlidir. Onun başlıca məqalələrinin ("Əqidənin möhkəmləndirilməsi" və "Əqidələrimizi necə aydın edək") əsas mövzusu bilik, əqidə və hərəkətlərin bir-birinə qarşılıqlı münasibətləridir. Praqmatizm yarandığı andan özündən əvvəlki fəlsəfənin bir sıra başlıca ideyalarından imtina edib fəlsəfi təfəkkürün tamamilə yeni tipini təklif etmişdi. Fəlsəfi təfəkkürün bu yeni tipi insanın hərəkətlərinə yeni tərzdə yanaşır. Bu fəlsəfədə insanın hərəkətləri ətrafında bütün anlayışlar və konsepsiyaların hərlənib formalaşdığı ox kəsb edir. Əsasən reflektor yox, şüurlu və məqsədyönlü xarakter daşıyan hərəkət bu və ya digər formada insan həyatının (həyat fəaliyyətinin) əsas formasını təşkil etdiyindən məhsuldar hərəkəti təmin edən şüur mexanizmləri, təfəkkür strukturları haqqında məsələ qalxır. Praqmatizmin banisi olan Pirsdə də məsələ bu müstəvidə qoyulur. Onun fərqli cəhəti isə onda idi ki, o, idraki fəaliyyəti xarici (obyektiv) aləmə aid etməyib diqqəti sırf daxili, əsas psixoloji proseslərə yönəldirdi. İnam dedikdə Pirs bilik yox, bu

və ya digər üsulla davranmağa adət etdiyimiz vərdiş kimi anladığı inamdan bəhs edir. Biliyə əks olan anlayış xəbərsizlik, bilməməkdirsə, Pirs inama qarşı hərəkətlərin müntəzəmliyini pozan şübhəni qoyur. Artıq (hərəkət nöqteyi-nəzərdən) idrak prosesi bilməməkdən biliyə yox, şübhədən inama, özü də subyektiv yox, kollektiv və ya sosial inama keçid mənasını verməyə başlayır. Obyektiv bilik cəmiyyət tərəfindən qəbul olunmuş inam anlayışı ilə əvəz olunur. Həqiqətə gəlincə, o, Pirs tərəfindən hamı üçün əhəmiyyətli olan məcburi inam kimi şərh olunur. Əgər tədqiqat prosesi sonsuz şəkildə davam etsəydi, onda öyrənilən hər məsələ üzrə sonsuz sayda tədqiqatçılar birliyi yaranardı. Pirs həmçinin elmi anlayışların əhəmiyyətinin yeni şərhini verir. Hər bir hərəkət gələcəyə yönəldiyindən və gələcəyi nəzərdə tutduğundan, Pirs anlayışı keçmiş yox, bu anlayışdan istifadədən meydana gələcək nəticələr baxımından nəzərdən keçirməyin lazım olduğunu bildirirdi. Pirs öz məşhur "prinsipi"ni və ya "praqmatik maksima"sını da aşağıdakı kimi formulə etmişdi: anlayış obyektinin tədqiqatçının fikrincə törədə biləcəyi praktiki nəticələri nəzərdən keçirmiş olsaq, onda bütün bu nəticələr haqqında təsəvvürlər elə məhz obyekt haqqında tam anlayış olacaqdır. Pirsin layiqli davamçısı Uilyam Ceymsın olmuşdur. Qeyd edək ki, Ceymsın tərəfindən Pirsin başlıca ideyaları təkmilləşdirilmişdir. O, bu ideyaları daha səlis təlim şəklinə gətirib onları sadə formada izah etmişdi. Bu, hərdən onun baxışlarının sadələşdirilmiş şərhinə səbəb olurdu. Ceyms praqmatizmi müəyyən bir metod və xüsusi həqiqət nəzəriyyəsi kimi nəzərdən keçirirdi. Metod kimi praqmatizmin təyini hər bir təlimin praktiki nəticələrini aşkarlanmaqla, onları müqayisə edib qiymətləndirməklə fəlsəfi və digər mübahisələri yoluna qoymaq idi. Bu metodu istifadə edən Ceyms, məsələn, materializmlə idealizm arasındakı uzun illərin mübahisəsini teizmlə eyniləşdirdiyi idealizmin xeyrinə həll etmişdi. Ceymsə görə, gələcəkdə materializm hər şeyin iflasa uğraması, yer üzünün və bəşər ruhunun yaratdığı hər şeylə birgə onun məhv olması

deməkdir. Ceyms hesab edir ki, bu perspektivlə düşünən heç bir kəs razılaşa bilməz. Əksinə, insana, daha doğrusu, onun ruhuna yaxın əbədi ruhi başlanğıcın olmasını qəbul edən idealizm xilas olacağımıza, insana çox əziz olan ideal və mənəvi dəyərlərin zəfər çalaçağına ümid açır. Ceymsə görə, bu iki konsepsiya arasında seçim onun qəbul etdiyi "inama iradə" prinsipi əsasında həyata keçirilməlidir. Bu prinsipə görə, iki alternativ qərar arasında həyat əhəmiyyətli seçimi sırf rasional əsaslarla etmək mümkün olmadıqda (Ceymsə görə, nəzərdən keçirilən məsələdə vəziyyət elə məhz bu cürdür) seçimi qeyri-rasional, emosional əsaslarla etmək insanın mənəvi hüququdur. Həqiqət probleminin şərhinə gəlincə, qeyd etmək lazımdır ki, Ceyms həqiqəti fikrin və ya nəzəriyyənin aləmdəki obyektiv vəziyyətə uyğunluğu kimi şərh etmir. O, həqiqəti ideyanın uğurluluğu və ya işqabiliyyətliliyi, insanın öz qarşısında qoyduğu və can atdığı bu və ya digər məqsədə çatmaqda faydalılığı kimi izah edir. Həqiqət və ya ideyanın uğurla işləməsi üçün onu yoxlamaq lazım olduğundan, yoxlana bilmə də həqiqətin tərifinə daxildir. Ceymsın praqmatizmi daha geniş mənada onun metod və həqiqət nəzəriyyəsinin dünyagörüşü əsasları mənasını verir. Bu əsaslara həmçinin onun "radikal empirizm" adlandırdığı təlimi, yəni bəzən "şüur axını", bəzən də "plüralist kainat" kimi aşılanan universal təcrübə haqqında təlimi daxildir. Kainat Ceyms tərəfindən heç bir qanuna tabe olmayan, təsadüflər itaətində olan, bitməmiş, yeniliklərə açıq olan plastik hadisə kimi şərh olunur. Burada insana öz azadlığını, yenilik eşqini, qeyri-məhdud yaradıcılıq qabiliyyətlərini nümayiş etdirmək imkanı verilir. Radikal empirizm həmçinin istənilən din təcrübəsinin də düzgün olduğunu bəyan edir. Həqiqətin praqmatik nəzəriyyəsi bu cür təcrübəni doğru hesab edir, çünki o, insana böyük pozitiv təsir göstərmək imkanına malikdir. Təcrübənin ayrı-ayrı elementlərdən, qavrayışlardan təşkil olunduğunu bildirən empirik filosoflardan (məsələn, Max) fərqli olaraq Ceyms təcrübəni fasiləsiz şüur axını kimi şərh edir. Bu şüur axınından insan iradi səylər göstərməklə bizim üçün adlarına görə

şeylər statusu alan ayrı-ayrı parçaları və ya hissələri qeydə alır. Ceymsin fikirlərinə görə, bizi özü ilə hesablaşmağa məcbur edən reallıq duyğulardan (mənşəyi naməlum olan duyğulardan), təcrübədə aşkar olunan duyğularla bu hamılıqla təsdiq olunmuş köhnə həqiqətlər arasındakı münasibətlərdən təşkil olunur. Özündə sosial təcrübə aləmini də birləşdirən kainatın natamam olması bu aləmi sonsuz qədər yaxşılaşdırmaq imkanlarını açır. İndi o, hələ kamil olmasa da, Ceymsin fikirlərinə görə, insanlar buna qadir olduqlarına inanıb öz səylərini birləşdirsələr bu mümkün olacaqdır. Ceyms sosial-siyasi baxışlarında liberal ideyaların müdafiə edir, qəti şəkildə müharibələrə qarşı çıxır. Ceymsın davamçısı olan Con Dyuinin də praqmatizmində təcrübə anlayışı çıxış nöqtəsini təşkil edir. Dyui onu bir tərəfdən insanın təbiətə rəngarəng münasibətlərini əhatə edən naturalist perspektivdə, digər tərəfdən isə sosial təcrübə kimi mənəvi-siyasi aspektdə nəzərdən keçirir. Dyuiyə görə, fəlsəfə qədim filosofların düşündükləri kimi aləmin gözəlliyindən heyrətə gəlmədən yox, gərgin ictimai həyatın stresslərindən meydana gəlir. Buna görə də onun fikirlərinə görə, fəlsəfənin əsas məqsədi sosial təcrübəni məhz təhlil edib təlmilləşdirməkdir. Con Dyui təcrübəni çox geniş şəkildə anlayaraq onu insanın təbiətə münasibətlərini, bəzən hətta təbiətin özünü də daxil etməklə insan həyatının fəallığı ilə eyniləşdirir. Onun fikirlərinə görə, təcrübə hadisələr və simalar aləmi, təcrübədə qavranılan aləm, habelə insanın fəaliyyəti və taleyi, magiya və mistika, bir sözlə, yaşanılan hər şeydir. Təcrübənin bu şür anlanması onun hansı metafizik əsaslarını axtamaq zərurətini istisna edir. Müasir filosoflar da Dyuinin xidmətlərini elə məhz fundamentalizmin əsaslarını sarsıtmasında görürlər. Başqa sözlə, əvvəlki fəlsəfə bütün, o cümlədən mənəvi hadisələrin hansısa davamlı əsaslarının olmasını düşünürdü. Əksər müasir filosofların fikirlərinə görə, belə əsaslar, və ya "ilkin başlanğıclar" mövcud deyildirlər. Dyuinin özü materializmlə idealizmin bir-birinə əksini Qədim Yunanıstanda əməyin fiziki əməklə əqli əməyə bölgüsündən

çıxarır. Dyui hesab edir ki, bu gün materializmlə idealizmi qarşı-qarşıya qoymağa əsas yoxdur. Təcrübəyə uyğun və qeyri-uyğun "mahiyyətlərə" bölgü tanış deyil, yəni təcrübədə fasiləsiz prinsipi təsir göstərməkdədir. Hər bir bölgü nisbi əhəmiyyətə malikdir, buna görə bu və ya digər ideyaların "materializm" və ya "idealizm" halında dondurulmasını doğru hesab etmək olmaz. Beləliklə, Çarlz Pirsin və UilyamCeymsın erkən praqmatizmi daha çox inam və etiqadlarla bağlı olan fərdi problemlərin həllinə yönəlmişdisə, Con Dyui isə əsas diqqətini Amerikanın XX əsrdəki sürətli inkişafı zamanı meydana çıxan daha ümumi sosial məsələlərin həlli üzərində cəmləşdirmişdi.

**Ekzistensializm** (lat.exsistensia- mövcudluq deməkdir) - XX əsrdə fəlsəfədə ziyalıların baxışlarına cavab verə biləcək yeni dünyagörüşü yaratmaq cəhdi kimi meydana gəlmiş irrasionalist, subyektiv idealist fəlsəfi və eləcədə siyasicərəyanlardan biridir. Onun əsas nümayəndələri Martin Haydegger, Karl Yaspers (alman məktəbi), Alber Kamyu, Jan Pol Sartr (fransız məktəbi) və s.

Ekzistensializm Birinci dünya müharibəsindən sonra Almaniyada, İkinci dünya müharibəsi dövründə Fransada, sonralar isə bir çox ölkələrlə yanaşı ABŞ-da meydana gəlmişdir. Müasir Qərb incəsənət və ədəbiyyatına bu cərəyanın çox böyük təsiri özünü göstərir. Bu cərəyan bədii istiqamət kimi həyatın absurdlarına əsaslanır. Ekzistensializm əsas qəhrəman kimi emosional coşqunluqdan əzilən, ehtiraslardan parçalanan dünyanın şəxsiyyətini irəli çəkir. Ekzistensializmin ideya kökləri həyat fəlsəfəsi, E.Qusserlin fenomenologiyası və S. Kyerkeqorun dini-mistik təlimidir. Ekzistensializmdə özünün səthi nikbin anlayışı ilə, mövcud cəmiyyətin mütərəqqi inkişafına inamı ilə birlikdə liberalizmin böhranı əks olunmuşdur. Ekzistensializm pessimizm dünyagörüşü kimi meydanagəlmiş və məsələni belə qoymuşdur: fəlakətlər qarşısında liberal-mütərəqqi ideyalarını itirmiş insane necə yaşamalıdır? Ekzistensializm maarifçilik və Klassik alman fəlsəfəsi dövrünün rasionalizminə, həmçinin,

XIX əsrin sonu və XX əsrin əvvəllərində geniş yayılmış kantçı-pozitivist fəlsəfəyə cavab idi. Ekzistensialistlərin fikrincə, rasional təfəkkürün əsas cəhəti ondan ibarətdir ki, o, subyektvə obyektin əksliyi prinsipindən çıxış edir. Buna görə də, rasionalist bütün gerçəkliyə, o cümlədən də insana yalnız elmi-tədqiqat nöqteyi-nəzərindən baxır, bu baxımdan həmin yanaşma "simasız" xarakter daşıyır. Əksinə, ekzistensializm şəxsiyyətdən kənar, "obyektiv" elmi fikrin əksliyi kimi çıxış etməlidir. Beləliklə, ekzistensializm fəlsəfə və elmi bir-birinə qarşı qoyur. Məsələn, M. Haydeggerin dediyi kimi, fəlsəfənin predmeti varlıqdan ibarət olmalıdır. Halbuki, elmin predmetini "mövcudluq" təşkil edir. Varlıq vasitəli deyil (mücərrəd təfəkkür vasitəsilə), yalnız vasitəsiz dərk olunur, insana onun varlığı, şəxsi mövcudluğu, yəni, ekzistensiyanın vasitəsi ilə açılır. Ekzistensiyada məhz subyekt və obyektin nə şüurlu-elmi, nə də spekulyativ təfəkkürə müəssər olmayan hissələrə parçalanmış bütövlüyü mövcuddur: adi həyatda insan özünü heç də həmişə ekzistensiya kimi dərk etmir; bunun üçün onun sərhəd (transdentental) situasiyasında olması zəruridir, özünüdərk prosesində insanın ölümlə üz-üzə gəlməsindən əhəmiyyətli heç nə ola bilməz. Ekzistensiya olan insan ilk dəfə öz azadlığını da tapmış olur. Ekzistensiya termini ilk dəfə S. Kyerkeqor tərəfindən işlədilmişdir. Cərəyanın nümayəndələrinə görə bu termin insanın "Mən"inin elə bir mərkəzi nüvəsidir ki, onun sayəsində insan empirik fərd kimideyil, konkret, təkrarolunmaz şəxsiyyət kimi çıxış edir. Ekzistensializmə görə, azadlıq ondan ibarətdir ki, insan təbii, yaxud sosial zərurətin təsiri altında formalaşan bir əşya kimi çıxış etməsin, özü-özünü seçsin, özünü hər bir hərəkəti, davranışı ilə formalaşdırsın. Bununla da azad insane elədiyi hər şeyə görə məsuliyyət daşıyır, "şəraitlə" özünü bəraətləndirmir. Ətrafında baş verən hər şey üçün günah hissi-azad insanın hissidir (Berdyayev). Tarixdə baş verən hər şey üçün insanın məsuliyyət daşıması barədə ekzistensialistlərin fikri məhz buradan çıxır. Lakin, azadlığın subyektiv planda şərhi sırf etik baxımdan dəyərləndirilir.

Ekzistensialistlər üçün insan cəmiyyəti və insanların həyatı başdan-başa "anlaşılmazlıq" və qəti absurddan ibarətdir. İnsanlararasında sevgivə bağlılıq yoxdur, adamlar arasında bütün insane münasibətlər qırılıb. Kişilər və qadınlar prinsipial şəkildə özlərinə qapanıblar, qarşılıqlı başa düşməməzliyə məhkumdurlar. Hər bir insan bir dünyadır. Ancaq bu dünyalar bir-biri ilə əlaqə saxlamırlar. İnsanların ünsiyyəti ancaq səthidir və qəlbin dərinliklərinə toxunmur. Dünya insanının ekzistensialist modeli belədir.

**Həyat fəlsəfəsi-** Qərbdə XIX– XX əsrdə ən geniş yayılmış fəlsəfi-siyasi cərəyanlardan biri «Həyat fəlsəfəsidir». Bu fəlsəfi istiqamətdə mərkəzi problem insan problemi, onun mahiyyəti və mövcudluğudur. «Həyat fəlsəfəsi»nin banisi alman filosofu A.Şopenhauer (1788– 1860) hesab olunur. Əsas əsəri «Dünya kor iradə və boş təsəvvürdür» adlanır. Bu əsər sonrakı fəlsəfi-siyasi fikrə böyük təsir göstərmişdir. Şopenhauer dünyanı kor iradə və qüvvə kimi öz fəlsəfəsində təsvir etmişdir. Pessimist fəlsəfəsi eyni zamanda çoxmənalı mahiyyətə malik olmuşdur. Onun fikrincə, insan illüziya və «kabuslardan» xilas olaraq gələcəyi yaradır. Həmin illüziya və kabusların içərisində sadəlövh, uzaqgörməz optimizm də vardır. Nəzəri aspektdə o, öz fəlsəfəsində hind upanişadlarına, Platon və Kantın təlimlərinə əsaslanmışdır. Onun ideyaları rasionalizmə, tarixiliyə və Hegelin dialektikasına qarşı olmuşdur. «Dünya kor iradə və boş təsəvvürdür» əsəri Platonun ideyalar aləminə və Kantın «özündə şeylər» nəzəriyəsinə yaxın olmuşdur. Eyni zamanda Kantdan fərqli olara Şopenhauer «şey özündə»– nin, yaxud məqsədsiz, kor fəaliyyət göstərən «iradə»nin dərkedilənliyini təsdiq etmişdir. «İradə» «təsəvvürləri» doğurmuşdur.

Şopenhauerin dünyagörüşü subyektiv idealist mahiyyət daşıyır. Onun üçün subyektsiz obyekt yoxdur. Şopenhauerin subyektivizmi onun özünün «dəlilər fəlsəfəsi» adlandırdığı solipsizm deyildir. Filosofa görə, dünya bir tərəfdən, dərkedənin təsəvvürüdür, di-

gər tərəfdən isə dərkedən dünyanın məhsuludur. Həyatda olan bütün hadisələr iradənin obyektivləşdirilməsinin mərhələləridir. Daha dəqiq desək, həyatda baş verən bütün hadisələr, adamların işi, tarix və təbiət qanunları-bütün bunlar şüursuz, qüdrətli cəhətdən ibarətdir. Dünya təcəssümləşmiş iradədir. Həyat uzun yuxugörmədir. Həyata münasibətində Şopenhauerin mövqeyi pessimizm mövqeyidir. Bu mövqe bir çox məsələlərdə buddizmə əsaslanır. «Hər bir həyat iztirabdır». «Bizim bədənimizin həyatı ancaq xroniki olaraq ləngidilmiş ölümədir». Onun «Həyat müdrikliyi aforizmləri» qiymətli fikirlər məcmusudur.

A.Şopenhauerin fəlsəfəsinin təsiri altına düşən filosoflardan biri F.Nitşedir (1844-1900). Əsərlərinin birində Nitşe onu özünün birinci və yeganə müəllimi adlandırmışdır. Nitşenin fikrincə, Şopenhaueri oxumaqla O, özündə «azad kişilik xarakteri» formalaşdırmışdır. Müəlimi kimi, Nitşe də özünü pessimist adlandırmışdır. Onun yaradıcılığında keçmişə, hər şeydən əvvəl, xristian mənəvi dəyərlərinə yenidən qiymət vermək ön planda durmuşdur. Nitşe dini (xristianlığı) mədəniyyətdə həqiqi insani dəyərləri təhrif etməkdə günahkar hesab etmişdir. Xristianlıq həyat instinktini dağıtmış, axirət dünyası naminə real dünyanı inkar etmiş, o dünyanı tərifləmişdir. Xristianlıq iradəsi «məhvə doğru gedən iradədir», xəstəlikdir, tənəzzüldür. İkincisi, xristianlıq (İsgəndəriyyə, yaxud bizans mədəniyyətindən eləcə də ellin mədəniyyətindən fərqli olaraq) qul şüuru yaratmışdır, günahı qarşısında cəzalandırmaq qorxusu doğurmuşdur. Üçüncüsü, xristianlıq və onun ehkamları doktrinyor əxlaqın əsasını qoymuşdur. Bütün həyat sadə sxemə sığmasa da, xristian əxlaqı həmin sxemə sığmağa məcbur etmişdir. Dörüncüsü, xristianlıq bəşəriyyətin nəslinin kəsilməsinə şərait yaradır, bu isə gizli məhvetmə instinktdir. Nitşe öz fəlsəfəsini «həyatın müdafiə instinkti» adlandırmışdır. Başqa sözlə, O, həmin fəlsəfəni antixristian fəlsəfəsi də adlandırırdı. Nəhayət, beşincisi, Nitşenin antixristianlığı öz mahiyyətinə görə hər cür asılılığa, əyriliyə, köləliyə qarşı

çevrilmişdir. Məlum olduğu kimi, «Zərdüşt belə söyləmişdir» əsərində Allahın öldüyünü elan etmişdir. Nəyə görə? İnsan heç bir avtoritetdən asılı olmamalıdır. Allahın ölümünün dərk edilməsi azad əql, azad ruh və «azad ölüm» üçün, onların haqqında ideyaların formalaşması üçün zəruridir. Həmin əsərin bir fəsli belə də adlanır «Azad ölüm haqqında». Lakin azad həyat və azad ölüm hər bir adama müyəssər olan deyildir bunlar yalnız fövqəlinsana xas olan şeydir. Nitşeyə görə, bəşəriyyət öz yollarıyla gedən saysız insan kütlələrindən ibarətdir. Bu kütlələrin və bu yürüşün heç bir planı, heç bir məqsədi yoxdur. Əgər bir məna deyilən şey varsa, o da onların içində vaxtaşırı zühür edən ayrı-ayrı qeyri-adi fəlsəfələrin varlığıdır. Lakin bu fərdlərin gördüyünü və düşündüyünü başqaları görüb düşünə bilmədiyindən, ətraf mühit və cəmiyyət onlara düşmən kəsilir, onları tənhalığa, aclıq və səfalətə məhkum edir. Xalqların həyatında heç bir tərəqqi olmur və son nəticədə həyatı ac və kədərli bir sonluq gözləyir. Haçansa lap yaxın zamanlarda hələ azad olan Qərb xalqlarını və sivilizasiyasını irəlidə qarşısıalınmaz şəkildə yaxınlaşan köləlik totalitarizm gözləyir.

İnsan öz əzəli instiktlərinə qayıtmalı, xeyir və şərin nə olduğunu bilməyən güclü, təbii, azad fərdlərə çevrilməlidir. Əks təqdirdə bəşəriyyəti ümumi bir cırlaşma və qum zərrəcikləri kimi bir-birilərinin eyni olmaq kimi kədərli, bəhrəsiz, cılız bir sonluq gözləyir.

Ümumiyyətlə, Nitşenin həyat fəlsəfəsi həyatdan ayrı düşmüş rasionalizmin tənqidinə, həmçinin mənəviyyatsızlığın tənqidinə, həyatın əxlaqsızlığına, ikiüzlüyə, avamlığa qarşı çevrilmişdir.

**Freydizm və yeni Freydizm -** fəlsəfi konsepsiya kimi psixoanalizin əsaslandırılması ZiqmundFreydin adı ilə bağlıdır. Avstriyalı həkim-psixiatr Z.Freyd (1856– 1939) psixoanalizi fəlsəfi antropoloji prinsip səviyyəsinə qaldırdı. Freydə görə, seksual meyillər uşaqlıqdan bütün həyat mərhələlərində insanı müşayiət edir, bu meyillər yerinə yetməyəndə psixoloji sarsıntılar meydana gəlir.

Freydə görə, şüurlu «mən» iki obyektiv qüvvənin– «o» ilə cəmiyyət qaydalarının mübarizəsi meydanına dönür. «Kütlə psixologiyası və insan «mən»inin analizi» əsərində isə Freyd sosial əlaqələrin təbiətindən söz açır. Kütlə psixologiyasının spesifik cəhətini onun qeyri-şüuru, təhtəlşüur olaraq lider və başçıya pərəstiş etməsində görür. «Moisey və monoteizm» əsərində dinə qarşı çıxış edərək iki əks qüvvənin-həyatla ölümün əbədi mübarizəsinin psixoloji əsaslarını şərh edir.

Təhtəlşüur haqqında Freyd təlimi psixoanalizin elə müddəalarına əsaslanmışdır ki, burada psixoloji narahatlıqlar, zədələr, affektlər, arzuların həyata keçməməsi və s.-nin insanı ömrü boyu izləməsi göstərilir. Bunlar özünü nevroz formasında təzahür etdirir.

Freydə görə, ona qədərki fəlsəfənin ən böyük günahı o idi ki, təhtəlşüur problemi onun tədqiqat predmeti olmamışdır. Tədqiqat predmeti əql, şüur olmuşdur. Doğrudur, Freyd etiraf edirdi ki, şüurun öyrənilməsi vacib şərtdir. Əslində şüur dünyada insanın oriyentasiya götürməsinə imkan verir, özünün «Mən»-ni (ego) formalaşdırmağa şərait yaradır. Lakin «Mən»-dən başqa fərdin şüuru, insan psixikası, Freydə görə, özünə daha iki strukturu daxil edir: «Fövqəl-Mən» (Super ego)-psixikası daxilinə keçirilmiş sosial əhəmiyyətli motivlər, requlyatorlar və həmçinin «o» (Jd) təhtəlşüurun «mikrodünyası». Təhtəlşüur, Freydə görə, şüurdan fərqlənir və öyrənilməlidir. Bu, ona bənzəyir ki, biz qaranlıq otaqda işığı yandırırıq və bütün predmetləri başqa cür görürük. Təhtəlşüur da şüurla, beynin fəaliyyəti və s. ilə çoxsaylı keçidlərlə əlaqədardır. Təhtəlşüur özünü yuxugörmədə, hipnotik vəziyyətlərdə, davranışda təzahür etdirir. O, müxtəlif səviyyələrdə (aşağı və yuxarı) özünü göstərə bilər. Yüksək səviyyə yaradıcılıq prosesləri ilə əlaqədar olduğundan burada intuisiya, təxəyyül böyük rol oynayır. Elə bil ki, onlar şüurdan gizlidir, fikrin, ideyanın, obrazın yaradılması ilə bağlıdır. Təhtəlşüurtəlimi libido (cinsi meyl), həyata meyl, ölümə meyl və s. terminlərlə tamamlanır və izah edilir. Freyd libidonu

insanın psixik enerjisi kimi şərh etmişdir.Freydin kütlə içində insan təlimi də təhtəlşüur haqqında olan təliminə əsaslanmışdır. O, dini ümumbəşəri nevroz adlandırmışdır. Freyd əqli insanın xilaskarı, kütləni isə ibtidai cəmiyyətin ordusu hesab edir.

Bolşevizmi dinə yaxın olan növbəti illüziya saymışdır. Rus bolşevizminin din kimi təfəkkürə qadağan qoyduğunu göstərən Freyd K.Marksın əsərlərini onlar üçün Bibliya və Quranı əvəz edən vəhy kitabları olduğunu qeyd etmişdir. Freydin təlimini inkişaf etdirən şagirdləri içərisində K.Yunq (1875-1964) özünəməxsus yer tutur. Əgər Freydin xidməti təhtəlşüurun «mikrodünyası»nın təhlili idisə, Yunq da öz növbəsində təhtəlşüuru öyrənərək onun ayrı-ayrı yaratdıqları (arxetipləri) ilə struktur, obrazlar mədəniyyəti üçün ümumi oxşarlığını göstərmişdir. O, elmi dövriyyəyə «kollektiv təhtəlşüur» anlıyışını gətirmişdir. «Psixoloji tiplər» əsərinin girişində Yunq Platon və Aristotelin iki, tamamilə bir-birindən fərqli olan insan naturası olması haqqında Heynenin qeydlərini təhlil edir. Bunlardan birixəyalpərvər naturadır, mistik Platon naturasıdır ki, öz qəlbinin gizli yerlərindən xristian ideyalarını və ona müvafiq gələn simvolları yaradır. Aristotel naturası isə praktikdir, hər şeyi qaydaya salandır. Həmin ideyalardan və simvollardan möhkəm ehkamlar və kult sistemi yaradır.

Yunq pisxoloji tipləri iki böyük qrupa bölür: bunlar introversiya tipi və ekstraversiya tipləridir. Fərddə müxtəlif funksiyalar: 1. təfəkkür; 2. emosiya; 3. hiss; 4. intuisiya hökm sürür. Hər bir funksiyaya adamların müvafiq psixoloji tipi uyğun gəlir. 1. təfəkkür tipi; 2. emosional tip; 3. hissedici tip; 4. intuitiv tip. Bu 4 tipdən hər biri (funksiyalarına görə) ya bir introvertiv, yaxud da iki ekstravertiv ola bilər. Beləliklə, 1. ümumi pisxoloji qaydalardan (göstərişlərdən) asılı olan tiplər (maraqların istiqaməti və onların libidosu digər tiplərdən fərqlənənlər); 2. funksional tiplər. Psixoloji tiplər ümumi psixik proseslərlə şərtlənir ki, bunu da K.Yunq «kollektiv təhtəlşüur» adlandırmışdır. Fərdi şəxsiyyət psixoloji prosesin hissəsi, kəsiyi, yaxud nümayəndəsidir ki, o, hər bir canlıda

onun anadangəlmə xassəsi kimi əks olunmuşdur. Fərdin obraz tərzinin anadangəlmə xüsusiyyətləri Yunqa görə, instinkt adlanır. O, yazırdı ki, obyektin bu psixi xüsusiyyətini arxetip kimi ifadə etməyi məsləhət gördüm. Arxetip anlayışı nə deməkdir? Yunq buna belə bir izahat vermişdir. Arxetip «ibtidai obraz» olub burada kollektiv təhtəlşüurun məzmunu şüurda açıq ifadə ounan meyllərlə və baxışlarla təmsil olunmuşdur. Yunqun dərin məzmunlu əsərlərindən biri «Psixoloji tiplər»dir. Demək olar ki, insan haqqında, onun psixoloji mahiyyəti haqqında bundan güclü və kamil tədqiqat əsəri təsəvvür etmək çətindir. Yunqun psixoloji konsepsiyasında müxtəlif sistemlər birləşir. Yunqa görə insanın daxilində 4 insan yaşayır: «Mən», «Maska», «Kölgə» və nəhayət «Ruhun obrazı». «Mən»-fərdin inkişafıyla bağlı son məqsəddir. «Maska»-şəxsin sosial dərisidir. «Mən» üçün qalxan rolunu oynayan «Maska», eyni zamanda son nəticədə onu simasızlaşdıra bilər. «Kölgə» «Mən»in tutqun və aşağı oxşarıdır. «Kölgə» şəxsin daxili «mən»i, onun yarımyuxulu «şər» «mən»idir, insanın zirzəmisində yaşayan vəhşi insandır. Yunqa görə, insan dərin dəyişmələrə uğrayıb inkişaf edir, körpəlikdən böyümə və yetkinləşmə mərhələlərinə keçir. Amma bəzən qəlb anlayışlarla yox, obrazlarla keçib gəldiyi inkişaf mərhələlərinə qayıdır. Bu zaman arxaik, individlərə qədərki kollektiv təhtəlşüur dövrünün xatirələri oynayıb üzə çıxır. O, xüsusilə uşaqlarda, kahinlərdə, mistiklərdə, sənətkarlarda, yuxu görənlərdə və ruhi xəstələrdə özünü göstərir. Nağıllarda əsatirlərdə, misteriya, yuxu və röyalarda onlarla yenidən görüşmək olar.

Yunq analitik psixologiyanın banisidir. O, təfəkkürün inkişaf tarixini əks etdirməyə çalışmışdır. Yunq hər bir fərdin dərin daxili aləmini və xalqların həyatının mifoloji dərinliyini ustalıqla şərh etmiş və sübuta yetirmişdir ki, Freydin bizə məlum olmayan anlaşılmaz «nəsə» təhtəlşüuru insanın yuxusunda və fantaziya-larında özünü göstərən bu qaranlıq, ehtiraslı və zorla susdurulan halları kollektiv şüurun uzaq zamanlardakı həyəcan və təcrübələrinin əks-sədasıdır. Yunqun kəşf etdiyi kollektiv təhtəlşüur

bütün bəşəriyyətə xas olan və hər hansı fərdin əsaslandığı psixi təbəqə və ya mərhələdir.

Yunqun «Metamarfoza və libido rəmzləri» ilk böyük və özünün ən çox bəyəndiyi əsəridir. Burada əks olunan arxetiplər nəzəriyyəsi fəlsəfi psixologiyada yeni bir mərhələ açdı və göstərdi ki, insanın və xalqların qədim kollektiv şüuru mifoloji motivlərlə birgə sonrakı bütün mərhələləri özüylə gətirərək, insanın beynində və hətta genlərində yatıb qalır, psixi xəstələrin, paranoiklərin sayıqlamalarında üzə çıxır. Yunq hardasa bütün anlaşılmaz, mürəkkəb, sirli elmlərin pərdəsini açdı, bütün qədim obraz və rəmzləri oxudu, insanın dünya və fövqəldünyalarla əlaqələrini açdı. Xüsusilə mədəniyyət, din və etik normaların inandırıcı mənşəyini və tarixini yaratdı. Yunq sağlığında əsərlərini öyrənən xüsusi institut yaradan nəhəng elm korifeylərindən biridir. Yunq yaradıcılığının son dövründə üzünü Şərq fəlsəfəsinə tutub Tibet və Çin fəlsəfə kitablarına psixoloji şərhlər yazdı. Hətta kimyagərliyin yeni psixoloji izahını verdi.

Freydizmi yeni dövrdə yeni Freydizm kimi təbliğ edən alman-amerikan filosofu, sosioloqu Erix Fromm (1900– 1980) olmuşdur. Fromm freydizmin sosial tənqidi ilə məşğul olmuşdur. O, faşizmi sosial hadisə kimi tədqiq edən «Adolf Hitler Nekrofilinin klinik hadisəsi» (1978) əsərini və «Azadlıqdan qaçış» (1941), «Məhəbbət sənəti» (1956), «Ümidlər inqilabı» (1968), «Malik olmaq, yaxud mövcud olmaq» (1976) və s. əsərləri ilə məşhur olmuşdur. Frommun diqqət mərkəzində fərdin subyektiv-şəxsi fəaliyyəti kimi yox, ontoloji fakt kimi götürülmüş insanın mövcudluğunun ziddiyyətləri durur. Fromm aşağıdakı dixotomiyaları fərqləndirməyə çalışır: insanların həyatının təşkilinin patriarxal və matriarxal prinsipləri; avtoritar və humanist şüur; xarakterin istismarçı və reseptiv (üzü yola) tipləri; malikolma və varlıq fərdin həyatının iki üsulu kimi və s. Fromma görə, müasir sivilizasiya insanların fərdi, eqoist cəhətləri ucbatından məhv olacaqdır. «Malikolma ehtirası» sinfi münasibətlərə doğru aparır. Kommunistlərin sinfi mübarizəsi

də doğru deyildir. Çünki qeyri-məhdud tələbat prinsipi həyatın məqsədi kimi göstərilir. Hamı daha çox şeyə malik olmağa cəhd edir. Bu isə şübhəsiz siniflərin yaranmasına və onların arasındakı mübarizə isə özlüyündə qlobal miqyasda xalqlar arasında müharibələrə səbəb olacaqdır. «Acgözlük və sülh bir– birini inkar edir». Böyük həyat müəllimləri Budda və Xristos öz sistemlərində mərkəzi yeri ona vermişdilər ki, mülkiyyətə malik olmadan yaşamağı öyrənmək vacibdir.Fromma görə, insan düşünən varlıq kimi bir tərəfdən, azadlığa və müstəqilliyə can atan, digər tərəfdən isə öz təhlükəsizliyi naminə bu azadlıqdan əl çəkməyə, ondan qaçmağa razı olan bir canlıdır. Bu baxımdan Fromm K.Marksla Z.Freydi birləşdirməyə çalışmışdır. Fromma görə, sosial xarakterlərin formalaşmasında başlıca amillərdən biri qorxudur.Qorxu insanı sosial normalara uyğun gəlməyən təhtəlşüur cəhətlərini sıxışdırıb tamam aradan çıxarmağa məcbur edir. Nəticədə insan təcrid olub öz-özünə qapılır. Fromm həkim-psixoanalitik kimi, Freyd isə biologizmindən uzaqlaşıb ekzistensializmə yaxınlaşmışdır.

Onun baxışları Freyddən bir də onunla fərqlənir ki, psixoanalizin banisi dinə «kollektiv nevroz» kimi baxırsa, neofreydist əksinə, dini nevrozun xüsusi bir növü hesab edir.

**Pozitivizm və neopozitivizm** -XIX əsrdə geniş yayılmış fəlsəfi-siyasi cərəyanlardan biri də pozitivizm olmuşdur. Müstəqil fəlsəfi-siyasi istiqamət kimi pozitivizm XX əsrin 30-cu illərində formalaşmışdır.Latınca rositivus sözü olub, mənası müsbət deməkdir. Bu siyasi-fəlsəfi cərəyan Fransada meydana gəlmiş, sonralar İngiltərə, Almaniya və Qərbi Avropanın digər ölkələrinə yayılmış və inkişaf etdirilmişdir. Vaxtilə Rusiyanınmütəfəkkirləri də ona böyük maraq göstərmişlər.Həmin cərəyanların nümayəndələrinin fikrincə, əsas məsələ fəlsəfə ilə elmin qarşılıqlı münasibəti məsələsidir. Onların təsəvvürünə görə, müsbət (pozitiv) bilik ayrı-ayrı xüsusi elmlərin nəticəsində əldə edilə bilər, yaxud da onların sintetik birliyi sayəsində mümkün ola bilər. Ona görə də reallığın

məzmununu tədqiq etməyi iddia edən fəlsəfənin xüsusi elmi fənn kimi mövcud olmaq hüququ yoxdur. Pozitivizm prinsipcə yeni pozitiv fəlsəfənin yaradılması iddiası ilə çıxış edir.Pozitivizmin inkişafında üç mərhələ fərqləndirilir: I mərhələnin nümayəndələri O.Kont,E.Litter, P.Laffit (Fransa),Con Stüart Mill, Herbert Spenser (İngiltərə) olmuşlar. Qnoseologiya-idrakın inkişafının 3 mərhələsi qanunu (Kont), və məntiq problemləri ilə (Mill) yanaşı pozitivistlər sosiologiyaya da mühüm yer vermişlər.II mərhələ-empiriokritisizmin meydana gəlməsi XIX əsrin 70-90-cı illərinə təsadüf edir və obyektiv, real predmetləri hətta formal olaraq qəbul etməyən Max və Avenariusunadları ilə bağlıdır.Maxizmdəidrak problemləri subyektivizmə keçən ifrat psixologizm mövqeyindən şərh olunurdu.

Birinci mərhələ öz banisi fransız filosofu və sosioloqu O.Kontun (1798– 1857) fəlsəfi məktəbi ilə əlaqədar olmaqla XIX əsrin 30-40-cı illərini əhatə edir. Kontun məqsədi əhatəli şəkildə elmlərin təsnifatını yaratmaq olmuşdur. Ona görə biliklərin iyerarxiyası sadədən mürəkkəbə, ibtidaidən aliyə, ümumidən konkretə doğru tarixi inkişafı əks etdirməlidir. Elmlərin ierarxiyası belədir: riyaziyyat-astronomiya, fizika-kimya-biologiya-sosiologya. Pozitivizm fəlsəfəsinin əsasları Kontun “Pozitiv fəlsəfə kursu” adlı altı cildlik böyük əsərində verilmişdir. Kont güman edirdi ki, cəmiyyətdə ikili təkamül qanunu fəaliyyət göstərir. O, bu qanunu intellektual və “texniki” qanun adlandırırdı. Kont yazırdı ki, bəşəriyyət öz əqli inkişafında üç məhələdən keçir: 1. İlahiyyat, 2. Metafizik elm kimi fəlsəfə, 3. Pozitiv mərhələləri. Daha sonra o yazırdı ki, bəşəriyyət öz texniki inkişafında da üç mərhələ ilə rastlaşır: 1. Ənənəvi cəmiyyət, 2. Sənayeyə qədərki, 3. Sənaye mərhələləri. Bunlardan birincisi ilahiyyat, ikincisi metafizika, üçüncüsü isə elm tərəfindən müəyyənləşdirilir. Gördüyümüz kimi, “üç mərhələ”, yaxud”ikili təkamül” qanununda biliklərlə cəmiyyətin sosial-iqtisadi inkişafı arasında qarşılıqlı əlaqəyə dair çox qiymətli ideyalar öz əksini tapmışdır. Pozitivizmin digər bir nümayəndəsi

Con Stüart Mill olmuşdur. Londonda anadan olmuş, ictimai xadim kimi tanınmış, fəlsəfə, məntiq və iqtisadiyyat elmləri ilə məşğul olmuş, David Yumun, Corc Berklinin və Oqyust Kontun ideyalarını davam etdirmişdir. Onun fəlsəfi-siyasi görüşləri "Vilyam Hamilton fəlsəfəsinin icmalı" adlı əsərində şərh edilmişdir. O, pozitivizm mövqelərindən biliyin apriorluğu əleyhinə çıxış edirdi. Mill empirizmin tərəfdarı idi. Pozitivizm fəlsəfi-siyasi cərəyanının digər nümayəndəsi ingilis filosofu və sosioloqu olan Herbert Spenser olmuşdur. Onun fəlsəfi-siyasi görüşləri Yumun, Kantın və Millintəsiri altında formalaşmışdı. Pozitivizm konkret (empirik) elmləri həqiqi, gerçək biliyin yeganə mənbəyi sayır və fəlsəfi tədqiqatın idraki əhəmiyyətini inkar edir, nəzəri spekulyativliyi, biliklər əldə etməyin vasitəsi kimi abstraktlaşdırmanı qəbul etmirdi. Mahiyyətinə görə pozitivizm müəyyən münasibətlərdə ifrat məntiqi nəticələrə gətirib çıxarmış empirisizmdir.

Bu cərəyanın ideyalarına əsasən, cəmiyyətdə baş verən hər hansı bir hadisəni və hər hansı bir insanın hərəkətini onun yaşadığı mühitə baxaraq başa düşmək olar. Misal üçün, pozitivizm cərəyanının ən görkəmli nümayəndələrindən biri olan Emile Durkheim hər kəsə bir individual hərəkət kimi görsənən intihar hadisəsini cəmiyyət tərəfindən təsirləndiyini və ortaya çıxdığını apardığı empirik araşdırmalarla sübut etmişdir, amma təbii ki, bütün intihar hadisələri cəmiyyətin təsirindən baş vermir. Durkheim araşdırmalarının nəticəsində müəyyən etmişdir ki, sosial-iqtisadi və yaxud siyasi böhran keçirən, sosial və ya dini dəyərlərin insanların həyatına ifrat dərəcədə təsir edən, insanın azadlığının nəzərə çarpacaq dərəcədə məhdud olduğu cəmiyyətlərdə intihar hadisələrinin sayı adətən yüksək olur. Durkheimin bu möhtəşəm və müasir dünyamızda da ekspertlər tərəfindən istinad edilən araşdırması sosial-siyasi elmlərin, eləcədə sosiologiya elminin problemləri dərk etmək cəhətdən nə dərəcədə dəyərli elm olduğunu sübut edir.

III mərhələ kimi neopozitivizmin meydana gəlməsi Vyana dərnəyinin (O. Neyrat, R. Karnap, M. Şlik və s.) və Berlin empirik

fəlsəfə cəmiyyətinin (Reyxenbax, F. Krauz və s.) fəaliyyəti ilə bağlıdır ki, bunlar da bir çox cərəyanları - məntiqi atomizmi, məntiqi pozitivizmi, ümumi semantikanı özündə birləşdirmişdir. Bu mərhələnin nümayəndələri simvolik məntiq, elmi tədqiqatın strukturu və s. fəlsəfi problemlərə əsas yer verərək, psixologizmi rədd edir, "elm məntiqinin" riyaziyyatla yaxınlaşdırılması, qnoseoloji problemlərin formallaşdırılması yolu ilə getmişlər.

Deməli, neopozitivizm pozitivizmin inkişafında üçüncü mərhələni (və yaxud formanı) ifadə edir və müxtəlif variantlarda: məntiqi pozitivizm, linqivistik təhlil fəlsəfəsi və yaxud linqivistik fəlsəfə kimi təqdim olunur. Maraqlıdır ki, neopozitivizmin tarixi nitqin müxtəlif təhlil üsullarının bir-birini əvəz etməsi tarixidir. Bu üsullar məntiqdən semantikaya, ondan da linqivistik təhlilə doğru gedir. Məlum olduğu kimi, neopozitivistləri maksimum proqram, başqa sözlə desək, süni formalaşdırılmış nitqin əsasında mütləq formalaşdırılmış biliyə nail olmaq cəhdi birləşdirir. Bu zaman onlar elmin metodoloji problemləri üzərində inhisarçı hüququnu iddia edirlər ki, bu da öz növbəsində, idrakın bəzi cəhətlərini mütləqləşdirməyə aparıb çıxarır. Lakin neopozitivistlər idrakı bütöv hadisə kimi ona daxilən xas olan ziddiyyətləri, çətinlikləri, nitqin formalaşdırılması gedişində yaranan digər problemləri ilə birlikdə əhatə etmək qüdrətinə malik deyillər. Ancaq neopozitivizmin uğurları da qeyd edilməlidir. Bunlar böyük metodoloji yükə malik olan biliyin xüsusi sahələrinin işlənib hazırlanması, xüsusilə riyazi məntiq, semiotika, informasiyanın semantik nəzəriyyəsi və s.-dir. Bununla yanaşı, qeyd etmək lazıdır ki, onların idrakı tədqiqatların xüsusi metodlarına ümumi, universal fəlsəfi metodologiya xassəsi vermək cəhdi müvəffəqiyyət qazandırmamışdır. Onların məqsədi təsirli metodologiya yaratmaq və bu zaman oradan fəlsəfi mənada materiya anlayışını çıxarmaq cəhdi də mühüm xüsusiyyətlər sırasına daxildir. Buraya fəlsəfədən reallıq, elmin anlayışlarının təbiəti haqqında «metafizika» məsələlərini çıxarmaq çağırışlarını da aid edə bilərik. Nəticədə neopozitivist terminlər sırf subyektivist

çalarlar əldə edir. Onlar hər hansı hadisə haqqında həqiqi bilik almaq imkanını rədd edirlər.

Neopozitivistərə görə, fəlsəfənin əsas məsələsi elm dilinin məntiqi təhlilindən ibarətdir. Bu təhlilin vasitəsi kimi onlar riyazi məntiq və aksiomatik metoddan istifadə etməyi təklif edirlər. Elmə münasibətdə fəlsəfə bu və ya digər konkret elmi nəzəriyyələri təhlil etmək deyil, nəzəriyyə dilinin (hazır biliyin məcmusunu) məntiqi təhlilini yerinə yetirməlidir. Məlum olduğu kimi, hər bir elmi nəzəriyyə qeyri- mükəmməl konstruksiya olduğundan onu müvafiq hipotetik-deduktiv modellə əvəz etmək lazıdır. Bu nöqteyi-nəzər digər ifratçılığa, elmi nəzəriyyənin aksiomatlaşdırılması metodunun mütləqləşdirilməsinə aparıb çıxarır.

Məntiqi neopozitivizmin əsasları Vyana dərnəyində XX əsrin 30-cu illərində işlənib hazırlanmışdır. Bu dərnəyə tanınmış alim və filosoflar M.Şlik, H.Qan, F.Veysman, H.Feyqel, K.Gedel, A.D.Ayer, K.Karnap və başqaları daxil idi.Linqivistik təhlil fəlsəfəsinin formalaşmasına Lüdviq Vitgenşteynin (1889–1951) yaradıcılığı mühüm təsir göstərmişdir.

Bu böyük məntiqçi və filosof bir sıra problemlərə toxunsa da, ən çox nitqin məntiqi məsələləri ilə məşğul olmuşdur. Linqivistik fəlsəfənin məqsədi kəşf deyil, aydınlaşdırma, həqiqət deyil, əhəmiyyətdir. L.Vitgenşteynin sözləri ilə desək, «fəlsəfə hər şeyi olduğu kimi saxlayır».

Neopozitivizm idrak prosesində yaranan bir çox çətinlikləri aşkara çıxartdı və müəyyən tarixi mərhələlərdə onların həll edilməsinə kömək etdi. Lakin elm daim inkişafdadır və yeni-yeni metodoloji problemlər doğurmağa qadirdir.

**Personalizm** - Personalizm (latınca şəxsiyyət sözündəndir) müasir fəlsəfədə teistik istiqamətdir. Adından göründüyü kimi, burada şəxsiyyət ilkin yaradıcı reallıq və ali mənəvi sərvət hesab olunur. Şəxsiyyətin yaşadığı və fəaliyyət göstərdiyi dünya Ali şəxsiyyət-Allah yaradıcılıq fəallığının təzahürüdür.

Personalizmin formalaşması XIX əsrin sonunda Rusiya və ABŞ-da başlamışdır. Personalist fəlsəfənin əsas prinsipləri N.A.Berdyayev və L.Şestov tərəfindən formulə edilmişdir. Sonralar isə həmin ideyalar N.O.Losskinin, S.N.Bulqakovun, A.Belinin, Vyaçeslav İvanovun yaradıcılığında öz əksini tapmışdır. Personalizmin Fransada yayılması həmin cərəyanın inkişafında xüsusi mərhələni təşkil edir. Onun ən böyük nümayəndəsi Emmanuel Munyedir (1905-1950). İdealist monizm prinsipinə və Hegelin panlogizminə qarşı olaraq personalizm çoxluq ideyasını irəli sürür. Personalizm tərəfdarları çoxlu mövcudluqlar, şüur, iradə və şəxsiyyətlər haqqında danışırlar. Əqlə qarşı intuisiya durur. Dünyanı Ali person-Allah yaratmışdır və ona inkişaf etmək qabiliyyəti vermişdir.

İdrak sahəsində personalizm ənənəvi fəlsəfənin idrak subyektinin– insanın konkret təzahürləri ilə tam şəkildə antropoloji ümumiliyi ilə əvəz olunması zərurətindən çıxış etmişdir. Eləcə də subyektin fəal rolu qeyd olunur. Çünki yalnız yeganə fərdi təkrarolunmaz insan dərk edir.

Ontoloji planda şəxsiyyət fundamental kateqoriyaya çevrilir, yalnız onun vasitəsilə əsas təzahür mümkündür. Burada iradi fəallıq mövcudluğun fasiləsizliyi ilə çulğaşır. Şəxsiyyət öz təcrübəsi ilə yeganə reallığı təşkil edir. Lakin şəxsiyyətin mənbəyi özündə deyil, allahdadır. Elm bu vəziyyətdə dünyanın zənginlik və müxtəlifliyinə nail olmağa qadir deyildir. Elmdə insan həyatının düzgün yolunu göstərə biləcək etibarlı oriyentirlər tapmaq mümkün deyildir. Bu vəzifəni yalnız dini fəlsəfə yerinə yetirə bilər. Personalizm təlimində şəxsiyyət haqqında çoxlu maraqlı və müsbət momentlər vardır. Xüsusilə fərd və şəxsiyyət anlayışlarının fərqləndirilməsi cəhdi maraq doğurur. Bu təlimin səciyyəvi cəhətlərindən biri də iradə azadlığı haqqında ideyanın əsaslandırılmasıdır. Hələ ekzistensialistlərin əsərləri yayılmamışdan əvvəl cəmiyyət və şəxsiyyətin prinsipial düşmənçiliyi haqqında fikirlər personalizmdə mövcud idi.

XX əsrin birinci yarısında personalizm yeni prinsiplərlə inkişafa qədəm qoymuşdur. Fransız personalizminin banisi E.Munye marksizm və ekzistenisalizmin təsirini qeyd etmişdir. 1946-cı ildə çapdan çıxan «Personalizm nədir?» əsərində o yazırdı: «Biz maddi zərurətə və kollektivçilik sisteminə münasibətində insan şəxsiyyətinin birinciliyini təsdiq edən hər cür təlimi və hər cür sivilizasiyanı personalist təlim adlandırırıq». Qarşısına bitkin fəlsəfi təlim yaratmaq məqsədi qoymayan E.Munye şəxsi mövcudluq probleminin işlənməsinin məhsuldar üsullarını axtarmağa cəhd etmişdir. Bir sözlə, başqa XX əsr fəlsəfi-siyasi cərəyanları kimi, şəxsiyyət problemi personalizmin əsas tədqiqat problemi olmuşdur.

## 4.Azərbaycanda siyasi fikrin meydanagəlməsi və inkişafı

Azərbaycan xalqı qədim mədəniyyətə, ictimai siyasi fikrə malik xalqdır.Qədim Azərbaycan sosial-fəlsəfi və sosial-siyasi fikirləri özündə əks etdirən "Avesta" kitabı dünya incilərindən biri hesab olunur. Bu kitabın yaradıcısı Zərdüşt idi. "Avesta" sözünün mənası bu günə qədər hələ də aşkarlanmamışdır.Həmin anlayışların tərcümələrindən birinə, xüsusilə "əsas mətn" kimi tərcümə edilənə daha çox üstünlük verilir. Çünki bu müqəddəs kitab tam şəklində deyil, məcmuə şəklində bizə gəlib çatmışdır. İlk dövrlərdə şifahi şəkildə yayılan "Avesta" kitabı sonralar Zərdüştün katibi və kürəkəni Camasp tərəfindən yazıya alınmışdır. Tədqiqatçıların fikrincə bu böyük abidə ilk dəfə Əhəmənilər dövründə (b.e.ə.VI əsrin axırı-b.e.ə.V əsrin əvvəli),sonuncu dəfə isə Sasanilərin hakimiyyəti zamanında (III-VII əsrlərdə) sistemləşdirilərək yazıya alınmışdır. Tədqiqatçıların fikrincə Arşakidlər dövründə (b.e.ə. 250 -b.e.ə.224-cü illər)"Avesta"nın məhv edilmiş hissələrinin bərpasına, müəyyən parçaların toplanmasına, yenimateriallarla tamamlanmasına başlanmışdı.Bu proses Sasanilər dövründə başa çatmışdır.

“Avesta” 21 hissədən ibarətdir. Onun ayrı-ayrı bölmələri Azərbaycan ictimai, bədii fəlsəfi, sosial və siyasi fikrinin ilkin qaynaqları hesab olunur. Atəşpərəstliyin-Zərdüştlüyün rəsmi kitabı olan “Avesta” bizim eranın VII əsrinə qədər formalaşaraq rəsmi dövlət dini statusunu qazanmışdır. “Avesta”da ümiyyətlə irəli sürülən üç əsas əxlaqi şüar vardır. Bunlar xeyir fikir, xeyir söz, xeyir əməldir. Bu üç tələb Zərdüşt dininin əsasıdır. “Avesta” 12 min inək dərisi üzərində qızıl hərflərlə yazılıb xəzinədə saxlanmışdır. Makedoniyalı İskəndər tərəfindən “Avesta”nın tibbi, fəlsəfi, astroloji hissələri yunan dilinə tərcümə edilmiş və özü isə yandırılmışdır. “Avesta” özü üç yerə bölünür.Birinci kitab Vəndidad adlanır.Burada əsas yeri xeyir allahı Hörmüzlə Zərdüştün dialoqu tutur. İkinci kitab Vispered adlanır. Hər şeyi dərk etmək mənasını verən bu kitabda ailə-əxlaq məsələlərinə, insanların mənəvi təmizliyinə aid fikirlər öz əksini tapır. Üçüncü kitab Yəsna adlanır. Dua etmə, sitayiş etmə, ritual tapınma mənalarını verən Yəsnada o dövrün siyasi, ictimai fəlsəfi və dini-əxlaqi fikirləri geniş şərh olunur. Bu əxlaq məcmuəsi təxminən üç min il bundan əvvəl Azərbaycan və yaxın Şərqin həyatında başverən böük ideoloji dəyişikliyin, böyük ideya vuruşlarının əks-sədasıdır. Qədim Azərbaycanda Zərdüştliklə yanaşı Məzdəizm, Zarvanizm və Maniheyçilik kimi dini-fəlsəfi və siyasi fikirləri özündə əks etdirən cərəyanlar olmuşdur.İlkin feodalizm dövründə geniş yayılan maniheyçilik dininin yaradıcısı həkim, həqqaş, rəssam, filosofvə mühəndis kimi böyük şöhrət qazanan Mani idi. O, öz təlimini 40 il təbliğ etmiş və Zərdüştülük kahinlərinin fitvası ilə edam edilmişdir. Zərdüştülüyə müxalif cərəyanlardan biri də Məzdəkizm olmuşdur. Sasani hökmdarı I Qubadın zamanında Məzdək və onun tərəfdarları yüksək dövlət vəzifələri tutmuş, özü isə İranın baş kahini olmuşdur. Məzdəkilər bərabərliyi və ictimai ədaləti tərənnüm edirdilər. Məzdəkilik Xürrəmilik təliminə böyük təsir göstərmişdir. Orta əsrlərdə Azərbaycanda ərəb xilafətinə qarşı milli-azadlıq mübarizəsi geniş vüsət almışdır. Məlum olduğu kimi 636-cı ildə ərəblərin

Sasanilər üzərində qələbəsindən sonra nəinki İran eləcədə bütün Azərbaycan torpaqları tez bir zaman ərzində işğal olundu.Ərəb xilafətinin ucqar kaloniyası olan Azərbaycanda yadelli işğalçılara qarşı milli-azadlıq mübarizəsi güclənməkdə idi. IX əsrin əvvəllərində bu siyasi mübarizə genişlənərək Xürrəmilər hərəkatı adını almışdır. Bu hərəkata əvvəlcə mərkəzi hakimiyyətdən narazı yerli feodal Cavidan başçılıq edirdi. Cavidanın ölümündən sonra Xürrəmilər hərəkatına Azərbaycan xalqının qəhrəman övladı Babək başçılıq etmişdir.Xürrəmilərin ictimai-siyasi görüşlərinə ədalət-sizliyə qarşı mübarizə, sosial rifah və Azərbaycan torpaqlarının yadelli işğalçılardan azad olunması aid idi. Məlum Həmədan döyüşündən sonra Xürrəmilər hərəkatı məğlubiyyətə uğradı. Milli-azadlıq hərəkatının rəhbəri Babək xəyanət nəticəsində tutularaq edam edildi. Bu milli-azadlıq mübarizəsi məğlub olsa belə ərəb xilafətini kökündən sarsıtmışdı.Mərkəzi hakimiyyətin zəifliyindən istifadə edən bir çox feodallar öz müstəqilliklərini elan edirdilər.Həmin dövrdə Azərbaycan torpaqlarında Rəvvadilər, Sacilər, Salarilər, Şəddadilər, Şirvanşahlar və s. feodal dövlətləri meydana gəlmişdir.Azərbaycan xalqının siyasi mübarizəsi və birliyi nəticəsində XV əsrin sonu XVI əsrin əvvəllərində mərkəzləşmiş Azərbaycan dövlətinin yaradılması ideyası irəli sürülmüş, çox keçmədənŞah İsmayıl Xətai tərəfindən bu ideya gerçəkliyə çevrilmiş və Azərbaycan Səfəvilər dövləti yaranmışdır.1736-cı ildə Nadir Şah Əfşarın hakimiyyətə gəlməsi ilə Səfəvilər sülaləsi süqut etmiş və Səfəvi dövləti İran dövlətinə çevrilmişdi.Nadir Şah Əfşarın sui-qəsd nəticəsində öldürülməsi İran dövlətinin parçalanmasına gətirib çıxardı. Bu dövrdə Azərbaycan ərazilərində Şirvanşahlar, Quba, Bakı, Dərbənd, Şəki, Gəncə, Qarabağ, Naxçıvan, İrəvan, Talış, Təbriz, Urmiya, Qaradağ, Maku və s. xanlıqlar meydana gəldi. Həmin dövrdə vahid Azərbaycan dövlətinin yaradılmasına cəhdlər olsa da xanlıqlar arasında olan siyasi çəkişmə buna imkan vermədi.Azərbaycan torpaqları, eləcədə Qafqaz uğrunda aparılan Türkiyə, İran və Rusiya imperiyaları arasındakı siyasi mübarizə

Rusiyanın xeyrinə oldu.Tarixdən məlum olduğu kimi Gülüstan və Türkmənçay sülh müqavilələri ilə vahid Azərbaycan torpaqları iki imperiya-İran və Rusiya imperiyaları arasında bölüşdürüldü.Şimali Azərbaycan Rus şovinizminin Cənubi Azərbaycan isə fars şovinizminin əsarəti altına düşdü.Çar Rusiyasının ucqar müstəmləkəsi olan Şimali Azərbaycanda XIX əsrin ortalarından başlayaraq cəmiyyət həyatının bütün sahələrində sürətli dəyişikliklər baş verdi.Bu dövrdə elmə, maarifə, incəsənətə, ana dilində təhsilə maraq artdı.Bütün bunlar xalqın milli oyanışına, milli dirçəlişinə səbəb oldu.Bu dövrdə Azərbaycana Rusiya vasitəsilə, rus mədəniyyəti tərkibində Qərbi Avropada təşəkkül tapan maarifçilik cərəyanı gəldi.Həmin dövrdə maarifçilik cərəyanının təsirilə Azərbaycanda çoxlu sayda tədris ocaqları ana dilində məktəb, milli teatr, milli mətbuat yarandı.XIX əsrdə Azərbaycanda sosial-siyasi ideyaların inkişafında A.Bakıxanovun, M.F.Axundovun, H.Zərdabinin, M.Ş.Vazehin, M.A.Şahtaxtlının, Ə.Sabirin, Ö.F.Nemanzadənin və İ.Qutqaşınlının xüsusi xidmətləri olmuşdur.Beləliklə, XIX-XX əsrlərin Azərbaycan maarifçi mütəfəkkirlərindən S.Ə.Şirvanini, A.Bakıxanovu, M.F.Axundovu, H.Zərdabini, Ö.F.Nemanzadəni, M.A.Şahtaxtlını, Ə.Sabiri, Ə.Haqverdiyevi, Ü.Hacıbəylini, A.Səh- həti, Ə.Hüseynzadəni, Ə.Ağaoğlunu, C.Məmmədquluzadəni, M.Ş.Vazehi, N.Vəzirovu, A.Şaiqi və digər maarifçi ziyalılarımızı göstərə bilərik.

XX əsrin əvvəllərində Azərbaycanda bir çox mətbu orqanları-“Şərqi Rus”, “Dəvəti-Qoç”, “Açıq Söz”, “Azərbaycan”, “Fiyuzat”, “Molla Nəsrəddin” və s. qəzet və jurnallar çap olunurdu.Əsrin əvvəllərində Azərbaycanda islamçılıq, türkçülük və sosial demokrat ideyaları geniş yayılmışdır.Bu dövrdə Azərbaycanda Qərbi Avropa dövlətlərində yaranıb inkişaf edən siyasi partiyalar gec də olsa yaranmağa başladı.Sosial demokrat (Hümmət), Difai, Müdafiə, İttihad, Müsavat, və s. partiyalar bu qəbildəndir. XIX əsr Azərbaycan mütəfəkkirlərinin ideya-siyasi mübarizəsini davam etdirən qabaqcıl ziyalılarımız XX əsrin əvvəllərində bu siyasi

mübarizəni daha da gücləndirdilər. XX əsrin əvvəllərində Ə.Sabirin, Ə.Haqverdiyevin, A.Şaiqin, A.Səhhətin, Ə.Ağaoğlunun, Ə.Hüseynzadənin, Ü.Hacıbəylinin, F.Xoyskinin, Ə.Topçubaşovun, C.Məmmədquluzadənin, Ə.Cavadın, N.Nəri- manovun, M.Ə.Rəsulzadənin və başqalarının çar Rusiyasına qarşı apardıqları siyasi mübarizə nəticəsində Azərbaycan Xalq Cumhuriyyətinin yaradılmasını tarixi zərurətə çevirdi.

1914-cü ilin yayında I Dünya müharibəsi başladı. Müharibənin gedişatında Rusiyada iki inqilab baş verdi.Məlum olduğu kimi, Çar Rusiyasında 1917-ci ildə baş verən fevral burjua və oktyabr sosialist inqilabları nəticəsində xalqlar həbsxanası olan Rusiya imperiyası süqut etdi.Rusiya imperiyasında müstəmləkə zülmündən cana doyan xalqların istiqlaliyyət və milli-azadlıq uğrunda mübarizəyə qalxmaları imperiyanın dağılmasını sürətləndirdi və ölkədə heç bir zaman olmayan demokratiyanın həyata keçrilməsinə imkan yaratdı.Eyni zamanda azad fəaliyyət üçün bütün siyasi partiyalara sərbəstlik verilmişdi.1917-ci il mart ayının 3-də Bakı şəhər dumasının həyətində və neft sənayeçiləri qurultayı şurasının binasında keçirilən mitinqlərdə Müvəqqəti hökumətə etimad göstərilməsi haqqında qərar qəbul edilmişdir.1917-ci ilin mart ayının 9-da Qafqaz canişliyi ləğv olunmuş onun yerində xüsusi Zaqafqaziya Komitəsi yaradıldı.1917-ci ilin mart ayının 29-da Azərbaycanda milli hərəkata vahid rəhbərlik etmək məqsədilə siyasi xadimlər və ziyalılar tərəfindən Bakıda demokratik əsaslarda “Müsəlman Milli Şurası” yaradıldı. Milli hərəkatla bağlı bütün tədbirlər demək olar ki, Şura tərəfindən hazırlandı və onun Azərbaycanın bütün şəhər və qəzalarında şöbələri fəaliyyət göstərirdi.Qeyd edək ki, 1911-ci ilin oktyabr ayının 11-də M.Ə.Rəsulzadənin göstərişi və tövsiyəsi ilə keçmiş hümmətçilərdənMəhəmmədəli Rəsulzadə (M.Ə.Rəsulzadənin əmisi oğlu), Abbasqulu Kazımzadə və Nağı Nağıyev tərəfindən gizli fəaliyyət göstərən “Müsəlman Demokrat Müsavat Partiyası” nın əsası qoyulmuşdu. Bu partiya 1917-ci ilin iyun ayının ikinci

yarısında Gəncədə yaradılmış "Türk Ədəmi Mərkəziyyət" partiyası ilə birləşib, "Türk Ədəmi Mərkəziyyət Müsavat " partiyası adını almışdı.Ərəbcə "Müsəva" sözündən götürülən, bərabərlik anlamını ifadə edən Müsavat partiyası Azərbaycan xalqının milli-azadlıq mübarizəsində aparıcı partiya olmuşdur.1917-ci ilin noyabr ayının 14-də Xüsusi ZaqafqaziyaKomitəsi əvəzinə Müstəqil Zaqafqaziya Komissarlığı yaradıldı.Müstəqil Zaqafqaziya hökumətinə Azərbaycandan M.Y.Cəfərov, F.Xoyski, X.Xasməmmədov daxil oldular və ona gürcü menşeviki E.P.Kegeçkori başçılıq edirdi.Müstəqil Zaqafqaziya Komissarlığının yaradılması Zaqafqaziyanın Rusiyadan ayrılması yolunda ilk addım oldu.Lakin əsassız olaraq bolşevik hökuməti Zaqafqaziyaya ayrılmaz hissə kimi baxırdı.Sovet Rusiyasının bu mövqeyi milli qüvvələr tərəfindən dövlət unitarizminin təzahürü kimi qiymətləndirildi və eyni zamanda bu cür hallar Zaqafqaziyada ictimai-siyasi vəziyyəti xeyli gərginləşdirdi.Müstəqil Zaqafqaziya Komissarlığı belə olan təqdirdə milli gürcü, erməni və Azərbaycan hərbi hissələrinin təşkilini gücləndirdi.Sovet Rusiyası hökuməti Azərbaycan xalqına müstəqillik vermədi, əksinə onun ərazisinin bir hissəsini-neftlə zəngin edən Bakı rayonunu faktiki olaraq, ondan qoparıb aldı.Siyasi vəziyyətin bu cür dəyişməsi Müstəqil Azərbaycan dövləti yaratmaq ideyasını milli-demokratik hərəkatda ön plana keçirmişdi.1918-ci ilin yanvar ayının 6-da Ümumrusiya Müəssislər Məclisi Sovet hökuməti tərəfindən qovulduqdan sonra, Müəssislər Məclisinə Zaqafqaziyadan seçilmiş nümayəndələr yanvar ayının 23-də Tiflisdə toplaşaraq özlərinin qanunverici orqanını, Zaqafqaziya Seymini yaratdılar.Seymdə erməni, gürcülərlə bərabər M.Ə.Rəsulzadənin başçılıq etdiyi 44 nəfərdən ibarət Azərbaycan nümayəndə heyəti də təmsil olunurdu.Seymin gürcü,erməni və Azərbaycan millətinin hərəsindən bir nümayəndə olmaqla, üç nəfərdən ibarət rəhbərliyi yaradılmışdı və ona gürcü menşeviki A.Çxenkeli sədrlik edirdi.1918-ci ilin mart ayının 29-da bolşeviklər daşnaklarla birlikdə silahlı qüvvə ilə Azərbaycan hərbi hissələrini

tərkisilah etdilər.Mart ayının 30-da isə misli görün- məmiş milli faciə-mart qırğını başladı.Bakı və onun ətrafında hakimiyyəti ələ alan Bakı Soveti və ona başçılıq edən S.Şaumyan mart ayının 31-də şəhərin müsəlman əhalisinə qarşı amansız üsula əl atmış və nəticədə 30 minə yaxın azərbaycanlı şəhid edilmişdi.

1918-ci ilin aprel ayının 22-də Zaqafqaziya Seymi Müstəqil Zaqafqaziya DemokratikFederativ Respublikasının yaradılmasını elan etdi və bu üç respublika federasiya tərkibində müstəqil respublikalar idi.Seymin daxilindəki milli zəmində baş verən ixtilaflar və siyasi çəkişmələr Zaqafqaziya Federativ Respublikasını son dərəcə zəiflətmişdi.Almanların Gürcüstanı, türklərin isə Ermənistanı tutmaları Seymin dağılmsına gətirib çıxartdı.Nəhayət 1918-ci il may ayının 26-da Gürcüstanın öz müstəqilliyini elan etməsi ilə Seym dağıldı.May ayının 27-si axşam Tiflisdə keçmiş Seymin müsəlman nümayəndələrinin fövqəladə yığıncağı toplandı və müsəlman fraksiyası özünü Azərbaycan Milli Şurası elan etdi.M.Ə.Rəsulzadə Milli Şuranın sədri, Milli Şuranın İcrayə Komitəsinin sədri isə F.X.Xoyski seçildilər.Azərbaycan Xalq Cumhuiyyətinin yaranması Azərbaycan xalqının milli dövlətçilik və milli özünü dərkinin inkişafı tarixində misilsiz bir hadisə idi. 1918-ci ilin iyun ayının 4-də Azərbaycan Xalq Cümhuiyyəti ilə Osmanlı imperiyası arasında həyati əhəmiyyətli siyasi müqavilə - Sülh və Dostluq müqaviəsi imzalandı.1918-ci ilin iyun ayının16-da Bakının işğal altında olmasına görə, Azərbaycan Milli Şurası və hökuməti Tiflisdən Gəncəyə köçdü və bu şəhər müvəqqəti olaraq Azərbaycan Xalq Cümhuiyyətinin paytaxtı elan edildi.Osmanlı İmperiyası ilə bağlanan siyasi müqavilə Azərbaycan hökumətinin siyasi nüfuzuna müsbət təsir göstərməklə yanaşı, Azərbaycan xalqının öz mövculuğunu qoruyub saxlamaq üçün zəruri addım idi. Bu müqavilə o, demək idi ki, Qarabağın dağlıq hissəsində azğınlıq edən erməni quldur dəstələri tezliklə ləğv olunacaq və Bakı şəhəri xarici düşmənlərdən təmizlənərək Azərbaycanın paytaxtına çevriləcəkdi.Türk qoşunlarının Gəncə istiqamətində hərəkəti Sovet

Rusiyasında və öz hakimiyyətini bütün Azərbaycana yaymaq arzusunda olan Bakı Xalq Komissarları Sovetində ciddi narahatlığa səbəb oldu.

1918-ci ilin iyun ayının 27-dən iyul ayının 1-dək davam edən Göyçay ətrafında şiddətli döyüşlərdən sonra Qafqaz İslam Ordusu tərəfindən məğlub edilən Bakı Xalq Komissarları Soveti iyulun31-də süqut etdi.1918-ci ilin sentyabr ayının 15-də Bakı Sovetindən sonra hakimiyyəti ələ alan Sentrokaspi diktaturası da süqut etmiş və Bakı şəhəri Sentrokaspi və Bakı Soveti tör-töküntüsündən azad edilərəkAzərbaycan Xalq Cümhuiyyətinin paytaxtına çevrildi.Noyabr ayının 9-da özündə islamçılığı, türkçülüyü, müasirliyi tərənnüm edən üç rəngli Azərbaycan bayrağı rəsmi dövlət bayrağı kimi qəbul edildi.Osmanlı imperiyasının Antanta dövlətləri ilə imzaladığı Mudros sülh müqaviləsinin şərtlərinə görə türk qoşunları Azərbaycanı tərk etdilər və onların yerinə ingilis qüvvələri gətirildi.1919-cu ilin avqustunda ingilislər də Azərbaycanı tərk etdilər və beləliklə, Azərbaycan tam müstəqil dövlətə çevrildi.

Beləliklə, nəticə etibarilə 28 may 1918-ci ildə müstəqilliyini elan etmiş gənc Azərbaycan Xalq Cümhuriyyəti xarici siyasət məsələlərinə xüsusi diqqət yetirirdi. İstiqlaliyyətin qorunub saxlanması daxildən daha çox, xarici amillərlə də bağlı idi. I Dünya müharibəsinin getdiyi mürəkkəb beynəlxalq şəraitdə iştirakçı ölkələrin Qafqaz və onun zəngin guşələrindən olan Azərbaycan uğrunda hərbi əməliyyatların genişləndiyi dövrdə Azərbaycanın dövlət müstəqilliyinin qorunması onun uğrunda mübarizələrdə yetişmiş siyasətçilərdən və dövlət xadimlərindən hər an dəyişən vəziyyətə uyğun çevik siyasi manevretmə bacarığı tələb edirdi. Azərbaycan diplomatiyasının bu çətin vəzifənin öhdəsindən gəlməsi üçün 1918-1920-ci illər dövründə təşkil olunmuş müxtəlif hökumət kabinetlərində Xarici İşlər Nazirliyininmöhkəmləndirilməsi və təşkilati strukturunun təkmilləşdirilməsinə böyük diqqət yetirilirdi. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasət

idarəsinə müxtəlif vaxtlarda dovrünün ziyalıları, dünya siyasətinin sirlərinə bələd olan, çevik diplomatik bacarığa malik Fətəli Xan Xoyski, Məmməd Həsən Hacınski, Məmməd Yusif Cəfərov, Adil xan Ziyadxanlı başçılıq etmişdilər. Azərbaycan diplomatiyasının hazırlanmasında və həyata keçirilməsində Ə.M.Topçubaşov, M.Ə.Rəsulzadə, Ə.Ağayev, N.Yusifbəyli, Ə.Şeyxülislamov, Ceyhun Hacıbəyli, M.Y.Mehdiyev, M.Məhərrəmov, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli və digərləri yaxından iştirak etmişlər.

Milliyyətindən və dini etiqadından asılı olmayaraq qonşu dövlətlərlə mehriban münasibətlər Azərbaycan diplomatiyasının aparıcı istiqaməti olub, onun çıxış nöqtəsini təşkil edirdi. Böyük dünya siyasəti baxımından Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətini üç dövrə bölmək olar: Türkiyə oriyentasiyası dövrü (1918-ci il may-oktyabr); Qərb oriyentasiyası dövrü (1918-ci il noyabr-1920-ci il yanvar); geniş və hərtərəfli dünya əməkdaşlığına daxil olmaq uğrunda mübarizə dövrü (1920-ci il yanvar-aprel).

XX əsrin əvvəllərindən Azərbaycanda genişlənən milli-azadlıq mübarizəsində onun öncülləri Osmanlı dövlətinə boyük ümid bəsləyirdilər. Əsrin əvvəllərindəki təlatümlü hadisələr Azərbaycanın türk-müsəlman əhalisinin həyatında milliyyətçilik ideyasının geniş yayılmasına və inkişafına ciddi təkan verdi.

Osmanlı dövlətilə münasibətlər Balkan müharibələri dövründə Rusiyada anti türk əhvali-ruhiyyəsinin qızışdırılması bir tərəfdən Qafqaz müsəlmanlarını ondan narazı saldı, digər tərəfdən isə Azərbaycan xalqında Osmanlı dövlətinə qarşı təbii meyli gücləndirdi. Bu dövrdə milliyyətçi qüvvələrin yaydığı bəyannamədə göstərilirdi: "Biliniz və agah olunuz ki, bizim yeganə çareyi-nicatımız Türkiyənin istiqlalı və onun tərəqqisidir".

I Dünya müharibəsinin son mərhələsindəAzərbaycanmillətinin müstəqillik arzusu Türkiyənin Qafqaz siyasəti ilə çarpazlaşdığından tərəflər arasında bir-birinə olan təbii meyil onların sosial-

siyasi, hərbi-iqtisadi əməkdaşlığında maddiləşməklə yeni mərhələyə daxil oldu.

Bu yeni mərhələnin səciyyəvi cəhəti ondan ibarət idiki, azərbaycanlıların Osmanlı dövlətinə söykənməsi milli idealla yanaşı, xeyli dərəcədə millətin fiziki varlığının hifz edilməsi zərurətindən irəli gəlirdi.

1918-ci ilin əvvəllərində Trabzon və Batum danışıqları Zaqafqaziya Seyminə daxil olan xalqların Türkiyəyə münasibətində köklü fikir ayrılıqlarını üzə çıxartdı. Trabzon danışıqları dayandırıldıqdan sonra Batuma səfər edən Ənvər Paşa Trabzonda Zaqafqaziya hökumətinin dağılacağı təqdirdə Türkiyə ilə geniş sərhədləri olan müstəqil Azərbaycan dövlətinin yaradılmasına tərəfdar olduğunu və bu dövlətin Türkiyə tərəfindən müdafiə ediləcəyini bildirdi.1918-ci il mayın 28-dəAzərbaycan Xalq Cümhuriyyətinin yaranmasından sonraAzərbaycan-Türkiyə münasibətləri yeni mərhələyə - dövlətlərarası münasibətlər mərhələsinə daxil oldu.

Bu mərhələdə Azərbaycan-Türkiyə münasibətlərinin hüquqi əsasını 4 iyunda imzalanmış Batum müqaviləsi təşkil edirdi. Müqavilədə göstərilirdi: "Bir tərəfdən, Osmanlı imperator hökuməti, digər tərəfdən isə müstəqilliyin elan etmiş Azərbaycan Xalq Cümhuriyyəti hökuməti öz ölkələri arasında siyasi, hüquqi, iqtisadi və intellektual zəmində mehriban dostluq münasibətləri bərqərar etməklə qarşılıqlı surətdə razılığa gəlirlər"· 4 iyun müqaviləsi və iyunun ortalarında imzalanan çoxtərəfli sazişlər Azərbaycan-Türkiyə münasibətlərinin bütün sahələrini əhatə edən ilk dövlətlərarası sənədlər idi. Hələ Batumda olan Məmməd Əmin Rəsulzadə və M.H.Hacınski xarici hərbi müdaxiləyə son qoymaq və daxili asayişi qorumaq məqsədilə 4 iyun müqaviləsi əsasında hərbi yardım göstərilməsi barədə Türkiyəyə müraciət etdilər. Həmin müraciəti qəbul edən Osmanlı dövləti elə etmək istəyirdi ki, Azərbaycana ordu göndərilməsi Cənubi Qafqazda möhkəmlənməyə çalışan Almaniyanın etirazına səbəb olmasın. Ona görə qarşılıqlı razılıq əsasında osmanlı

hərbi hissələri və Azərbaycan könüllülərindən ibarət Qafqaz İslam Ordusu yaradıldı.

Azərbaycan-Türkiyə münasibətlərinin genişlənib dərinləşməsində 1918-ci ildə keçirilməsi nəzərdə tutulan İstanbul konfransına M.Ə.Rəsulzadə, X.Xasməmmədov və A.Səfikürdskidən ibarət nümayəndə heyəti göndərilməsinin böyük əhəmiyyəti oldu. Nümayəndə heyətinə bu beynəlxalq konfransa dəvət edilmiş Osmanlı, Almaniya, Avstriya-Macarıstan, Bolqarıstan, Gürcüstan, Ermənistan və Dağlılar dövlətlərinin nümayəndələri ilə siyasi, iqtisadi, maliyyə və hərbi məsələlərlə bağlı danışıqlar aparmaq və müqavilələr bağlamaq səlahiyyəti verilmişdi. Nəzərdə tutulan beynəlxalq konfrans keçirilməsə də, Azərbaycan nümayəndələrinin İstanbul missiyası çox faydalı oldu. İyun ayının axırlarından oktyabrın axırlarına qədər Azərbaycan, Osmanlı və digər dövlətlərin İstanbulda olan nümayəndələri səmərəli danışıqlar apardılar.

1918- ci ilin sentyabın 6-da isə Azərbaycan nümayəndələri Osmanlı Sultanı Mehmet Rəşadın vəfatından sonra taxta əyləşmiş Sultan VI Mehmet Vahideddin tərəfindən qəbul edildi. Həmin gün Sultan taxta çıxması münasibətilə İstanbulda olan diplomatik nümayəndələr üçün təntənəli rəsmi qəbul (audiensiya) mərasimi düzəltmişdi. Gözləmə zalında bir çox xarici nümayəndəliklər olmasına baxmayaraq, Sultanın şəxsi təşəbbüsü ilə Azərbaycan nümayəndələri birinci qəbul edildilər. Onları Ənvər Paşa qarşılayıb Sultana təqdim etdi. Azərbaycan Xalq Cümhuriyyəti adından VI Mehmeti təbrik edən M.Ə.Rəsulzadə yüzillik əsarətdən xilas olmuş Azərbaycan xalqının öz istiqlaliyyətini və hürriyyətini qoruyub saxlamaq yolunda qardaş Türkiyəyə arxalandığını bildirdi. Sultan cavabında qeyd etdi: "Sevimli Azərbaycanımızın nümayəndələri tərəfindən təbrik edildiyimi həyatımda xoşbəxt bir hadisə qəbul edirəm. Əsarətdən xilas olmuş türk və müsəlman hökumətinin istiqlaliyyət və hürriyyətini təmin etmək mənim hökumətimin ən müqəddəs vəzifəsini təşkil edir. Azərbaycanın həyat və qüvvət kəsb

edərək, bizimlə birlikdə ümumi düşmənlərimizə qalib gələcəyinə ümid edirəm".

Bu qəbul barədə Azərbaycan hökumətinə məlumat verən M.Ə.Rəsulzadə yazırdı: "Biz çıxanda Sultanın Ənvər Paşa həzrətlərinə yaxınlaşaraq "bu dəqiqələr ömrümün ən xoşbəxt dəqiqələridir" dediyini eşitdik və bundan köksümüz iftixarla doldu".

1918-ci ilin yayında Azərbaycan ətrafında cərəyan edən beynəlxalq vəziyyət Bakının tezliklə azad edilməsini zəruri edirdi. Dünya müharibəsinin sonunda Bakı Türkiyə, Almaniya, İngiltərə, Sovet Rusiyası arasında mübarizənin əsas obyektinə çevrilmişdi.

1918-ci ilin yayında İstanbulda vəziyyəti müşahidə edən almanlara aydın oldu ki, Türkiyənin müdafiə etdiyi Azərbaycan hökuməti bolşeviklərin əlində olan Bakı quberniyasını heç kimə güzəştə getmək istəmir. Buna görə, almanlar Bakı ilə bağlı planlarına Sovet Rusiyası vasitəsilə çatmaq fikrinə düşdülər və bu məqsədlə onunla gizli danışıqlara başladılar. Berlin danışıqları davam etdiyi zaman Bakı Xalq Komissarları Sovetinin şəhəri əldə saxlamaq üçün çar polkovniki L.Biçeraxovdan yardım almaq ümidləri boşa çıxdı və iyul ayının axırlarında Bakı Kommunası devrildi. Sentrokaspiçilər və avqustun əvvəllərində L.Denstervil başda olmaqla Bakıya daxil olan ingilislər şəhəri Qafqaz İslam Ordusunun hücumundan müdafiə etmək iqtidarında deyildilər. Nəhayət, Berlində üç aya qədər davam edən Almaniya-Rusiya danışıqları avqustun 27-də saziş imzalanması ilə nəticələndi. Sazişin 12-ci maddəsində göstərilirdi:"Almaniya Qafqazda Gürcüstanın hüdudlarından kənarda hərbi əməliyyatlarda hər hansı üçüncü dövlətə heç bir yardım etməyəcək. Rusiya Bakı vilayətində neft çıxarılmasını bütün imkanları daxilində artıracaq, çıxarılan neftin dörddə birini Almaniyaya verəcək.

İstanbulda olan Azərbaycan nümayəndələri bu sazişlə əlaqədar Almaniya səfirliyinə etiraz notası təqdim etdilər. Notanın surəti Türkiyə Xarici İşlər Nazirliyinə, Avstriya - Macarıstan və

Bolqarıstan səfirliklərinə, habelə bitərəf ölkələrin diplomatik nümayəndəliklərinə də verildi.

1918-ci il sentyabrın əvvəllərində Azərbaycan nümayəndələri Sədr-Əzəm Tələt Paşa tərəfindən qəbul edildi və danışıqlar zamanı Tələt Paşanın Berlinə səfəri ərəfəsində Almaniyanın Bakı məsələsində tutduğu mövqe, Bakının tezliklə azad edilməsinin zəruriliyi müzakirə olundu.

Az sonra Berlinə gedən Tələt Paşa təcili şəkildə 27 avqust sazişinin ləğv edilməsini Almaniyadan tələb etdi. Bu addım Bakının azad edilməsində mühüm əhəmiyyətə malik oldu. 1918- ci ilin sentyabrın 15-də birləşmiş Azərbaycan-Türk hərbi qüvvələri Bakıya daxil oldu.

Bakının azad edilməsi istiqlalı elan olunmasından sonra Azərbaycanın taleyində ikinci böyük tarixi hadisə idi. Bu qələbənin diplomatik cəhətdən təmin edilməsi Azərbaycan diplomatiyasının ilk uğurlarından idi. Bakının azad edilməsi ilə Azərbaycan Xalq Cümhuriyyəti öz hakimiyyətini gənc respublikanın ərazisində bərqərar etdi.

Bakının azad edilməsi barəsində məlumatı Ənvər Paşa İstanbulda olan Azərbaycan nümayəndələrinə çatdırdı. İstanbuldan baş nazir F.X.Xoyskiyə və xarici işlər naziri M.H.Hacınskiyə yazdığı məktubda M.Ə.Rəsulzadə göstərirdi ki, Bakının alınması burada əhvali-ruhiyyəni qaldırmışdır. Bakı azad edildikdən sonra Almaniyanın hərbi və ticarət nümayəndəsi baron fon der Qolts, Avstriya-Macarıstan diplomatik nümayəndələri və Osmanlı Sultanlığının Qafqaz Ordusunun hərbi qərargahı Bakıya gəldi.

Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında Ə.M.Top-çubaşovun İstanbul missiyasının böyük əhəmiyyəti oldu. O, 1918-ci il sentyabrın 28-də İstanbula gəldi və Azərbaycan hökumətinin fövqəladə səlahiyyətli naziri kimi işə başladı.

Berlin danışıqlarından sonra oktyabrın 2-də Ə.M.Top-çubaşovu qəbul edən Tələt Paşa məlumat verərkən bildirmişdi ki, Azərbaycanın mənafeyi naminə nə mümkündürsə, hamısını etmiş-

dir.Danışıqlar zamanı Tələt Paşa Berlindəki rus səfiri A.A.İoffenin Azərbaycana münasibətdə qərəzli mövqeyini də açıqladı.

1918-ci ilin oktyabrında Ə.M.Topçubaşov İstanbulda Türkiyənin rəsmi dövlət nümayəndələri ilə bir sıra görüşlər keçirdi. Lakin Türkiyə məğlubiyyət ərəfəsində böhran içərisində olduğu və ay yarım ərzində üç hökumət kabineti dəyişdiyi üçün Azərbaycanla Osmanlı dövləti arasında sabit münasibətləri bərqərar etmək mümkün olmadı.

1918-ci ilin payızında Almaniya, Türkiyə, Avstriya-Macarıstan və Bolqarıstanın daxil olduğu Dördlər İttifaqı məğlub oldu. Oktyabr ayının 30-da təkcə Türkiyə üçün deyil, Azərbaycan Xalq Cümhuriyyəti üçün də son dərəcə ağır olan Mudros barışığı imzalandı. Sülh müqaviləsinin 11-ci maddəsinə görə, Türkiyə ordusu tezliklə Azərbaycanı tərk etməli, on beşinci maddəyə görə, Türkiyə Zaqafqaziya Dəmir yolu üzərində nəzarət hüququnu Antantaya verməli və müttəfiqlərin Bakını tutmasına heç bir etiraz etməməli idi.

Noyabrın 4-də Ə.M.Topçubaşov Azərbaycan hökuməti adından Mudros barışığının Azərbaycana aid maddələrinə etirazını bildirdi. Lakin bu etirazın elə bir əhəmiyyəti olmadı. Mudros barışığının Azərbaycana aid maddələrinə görə, Osmanlı dövlətindən narazı qalmasına baxmayaraq, onun dünya müharibəsində məğlub dövlətlərdən biri olmasından ehtiyat etməyərək, noyabrın 10-da Azərbaycan hökuməti Respublika ərazisini tərk edən Türkiyə ordusunun şərəfinə ziyafət verdi. Türkiyə qoşunları həmin gün Bakıdan, az sonra isə bütün Azərbaycandan çıxdı. Bununla da Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətində Türkiyə oriyentaliyası dövrü başa çatmış oldu.

Qərb dövlətləri ilə münasibətlər I Dünya müharibəsinin sonunda Böyük Britaniyanın Azərbaycana marağı müstəsna dərəcədə artmışdı. Bu, bir tərəfdən, Almaniya-Türkiyə blokunun Qafqaza meylinin güclənməsi, digər tərəfdən isə dünya neft istehsalının böyük bir hissəsinin Bakının payına düşməsi

ilə bağlı idi.Müharibə ərəfəsində Rusiyada hasiledilən neftin 83 faizi Bakıda çıxarılırdı. I Dünya müharibəsində iştirak edən ölkələr isə Bakı neftinə çox vaxt qələbəni müəyyən edən amil kimi baxırdılar.İngiltərənin baş naziri Lloyd Corcun fikrincə, müharibənin sonunda Antantanın üstünlüyünə baxmayaraq,alman bloku Bakı neftindən istifadə edərdisə, hərbi əməliyyatların hansı nəticələr verəcəyini qabaqcadan söyləmək olmazdı. Ona görə də Yaxın və Orta Şərqdə möhkəmlənmiş İngiltərə qoşunları 1918-ci ilin mayından başlayaraq Bakı istiqamətində hərəkətə başladı. Lakin bu zaman Cənubi Azərbaycanda möhkəmlənmiş Türkiyə qoşunları onların hərəkətini dayandırdı və ingilislərin Bakıya müdaxiləsi 1918-ci ilin avqustuna qədər mümkün olmadı. Bakıda Xalq Komisarları Sovetinin hakimiyyəti devrildikdən sonra sentrokaspiçilərin ilk addımı Ənzəlidə dayanmış ingilisləri Bakıya dəvət etmək oldu. Avqustun 4-də polkovnik Stoksun başçılıq etdiyi ilk qoşun dəstəsi Bakıya daxil oldu. Avqustun ortalarında general Denstervil başda olmaqla min nəfərlik ikinci hərbi dəstə Azərbaycana gəldi. Şəhərin xristian əhalisi ingilisləri böyük sevinclə qarşıladı. Mart qırğınlarını törətmiş ermənilər ingilislərin simasında öz xilaskarlarını görürdülər.Lakin Britaniya qüvvələrinin azlığı onların ümidlərini puça çıxartdı.

Bakıya gələn Britaniya qoşununun çoxsaylı olması haqda məlumatların şayiə olduğunu bilən Qafqaz İslam Ordusu şəhəri azad etmək uğrunda son hərbi əməliyyatlara başladı. 1918-ci il sentyabr ayının ortalarında Britaniya qoşunu general Denstervil başda olmaqla Bakını tərk etmək məcburiyyətində qaldı. Lakin 1918-ci ilin payızında ikiaylıq fasilədən sonra onlar yenidən Bakıya qayıtdılar. Bu, Türkiyə və onun müttəfiqlərinin Birinci Dünya müharibəsində tam məğlubiyyəti ilə bağlı idi.

1918-ci il noyabrın 17-də müttəfiqlərin qoşunları Bakıya daxil oldu. Bundan az əvvəl, Azərbaycan hökuməti ABŞ prezidenti V.Vilsona, öz fəaliyyətini bərpa etmiş Milli Şura isə dünya dövlətlərinə müraciətlər qəbul etdilər. Müttəfiqlərin gəlişi Azər-

baycanın istiqlaliyyətini ciddi təhlükə qarşısında qoydu. Rus və erməni milli şuralarının cəhdlərinə baxmayaraq, Bakıda vəziyyətlə yaxından tanış olduqdan sonra, general V.Tomson bildirdi ki, onun "Bakıda ən bacarıqlı adamlardan biri" saydığı F.X.Xoyskinin hökuməti ölkədə koalisiya hökuməti təsdiq edilənə qədər yeganə təsirli hökumət olaraq qalır.

Balkanda və Qafqazda olan ingilis qoşunlarının baş komandanı general Corc Miln az sonra Bakıya gələrək V.Tomsonun bəyanatını təsdiqlədi və bildirdi ki, Böyük Britaniya hökuməti Azərbaycan hökumətini bu ölkənin bütün ərazisində yeganə qanuni hakimiyyət kimi tanıyır. Azərbaycan hökumətində qəbul zamanı o dedi: "Mən buraya böyük müttəfiq millətlərin nümayəndəsi hesabında gəldim. Məqsədimiz məmləkətdə sülh və ədaləti bərpa etməkdir. Müttəfiqlərin qələbəsi hüquqi-ədalət və millətlərin təyini-müqəddəra-ixtiyari tämininin rəhnidir. Sülh konfransında burası bəyan ediləcəkdir. İbraz etdiyiniz hüsni-istiqbaldan naşı təşəkkürümü bəyan edirəm. Qoşunlarımız məmləkətinizdə bulunduqca hüsni-qəbul və hər dürlü müzahirət görəcəklərinə ümidvaram. Məmləkətinizin ticarət sənaətinin tərəqqisinə var qüvvəmiz ilə çalışacağıq.

F.X.Xoyski ilə danışıqlar zamanı C.Miln bildirdi ki, "Azərbaycan dairəsində İngiltərə hökuməti Azərbaycan hökuməti-Cümhuriyyəsini tanıyır və qəbul edir və hökumətə müttəfiqlər komandanlığı hər barədə kömək edəcəkdir. Ayrı-ayrı millətlərin təyini-müqəddərat hüququ İngiltərə hökuməti nöqteyi-nəzərincə müdafiə edilməlidir. Sülh konfransında İngiltərə nümayəndələri bunu müdafiə edəcəklərdir. Bundan əlavə, general bəyan etmişdir ki, müttəfiqlər komandanlığı təzə təşkil edilmiş Zaqafqaziya hökumətlərinin daxili işlərinə qarışmayacaqdır. Və müttəfiqlərin yeganə məqsədi bu dövlətlərdə asayiş və müsalimətə kömək etməkdir". Əlbəttə, bu, tək general C.Milnin fikri deyildi, 1918-ci ilin dekabr ayında Cənubi Qafqaz məsələsi bir neçə dəfə Britaniya hökumətinin iclaslarında müzakirə edilmişdi. Lord Kerzon bu

fikirdə idi ki, Cənubi Qafqazda sabitlik lazımdır, əks təqdirdə "anarxiya, qarma-qarışıqlıq, yaxud bolşevizm" bu regionda ingilis siyasətinə maneçilik törədə bilər.

1919-cu ilin əvvəllərindən başlayaraq İngiltərə-Azərbaycan əlaqələri Bakıda olan ingilis komandanlığı, İstanbuldakı ingilis hərbi və diplomatik nümayəndəliyi, sonralar isə Paris Konfransında təmsil olunan sülh heyəti vasitəsilə həyata keçirilirdi.

Dekabr ayında ingilislər Batum və Tiflisi də tutdular və 1919-cu ilin yayına qədər Qafqazda qaldılar. İngilislərin Azərbaycanın daxili işlərinə müdaxilə etməsi tədricən aradan qaldırıldığına görə, Azərbaycan hökuməti bütün işləri öz əlində toplayır, addımbaaddım tam irəliləyərək müstəqilliyini bərqərar edirdi.

U.Çörçill sonralar öz xatirələrində yazırdı ki, Cənubi Qafqaza daxil olmuş 20 minlik Britaniya Ordusunun yardımı ilə Gürcüstan, Ermənistan və Azərbaycan tam müstəqil olmalı idi və bu müstəqil dövlətlər İrana və Türkiyəyə bolşeviklərin gözlənilən müdaxiləsinin qarşısında durmalı idilər.Azərbaycan xarici siyasətinin qarşısında duran ciddi məsələlərdən biri qonşu dövlətlərlə qarşılıqlı mehriban münasibətlər yaratmaq, müəyyən məsələlərə münasibətdə Qafqaz həmrəyliyinə nail olmaq idi. Azərbaycan parlamentinin Dağıstan, Gürcüstan və Ermənistana göndərdiyi müraciətdə deyilirdi: «Qafqaz elə bir vəziyyət qarşısındadır ki, bu ərazi üzərində qurulmuş olan cümhuriyyətlər müqabil dostluq və həmrəylik yapmadan yaşaya bilməzlər».

Dövlətlərarası münasibətlərdə yeni mərhələ-Azərbaycan hökuməti Bakıya gəldikdən sonra Dağlılar Respublikası ilə əməkdaşlığı inkişaf etdirmək üçün 1918-ci ilin oktyabr-noyabr aylarında bir sıra müqavilələr bağladı. İki dövlətlərarası bağlanmış müqaviləyə əsasən, Azərbaycan hökuməti ciddi maliyyə çətinlikləri ilə qarşılaşmış, Dağlılar hökumətinə 10 milyon manat həcmində yardım göstərmiş və o, Denikinin təcavüzünə məruz qaldıqda əlində olan bütün vasitələrlə ona yardım göstərəcəyini bildirmişdi. 1919-cu il mart ayının əvvəllərində general Tomsona

etiraz notasında Azərbaycan hökuməti bəyan edirdi:"Dağlılar üçün ağır bir zamanda Azərbaycan hökuməti onlara lazımi köməklik göstərməyi özünə borc sayır". Təkcə Dağıstanı deyil, bütün Qafqazı hədələyən ağ və qırmızı Rusiyasına münasibətdə Azərbaycan hökumətinin mövqeyi respublika XİN-nin Kuban hökumətindəki səlahiyyətli nümayəndəsi C.Rüstəmbəyova məktubunda öz əksini tapmışdı. Orada deyilirdi: "Bizim hökumətin fikri belədir: kim olursa-olsun, bolşevik, menşevik, denikinçi və i.a., Azərbaycan istiqlaliyyətinə qəsd edən hər kəs onun düşmənidir".

Cənubi Qafqazın üç yeni respublikası - Azərbaycan, Gürcüstan və Ermənistan arasında sülh və sabitliyin yaradılması çox çətin oldu. Müstəqilliyin ilk günlərində Gürcüstan hökumətinin Borçalı, Sığnaq və ümumilikdə Qarayazıda Gürcüstanın sərhədlərini müəyyən etmək adı altında mövcud vəziyyəti dəyişmək cəhdləri Azərbaycan hökumətinin müqaviməti ilə qarşılaşdı. Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri M.H.Hacınski iyunun 14-də Gürcüstan hökumətinin 1918-ci il 5 iyun tarixli qərarına etiraz edərək Gürcüstan hökumətinin xarici işlər idarəsinin başçısına yazırdı: "Borçalı, Tiflis və Sığnaq qəzalarının başdan-başa müsəlmanlardan ibarət olan hissələrinin əhalisi öz nümayəndələri vasitəsilə Azərbaycan Xalq Cümhuriyyəti tərkibində olmaq arzularını ifadə etdiklərini nəzərə alaraq, mənim hökumətim gürcü hökumətinin yuxarıda qeyd olunan sərəncamına qarşı qəti etiraz edir və ölkələrimiz arasında mehriban qonşuluq münasibətlərinin saxlanması naminə Borçalı qəzasının hüdudlarından qoşun hissələrini çıxarmaq, Azərbaycan ərazisinin yuxarıda qeyd edilən hissələrinin tutulması haqqında sərəncamı ləğv etmək üçün təcili tədbirlər görməyi təkidlə xahiş edir". Azərbaycan hökumətinin ciddi səyi ilə Qarayazıdakı status-kvo saxlanıldı, Azərbaycan ordu hissəsinin burada qalması şərti ilə beynəlxalq komissiya yaradılması barədə razılıq əldə edildi. Az sonra isə məsələnin müzakirəsi 1919-cu il aprelin 25-də Tiflisdə işə başlayan Qafqaz konfransının gündəliyinə daxil edildi. Lakin 1919-cu ilin iyununda, Şimaldan

yaxınlaşan təhlükə ilə bağlı olaraq, Qafqaz konfransı öz işini dayandırdı. Denikin ordusunun Dağıstan üzərinə hücumu və Cənuba doğru irəliləməsi Azərbaycan-Gürcüstan əməkdaşlığını zərurətə çevirdi. Yaranmış vəziyyətdə Ümum- qafqaz həmrəyliyinin yaradılmasında Azərbaycan diplomatiyası Gürcüstanla əlaqələrin genişləndirilməsinə xüsusi diqqət yetirirdi. 1919-cu il iyunun 16-da iki dövlət arasında üç il müddətinə hərbi-müdafiə paktının imzalanması Azərbaycan Xalq Cümhuriyyətinin dəyərli diplomatik addımı hesab edilməlidir. Bu pakta görə, Azərbaycan və Gürcüstanın istiqlaliyyəti və ərazi bütövlüyünə hər hansı dövlət tərəfindən təcavüz olduğu təqdirdə müqaviləni bağlayan tərəflər öz öhdələrinə bir-birinə hərbi yardım göstərmək borcunu götürmüşdülər. Eyni zamanda müqavilənin 10-cu bəndində göstərilirdi ki, "bu müqavilə barədə rəsmi məlumat verildikdən sonra Ermənistan iki həftə ərzində bu müqaviləyə qoşula bilər". Həmin müqavilə iyun ayının 27-də hər iki ölkənin parlamentlərində təsdiq edildi.

16 iyun hərbi-müdafiə paktına uyğun olaraq, tərəflər hərbi-texniki saziş imzaladılar və birgə hərbi Şura yaratdılar. İngilis komandanlığının Azərbaycan-Gürcüstan müdafiə paktına münasibəti əvvəlcə mənfi idi, lakin sonralar dəyişdi. Britaniyanın Şərqi Avropa və Qafqazda olan qüvvələrinin baş komandanı general C.Miln Denikinin Cənuba doğru hərəkəti ilə razı olmadığı barədə baş nazir N.Yusifbəyliyə radioteleqram göndərdi.

Müstəqilliyin ilk günlərindən Gürcüstan Respublikası ilə qurulan diplomatik əlaqələr çox çətin və ziddiyyətli bir yol keçsə də, 1920-ci ilin əvvəllərində normal məcraya düşdü. Hər iki respublikanın müstəqilliyi Versal Ali Şurası tərəfindən de-fakto tanındı.

İranla münasibətlərdə də əvvəlki narazılıqlar, daha çox isə anlaşılmazlıqlar 1919-cu ilin ortalarından etibarən öz yerini əməkdaşlıq meyllərinə verməyə başladı. Həmin ilin payızında yaradılan birgə Azərbaycan-İran komissiyasının gərgin işi

nəticəsində iki dövlət arasında münasibətlərin bir sıra tərəflərini əhatə edən müqavilə və saziş hazırlandı. 1920-ci il mart ayının 20-də iki dövlət arasında əməkdaşlığın bütün sahələrini əhatə edən 7 müqavilə və saziş imzalandı.

Bütün bunlara baxmayaraq 1920-ci ilin aprel ayının 21-də Qafqaz cəbhəsi komandanlığının XI ordu rəhbərliyinə və Volqa-Xəzər donanmasına göndərdiyi 490 saylı direktivdə göstərilirdi ki, Azərbaycanın əsas qüvvəsi öz dövlətinin qərb cəbhəsində məşğuldur.Belə olduqda XI ordunun son vəzifəsi Bakı quberniya-sını tutmaq deyil, bütün Azərbaycanı ələ keçirmək idi.Aprel ayının 26-da Ermənistan hökuməti barışıq imzalamaq xahişilə çıxış etsə də, amma bu gec idi.1920-ci ilin aprel ayının 28-də Azərbaycan Xalq Cümhuiyyəti sovet Rusiyasının təcavüzkar siyasəti nəticəsində işğal olundu.Eyni zamanda 72 minlik XI qızıl ordunun Azərbaycan torpaqlarını tez bir zamanda işğal etməsinin başlıca səbəblərindən biri ermənilərin 1920-ci ilin mart ayında qaldırdıqları qiyam idisə, digər səbəb isə həmin ilin aprelində olmuş ciddi hökumət böhranı və elecədə hökumət kabinəsinin buraxılması idi. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonraAzərbaycan Sovet Sosialist Respublikası yaradıldı. İlk vaxtlar Zaqafqaziya Federasiyası tərkibində, sonralar isə məhz N.Nərimanovun tarixi xidmətləri sayəsində Sovet Azərbaycanı kimi Sovet İttifaqının tərkibinə müttəfiq bir respublika kimi daxil edildi. İkinci respublika ömrünü yaşamış Sovet Azərbaycanında da ictimai-siyasi və fəlsəfi fikrimiz inkişaf edərək sosialist quruculuğuna xidmət etmək kimi səciyyəsi ilə fərqlənmişdir. Ölkədə bir ideoloji sistem hakim olduğu kimi, yeganə ideologiyaya-kommunizm quruculuğuna xidmət edilir, marksist-leninçi fəlsəfə hökm sürürdü.Amma bununla bərabərSovet Azərbaycanında siyasi mübarizə, o cümlədən xalqın milli özünüdərkindən gələn milli-azadlıq mübarizəsi ölməmiş, göstərilən təzyiqlərə tab gətirərək XX əsrin sonlarında özünü göstərə bilmişdir.

1987-ci ilin sonunda keçmiş Sovet imperiyasında "yenidənqurma" adlanandağıdıcı proseslər zəmnində süni "Dağlıq Qarabağ" problemi meydana gətirildi.O, dövrdə keçmiş SSRİ-nin ali rəhbərlərindən biri olan Heydər Əliyev hakimiyyətdən kənarlaşdırıldıqdan sonra Ermənistanın qatı millətçi dairələrinin və onların xarici dövlətlərindən olan havadarlarının uzun illər boyu hazırladıqları planı həyata keçirmək üçün münbit siyasi zəmin yarandı.M.Qorbaçov başda olmaqla o zamankı SSRİ rəhbərliyi konstitutsiya borcunu yerinə yetirmək, qanunçuluğu qorumaq əvəzinə, erməni millətçilərinin separatçı hərəkətlərini həvəsləndirmək, əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağı Azərbaycanın tərkibindən çıxarıb, Ermənistana inteqrasiya etmək yolunu tutdu.Nəticədə ilk mərhələdə tamamilə aradan qaldırılması mümkün olan münaqişə tədricən böyüyərək iki xalqın tammiqyaslı qarşıdurmasına, geniş müharibəyə çevrildi.Çox keçmədən Azərbaycanda Sovet imperiyasına qarşı mübarizə şəraitində "Çənlibel", "Qala", "Tərəqqi", "Yurd", "Aşıq Ələsgər", "Ozan", "Varlıq" və s. ictimai-siyasi təşkilatlar meydana çıxdı.1988-ci ilin əvvəllərində Əbülfəz Elçibəyin rəhbərliyi altında altı nəfərdən ibarət ilk siyasi özək yaradıldı. Qeyd edək ki, keçmiş SSRİ-nin heç bir yerində milli-azadlıq mübarizəsi Azərbaycandakı qədər güclü getmirdi. Azərbaycandakı milli-azadlıq hərəkatını boğmaq, xalqa divan tutmaq üçün imperiya rəbərliyi Bakıya xüsusi ordu qüvvələri yeritdi.1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə Sovet ordu hissələri milli oyanışın qarşısını almaq və milli-azadlıq hərəkatını boğmaq məqsədilə Bakıda tayı-bərabəri olmayan 20 yanvar qırğınını törətdilər.Lakin imperiya rəhbərliyinin 20 yanvar milli faciəsini törətməklə Azərbaycanda milli-azadlıq hərəkatının qarşısını almaq cəhdi boşa çıxmış və əksinə bu hərəkat daha da genişlənmişdi.Xalqımıza qarşı keçirilən Sovet imperiyasının soyqırım əməliyyatı bir tərəfdən xalqımızın düşmənə qarşı daha sıx birləşməsinə səbəb olmuş və digər tərəfdən də Sovet imperiyasının süqutuna bir təkan olmuşdu.

1991-ci ilin fevralında dövlətimizin adından “Sovet” və “Sosialist” sözləri çıxarılaraq o, Azərbaycan Respublikası adlandırıldı.Həmin ilin oktyabrın 18-də Azərbaycan Ali Sovetinin ikinci sessiyası Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi.

Beləliklə də XX yüzillikdə dəfələrlə istiqlal savaşına qalxmış Azərbaycan xalqı, nəhayət tarixi torpaqlarımızın bir hissəsində siyasi nəticəsində-Şimali Azərbaycanda özünün qədim dövlətçilik ənənələrini dirçəldə bilmişdi.1991-ci ilin dekabrında Sovet imperiyası süqut etdi.Totalitar Sovet sisteminin iflasında və kommunist rejiminin süqutundan sonra formalaşan milli dövlətçiliyimiz artıq inkişaf yoluna çıxmaq üçün geniş imkan qazandı.Milli ideya xalqı və hakimiyyəti birləşdirən bir zəmin olaraq müstəqil yaşamaq hüququ əldə edən Azərbaycan Respubliksına öz tarixi milli özünüdərk ənənələrini yeni demokratik dövlət təsisatları ilə üzvi surətdə əlaqələndirmək imkanı verdi.Milli ideyanın gücü dövlətdirsə, dövlətin gücü isə milli ideyaya, milli şüurun inkişafına xidmət etməkdədir.

1991-ci ilin dekabrın 16-da Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan ilə Cənubi Azərbaycan arasında SSRİ-İran dövlət sərhədindəki tikanlı məftil qurğularının söküldüyü 1989-cu ilin 31-dekabrını-Dünya azərbaycanlılarının həmrəylik günü elan etdi.Bu ikiyə bölünmüş xalqın qovuşmasında mühüm addım idi.Bu dövrdə yenicə yaranmış Müstəqil Azərbaycanda Kommunist partiyası ilə Azərbaycan Xalq Cəbhəsi arasında şiddətli siyasi mübarizə gedirdi.

1992-ci ilin 14-15 mayında Ayaz Mütəllibovun ikinci dəfə uğursuz cəhdindən sonra hakimiyyətə Əbülfəz Elçibəyin rəhbərlik etdiyi Azərbaycan Xalq Cəbhəsi gəldi.Bu zaman işğalçı Ermənistanın separatçı daha da azğınlaşaraq Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağ və ona bitişik ərazilərini işğal edir, dinc əhalini isə məhv edirdilər.Erməni vəhşiliyinin dəhşətli nəticələrindən biri də Xocalı soyqırımıdır.1992-ci ilin fevral ayının

25-dən 26-na keçən gecə separatçı erməni birləşmələri Rusiya ordusunun Xankəndində yerləşən 366-ci motoatıcı alayı bölmələrinin yardımı və iştirakı ilə respublika əhəmiyyətli, əhalisi 7 mindən çox olan Xocalı şəhərini məhv etdilər.Xocalı soyqırımında yüzlərlə azərbaycanlı öldürülmüş, yaralanmış və əsr götürülmüşdür.İşğalçı Ermənistanın bu cür addımları bu gün də davam etməkdədir.

1992-ci ilin avqust ayının 16-da Azərbaycan ictimai-siyasi fikrində mühüm rol oynayacaq hadisə baş verdi.Bu zaman xalqımızın 91 nəfərdən ibarət bir qrup ziyalıları Yeni Azərbaycan Partiyası yaratmaq missiyasını öz üzərinə götürmək xahişi ilə Heydər Əliyevə müraciət etdilər və ümummilli lider Heydər Əliyev "91"-lərin müraciətinə 1992-ci il oktyabr ayının 24-də müsbət cavab verdi.Beləliklə, 1992-ci ilin noyabr ayının 21-də Naxçıvan Dövlət Musiqili Dram teatrının binasında Azərbaycanın müxtəlif bölgələrindən gələn 550 nəfərdən artıq nümayəndənin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis konfransı keçrildi və Heydər Əliyev YAP-ın sədri seçildi. Yeni Azərbaycan Partiyası ümumxalq partiyasına çevrilərək cəmisi 8 aydan sonra hakimiyyətə gəldi.Bu dövrdə Azərbaycanda ictimai-siyasi vəziyyət ürəkaçan deyildi. AXC-Müsavat cütlüyünün səriştəsizliyi, Dağlıq Qarabağ münaqişəsindəki uğursuzluq ölkəni anarxiyaya və xaosa sürükləyirdi. Hakimiyyətdaxili münasibətlərin kəskinləşməsi üzündən Azərbaycan parçalanma, vətəndaş müharibəsi ərəfəsində idi.Belə olan təqdirdə ümummilli lider Heydər Əliyevə müraciət olundu.Xalqın təkidi və tələbi ilə hakimiyyətə gələn Heydər Əliyev erməni separatçılarının və onların bütün dünyadakı havadarlarının gücünü, böyük dövlətlərin çirkin planlarını, elecə də Azərbaycanın düşdüyü ağır vəziyyətini nəzərə alaraq, işğalçı Ermənistanla atəşkəsə nail oldu.Qeyd edək ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi 1988-ci ilin fevralından Sovet imperiyasının süqutuna qədər olan dövrdə keçmiş SSRİ-nin daxili problemi kimi qiymətləndirilirdi.Lakin imperiyanın süqutu ilə münaqişə tezliklə

beynəlmiləlləşdi, beynəlxalq güclərin və maraqların mübarizə nöqtəsinə çevrildi.Münaqişənin dinc yolla nizama salınması istiqamətində ilk təşəbbüslər erməni işğalçı qüvvələrinin Dağlıq Qarabağ ətrafındakı əraziləri zəbt etdikləri dövrlə başlayır.Münaqişə ilə bağlı BMT-Təhlükəsizlik Şurasının qəbul etdiyi və indiyə qədər icra olunmamış qalan 822, 853, 874 və 884 saylı qətnamələrində işğalçı birləşmələrin Azərbaycanın zəbt edilmiş rayonlarından çıxarılması tələb olunurdu.1992-ci ilin martında Avropa Təhlükəsizlik və Əməkdaşlıq Mərkəzinin Helsinkidə xarici işlər nazirlərinin görüşündə isə gələcək Minsk prosesinin əsası qoyulmuşdur.

1992-ci ilin mart ayının 2-də Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatına daimi üzvlüyə qəbul olundu. Bununla da Azərbaycan Respublikasının dövlət müstəqilliyi dünya birliyi tərəfindən tanınmış oldu.

Xalqımızın tarixinə “Milli Qurtuluş ” kimi daxil olan 1993-cü ilin 15 iyununda Azərbaycan Respublikası parlamentinin sədri seçilən Heydər Əliyev qisa vaxt ərzində prezident seçkilərində qalib gələrək Azərbaycan Respublikasının prezidenti oldu.

1994-cu ilin sentyabr ayının 20-də Heydər Əliyev “Əsrin müqaviləsi”ni imzalamaqla dünyanın neft siyasətinə təsir etdi və bu siyasət Azərbaycana, Xəzər regionuna istiqamətləndi.Qeyd edək ki, bu müqavilə dünyanın 30-a yaxın dövləti və 30-dan artıq şirkəti ilə Azərbaycan Respublikası arasında imzalanmışdır.

1994-1995-ci illərdə ölkədə ictimai-siyasi sabitlik bərqərar qəbul olunduqdan sonra, Respublikamızda islahatlar proqramı məqsədyönlü şəkildə həyata keçrilməyə başlandı.

Müstəqil Respubllikamızın Konstitusiyasının qəbul olunması xalqımızın siyasi, hüquqi və milli şüurunun tarixi milli özünüdərk əsasında inkişafının bariz nümunəsidir.

1995-ci ilin noyabr ayının 12-də milli özünüdərk kontekstində Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış, Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarını, azərbaycançılığı, xalqın

milli ləyaqət hissini və milli mənini özündə əks etdirən müstəqil Azərbaycanın ilk Konstitusiyası ümumxalq səsverməsi yolu ilə qəbul edildi.Dövlətimizin tarixində ilk dəfə olaraq çoxpartiyalılıq əsasinda ilk parlament seçkiləri keçirildi.Ölkədə Konstitusiya Məhkəməsinin yaradılması, Azərbaycanda ilk dəfə olaraq xalqın özünüidarə etməsinin ən demokratik forması olan bələddiyələrə seçkilərin keçirilməsi Heydər Əliyev dövlətçilik məktəbinin hətta səthi və ilk baxışda nəzərə çarpan real görüntüləridir.Konstitusiyanın qəbul olunmasından sonra Azərbaycanda hüquqi, dünyəvi dövlət quruculuğu prosesi daha da genişləndi.1996-cı ilin iyulun 13-də Azərbaycan Respublikası Avropa Şurasına tamhüquqlu üzvlüyə daxil olmaq barədə müraciət etmişdir.2001-ci ilin yanvarın 17-də Avropa Şurasının Nazirlər KomitəsiAzərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması haqqında qərarı təsdiq etmiş və beləliklə, müstəqil Azərbaycanımız Avropa ölkələri ailəsinə daxil olmuşdur. Nəticə etibarilə, XX yüzillikdə dəfələrlə istiqlal savaşına qalxmış Azərbaycan xalqı, nəhayət tarixi torpaqlarımızın bir hissəsində-Şimali Azərbaycanda özünün qədim dövlətçilik ənənələrini dirçəldə bilmişdi.

Respublikamızın müstəqilliyinin 10-cu ildönümünün təntənə ilə qeyd olunduğu bir vaxtda, 2001-ci il noyabrın 9-10-da Bakı şəhərində Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsidir. Qurultayda 35 xarici dövlətdə yaşayan həmvətənlərimizin cəmləşdiyi 200-dən çox müxtəlif təşkilatı təmsil edən 403 nümayəndə və 63 qonaq iştirak etmişdir. Dünya Azərbaycanlılarının I qurultayında çıxış edən ümummilli lider Heydər Əliyevin fikrincə müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı, Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq. Azərbaycan dilinin inkişafı haqqında qəbul etdiyimiz geniş qərar məhz bu məqsədi daşıyır. Azərbaycançılıq ideologiyası mühüm funksional elementlərlə zəngindir.Onun mahiyyəti xalqı

mənəvi və fiziki baxımdan zəiflətmək cəhdlərindan qorumaqdır.Bu ideologiya unitar, hüquqi və demokratik dövlət kimi Azərbaycanın möhkəmlənməsinə vəinkişafına yönəlmişdir.Milli özünüdərk ideyaları əsasında yaranan "Azərbaycançılıq" müstəqil və bənzərsiz Azərbaycanı sivil dövlətlər sırasına çıxaracaq bir yoldur.Bir idelogiya kimi Azərbaycançılıq xalqımızın çox əzab-əziyyətlə nail olduğu tarixi sosial və mənəvi sərvətdir.Bu ideologiya real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir.Konstitusiyamızda göstərildiyi kimi milli özünüdərkdən gələn azərbaycançılıq ideologiyası Azərbaycan xalqının dövlət yaratma mənafelərinin ümumiliyi və demokratiyanın, sərbəst iqtisadiyyatın, sosial həyat şəraitinin inkişafı uğrunda mübarizənin məqsədidir.Bugün də prezident İlham Əliyevin fəaliyyətində bu amal ardıcıl şəkildə və uğurla həyata keçirilməkdədir.2003-cü ildə milli dövlətçiliyimizdə İlham Əliyev mərhələsinin əsası qoyuldu. Əslində İlham Əliyev 1994-cü ildən siyasi proseslərdə fəal iştirak etmiş eyni zamanda parlamentdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətində, dövlət quruculuğu və ictimai işlərlə də məşğul olmuşdur. Bugün prezident İlham Əliyev iti zəkası, vaxtında lazımı və zəruri qərarları qəbul etmək bacarığı, siyasi hazırlıq səviyyəsi, analitik təhlil qabiliyyəti ilə istər ölkədə, istərsə də ölkədən kənarda böyük rəğbət qazanmışdır.2003-cü ilin oktyabrın 15-də keçirilən prezident seçkilərində qalib gələn prezident İlham Əliyev Heydər Əliyev siyasətinə sadiq qalacağını bəyan etdi.Prezident İlham Əliyev Azərbaycanın müstəqil dövlətçiliyinin sarsılmazlığı, əbədiliyin təmin olunması sahəsində mühüm irəliləyişlərə nail olmuş və milli dövlətimizi sağlam dayaqlar üzərində möhkəmləndirə bilmişdir.2003-cü ilin noyabrın 1-də keçirilən inauqurasiya mərasimində çıxış edən prezident İlham Əliyev bütün dünya azərbaycanlılarının prezidenti olacağını bildirdi. Prezident İlham Əliyevi düşündürən əsas problemlərdən biri də separatçı Ermənistanın işğal etdiyi Dağlıq Qarabağ və ona bitişik Azərbaycan

ərazilərinin azad edilməsi məsələsidir.Cənab prezident Dağlıq Qarabağ problemini BMT-nin sessiyalarında və Avropa Şurası Parlament Assambleyasının toplantılarında bir neçə dəfə qaldırmış və Cənubi Qafqaz regionunda qaçqın və köçkünlərin vəziyyətinə dair məsələni müzakirəyə çıxarmağa nail olmuşdur.Eyni zamanda işğalçı Ermənistanın adı AŞPA-nın qətnamələrində dəfələrlə pislənmiş və o işğalçılıq siyasətindən əl çəkməyə çağrılmışdır. Dağlıq Qarabağ probleminin dinc yolla həll olunmasına çalışan prezident İlham Əliyev torpaqlarımızın qeyd-şərtsiz azad olunmasını, bu problemin beynəlxalq hüquq və Azərbaycan ərazi bütövlüyü şəklində öz həllini tapmasını tələb edir, o cümlədən qaçqın və köçkünlərin öz torpaqlarına qaytarılması ilə bərabər Dağlıq Qarabağın erməni icmasına Azərbaycanın tərkibində muxtar hüquqların verilməsini də istisna etmir.Bundan başqa dövlət başçısı İlham Əliyev regionların sosial iqtisadi inkişafının sürətləndirilməsinə də xüsusi diqqət ayırır. Prezident İlham Əliyevin cəmiyyətin inkişafına böyük önəm verdiyini təsdiqləyən məqamlardan biri də təhsil, elm və mədəniyyətin inkişafını nəzərdə tutan xüsusi dövlət proqamının həyata keçrilməsidir.Ölkədə prezident İlham Əliyevin qərarı ilə bütün kitabların latın qrafikası ilə çap olunması təqdirəlayiq haldır.Ölkə prezidentinin qarşıya qoyduğu mühüm vəzifələrdən biri də neftdən əldə olunan vəsaitin qeyri-neft sektorunun inkişafına xərclənməsidir.Məlum olduğu kimi təməli 18 sentyabr 2002-ci ildə qoyulmuş Bakı-Tiflis-Ceyhan əsas neft ixrac kəməri ilə 2005-ci ildə ilk neftin satışına başlandı və bu da Azərbaycana milyardlarla dollar vəsait gətirməkdədir.Neft gəlirlərinin getdicə artması sayəsində ölkəmizdə qeyri-neft sektounun, aqrar sahənin və emal sənayesinin inkişaf etdirilməsi üçün mövcud imkanları daha da artıracaqdır.Qeyd edək ki, iqtisadi inkişafın arxasında milli təəsübkeşlik, milli mənlik və vətənpərvərlik amalı dayanır. Dünya Azərbaycanlılarının 16 mart 2006- cı ildə ikinci, 5-6 iyul 2011- ci ildə üçüncü və nəhayət 3-4 iyun 2016- cı ildə dördüncü qurultayın keçirilməsi azərbaycançılıq

ideologiyasının dövlət siyasəti olduğuna dəlalət edir. Azərbaycançılıq milli ideologiyası xalqın özünə inamının, əqidəsinin, düşüncəsinin mənbəyi və hərəkətverici qüvvəsi kimi milli dövlətçiliyin qorunmasına xidmət edir. Həmçinin azərbaycançılıq dünya azərbaycanlılarını birləşdirən, onlara milli kimliyini tanıdan milli ideologiyadır. Bu milli ideologiyanın inkişaf etdirilməsi dövlətçiliyimizin canlandırılması və zənginləşdirilməsi deməkdir. Azərbaycançılıq ideologiyasının daha da inkişafı milli dövlətçiliyimizin sosial bazasının gücləndirilməsinə və onun uzun illər yaşamasına təminat yaradılması kimi başa düşülməlidir. Beləliklə, azərbaycançılıq ideologiyası xalqın özünəinamının, əqidəsinin, düşüncəsinin mənbəyi və hərəkətverici qüvvəsi kimi milli dövlətçiliyin qorunmasına xidmət edir. Müasir dövrdə Azərbaycan dövlətçiliyinin mənəvi dayağı olan azərbaycançılıq ideologiyası əsasında xalqımız özünün varlığını dərk edir, maddi-mənəvi sərvətlərinin sahibi olur. Bu ideyanın sayəsində Azərbaycan cəmiyyətində milli-mənəvi düşüncənin inkişafı psixoloji cəhətdən insanlarda, o cümlədən də gənclər arasında vətənpərvərlik ruhunu gücləndirir. Zənnimizcə, bu sahədə aparılan işlər nəticəsində uğurlar davam etdirilərək xalqın azərbaycançılıq hissinin zənginləşməsinə və gələcək inkişafına səbəb olacaq.Hazırda respublika öz inkişafının keçid dövrünü başa vuraraq, sosial-iqtisadi, mənəvi və s. sahələrdə yeni mərhələyə qədəm qoymaqdadır. Keçən illərdə Azərbaycan bütün sahələr üzrə Heydər Əliyevin milli inkişaf siyasətini uğurla həyata keçirərək, nəzərə çarpacaq nailiyyətlər qazanmışdır.İctimai-siyasi həyatın demokratikləşməsi, vətəndaş cəmiyyəti quruculuğunun,siyasi plüralizmin getdikcə dərinləşməsi, iqtisadi həyatın liberallaşması, sahibkarlıq institutlarının yaradılması və sahibkar təşəbbüskarlığına söykənən iqtisadiyyat modelinin bərqərar olması, iqtisadi və sosial infrastrukturun təkmilləşdirilməsi və s. göstəricilər Azərbaycanın gələcək inkişafı üçün geniş imkanlar açmışdır. Müşahidə olunan dayanıqlı inkişaf həm də hakimiyyət qarşısında yeni, uzunmüddətli Milli İnkişaf Konsepsiyasının

yaradılması və həyata keçirilməsi vəzifəsini irəli sürmüşdür. Azərbaycanın ictimai, siyasi, iqtisadi, mədəni həyatının bütün sahələrində əldə etdiyi uğurlar Prezident İlham Əliyevə qarşıdakı dövrdə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, mənəvi-ideoloji transformasiyasının yeni mərhələsinin təməlini qoymaq və milli inkişafın növbəti on ilinin vəzifələrini müəyyənləşdirmək imkanı yaratmışdır. Azərbaycan dövləti bütün sahələrdə nail olunan müvəffəqiyyətlər- lə kifayətlənməyərək, Qərbin inkişaf etmiş ölkələrinin standartları səviyyəsinə yüksəlməyi və müasir bir ölkəyə çevrilməyi hədəfə almışdır. Yeni mərhələnin əsas hədəfi, bir tərəfdən, əldə olunmuş iqtisadi, siyasi, sosial və mədəni nailiyyətləri möhkəmləndirmək, ölkəni müasir tələblər səviyyəsinə qaldırmaq, digər tərəfdən isə gələcək liberal,çoxşaxəli, rəqabətə davamlı, dinamik və innovasiya yönümlü milli iqtisadiyyatın formalaş- dırılması, iqtisadi və insan resurslarının düzgün istifadə edilməsi, ictimai və sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi, sosial sahədə optimal, səmərəli və ədalətli inkişaf modelinin yaradılması, əhalinin rifahının qabaqcıl beynəlxalq standartlara çatdırılması, habelə elmin inkişafında tətbiqi istiqamətlərin inkişaf etdirilməsi, ictimai həyatın bütün sahələrində yeni nailiyyətlərin əldə olunması və s. ibarət olmalıdır. Həmçinin Azərbaycanın geosiyasi perspektivləri və gələcəyi ilə bağlı mövcud təhdidlər, yarana biləcək hər hansı problemlər, onların aradan qaldırılması yolları günün ən aktual məsələsi olaraq qalmaqdadır. Eyni zamanda Azərbaycan dövlətinin ölkədə, regionda və dünyada yürütdüyü geosiyasi və geostrateji dövlət siyasətinin və atdığı praktik addımların, dünyanın, regionun və Avropanın təhlükəsizlik, enerji, tranzit-keçid, beynəlxalq daşıma və nəqliyyat-kommunikasiya sistemində iştirakı məsələləri, ölkəmizi təhdid edən qüvvələrə qarşı mübarizəni zəruri edir.

Qeyd edək ki, erməni təxribatı bu gün də davam etməkdədir. İşğalçı Ermənistanın təxribatı nəticəsində tarixədörd günlük müharibə kimi düşən aprel döyüşlərində Azərbaycan Silahlı Qüvvələri işğal olunmuş ərazilərimizin bir hissəsini və bəzi strateji

yüksəklikləri düşmən qüvvələrindən təmizlədi. Bu hadisə Silahlı Qüvvələrimizin döyüş əzminin yüksəlməsində və Azərbaycan diplomatiyasının diqtə edən tərəfə çevrilməsində mühüm rol oynadı. Aprel döyüşlərindən sonra münaqişənin həll olunması ilə bağlı 16 may 2016-cı ildə Avstriyanın paytaxtı Vyanada ABŞ, Fransa və Rusiyanın təşkilatçılığı ilə keçirilən Ermənistan-Azərbaycan danışıqlarında əlverişli siyasi-hüquqi şərait yaransa da, təəssüflər olsun ki, öz müsbət bəhrəsini verməmişdir. Vasitəçi dövlətlər tərəfindən Ermənistan-Azərbaycan danışıqları bu gündə davam etməkdədir. Başqa sözlə, Azərbaycan torpaqlarının işğal altında qalmasının müddəti müəyyən qüvvələr və dövlətlər tərəfindən uzadılır. Bu isə status-kvonun saxlanılması deməkdir. Mövcud vəziyyətin dəyişməsi üçün proseslər Azərbaycan Prezidenti İlham Əliyevin dediyi istiqamətdə davam etməlidir və Azərbaycanın 20 ildən artıqişğal altında olan torpaqları azad edilməlidir. Çox təəssüflə qeyd etmək lazımdır ki, ötən illər ərzində keçirilən görüşlər nə Azərbaycanın ərazi bütövlüyünü bərpa edir, nə də qaçqınların öz evlərinə qayıtmasını təmin edir.

Zənnimizcə, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi üçün addımlar atılmayanadək və status-kvo dəyişməyənədək keçirilən bütün görüşlər nəticəsiz qalacaq. İşğalçının Azərbaycan torpaqlarından çıxmasının qrafiki razılaşdırılarsa, görüşlər nəticə vermiş olar. Əks halda, danışıqlar işğalçıya və havadarına əlavə vaxt verilməsi deməkdir. Konstitusiyamızda göstərildiyi kimi demokratik, hüquqi, dünyəvi, unitar respublika olan Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. İnanırıq ki, azərbaycançılıq ideologiyası ətrafında birləşən Azərbaycan xalqı xalq və dövlətin birliyi nəticəsində düşmən tapdağında olan öz torpaqlarını geri qaytaracaq vəAzərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olunacaqdır. Həmçinin qaynağını bəşər tarixinin ilk dövründən-yaddaşlardan, miflərdən, əsatirlərdən, dastanlardan götürən və getdikcə ədəbi düşüncədə formalaşaraq günümüzə qədər gəlib çıxan azərbaycançılıq məfkurəsi XIX əsrin sonuna doğru ədəbi-

fəlsəfi fikir cərəyanı kimi formalaşsa da, XX əsrin əvvəllərində sosial-fəlsəfi varlıq və sistem kimi özünün yeni mərhələsinə qədəm qoydu və ictimai-siyasi həyatda öz təsbitini tapdı. Məhz Heydər Əliyev azərbaycançılığı bir məfkurə, bir mükəmməl milli ideologiya kimi özünün zirvə məqamına çatdırdı. Bu gün prezident İlham Əliyevin hərtərəfli fəaliyyəti azərbaycançılıq ideyalarına xidmətin ən yüksək nümunəsidir.Bu gün dövlətimizin iqtisadi tərəqqisi, qələbəmizin təminatı sayılır.Ölkədə iqtisadi nailiyyətlər, siyasi uğur-Qarabağı qaytararaq milli ərazimizin bütövlüyünə nail olmaq zəminidirlər.Bu sahədə aparılan işlər nəticəsində uğurlar davam etdirilərək xalqın tərəqqisinə və gələcək inkişafına səbəb olacaq.Bundan başqa Bakı-Tiflis-Ərzurum qaz, Bakı-Tiflis-Qars dəmiryolunun çəkilməsi Azərbaycanın qloballaşma şəraitində Qərbə, dünya birliyinə inteqrasiyasını stimullaşdırır.

Azərbaycan əlverişli coğrafi məkanda yerləşdiyinə görə bütün beynəlxalq və regional layihələrin reallaşması prosesində fəal iştirak edir. 2002-ci ilin iyul ayında Türkiyənin İstanbul şəhərində Türkiyə-Gürcüstan nəqliyyat nazirlərinin iclasında bu layihənin həyata keçirilməsi barədə imzalanmış protokolda layihə üzrə hazırlıq işlərinin görülməsi nəzərdə tutulmuşdur.

2004-cü ilin noyabrında Avropa Komissiyasının təşəbbüsü ilə Bakıda keçirilmiş nəqliyyat nazirlərinin konfransında layihənin vacibliyi və regional xarakter daşıması barədə Azərbaycan, Türkiyə və Gürcüstan tərəfləri birgə bəyanat imzalamışlar. Dekabrda isə bu layihə ilə bağlı növbəti görüş keçirilmiş və birgə işçi qrupunun yaradılması barədə razılıq əldə olunmuşdur.

Xatırladaq ki, 2005-ci il mayın 25-də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin Azərbaycan hissəsinin açılışı tədbirləri çərçivəsində Azərbaycan, Gürcüstan və Türkiyə prezidentləri Gürcüstan və Türkiyə arasında Bakı-Tbilisi-Qars birləşdirici dəmir yolu xətti layihəsi haqqında bəyannamə imzalayıblar. Həmin bəyannamə, əslində, hər üç ölkə rəhbərinin

Qars-Axalkalaki-Tbilisi-Bakı dəmir yolu bağlantısı layihəsinə nə qədər önəm verdiyinin göstəricisi idi.

Həmin ilin sentyabrında Ankarada Türkiyə, Gürcüstan, Azərbaycan dəmir yolları işçi qruplarının, həmçinin həmin ölkələrin nəqliyyat nazirlərinin üçtərəfli görüşləri zamanı bu layihənin gerçəkləşməsi üzrə müzakirələr aparılmışdır. Bu görüşdə yeni dəmir yolu bağlantısı barədə Azərbaycan tərəfindən hazırlanmış "Bakı-Tbilisi-Qars yeni dəmir yolu bağlantısı" xətti haqqında saziş layihəsi Türkiyə və Gürcüstan tərəflərinə təqdim edilmiş, Əlaqələndirmə Şurasının yaradılmasına dair razılıq əldə edilmişdir.

2007-ci ilin yanvarında Gürcüstan paytaxtında Bakı-Tbilisi-Qars dəmir yolu bağlantısı layihəsinin son variantı iştirakçı dövlətlərin nəqliyyat nazirlərinin görüşündə müzakirə olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev digər mühüm məsələlərdə olduğu kimi, BTQ dəmir yolu bağlantısının da reallaşmasında öz qəti mövqeyini ortaya qoymuşdur.

Nazirlər Kabinetinin 8 may 2006-cı ildə keçirilən birinci rübün yekunlarına həsr olunmuş iclasında ölkə başçısı bu məsələyə toxunaraq demişdir: "Əminəm ki, biz bu il Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə başlaya bilərik. İslam Əməkdaşlıq Təşkilatının zirvə görüşündə iştirak etmiş Türkiyə hökumət nümayəndələri ilə də bu barədə çox ətraflı söhbət aparılmışdır. Azərbaycan tərəfi bir daha bildirmişdir ki, günü bu gün Azərbaycan öz tərəfindən maliyyə öhdəliyi götürməyə hazırdır və artıq gələcək konsorsiumun konturları görünməkdədir. Bu yol bizə çox lazımdır. Bu yol Asiyanı Avropa ilə birləşdirir və yolun tikintisi hər cəhətdən Azərbaycanın milli maraqlarının daha da dolğun şəkildə təmin olunmasına xidmət göstərəcəkdir".

Prezident İlham Əliyev sonrakı illərdə də BTQ dəmir yolu layihəsinin zəruriliyindən danışaraq demişdir ki, bu yol, bizi daha sıx birləşdirəcək, regional əməkdaşlığı daha da genişləndirəcəkdir. Bu layihənin həyata keçirilməsi həm də regiona sabitlik, sülh gətirəcək və ümumiyyətlə ölkələrimizin, xalqlarımızın iqtisadi

maraqlarına cavab verir. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan isə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsindən danışarkən onu "Dəmir İpək yolu" adlandırmışdır. O, Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri də daxil olmaqla, üç böyük layihənin regionda sabitliyə və iqtisadi inkişafa böyük töhfə verdiyini demiş və xalqlarımızın firavanlığı üçün əhəmiyyətini vurğulamışdır. Prezident Ərdoğanın fikrincə, Asiya ilə Avropanı birləşdirəcək dəmir yolu layihəsi regional əməkdaşlığa daha bir nümunədir. Azərbaycanda dövlət siyasəti elə şəkildə tənzimlənib ki, buradakı iqtisadi layihələrin böyük əksəriyyəti ölkəmizin dövlət müstəqilliyinin əbədiləşdirilməsinə, beynəlxalq aləmdəki nüfuzumuzun artmasına, xalqımızın yeganə problemi olan Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli şəkildə həllinə zəmin yaradılmasına xidmət edir. Məsələyə bu baxımdan yanaşandaBakı-Tbilisi-Qars (BTQ) dəmir yolu layihəsinin daha çox siyasi əhəmiyyət kəsb etdiyinin şahidi oluruq. Hətta desək ki, bu layihə Avropa üçün iqtisadi səmərədən daha çox siyasi önəm daşıyır yanılmarıq. 828 kilometr olan Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinin nəzərdə tutulan vaxtda istifadəyə verilməsi üçün Azərbaycan-Gürcüstan-Türkiyə arasında aparılan danışıqlarda qədim "İpək yolu"nun təşəbbüskarı kimi Azərbaycanın əhəmiyyətli rolu daim qiymətləndirilir. Əvvəllcə Transsibir magistralı ilə daşınan yükləri Gürcüstandan keçərək İstanbula çatdıracaq, oradan isə Avropaya istiqamətlənəcək bu layihə əsas tranzit mərkəzinə çevrilməklə iqtisadi səmərəlilik baxımından da böyük əhəmiyyətə malikdir. Bu yol ölkəmizin qeyri-neft məhsullarının, dünya bazarlarına çıxarılan keyfiyyətli ərzaqların ixracını da sürətləndirəcək. Ən əsası isə yüklərin mənzil başına yaxın yolla, qısa müddətdə çatdırılması təmin olunacaq. Ümumiyyətlə, bu layihənin reallaşması nəticəsində yüklərin Çin, Hindistan, Fars körfəzi, Pakistan, İran, Azərbaycan, Gürcüstan üzərindən keçməklə, Şimalda Rusiya və oradan Avropaya, Qərb istiqamətində isə Gürcüstan və Türkiyə üzərindən Avropaya daşınmasına imkanlar

yaradacaq. İnanırıq ki, BTQ, eləcə də digər layihələr təkcə Cənubi Qafqazın deyil, bütövlükdə Avropanın inkişafında, Avropa ilə Asiyanın birləşməsində mühüm rol oynayacaq. Qeyd olunduğu kimi Azərbaycan Asiyanı Avropa ilə birləşdirən körpüdür. Ölkəmiz indi öz nəqliyyat infrastrukturunu möhkəmləndirir. Müxtəlif şəhərlərdə yeni hava limanları tikilir, magistral yollar salınır. Azərbaycanın dəniz nəqliyyatına, dəmir yoluna böyük investisiyalar qoyulur. Bir sözlə, nəqliyyat sektoru gələcəkdə çox mühüm rol oynayacaqdır.

Ölkə iqtisadiyyatının inkişafında çox mühüm rol oynayan Azərbaycan Dövlət Dəmir Yolu beynəlxalq və regional layihələrdə iştirak etməklə öz infrastrukturunu qoruyub saxlayır, əhalinin, dövlət strukturlarının daşımalara olan tələbatının ödənilməsi istiqamətində fəaliyyətini uğurla davam etdirir. Regiona sabitlik, əmin-amanlıq və iqtisadi səmərə gətirə biləcək hər hansı layihənin reallaşmasında Azərbaycanın iştirak etməsi istənilən prizmadan yanaşanda çox gərəklidir. Araşdırmalara görə, gələcəkdə Rusiyanın da Bakı-Tbilisi-Qars dəmir yolunun xidmətlərindən istifadə etməsi istisna olunmur. Rusiya bu layihəyə maraq göstərir və bu sahədə mümkün əməkdaşlıq imkanlarını araşdırır. Ekspertlərin fikrincə, Rusiyanın Bakı-Tbilisi-Qars layihəsində iştirak etməyə maraq göstərməsi təbiidir. Rusiya bu nəqliyyat arteriyasına qoşulsa, Çindən tutmuş Avropa ölkələrinə qədər müxtəlif dövlətlərdən yüklər qəbul edə və ya əksinə göndərə bilər. Əksər təhlilçilər tezliklə digər dövlətlərin də bu layihəyə maraq göstərəcəyini düşünürlər. Beləliklə də qədim İpək yolunun Dəmir İpək yoluna çevrilməsi prosesi başlanır.

2016-cı ilin oktyabrında Gürcüstan Respublikasının paytaxtı Tbilisi şəhərində Beynəlxalq İpək Yolu Forumu keçirilmişdir. Forumda Azərbaycan, Türkiyə, Çin, ABŞ, Əfqanıstan, Sloveniya, İtaliya, Çexiya və Qazaxıstan daxil olmaqla 30 ölkənin, eləcə də 20 beynəlxalq maliyyə və donor təşkilatının rəhbərləri iştirak etmişlər. Ümumilikdə, forumda 1000-ə yaxın qonaq iştirak edib. Bu isə Bakı-

Tbilisi-Qars layihəsinə olan beynəlxalq marağın göstəricisi kimi qəbul edilirdi.

30 oktyabr 2017-ci il Azərbaycan üçün kifayət qədər mühüm tarixi məqamlarla yadda qalacaq. Həmin gün Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasimi keçirilmişdi. Qeyd edək ki, 2007-ci il, noyabr 21-də Gürcüstanın Marabda kəndində Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin tikintisinin təməli qoyulub və hər üç ölkənin prezidentlərinin iştirakı ilə Gürcüstanın Marabda stansiyasında açılış mərasimi keçirilib. Bakıdan başlayaraq Gürcüstanın Tbilisi və Axalkalaki şəhərlərindən keçərək Türkiyənin Qars şəhərinə gedən, beləliklə, Azərbaycan ilə Türkiyəni, Şərqlə Qərbi birləşdirən bu dəmir yolu xətti ölkəmizə böyük siyasi və iqtisadi dividentlər gətirəcək. Xüsusi olaraq vurğulamaq lazımdır ki, Bakı-Tbilisi-Qars layihəsinin reallaşmasında məhz Azərbaycanın böyük rolu olub. Bu amil isə bir daha onu göstərir ki, Azərbaycan regional və qlobal əhəmiyyətli layihələrin əsas iştirakçısı və təşəbbüskarıdır. Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasimində çıxış edən Prezident İlham Əliyev bir sıra mühüm məqamlara aydıqlıq gətirdi. Dövlətimizin başçısı bildirdi ki, çoxları, xüsusilə bəzi xarici dairələr Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə inanmırdılar. Hesab edirdilər ki, bu layihənin reallaşması mümkün deyil. Bunun reallaşması üçün lazım olan texniki imkanlar və maliyyə vəsaiti imkan verməyəcək ki, bu layihə həyata keçirilsin. Lakin üç ölkə sübut etdi ki, bu, mümkündür. Azərbaycanın güclü iradəsi, qarşılıqlı dəstək, inam olan yerdə bütün işləri görmək mümkündür. Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi bunun sübutudur. Prezident İlham Əliyev regional əməkdaşlığa ən böyük töhfə verən ölkələr - Azərbaycan, Gürcüstan və Türkiyənin bundan sonra da daim bir yerdə olacaqlarına, bir-birlərini dəstəkləyəcəklərinə əminliyini ifadə etdi. Hesab edirəm ki, bu əməkdaşlıq region və dünya üçün təhlükəsizlik, sülh və inkişaf vəd edir. Prezidentin fikrincə, bu nəqliyyat dəhlizləri Avrasiyanın iqtisadi inkişafı üçün yeni imkanlar açacaq. Bakı-Tbilisi-Qars dəmir yolu tək ölkələri deyil, qitələri

birləşdirəcək. Qeyd edək ki, BTQ-yə beynəlxalq diqqət və dəstək də çox böyükdür. Dəmir yolu xətti Avropa İttifaqı, ABŞ və Mərkəzi Asiya ölkələri tərəfindən dəstəklənir. Dəmir yolunun ilk illərdə tranzitdən minimal gəliri təxminən 50 milyon dollara bərabər olacaq. Sözsüz ki, bütün bunlar ilkin proqnozlardır. Zaman keçdikcə Bakı-Tbilisi-Qars layihəsinin region və dünya üçün əhəmiyyəti daha aydın görünəcək. Avropa İttifaqının Azərbaycan nümayəndəliyinin bəyanatında qeyd edilir ki, qurum yeni dəmir yolu dəhlizini alqışlayır. Avropa İttifaqı əmin olduğunu bildirir ki, bu layihə sərmayələr, infrastrukturun təkmilləşdirilməsi və logistikanın əlaqələndirilməsi ilə birgə bağlantıların daha yaxşı qurulmasına, yeni biznes imkanlarının yaranmasına və ticarətin artmasına səbəb olacaq. Bu və digər amillər dəmir yolu xəttinin əhəmiyyətini artırmaqla yanaşı, ölkəmizin beynəlxalq aləmdə nüfuzunu daha da gücləndirəcək. Beləliklə, bu dəmir yolu Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi istər siyasi, istərsə də iqtisadi cəhətdən müstəqil dövlətimiz üçün mühüm əhəmiyyət kəsb edir.

# II BÖLMƏ
# Siyasi hakimiyyət

## 1.Hakimiyyətin məzmunu və təzahür xüsusiyyətləri

Siyasəti cəmiyyət həyatının digər sferalarından (yəni iqtisadi, sosial, mənəvi və s.) fərqləndirən cəhət onun hakimiyyət vasitəsilə həyata keçirilməsidir.Siyasət qrupların, birliklərin, təşkilatların tələbatlarının, səylərinin və qarşılıqlı fəaliyyətinin başlıca obyekti kimi çıxış edir.Lakin hakimiyyət siyasətdə daha gizli hadisə kimi səciyyələnir və onun təbiətini üzə çıxarmaq asan məsələ deyildir.Hakimiyyətin mahiyyətinin düzgün başa düşülməsi, onun reallaşmasının üsul və formalarının müəyyənləşdirilməsi siyasət aləminin mahiyyətinə daha dərindən nüfuz etməyə imkan yaradır.Hakimiyyət və hakimiyyət münasibətləri siyasətin məğzini təşkil edir.Məşhur Amerika sosioloqu T. Parsonsun fikrincə, pul iqtisadiyyatda necə əhəmiyyət kəsb edirsə, hakimiyyətdə siyasətdə elə əhəmiyyətə malikdir.Hakimiyyət cəmiyyətin və siyasətin fundamental başlanğıcıdır, siyasətin əsaslarına xidmət edir.O, sabit insan birliklərinin mövcud olduğu hər yerdə-ailədə, istehsal kollektivlərində, müxtəlif təşlikat və müəssisələrdə, bütün dövlətdə mövcuddur.Dövlətdə o, ali, siyasi hakimiyyət kimi təzahür edir.Siyasi təlimlər tarixində siyasət və hakimiyyət həmişə ayrılmaz, qarşılıqlı əlaqədə olan hadisələr kimi nəzərdən keçirilmişdir.Siyasi hakimiyyət ictimai xarakter daşıyır, sosial strukturun fəaliyyəti vasitəsilə təzahür edir, məcburetmə gücündən, əxlaqi təsirdən istifadə etməyi, ənənəyə, nüfuza əsaslanmağı nəzərdə tutur.

Hakimiyyət anlayışı siyasi nəzəriyyənin başlıca anlayışlarından biri olmaqla siyasəti, siyasi münasibətləri, siyasi təsisatları, dövləti başa düşməyə kömək edir. Hakimiyyət münasibətlərinə hələ antik dövrün mütəfəkkirləri-Platon, Aristotel və başqaları xüsusi diqqət yetirmişlər, sonralar Makiavelli, Hobbs, Lokk, Kant və digər

orta əsr və yeni dövr filosofları böyük maraq göstərmişlər.Qeyd edək ki, hakimiyyət problemi müasir Qərb politoloqlarının diqqət mərkəzindədir.

Hazırda bu ictimai hadisənin müəyyənləşdirilməsində müxtəlif mövqelər nəzərə çarpır.Bəzi müəlliflər hakimiyyəti bir nəfərin və ya bir qrupun öz iradəsini həyata keçirmək imkanları kimi müəyyənləşdirirlər.Digər müəlliflər hakimiyyəti idarəetmə məsələlərinə münasibətdə subyektlər arasında əlaqə, fəaliyyət münasibətləri kimi açıqlayırlar.Başqaları isə mövcud qaydaların özünəməxsus dəyişdirilməsinə imkan yaradan, yaradıcı başlanğıc kimi nəzərdən keçirirlər.Eyni zamanda hakimiyyəti mütəşəkkil sinfi zorakılıq kimi əsaslandırmağa səy göstərən mövqelərdə də mövcuddur.

Hakimiyyətin təbiəti və mahiyyəti haqqında çoxsaylı konsepsiyalar mövcuddur.Onlardan marksist, biheviorçu, struktur-funksional (sistemli) və s. xüsusi əhəmiyyət daşıyır.

Marksist konsepsiyalarda hakimiyyət birinin digərləri üzərində hökmranlığı, mütəşəkkil qüvvəyə tabe olmaq kimi şərh edilir.Həmin konsepsiyalarda sinfi hökmranlıq-tabe etmək vurğulanır.Marks və Engelsə görə, hakimiyyətin başlıca cəhəti onun sinfi xarakter daşımasıdır.Burada əsas məsələ hökmranlıq və tabeçilik münasibətləridir.Marksizmə görə,hakimiyyətin mühüm əlaməti zorakılıqdır.Bununla bərabər marksist konsepsiyalarda mühüm əhəmiyyət kəsb edən bir ideyada diqqəti cəlb edir: ictimai tərəqqinin hərəkətverici qüvvəsi demokratiyanın inkişafıdır.İctimai inkişafda xalq kütlələrinin roluna aid marksist müddəa buna aydın sübutdur.

Hakimiyyətin müəyyənləşdirilməsinə biheviorçu yanaşma çərçivəsində rol oynamaq, davranış konsepsiyası, resursların mübadiləsi nəzəriyyəsi və başqaları fərqləndirilir. Biheviorçu konsepsiyada hakimiyyət digər fərdlərin və fərdlər qrupunun davranışını dəyişməyə imkan yaradan fərdlər və fərdlər qrupunun

şəxsiyyətlərarası münasibətləri kimi çıxış edir. Problemin mahiyyəti birinin digəri üzərində nəzarəti kimi açıqlanır.

Hakimiyyət münasibətləri nəzəriyyəsinə alman alimi Maks Veber böyük töhfə bəxş etmişdir. Veber hakimiyyətin müəyyənləşdirilməsi üçün pozitiv-sosioloji yanaşmanı əsas götürmüşdür.Onun konsepsiyasına görə, hakimiyyətin müəyyənləşdirilməsinin əsasını subyektlər arasındakı münasibətlərin uyğunsuzluğu və bununla bağlı bir subyektin digərinə təsiri təşkil edir.

Hakimiyyət nəzəriyyəsinin daha da inkişafında böyük xidmət struktur-funksionalizmə məxsusdur. Belə ki, T.Parsonsa görə, hakimiyyət siyasi sistemin təhlilində əhəmiyyətli yer tutur, o, makro sosial sistemin xüsusiyyəti və ya atributudur. Sistemli yanaşma hakimiyyətin ictimai strukturlarda və funksiyalarda sirrini axtarmağa istiqamətlənir. Hakimiyyət münasibətlərinin əsasında funksiyaların ziddiyyəti və uyğunsuzluğu, vətəndaş cəmiyyətinin və dövlətin imkanları dayanır. Fərdin rolu və statusundan asılı olaraq,hakimiyyət subyektin bu statusundan əmələ gələn fəaliyyət qabiliyyəti kimi müəyyənləşdirilir. Hakimiyyətin müəyyənləşdirilməsinə müxtəlif yanaşmaların mövcudluğu nəinki hakimiyyətin, eləcə də siyasətin çoxölçülü olmasını ifadə edir. Hakimiyyətin bilavasitə daşıyıcısı hakimiyyətin subyekti və obyektidir.Siyasi hakimiyyətin subyektləri mürəkkəb, çoxsəviyyəli struktura malikdir. Hakimiyyət həmişə ikitərəfli səviyyədə mövcuddur, yəni qarşılıqlı fəaliyyətdə olan subyektə və obyektə malikdir. Hakimiyyət tabelikdə olan obyektsiz mövcud ola bilməz. Hakimiyyət müəyyən təşkilatda təbii-tarixi zərurətdən yaranır və bütövlükdə cəmiyyətin, ayrılıqda müxtəlif sosial birliklərin mənafelərinin reallaşmasını təmin etməyə imkan yaradır. Məhz bu tələbat müəyyən təşkilatda hakimiyyətin fəaliyyətinin təhrikedici qüvvəsi kimi çıxış edir. Cəmiyyətdə hakimiyyət münasibətlərinin çoxcəhətli xarakter daşımasını (iqtisadi hakimiyyət, ailədə hakimiyyət, elmi nüfuz hakimiyyəti, kilsə, məscid hakimiyyəti, ideologiya hakimiyyəti, dinihakimiyyət, partiya hakimiyyəti və s.) nəzərə

almaqla siyasi hakimiyyətin spesifikliyini müəyyənləşdirmək zəruridir. Siyasi hakimiyyət o yerdə başlanır ki, orada təsiretmə qabiliyyəti təşəkkül tapır və eyni zamanda ictimai qruplarda, təbəqələrdə, siniflərdə, bütövlükdə bütün cəmiyyətdə yayılır. Siyasi hakimiyyət mütəşəkkil məcburetməyə (zorakılığa), hüquqa və nüfuza əsaslanan böyük sosial qruplar arasındakı iradi münasibətlərdir. Belə bir cəhəti nəzərə almaq zəruridir ki, siyasi hakimiyyət dövlət hakimiyyəti ilə eynilik təşkil etmir, istər-istəməz hər cürsiyasi hakimiyyət dövlət hakimiyyəti deyildir.Məsələn, hakimiyyət münasibətləri siyasi partiyaların, ictimai hərəkatların və təşkilatların fəaliyyətində təşəkkül tapır. Dövlət hakimiyyəti siyasi hakimiyyətin yüksək formasıdır, daha tam ifadəsidir, siyasi hakimiyyətin daha inkişaf etmiş növüdür. Eyni zamanda siyasi hakimiyyət idarəetmə ilə eynilik təşkil etmir. Çünki idarəetmə elə vasitədir ki, onun köməyi ilə hakimiyyətin məqsədyönlü təsir göstərməsi gerçəkliyə çevrilir. Hakimiyyətin siyasi fəaliyyətinin başlıca vəzifələri ilə bərabər onun mahiyyətini araşdırarkən onu hakimiyyətin resursları və ya mənbəyi ilə əlaqələndirmək zəruridir. Siyasi fikir tarixində bu məsələyə həmişə əhəmiyyətli dərəcədə diqqət yetirilmişdir. Məsələn, N.Makiavelli hesab edirdi ki, hakimiyyəti uğurla həyata keçirmək üçün insanın maddi mənfəətə və özünü qoruyub saxlamağa cəhdini nəzərə almaq tamamilə vacibdir. Müasir dövrdə siyasət adamları da bu cəhətə üstünlük verirlər.

Siyasi hakimiyyətin və hakimiyyət münasibətlərinin mahiyyəti məsələsini təhlil edərkən hakimiyyətin həyata keçirilməsində zorakılıq probleminə də xüsusi diqqət yetirilməlidir. Hakimiyyət münasibətlərinin bütün sisteminin özəyini “hökmranlıq etmək-tabeçilik” münasibəti təşkil edir. Cəmiyyətdə tabeçilik əsasən dərk edilmiş xarakter daşıyır. Belə halda hakimiyyətin iradəsi başlıca sosial qrupların mənafeyi ilə üst-üstə düşür, hakimiyyət əvvəlcə hüquqa və nüfuza əsaslanır.Tabeçilik isə həm fəal və eləcə də passiv formada ifadə edilə bilər. Məcburetmə subyektin öz

məqsədinə çatması üçün obyektin müqavimətini zorakılıqla aradan qaldırmaqla, hakimiyyətin əldə edilməsinə istiqamətlənir. Lakin zorakılıq hakimiyyətin iradəsinin reallaşması üçün yeganə vasitə deyildir. Zorakılıq güclü hakimiyyətin yox, hakimiyyətin gücünün ifadəsidir.

Ümumiyyətlə, konkret formalarından asılı olmayaraq, hakimiyyət anlayışı ümumi səpkidə bir qrupun digərlərinə hökmranlıq etmək, sərəncam vermək, onları idarə etmək hüququnu və imkanlarını ifadə edir. O,bəzilərinin digərlərinə münasibətdə öz iradəsini həyata keçirmək, onların fəaliyyətinə və davranışına müəyyən təsir göstərmək qabiliyyəti və imkanıdır; bu məqsədlə nüfuzdan, hüquqdan, zorakılıqdan və digər vasitələrdən istifadə edilir.

## 2.Hakimiyyətdə siyasi lider və siyasi liderliyin xüsusi əhəmiyyəti

Siyasi lider sadəcə olaraq, yalnız siyasi proseslərə rəhbərlik edən, cəmiyyətin idarə olunması funksiyasını həyata keçirən, siyasi təşkilatları tənzimləyən insan deyildir. Siyasi lider o şəxsdir ki, hadisələrin gedişini və siyasi proseslərin istiqamətini dəyişdirmək qabiliyyətinə malikdir. Bu səbəbdən də hər bir baş nazir, siyasi partiyanın rəhbəri, parlament üzvü, hökmdar siyasi lider səviyyəsinə yüksəlmir. Siyasi liderlər cəmiyyətdəki siyasi prosesləri fəallaşdırırlar. Onlar cəmiyyətin tarixi inkişaf gedişini müəyyən edən proqram irəli sürürlər. Siyasi liderlərin təzahürü və fəaliyyəti çoxcəhətli mahiyyət daşıyır. Onun meydana çıxması, fəaliyyəti və davranışı, hər şeydən əvvəl, obyektiv və universal hadisədir. Siyasi liderə olan ehtiyac ondan irəli gəlir ki, insanların birgə fəaliyyətinin bütün növləri təşkilatçılıqdan, qarşıya qoyulan məqsədlərin reallaşmasının rasional vasitələrindən xeyli asılıdır. Həmin funksiyanı yalnız nüfuza, yüksək fəallığa və enerjiyə malik olan

insanlar həyata keçirirlər. Siyasi liderin fəaliyyətinin universallığı isə onunla müəyyənləşir ki, insanların, qrupların, təşkilatların və hərəkatların birgə fəaliyyətinin bütün növləri liderə ciddi ehtiyac duyur. Siyasi liderlik anlayışı siyasi lider anlayışı ilə sıx əlaqə kəsb edir. Siyasi liderlik liderlə tabelikdə olanın qarşılıqlı fəaliyyətinin çoxcəhətli və mürəkkəb mexanizmini əks etdirir. Liderlik anlayışının başlıca komponentləri bunlardır: şəraiti dəqiq, düzgün qiymətləndirmək qabiliyyəti, qarşıya qoyulan vəzifələrin həlli yollarını və vasitələrini dürüst müəyyənləşdirmək; bu və ya digər qərarın həyata keçirilməsi məqsədilə insanların düşüncəsinə təsir göstərmək, onları səfərbər etmək, idarə edənlərin liderə şüurlu və könüllü tabeçiliyi və s. liderlik liderlə hər hansı qrupun, birliyin üzvləri arasında xüsusi mexanizmə malik olan qarşılıqlı fəaliyyətdir. Deməli, liderlik liderlə müqayisədə daha geniş anlayışdır.

Liderliyin məzmununda formal və qeyri-formal liderlikdə öz əksini tapır. Rəhbərlik funksiyalarının təsisatlaşması formal liderlik anlayışında ifadə olunur. Formal liderlik müəyyən şəxsin mövcud təşkilatın üzvlərinə nüfuzlu təsirini mənalandırır. Qeyri-formal liderlik isə lider rolunu yerinə yetirməyə subyektiv qabiliyyəti, hazırlığı və bacarığı səciyyələndirir; o, həm də qrup üzvlərinin, bu və ya digər şəxsin rəhbərlik etmək hüququna malik olmasını təsdiqləməsidir. Siyasi hakimiyyətin başlıca funksiyası bütövlükdə cəmiyyətə, ölkəyə, dövlətə və onun hər bir sferasına (siyasi, iqtisadi, sosial, mənəvi-ideoloji) rəhbərlikdən, onları idarə etməkdən ibarətdir. Bu funksiyanın konkret məqsədi cəmiyyətdə qayda yaratmağa, orada ayrı-ayrı təbəqələrin müxtəlif mənafeləri arasında meydana çıxan ziddiyyətlərin həllinə nail olmaqdır. Başlıca funksiyanın yerinə yetirilməsində hər bir siyasi hakimiyyət özünəməxsus vəzifələri, öz konkret proqramı, öz resursları və s. ilə fərqlənir. Eyni zamanda hər bir siyasi hakimiyyət özünün təşəkkül tapdığı andan etibarən, ölkənin konkret şəraitinə, iqtisadi və siyasi vəziyyətinə uyğun olaraq, bütövlükdə cəmiyyətin idarə olunmasının strategiya və taktikasını işləyib hazırlayır. Siyasi müxalifətə

münasibətə xüsusi diqqət yetirilir, cəmiyyətin müxtəlif təbəqələrinə münasibətdə konkret siyasət hakimiyyətin resurslarının və s. təmin olunması siyasəti işlənib hazırlanır. İkinci funksiya birinci əsas funksiya ilə sıx qarşılıqlı əlaqədir. Bu funksiya siyasi sistemin özünün optimallaşdırılmasından, onun təsisatlarını hakimiyyətə gələn qüvvələrin məqsədlərinə, vəzifələrinə və öz mahiyyətinə uyğunlaşdırmaqdan ibarətdir.

Siyasi hakimiyyətin üçüncü funksiyası ölkədə sabitliyin təmin edilməsinə nail olmaqdır. Burada sabitliyin təmin olunması bilavasitə hakimiyyətin legitimliyindən, birsözlə, xalqın hakimiyyəti tanımasından asılıdır. Siyasi hakimiyyətin qeyd etdiyimiz bu funksiyaları qarşılıqlı əlaqədədir. Əlbəttə, siyasi hakimiyyət üç funksiya ilə məhdudlaşmır, onun digər əhəmiyyətli funksiyaları da vardır. Qeyd edək ki, hakimiyyətin strukturu özünəməxsus növlərə də malikdir. Hakimiyyətin bütün növləri onun resurslarına və cəmiyyət həyatının ayrı-ayrı sferalarına uyğun şəkildə təzahür edir. Siyasi ədəbiyyatdahakimiyyətin növləri sistemində iqtisadi, sosial, mədəni-informasiya və məcburetmə daha çox mənalandırılır.

İqtisadi hakimiyyətiqtisadi resurslar, müxtəlif maddi sərvətlər üzərində nəzarəti həyata keçirir. Bu hakimiyyət ilk növbədə siyasi hakimiyyətlə sıx əlaqədədir.

Sosial hakimiyyətinfərqləndirici cəhəti isə ondan ibarətdir ki, ictimai həyatın digər sahələrində də nəzərə çarpır və iqtisadi hakimiyyətlə daha çox bağlılıq kəsb edir. İqtisadi hakimiyyətdən fərqli olaraq, sosial hakimiyyət sosial pillələrin-statusun, vəzifənin, güzəştin və imtiyazların paylanması qabiliyyətidir.

Hakimiyyətin digər əhəmiyyətli növü sayılan mədəni-informasiyanı fərqləndirən əsas cəhət odur ki, burada insanların idarə edilməsi intelektual qabiliyyətə, informasiyaya əsaslanır. Yəni mədəni-informasiya hakimiyyəti insanlar üzərində biliklərə, informasiya və onların yayılması vasitələrinə əsaslanan hakimiyyət növüdür. Siyasi hakimiyyətin bu növü yalnız hökumətin fəaliyyəti barədə, cəmiyyətdəki vəziyyətlə bağlı obyektiv məlumat yaymaqla

mənalanmır, eləcə də cəmiyyət üzvlərinin ictimai şüuruna aldadıcı, çaşdırıcı təsir göstərmək qabiliyyəti ilə səciyyələnir.

Siyasi hakimiyyətin məcburetmə növü zorakılıq resurslarına əsaslanması və fiziki qüvvə tətbiq etmək vasitəsilə insanlar üzərində nəzarəti ilə fərqlənir. Məcburetmə hakimiyyətinin siyasi hakimiyyətdə mühüm xüsusiyyətlərindən biri məhz dövlət tərəfindən açıq şəkildə güc tətbiq edilməsidir.

İnsanın inkişafı ilə birlikdə təzahür edən, uzun və mürəkkəb təkamül yolu keçən və daim təkmilləşən hakimiyyətin təkamül prosesi müasir dövrdədə davam edir.

Cəmiyyət həyatında hər bir hadisə başlanğıca malik olduğu kimi siyasi hakimiyyətdə azad demokratik seçkilər nəticəsində və eləcə də əhalinin xeyli təbəqələri üçün faciəyə səbəb olan, milyonlarla insanın həyatı üçün təhlükə törədən hərbi çevrilişlə, qanlı inqilabla bağlı formalaşa bilər. İlk başlanğıcdan qanuna əsaslanan, cəmiyyətin özü və xarici dövlətlər tərəfindən rəsmən tanınan hakimiyyətə isə xalq başqa münasibət bəsləyir. Əvvəlcə bu cür səlahiyyət əldə edən hakimiyyət cəmiyyətlə siyasi hakimiyyətin qarşılıqlı münasibətlərində konsensusun yaranmasına istiqamətlənir və nəticədə xalq belə hakimiyyətin rəhbər rolunu qəbul edir.Rəsmi hakimiyyətin qanuniliyinin cəmiyyət, xalq tərəfindən etiraf olunması onun köklü xarakteristikasıdır. Eyni zamanda siyasi hökmranlığın əsas tiplərinin, hakimiyyətin həyata keçirilməsinin xarakteristikasını da açıqlamaq lazımdır. Müasir siyasi elmdə hökmranlıq tiplərinin müəyyənləşdirilməsinin banisi Maks Veber hesab olunur. Veberə görə, hakimiyyətin həyata keçirilməsinin üç başlıca-leqal, ənənəvi və harizmalı tipləri vardır. Hakimiyyətin leqal (hüquqi, formal möhkəmləndirilməsi) tipi təşəkkül tapan hakimiyyət münasibətlərinin tərəflərinin rasional və məqsədyönlü fəaliyyət ilə bağlıdır. O, şəxsiyyətin tabeçiliyi ilə deyil, məhz qanunların müəyyən edilməsi ilə səciyyələnir, formal-hüquqi başlanğıca əsaslanır, səriştəliliklə və xüsusi peşəkarlıq hazırlığı ilə fərqlənən bürokratik idaretmə ilə bağlıdır.  Qərb nəzəriyyəçiləri

adətən leqal hakimiyyəti sabit demokratik təsisatlara və plüralist xarakterə malik olan cəmiyyətin praktikası ilə əlaqələndirirlər. Hökmranlığın ənənəvi tipinin əsasını siyasətin subyektlərinin ənənəvi fəaliyyəti təşkil edir. Hakimiyyətin həyata keçirilməsinin belə tipi hər şeydən əvvəl, ənənəvi mövcud olan qaydaya və hakimiyyətə inama istiqamətlənir. Bu tip hakimiyyət patriarxal idarəetmə strukturunun üstünlük təşkil etdiyi cəmiyyətə aid edilir. Hakimiyyətin harizmalı tipi affektli (qeyri-təbii) fəaliyyətə əsaslanır və qeyri-adi şəraitdə inkişaf edən cəmiyyətlər üçün səciyyəvidir. O, mahiyyət etibarilə nüfuz hakimiyyətidir. Hakimiyyətin həyata keçirilməsinin bu tipinə, hər şeydən əvvəl, ictimai inkişafın keçid və ya dönüş mərhələlərində, inqilabi dəyişikliklər, dərin və mürəkkəb sosial-siyasi islahatlar, milli müharibələr dövründə təsadüf olunur. Siyasi elmdə siyasi hakimiyyətin həyata keçirilməsinin digər təsnifatı da təklif edilir: demokratik, avtoritar, totalitar, antaqonist cəmiyyətlərdə müvafiq siniflərin hökmranlığı və s.

Siyasi elmdə "legitimlik" anlayışı heç də onun "qanuniliyinin" hüquqi şərhi mənasında başa düşülmür. Siyasi mənada legitimlik hakimiyyətin vətəndaşlar tərəfindən müdafiəsi və etirafı kimi başa düşülür. Bu halda legitimlik idarə edənlərin idarə olunanların əksəriyyəti tərəfindən təsdiqlənməsi, qəbul olunmasıdır, legitimliyin əldə edilməsi isə üzərində hakimiyyətin həyata keçirildiyi insanlar tərəfindən müdafiə olunmasıdır. Bunu legitimlik anlayışının terminoloji mənası da təsdiqləyir. Legitimlik termini latın dilində legitimus sözündən götürülüb, qanuni mənasını ifadə edir. Hakimiyyətin legitimliyi məsələsini ilk dəfə elmə alman politoloqu M.Veber gətirmişdir.Siyasi hakimiyyətin legitimliyi xeyli dərəcədə siyasi liderin, dövlət xadimlərinin fəaliyyətinin xarakteri ilə bağlıdır. Ölkə başçısı legitimliyin təminatçısı kimi çıxış etməlidir. Belə olan təqdirdə hakimiyyətin rasionallığı və ölkədə sabitliyin qərarlaşması üçün zəmin yaranmış olar. Legitimləşmənin obyektini bir qayda olaraq, dövlət və onun orqanları, siyasi rejim, həyata keçirilən siyasi və iqtisadi islahatlar və s. təşkil edir.

Legitimləşmənin liberal və praqmatik tərəfləri vardır.Liberal (demokratik) görüş ondan ibarətdir ki, yalnız elə hakimiyyəti təsdiqləmək lazımdır ki, o, demokratik qaydalar əsasında formalaşmışdır. Praqmatik nöqteyi-nəzərə görə, hakimiyyətin legitimliyi problemində başlıca cəhət onun formalaşması qaydaları yox, məhz hakimiyyətin cəmiyyətdəki situasiyanı idarə etmək qabiliyyətidir. Onun vəzifəsi sabitlik vəziyyətini saxlamaqdan, effektli fəaliyyətdən ibarətdir.

Siyasi ədəbiyyatda hakimiyyətin legitimliyinin təmin edilməsinin üç səviyyəsi fərqləndirilir: ideoloji, struktur və personallaşdırma (şəxsləndirmə).

İdeoloji səviyyə hakimiyyətin cəmiyyətdə nəzərə çarpan ədalətə aid təsəvvürə uyğun gəlməsinə, vətəndaşların idarəedənlərin peşəkarlığına inam ölçüsünə, eləcə də hakimiyyətin obyektinin (vətəndaşların) onun daşıyıcıları, subyekti ilə eyniləşdirilməsinə əsaslanır. Məsələn, keçmiş SSRİ-də işlədilən belə bir şüar həmin eyniləşdirməyə misal ola bilər: “Xalq və partiya ayrılmazdır”.

Struktur səviyyə-adət halını almış hakimiyyət orqanlarının formalaşması qaydasının mövcud qaydalara əsaslanması ilə bağlıdır, bu, bütövlükdə hakimiyyətə inama istiqamətlənir.Sabit dövlət təsisatlarının fəaliyyəti, seçki prosesi qaydalarının dəyişməzliyi vətəndaşlar tərəfindən hakimiyyətin müdafiə olunmasına əsas yaradır.

Personallaşdırma(şəxsləndirmə) səviyyə-hakimiyyətin mövcud təsisatlarının bəyənilməsinəyox, məhz konkret surətdə hakimiyyətdə olan şəxslərə əsaslanır. Bu sistem nəticəsində hakimiyyət liderlə eyniləşdirilir, hakimiyyətin etiraf olunması isə insanların şüurunda şəxsi seçimlə və şəxsi siyasi idealla əlaqələndirilir.

Hakimiyyətin həyata keçirilməsinin ən mühüm nəzəri və praktiki problemi hakimiyyətin bölünməsi problemidir. Hakimiyyətin yayılması, onun strukturu hakimiyyətin bölünməsi (üfüqi) və mərkəzlə yerli orqanlar arasında hakimiyyətdən istifadə edilməsi (şaquli bölgü) hüququ ilə bağlıdır.

Hakimiyyətin bölünməsi dövlətdə hakimiyyətin təşkili prinsipidir. Həmin prinsipə görə, qanunverici, icraedici və məhkəmə hakimiyyəti müxtəlif insanlar və dövlət orqanları tərəfindən həyata keçirilir.Bu baxımdan hakimiyyətin həmin qollarından biri özünə aid məsələlərin həllində digərinin səlahiyyətinə qarışa bilməz (Konstitusiyaya görə). Eyni zamanda hakimiyyətin qolları məsələləri qarşılıqlı nəzarətdə həll edirlər və özünə məxsus əks mövqedə dayanmaq sistemini yaradırlar. Hakimiyyətin bölünməsi ideyası ilk dəfə qədim dövrdə Siseron tərəfindən irəli sürülmüşdür. Siserona görə, dövlət daxildən vahid olmamalıdır, dövlət bölünən olmalıdır. XVII əsrdə İngiltərədə meydana gələn levellerlərin siyasi təlimində isə hakimiyyətin bölünməsi ideyası daha geniş inkişaf etdirilmişdir. Hakimiyyətin bölünməsi konsepsiyası XVII-XVIII əsrlərdə C.Lokk, Ş.Monteske, D.Medison tərəfindən formalaşdırılmışdır. Bu konsepsiyaya görə, hakimiyyətin bölünməsi dövlət tərəfindən idarəçiliyin daha effektli həyata keçirilməsinə imkan yaradır. Hüquqi dövlətin siyasi praktikasında demokratik cəmiyyət haqqında təsəvvür hakimiyyətin bölünməsi prinsipindən ayrılmazdır. Hakimiyyətin üç qola ayrılması hakimiyyətin vahid sisteminin yoxluğu kimi başa düşülməməlidir. Hakimiyyət bölgüsünün iki səviyyəsi mövcuddur: ümummilli (mərkəzi) və yerli. Mərkəzlə yerli orqanlar arasında aralıq səviyyələr ola bilər, məsələn, regional səviyyə. Bu halda region yəni vilayət, şəhər, ölkə hakimiyyətə malik olmaqla, konstitusiya ilə mərkəzi hakimiyyətin qəsdindən müdafiə olunur. Hakimiyyətin belə sistemi federal sistem adlanır. Əgər hakimiyyətin regional səviyyəsi yoxdursa və ya o, zəifdirsə, mərkəzdən asılıdırsa,onda hakimiyyətin bu cür sistemi unitar sistem adlanır.ABŞ, Hindistan, Rusiya federal idarəetmə sisteminə malikdir. İngiltərə və Azərbaycan isə unitar sistemə malik dövlətlərdir. Qeyd edək ki, hakimiyyətin üç qolunun-icraedici, qanunverici və məhkəmə orqanlarının səlahiyyətinin normativ cəhətdən möhkəmləndirilməsinin təhlilinə xüsusi diqqət yetirilir. Hüquqşünasların fikrincə, bu cür təhlil siyasi təsisatların (dövlətin,

partiyaların, siyasi hərəkatların və s.) öz səlahiyyətləri çərçivəsində bir-birindən asılılığına imkan yaratmır, bir-birinə nəzarət etməyi reallaşdırır, hakimiyyətin bütövlükdə onun hər bir qolunun əlində cəmləşməsinin qarşısını alır və demokratiya üçün təhlükəni aradan qaldırır. Hakimiyyətin bölünməsi konsepsiyasının nümayəndələri hakimiyyət orqanları sistemində parlamentə daha çox üstünlük verirlər və qeyd edirlər ki, icraedici hakimiyyətlə məhkəmə hakimiyyətinin fəaliyyətinin həddini yalnız ali qanunverici təsisat (parlament) müəyyən etməlidir.

Hazırda dünya ölkələrinin xeyli hissəsində hakimiyyətin bölünməsi sistemini fərqləndirən xüsusiyyət ondan ibarətdir ki, vətəndaşların müəyyən hissəsi, məsələn, orduda, məhkəmədə fəaliyyət göstərən dövlət qulluqçuları qanunvericilikdə əksini tapan qaydaya əsasən parlamentə seçilmək hüququndan məhrumdurlar.

Avropanın demokratik dövlətlərində, eləcə də ABŞ-da hakimiyyətin bölünməsi sistemində məhkəmə hakimiyyəti əhəmiyyətli rol oynayır. Məhkəmə hakimiyyəti qanunverici və icraedici orqanların fəaliyyətində qanunçuluğa əməl edilməsinin real təminatçısıdır. Eyni zamanda qanunverici təsisatla icraedici təsisatarasında mürəkkəb və çətin həll edilən ziddiyyətlər olduqda məhkəmə hakimiyyəti ədalətli və obyektiv münsif kimi çıxış edir.

Müasir siyasi ədəbiyyatda siyasi liderlik probleminə böyük diqqət yetirilir və bu problem şəxsiyyətin siyasətin subyekti kimi öyrənilməsi ilə bağlıdır. Liderlik sosial həyatda ümumi fenomen kimi çıxış edir. O, hər yerdə, insanın həyat fəaliyyətinin bütün növlərində: sahibkarlıq sferasında və dini sahədə, partiyaların və həmkarlar ittifaqının fəaliyyətində, dövlət müəssisələrində və qeyri-formal təşkilatlarda, ailə həyatında və kütləvi fəaliyyətdə mövcud-dur.Liderliyin müxtəlif təzahürləri arasında öz əhəmiyyətinə görə, siyasi liderlik daha çox fərqləndirilir və bu səbəbdən də onun mahiyyətinin aydınlaşdırılmasına siyasət adamları xüsusi diqqət yetirirlər.İngilis dilində “leader” sözündən götürülən “lider” anlayışı aparıcı, başqa insanları idarə edən, onlara təsir göstərən anlamını

ifadə edir. Liderlik şəxsiyyətin qrupa, təşkilata, cəmiyyətə və ya onun böyük hissəsinə daim prioritet təsiridir. Bu anlayış liderlə idarə olunanların qarşılıqlı münasibətlərinin mürəkkəb mexanizmini əks etdirir.

Liderlik anlayışının başlıca tərkib hissələrinə liderin situasiyanı dəqiq qiymətləndirmək, qarşıda duran vəzifələrin düzgün həllini müəyyənləşdirmək, hər hansı qərarın yerinə yetirilməsi ilə bağlı insanların səfərbərliyi məqsədilə onların zəkasına və enerjisinə təsir göstərmək qabiliyyəti aiddir. Siyasi liderliyi liderliyin müxtəlif növləri arasında fərqləndirən cəhət onun hakimiyyət fenomeni ilə sıx əlaqə kəsb etməsidir. O, hakimiyyətin xüsusi növü kimi çıxış edir və buna görə də son dərəcə geniş xarakter daşıyır. Siyasi liderlik insanların siyasi fəaliyyətinə şəxsi təsir göstərmək qabiliyyətini idarə etməklə, qrupda, təşkilatda, cəmiyyətdə sosial-siyasi və psixoloji qarşılıqlı münasibətlər və oriyentasiya sistemi ilə şərtlənir. Liderlik insanların birgə fəaliyyətinin təşkilinin obyektiv qanunauyğunluğudur.Müasir politoloji ədəbiyyatda liderlik anlayışının məzmunu müxtəlif mövqelərdən araşdırılır. Bu anlayışın müəyyənləşdirilməsində L.Edinqer, V.Amelin, C.Oppenheymer, M.Veber və rus politoloqları V.P.Puqaçev, A.İ.Solovyev mühüm rol oynamışlar. Rəhbərlik baxımdan siyasi liderlər avtoritar, totalitar, liberal, demokratik və s. liderlərə ayrılırlar.

Hazırda bütövlükdə iki idarəetmə metoduna-demokratik və avtoritar idarəetməyə diqqət yetirilir. Demokratik siyasi lider insanların ləyaqətinə və şəxsiyyətinə hörmətlə yanaşır, onların uğurlar əldə etmələri üçün maksimum imkanlar yaratmağa çalışır. Belə liderlər tənqiddən ehtiyat etmir, insanlara xeyirxah münasibət bəsləyir, mənafelərin ümumiliyi üçün şərait yaradır.

Avtoritar siyasi lider isə qeyri-demokratik idarəetmə üsullarına meyl edir, tənqidə yol vermir, güc tətbiq etməyə əsaslanır. Hər bir siyasi lider onu müdafiə edən və ona bilavasitə yardım göstərən, fikirləri və siyasi proqramı ilə razılaşan insanlar

qrupu ilə bağlıdır. Həmin insanlar siyasi liderin yaxın əhatəsini təşkil edirlər. Qeyd edək ki, siyasi prosesin inkişafı üçün böyük siyasi xadimin şəxsiyyətinə pərəstiş xüsusi təhlükə törədir.Şəxsiyyətə pərəstiş bir nəfərin rolunu həddindən artıq şişirtmək, onun fövqəltəbii keyfiyyətlərə malik olduğunu iddia etmək, tarixi prosesin inkişafını onun həlledici təsiri ilə əlaqələndirməkdən ibarətdir. Onun əsasında bütövlükdə hakimiyyətə pərəstiş dayanır. Bu, əsasən totalitar rejim şəraitində tipik hadisə kimi nəzərə çarpır və totalitar tipin öz sisteminin zəruri elementi kimi çıxış edir.

## 3.Dövlət başlıca siyasi təsisatdı.Dövlətin mənşəyi, mahiyyəti vəsəciyyəvixüsusiyyətləri

Dövlət cəmiyyətin siyasi sisteminin mərkəzi elementi, siyasi hakimiyyətin başlıca daşıyıcısı kimi çıxış edir. O, siyasi fəaliyyətin və siyasi münasibətlərin başlıca subyekti və eləcə də əsas obyektidir. Dövlət yarandığı andan etibarən cəmiyyətin həyatına qarşılıqlı sinfi münasibətlərin və ziddiyyətlərin tənzimlənməsində, şəxsiyyətin hüquq və azadlıqlarının təmin olunmasında böyük rol oynayır. Bu səbəbdən də fəlsəfi, sosioloji, politoloji ədəbiyyatda dövlət probleminin öyrənilməsinə xüsusi diqqət yetirilir. Dövlət siyasi elmin ən fundamental problemlərindən biridir. Dövlətin mənşəyi və mahiyyəti, cəmiyyətlə dövlətin nisbəti,dövlət aparatının fəaliyyəti, şəxsiyyətin və dövlətin qarşılıqlı münasibətləri məsələsinə dair müxtəlif mülahizələr irəli sürülmüşdür.

Dövlətin tədqiqinə dair üç müxtəlif mövqe təşəkkül tapmışdır.

1.Siyasi fəlsəfi-antik ənənələrdən irəli gələn və dövləti ümumi işin həlli, cəmiyyətdə insanların birgə həyatının təmin edilməsi vasitəsi hesab edən istiqaməti (Aristotel, Russo və b).

2.Sinfi cəmiyyətin siniflərə bölünməsini və sinfi mübarizə vasitələrini doğuran görüşlər.

3.Hüquqi dövləti hüququn və qanunun mənbəyi kimi qəbul edən ideya istiqaməti.

Dövlət məcburetmə mexanizminə, hüquqi sanksiyalara, xüsusi fəaliyyət aparatına əsaslanan cəmiyyətin siyasi sisteminin başlıca siyasi təsisatı, ümumi hakimiyyət orqanı kimi çıxış edir. Onun müəyyənləşdirdiyi başlıca xətt siniflərin və sosial qrupların mənafelərinin uyğunlaşdırılmasından, istifadəsindən və reallaşdırılmasından ibarətdir. Digər siyasi təsisatlardan fərqli olaraq, dövlət ümumilik kəsb edən əlamətə malikdir, elə buna görə də, o, nəinki xüsusi, partikulyar, eləcə də ümumi mənafeləri ifadə etməyə qadirdir. Dövlətin mənşəyi (genezisi) problemi həmişə geniş təhlil predmeti olmuşdur.Dövlət haqqında ilk təsəvvür hakimiyyətin ilahi mənşəyi ideyası ilə bağlıdır.

Teokratik konsepsiyalarda o, "ilahi qüvvənin işi" kimi nəzərdən keçirilir. Qədim Şərq və yunan xalqlarının miflərində ali hakimiyyət nümayəndələrini ilahi mənşəyə malik olması göstərilirdi. Müasir dövrdə dövlətin ilahi mənşəyi məsələsi dinlərdə daha çox ifadə olunur.

Patriarxal nəzəriyyə dövlətin meydana gəlməsini tayfa və qəbilələrin birləşməsinin təbii və üzvi nəticəsi kimi nəzərdən keçirir.

Antropoloji nəzəriyyəAristotelin əsərlərindən çıxış edərək dövlətin təzahürünü insanın ictimai təbiəti ilə əlaqələndirir. Aristotel iddia edirdi ki, insan ictimai (siyasi) və kollektiv varlıq kimi müəyyən birgəyaşayış formalarında mövcud ola bilər, həmin birgə yaşayış formalarından ən yüksəyi isə dövlətdir. Eləcə də Konfutsi dövləti böyük ailə hesab edərək, hökmdarları itaətdə olanlarla məhz bu cür qarşılıqlı münasibətlərə çağırırdı.

Əsasını ictimai müqavilə ideyası təşkil edən müqavilə nəzəriyyəsi tərəfdarları (T.Hobbs, C.Lokk, J.J.Russo) hesab edirdilər ki, dövlət insanlar arasında könüllü razılığın məhsuludur.

XIXəsrdə işğal nəzəriyyəsi geniş yayıldı (L.Qumploviç, F.Oppenheymer). Həmin nəzəriyyəyə görə, dövlətin meydana

gəlməsinin başlıca səbəbi kimi bəzi xalqların digərlərini işğal etməsi etiraf edildi. Eyni zamanda işğalçılıq müharibələrinin cəmiyyətdə sinfi münasibətlərin təşəkkülünə imkan yaratması və müəyyən dərəcədə dövlətin meydana gəlməsi prosesini şərtləndirməsi də qeyd olunurdu. Dövlətin mənşəyinə dair sosial-iqtisadi nəzəriyyə, eləcədə marksizm hesab edir ki, dövlətin təzahürünün başlıca səbəbi əmək məhsuldarlığının inkişafı prosesidir. Dövlət öz inkişafının ilk mərhələlərində ənənəviformada çıxış etmişdir,adət və normalar əsasında kortəbii formalaşmışdır. Yəni dövlət genetik cəhətdən (mənşə etibarilə) cəmiyyətin tarixi inkişafının, onun differensasiyasının və sinfi ziddiyyətlərin təzahürünün məhsuludur,funksional baxımdan o, cəmiyyətin bütövlüyünü təmin edir, hakim siniflərin-dairələrin mənafeyinin müdafiəçisidir, struktur nöqteyi-nəzərdən hakimiyyətin fəaliyyətinin forma və üsullarını, idarəetmə aparatının xüsusiyyətlərini möhkəmləndirir.

Dövlətin mahiyyətli əlamətlərinə siyasi kateqoriya olmaq etibarilə müəyyən ərazi və sərhədin mövcudluğu, onun əhaliyə, vətəndaşlara malik olması, ərazinin həcmi və əhalinin sayı, vergilərin yığılması, xüsusi məcburetmə aparatının və məmurların mövcudluğu aiddir. Dövlət elə xüsusi şəxslər təbəqəsindən ibarətdir ki, məhz hakimiyyəti öz əlində mərkəzləşdirir. Siyasi hakimiyyət dövlət sayəsində və onun vasitəsilə suverenliyi, başqa sözlə, ölkə daxilində aliliyi və xaricdən qeyri-asılılıq kimi öz mühüm cəhətlərini reallaşdırır. Eyni zamanda dövlət ictimai həyatı tənzimləyən və hamı üçün məcburi xarakter daşıyan hüquqi yaradıcılıq, qanunların hazırlanması kimi çox mühüm funksiyaları yerinə yetirir. Bu təsisat cəmiyyətin bütün təşkilatlarının fəaliyyətini qaydaya salır, həmin fəaliyyətin əsas formalarını, onun metodlarını, qeyri-dövlət orqanlarının səlahiyyətlərini müəyyənləşdirir. Maks Veberin qeyd etdiyi kimi, zorakılıqdan qanuni istifadə edilməsi yalnız dövlətə xasdır.

Beləliklə, dövlət cəmiyyətdə siyasi hakimiyyətin təşkili və həyata keçirilməsi formasıdır, o, xüsusi aparatın köməyi ilə fərdin və cəmiyyətin mövcudluğunun əsasını həqiqətən təmin edən spesifik siyasi təsisatdır. Dövlətin mahiyyətinin və başlıca parametrlərininbaşa düşülməsi dövlətlə vətəndaş cəmiyyətinin nisbəti probleminin aydınlaşdırılmasına imkan yaradır. Bu problem mühüm siyasi əhəmiyyət kəsb edir, çünki onun həlli vasitəsilə ictimai həyatın dövlət tərəfindən tənzimlənməsinin real həcmini dərk edə bilərik, eləcə də vətəndaşın şəxsi həyatı sferasına dövlətin təsirinin həddini və imkanlarını müəyyənləşdirmək mümkündür. Vətəndaş cəmiyyəti dövlətlə bərabər elə sosial məkanın bir hissəsini təşkil edir ki, insanın həyat fəaliyyəti buradan sızılır. O, özündə qeyri-dövlət əlaqələrinin və muxtar fərdlərin münasibətlərinin məcmusunu birləşdirir. Vətəndaş cəmiyyəti sferasının ayrılığının başlıca meyarı özünü idarə və özünü təşkilin başlanğıcında inkişaf edən insanların qarşılıqlı sosial münasibətlərinin müəyyən sahəsinin dövlətdən ayrılmasıdır. Vətəndaşcəmiyyəti çərçivəsində formal-məhdudlaşdırma imkanları insanın həyat fəaliyyətinə birbaşa müdaxilə və onun siyasi-hüquqi tənzimlənməsi minimuma endirilir. Vətəndaş cəmiyyətinin əsasını fərdin iqtisadi azadlığı, iqtisadi və siyasi hakimiyyət arasındakı həddin müəyyənliyi, insanın həyat fəaliyyəti mənbələrinin müxtəlifliyi və iqtisadi seçim azadlığı təşkil edir. Vətəndaş cəmiyyətinin miqyası və hüdudu, onun inkişaf səviyyəsi xeyli dərəcədə dövlətdən asılıdır. Əgər demokratik dövlət şəxsi həyat fəaliyyəti formaları üçün əlverişli şərait yaradırsa, totalitar (avtoritar) dövlət isə, əksinə, vətəndaş cəmiyyətinin normal fəaliyyətinə mane olur, onu son dərəcə məhdudlaşdırır. Dövlətlə vətəndaş cəmiyyətinin prinsipial fərqi onların strukturunda ifadə olunur. Əgər dövlət tabeçilik kəsb edirsə, vətəndaş cəmiyyəti isə tabeçiliyə malik olmayan xarakter daşıyır. Eyni zamanda dövlət və vətəndaş cəmiyyəti öz mövcudluq üsullarına görə də fərqlənirlər. Dövlət demokratik və eləcə də totalitar (avtoritar) quruluşa malikdirsə, vətəndaş cəmiyyətinə isə daxilən demokratik dəyərlər

aiddir. Cəmiyyətin siyasi sistemi vahid normativ dəyərlər əsasında təşkil olunan siyasi subyektlərin qarşılıqlı fəaliyyətinin məcmusudur. Siyasi sistemin özəyini təşkil edən dövlətin özü də geniş mənada insanlar arasındakı əlaqədir. Yeganə ali hakimiyyətə tabe olan siyasi birlikdir. Dövlət insanların davranışının məcburi surətdə tənzimlənməsini nəzərdə tutan və normalar sistemi əsasında idarə olunan təşkilatdır. Onun məqsədi ümumi mənafeyi və ümumi iradəni ifadə etməkdən, insan hüquqlarını və azadlıqlarını qorumaqdan ibarətdir. Müasir dövlət insanın ümumi hüquqlarını, başlıca sosial-siyasi və hüquqi dəyərləri təmin edən təsisatlarsız təsəvvür edilə bilməz.

Siyasi birlik olmaq etibarilə dövlət vahid iqtisadi və mədəni məkan çərçivəsindədir. Eyni zamanda dövlət müasir dünya birliyi çərçivəsində mövcuddur və fəaliyyət göstərir. Dövləti cəmiyyətlə eyniləşdirmək olmaz. Çünki cəmiyyət dövlətə nəzərən daha geniş anlayışdır. Cəmiyyətin bir hissəsi olmaq etibarilə dövlət onun siyasi və sosial təşkili formasıdır. Yəni dövlət cəmiyyətin başlıca siyasi təsisatı olmaqla, insanlar arasında tarixən qərarlaşan siyasi, sosial-siyasi əlaqələr və hüquqi münasibətlər sistemidir. Dövlət normativ qaydalara və iqtisadi komplekse malik olmadan müstəqil suveren dövlət ola bilməz. Məhz dövlət konkret məkan-zaman çərçivəsində mövcud olan kollektiv fenomendir. Beləliklə, dövlət milli və çoxmillətli qurumun yaratdığı və müəyyən ərazidə möhkəmlənən siyasi təsisatdır.

Dövlətin formaları və tipləri çoxaspektlidir. Tarixi inkişafda təzahür edən bu müxtəliflik müasir dövrdə 200-dən artıq dövlətin mövcud olduğu dövrdə də nəzərə çarpır. Marksizmə görə, dövlətin təsnifatı üçün əsas və yeganə meyar onun sosial-iqtisadi, sinfi mahiyyəti götürülür. Bu baxımdan dövlətin quldarlıq, feodal, burjua, sosialist, eləcə də kapitalizmə və ya sosializmə keçid oriyentasiyalı tipləri müəyyənləşdirilir. Marksizmdən fərqli olaraq dövlətin tiplərinin təsnifatına formasiyalı münasibətlə yanaşı, sivil mövqedən yanaşma da diqqəti cəlb edir. Sivil yanaşmanın əsasını

ictimai inkişafın mənəvi-əxlaqi və mədəni amilləri təşkil edir. Həmin amillər cəmiyyətin sosial və dövlət həyatına güclü təsir göstərir.

Ali hakimiyyət təşkili üsuluna görə dövlət monarxiya və respublikaya bölünür. Müasir dövrdə dünya dövlətlərinin üçdə biri monarxiya formasında mövcuddur və bu ölkələrin əksəriyyəti də konstitusiyalı monarxiyadır. Monarxiyada dövlət başçısı irsi qaydada müəyyənləşir, monarxın seçilməsi heç bir dövlət orqanından və əhalidən asılı olmayaraq qərarlaşır. Konstitusiyalı monarxiyada hökmdarın hakimiyyəti Konstitusiya ilə məhdudlaşdırılır. Böyük Britaniyada, Belçikada, Hollandiyada, İsveçdə, Norveçdə, Danimarkada, İspaniyada, Yaponiyada bu idarəetmə forması mövcuddur. Belə dövlətlərdə parlament və hökumət xeyli vəzifə həyata keçirir. Respublika quruluşlu dövlətlərdə dövlət hakimiyyətinin yüksək orqanlarının formalaşması seçkilər vasitəsilə baş verir. İcraedici hakimiyyətin başçısı sayılan prezidentin seçildiyi respublikalar (ABŞ, Fransa və b.)prezidentli respublika hesab olunurlar. Parlament tərəfindən formalaşdırılan icra hakimiyyətinin hökumətə məxsus olduğu respublikalar parlamentli respublikalar adlanır (İngiltərə,Almaniya, İtaliya və b.).

Dövlət forması hakimiyyətin ərazi və sinfi-siyasi təşkilin xarici təzahürüdür və özündə üç elementi birləşdirir. Buraya ərazi quruluşu, idarəetmə forması və siyasi rejim aiddir. Dövlətin əlamətə görə iki başlıca forması-unitar, federativ və keçid forma olan konfederasiya fərqləndirilir.

Unitar dövlət (unitar latın dilində "unis" sözündən götürülüb bir, vahid deməkdir) vahid konstitusiyaya və vətəndaşlığa ali hakimiyyətin vahid orqanları sisteminə malik olması və ölkənin bütün ərazisində məhdudlaşdırılmayan fəaliyyəti ilə səciyyələnir. Unitar dövlət mono (vahid) milli dövlətdir. Belə dövlətlərdə əgər digər millətlərin nümayəndələri mövcuddursa, onların problemi muxtar birliklərin köməyi ilə həll olunur. Buraya Böyük Britaniya, İspaniya, Finlandiya və b.dövlətləri aid etmək olar. Belə dövlətdə

bütün dövlət aparatının mərkəzləşdirilməsi həyata keçirilir və yerli orqanların nəzarəti altında birbaşa və yaxud dolayı yolla tətbiq edilir. Mərkəzi hakimiyyətin yerli orqanlar üzərində hansı nəzarəti həyata keçirməsindən asılı olaraq, mərkəzləşdirilmiş və yerli unitar dövlət fərqləndirilir. Eyni zamanda belə dövlətdə vahid məhkəmə sistemi həyata keçirilir, birkanallı vergi sistemindən istifadə edilir.

Federasiya(latın dilində "fedus" sözündən götürülüb ittifaq, birlik anlamını ifadə edir) federal qanunvericilikdə nəzərdə tutulan məsələlərin həllində müəyyən müstəqillik səlahiyyətlərinə malik bir neçə dövləti və ya dövlət birlikləri (ştatlar, respublikalar, mahallar, kantonlar və s.) birləşdirən ittifaq dövlətidir. Onun ərazisi federasiya subyektlərinin ərazisindən ibarətdir. Lakin həmin subyektlər tam suverenliyə malik deyillər və federasiya tərkibindən çıxmaq hüququndan məhrumdurlar. Federasiyada dövlət aparatının iki səviyyəsi mövcuddur: federal ittifaq və respublika; burada palatalı federal parlament yaradılır, bu palatalardan biri federasiya subyektlərinin mənafeyini əks etdirir. Onun formalaşması üçün əhalinin sayından asılı olmayaraq, bərabər nümayəndəlik prinsipindən istifadə edilir. Federasiyalı dövlətdə ikili vətəndaşlıq mövcud ola bilər, amma buna baxmayaraq federal qanunun federasiyasubyektlərinin qanunu üzərində aliliyi prinsipi məcburidir. Belə dövlətdə federasiyasubyektləri özünün məhkəmə sisteminə malikdir, ikikanallı vergi sistemindən istifadə edilir: federal vergi və federasiyasubyektlərinə aid olan vergi. Bu cür dövlətdə başlıca məsələ ittifaqla federasiyasubyektləri arasında səlahiyyətlərin həddinin dürüst müəyyənləşdirilməsidir. Federasiyada ərazi inzibati əlamət (ABŞ) və ya milli-ərazi əlaməti (keçmiş SSRİ), eləcə də qarışıq əlamət (indiki Rusiya) üzrə təşkil olunur. Ərazi federasiyası federasiya subyektlərinin dövlət suverenliyinin xeyli dərəcədə məhdudlaşdırılması ilə səciyyələnir və onun federasiyadan çıxmaq hüququ yoxdur. Milli federasiya bir neçə millət və xalqın mövcudluğu ilə bağlıdır,bufederasiya ərazi federasiya ilə müqayisədə böyük suverenliyə malikdir.

Konfederasiya müstəqil dövlətlərin daimi və ya müvəqqəti ittifaqı olub, onların ümumi məqsədlərini təmin etmək üçün yaradılır. Konfederasiya özünün ümumi qanunvericilik, icraedici və məhkəmə orqanlarına malik deyildir. Onun üzvləri suverenliyini, vergi sistemini, ordusunu, vətəndaşlığı (məsələn, İsveçrə) saxlayır. Konfederasiyalar adətən uzun ömürlü olmur. O, ya dağılır, ya da federasiya şəklində təşkil olunur. Dövlət çoxsaylı funksiyalarının həyata keçirilməsini, cəmiyyətin siyasi cəhətdən idarə olunmasını peşəkar məmurlardan ibarət çoxsaylı dövlət aparatının vasitəsilə reallaşdırır. Ənənəvi olaraq, dövlət hakimiyyətinin üç başlıca qolu fərqləndirilir: ayrı-ayrı ölkələrdə müxtəlif cür təşkil edilən və adlandırılan qanunverici, icraedici və məhkəmə hakimiyyəti.

Bürokratizm (latın dilində büro-stol, yunan dilində kratiya-hakimiyyət deməkdir, yəni stol hakimiyyəti mənasını ifadə edir)icraedici hakimiyyətin mərkəzinin cəmiyyət üzvlərinin iradəsindən ayrılmasına əsaslanan korporativ idarə sisteminin iyerarxiyalı təşkilidir. O, dövlət aparatının strukturunda xüsusi qapalı mühiti təşkil edir. Bürokratiya praktiki olaraq özünü dövlətlə, öz mənafeyini isə dövlətin mənafeyi ilə eyniləşdirir. Onun üçün dövlət məsələləri dəftərxana məsələlərinə, dəftərxana işçiləri isə dövlət işçilərinə çevrilir. Bürokratiyanın yeganə ideologiyası vəzifə-pərəstlik-mənsəbpərəstlikdir. Qərb politologiyasında bürokratiya fenomeni Maks Veber tərəfindən nəzərdən keçirilmişdir.

Müasir ictimai praktikada dövlətin inkişafında iki aydın meyl müşahidə olunur. Bir tərəfdən, makroiqtisadi problemlərin həllində, mürəkkəbləşən bütün sosial və siyasi proseslərin tənzimlənməsində, informasiya axının artmasında dövlətin rolu və əhəmiyyəti güclənir. Bütövlükdə bəşəriyyətin,sivilizasiyanın hazırkı inkişaf mərhələsində dövlətin fəal iştirakı olmadan çoxsaylı problemləri həll etməyə kifayət qədər əsas yoxdur. Hər bir siyasi sistemin inkişafı ilə bağlı olaraq siyasi təsisat kimi dövlətdə təkamül prosesinə məruz qalır və təkmilləşir. Müasir dövlətin inkişafında ciddi əhəmiyyət kəsb edən bir sıra meyllər nəzərə çarpır. Dünya

dövlətlərinin əksəriyyətinin inkişafında başlıca meyl onların əsil demokratik hüquqi dövlət yaradılmasına səy göstərmələridir. Bu cəhət Avropa ölkələrinin əksəriyyətinin konstitusiyasında öz əksini tapmışdır.Müasir demokratik dövlət, hər şeydən əvvəl, hüquqi mahiyyət kəsb edir. Hüquqi dövlətin müasir modeli nəinki keçmişə aid olan təcrübəni, eləcə də son illərin dəyəri hesab olunan demokratik prinsiplərin müəyyən hissəsini özündə əks etdirir. Bəs hüquqi dövlət deyəndə biz nəyi nəzərdə tuturuq? Fikrimizcə bu, cəmiyyətdə dövlət quruculuğu çərçivəsində xalqın suverenliyinin həyata keçirilməsinin hüquqi normasıdır. Yəni, hakimiyyət səlahiyyətləri belə dövlətin prinsiplərinin ayrı-ayrı ölkələrdə həyata keçirilməsi müxtəlif formada təzahür edir. Müasir dünyada dövlətin inkişafında əhəmiyyətli yeni meyllərdən biri də dövlətin suverenliyinin demokratik baxımdan məhdudlaşdırılmasıdır. Məsələn, əvvəllər dünya birliyi tərəfindən hər hansı dövlətə müəyyən məsləhət verilməsi həmin dövlətin daxili işlərinə qarışmaq kimi başa düşülürdüsə, müasir dövrdə bir sıra problemlərin, xüsusilə bəşəriyyət üçün böyük təhlükə sayılan hərbi, nüvə, ekoloji, təhsil, əhalinin artımı və digər məsələlərin həllində lazım gələrsə, bu və ya digər dövlətin suverenliyinin məhdudlaşdırılması həyati zərurətə çevrilir. Eyni zamanda dövlətin müasir inkişafının ən yeni meyllərindən biri də iqtisadi və siyasi həyatın inteqrasiyasıdır. Məsələn, buraya Avropa İqtisadi Birliyinə daxil olan dövlətləri və bu dövlətlərin Avropa parlamenti tipli xüsusi dövlətlərarası hakimiyyət orqanının yaradılmasını aid etmək olar.

Müasir dövlətin inkişafının yeni spesifik meyillərindən biri cəmiyyətin birliyini təmin edən xüsusi ideologiyayamalik olmasıdır. İdeologiya vasitəsi ilə cəmiyyəti vahid şəkildə birləşdirməklə dövlət öz inteqrasiya funksiyasını yerinə yetirir. Belə olmayan təqdirdə dövlət bütün cəmiyyətin mənafeyini ifadə etmək imkanlarından xeyli dərəcədə məhrum olur. Dövlətin yeni inkişaf meyllərindən biri də bürokratik idarəetmə aparatının ixtisar olunmasıdır, onun saxlanmasına ayrılan xərclərin azalmasıdır. Dövlət qulluqçuları olan

bürokratlar həmişə özlərinin eqoist mənafelərini hər şeydən üstün tutur ki, bu da dövlətin mənafeyinə ziddir.

Müasir dövlətin inkişafında ən yeni qlobal meyl hüquqi dövlətin və vətəndaş cəmiyyətinin təşəkkülüdür. Hüquqi dövlət əsasən iki başlıca prinsip zəminində-dövlətin qoyulan qaydalara əməl etməsi və vətəndaşların müdafiəsi ilə əlaqədar yaranır.

Müxtəlif siyasi partiyalar və təşkilatlar vasitəsilə yaradılan nümayəndəlik; seçki sistemi; parlamentarizm; konstitusiyalıq və hakimiyyətin bölünməsi; məscidin (kilsənin), bütövlükdə dinin dövlətdən ayrılması; azadlığın bərabərlik üzərində üstünlüyü hüquqi dövlətin başlıca təsisatlarına və prinsiplərinə aiddir.Hüquqi dövlətə xas olan qarşılıqlı nəzarətin bu prinsipi (vətəndaşların ümumi seçki sistemi və seçki prosesi vasitəsilə hakimiyyətə nəzarət etmək imkanının əldə olunması) alman filosofu İ.Kant tərəfindən işlənib hazırlanmışdır.Burada qanunverici də ayrıca vətəndaş kimi qanuna tabe olmalıdır.

Legitim hakimiyyət özünün cəmiyyətdə qərarlaşması və möhkəmlənməsi üçün hüquq formasında ifadə olunur. Hüquqi dövlətdə fərdin azadlığının təminatçısı kimi hüquq çıxış edir. Şəxsiyyətin, mülkiyyətin, mənzilin, mənəvi azadlığın və s.toxunulmazlığın təmin olunmasında və eləcə də vətəndaşlar arasındakı münasibətlərin tənzimlənməsində hüquq mühüm rol oynayır. Vətəndaş cəmiyyətinin normal mövcudluğu və fəaliyyəti, onun əsas təsisatları, prinsipləri və dəyərləri üçün başlıca təminatı hüquq yaradır. Vətəndaş cəmiyyəti demokratik dövlətin ən əhəmiyyətli tərəfidir. Siyasi birlik olan dövlət vahid iqtisadi və mədəni-mənəvi məkana malik olmaqla yanaşı, həm də müəyyən sosial mühitdə, o cümlədən dünya birliyi çərçivəsində mövcuddur.

Dövlətlər arasında təşəkkül tapan beynəlxalq münasibətlərin təbiəti çox məzmunludur.Bu mürəkkəb qarşılıqlı münasibətlərə ilk aydınlıq gətirən Fukinnidin (b.e.ə.V əsrdə) “Pelopennos müharibəsinin tarixi” adlı kitabı, eyni zamanda Siseronun “Ədalətli

müharibələr" haqqında təsəvvürləri hesab edilir. Müharibə və sülh məsələləri həmişə siyasi elmdə mühüm yer tutmuşdur.

Dünya siyasəti nəzəriyyəsi və ya beynəlxalq siyasət nəzəriyyəsi siyasi reallığın qlobal kontekstini şərh və təhlil edir, dünyanın yeni inkişaf meylini üzə çıxarmağa çalışır. Dünya ölkələri və xalqlarının böyük hissəsinin dünya siyasətinə qoşulması beynəlxalq münasibətlərin mürəkkəbləşməsini əks etdirir. Beynəlxalq siyasi münasibətlər dövlətlər və xalqlar arasında qarşılıqlı əlaqənin əsası kimi səciyyələnir. Dövlətlər tərəfindən himayə olunan qarşılıqlı münasibətlərin siyasi səviyyəsi dövlətlər və xalqlar arasında iqtisadi, mədəni və digər əməkdaşlığın xarakterini müəyyənləşdirən əsas amildir. Yəni siyasi münasibətlər xalqlar arasında dövlətlərarası səviyyədə olan münasibətdir. Dövlətlə bərabər beynəlxalq münasibətlərin subyekti kimi həm də qeyri-dövlət təsisatları, təşkilatları və birlikləri də çıxış edirlər. Müasir dünyada bütün müstəqil dövlətlər arasında beynəlxalq münasibətlər mövcuddur.

Beləliklə, siyasi elmin başlıca anlayışları olan "siyasi hakimiyyət ", "siyasi proses", "siyasi rejim", "vətəndaş cəmiyyəti" və s. beynəlxalq münasibətlərə tətbiq edilmə mənasında mühüm əhəmiyyət kəsb edir.

## 4.Elektron hökumətin əsas fəaliyyət prinsipləri və əhəmiyyəti

Son illər inkişaf etmiş ölkələrdə demokratiyanı daha da tərəqqi etdirən amillərdən biri "Elektron Hökumət"in (ingilis dilində e-Government) formalaşdırılması hesab edilir. Hazırda dünyanın sənaye və texniki cəhətdən inkişaf etmiş ölkələrində "Elektron Hökumət" özünün yüksək inkişaf mərhələsinə qədəm qoymuşdur. Dünya birliyinə uğurla inteqrasiya olunan Azərbaycanda bu sahədə xeyli işlər görülmüş və

görülməkdədir.“Elektron Hökumət”- müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət qurumları tərəfindən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və e-xidmətlərin göstərilməsininə şərait yaradır. Yaradılanimkanların əsas məqsədi sosial xidmət təminatında dövlət qulluqçuları və vətəndaşlar arasında olan “məsafəni” azaltmaq, həmçinin, bu münasibətləri sadələşdirmək və şəffaflaşdırmaqdır. Dövlət orqanları tərəfindən elektron xidmətlərin geniş tətbiqi, onların sayının və keyfiyyətin artırılması, vətəndaşların xidmətlərdən məmnunluğunun yüksəldilməsi bu məqsədə çatmağın vasitələridir. Beynəlxalq təcrübəyə əsasən vətəndaşların dövlət orqanları ilə təmaslarının daha münasib şəkildə təşkili üçün “bir pəncərə” prinsipi əsasında təşkil olunan və dövlət orqanlarının göstərdiyi elektron xidmətlərin cəmləşdirildiyi “Elektron Hökumət” portalı tətbiq edilir. Ölkəmizdə “Elektron Hökumət”in formalaşdırılması beynəlxalq təcrübəyə əsaslanır və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramının (Elektron Azərbaycan)” təsdiq edilməsi haqqında Sərəncamı, “Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında” 23 may 2011-ci il tarixli Fərmanı və digər normativ hüquqi aktlarla fəaliyyəti üçün hüquqi baza yaradılmışdır.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyaları Nazirliyi bu sahədə görülən işlərin əlaqələndiricisi olaraq “Elektron Hökumət”in formalaşması üzrə digər dövlət orqanları ilə sıx fəaliyyət göstərir və müvafiq infrastrukturun yaradılması üzrə fəaliyyət həyata keçirir. Artıq elektron imzaların istifadəsi üçün Milli Sertifikasiya Xidmətləri Mərkəzi yaradılmışdır, dövlət qurumlarının informasiya sistemləri arasında informasiya mübadiləsini təmin edən infrastruktur qurulmuşdur, “Elektron Hökumət” portalı hazırlanaraq istifadəyə verilmişdir. Bütün dövlət qurumları bunlardan bəh-

rələnərək vətəndaşlara elektron xidmətlərin göstərilməsini təmin edə bilirlər. "Elektron Hökumət"in əsas fəaliyyət prinsipləri aşağıdakılardır:

-Azərbaycan Respublikasının mövcud qanunvericiliyin tələblərinə riayət edilməsi;

-İnformasiyalaşdırma sahəsində dövlət siyasətinin həyata keçirilməsi, dövlət və milli maraqların qorunması;

-İstifadəçilərə təqdim olunan məlumatların tamlığının, həqiqiliyinin, aktuallığının, təhlükəsizliyinin, mühafizəsinin sadə və operativ şəkildə əldə edilməsi imkanlarının təmin olunması;

-Dövlət qurumları arasında səlahiyyət və məsuliyyət bölgüsü.

"Elektron Hökumət"in əhəmiyyəti:

-Dövlət idarəçiliyində müasir texnologiyaların tətbiqini genişləndirməklə həyata keçirilən fəaliyyətin səviyyəsinin yüksəldilməsi və onlardan istifadə imkanlarının sadələşdirilməsi;

-Dövlət qurumlarının və yerli özünüidarəetmə orqanlarının işinin səmərəliyinin artırılması və təqdim olunan elektron xidmətlərin keyfiyyətinin yüksəldilməsi;

-İstifadəçilərə dövlət qurumları tərəfindən təqdim olunan elektron xidmətlərin optimallaşdırılması və yerinə yetirilməprosedurlarının sadələşdirilməsi;

-Elektron xidmətlər vasitəsilə istifadəçilərə təqdim olunan məlumatların həqiqiliyinin, tamlığının, etibarlılığının və sərbəst əldə olunmasının təmin edilməsi;

-İstifadəçinin sorğusuna əsasən məlumatların axtarılmasına və əldə edilməsinə sərf olunan vaxtın maksimum azaldılması;

-İstifadəçinin yerləşdiyi coğrafi məkandan asılı olmayaraq ölkənin bütün ərazisində təqdim olunan elektron xidmətlərdən istifadənin mümkünlüyü.

"Elektron Hökumət" virtual məkanın, müasir texnologiyaların imkanlarından, dövlət orqanlarında informasiyalaşdırmanın yüksək səviyyəsindən istifadə edərək ölkə vətəndaşlarına göstərilən xidmətlərin keyfiyyətcə yeni formada təqdim edilməsinə xidmət

edir. Elektron dövlət və ya e-dövlət- İKT-dən istifadə etməklə dövlətfəaliyyətinin informasiya aspektlərini həyata keçirmək üçün nəzərdə tutulmuş üsuldur. Elektron dövlətin fəaliyyətini İKT-nin köməyi ilə icraçı hakimiyyət (elektron hökumət), parlament (elektron parlament) və məhkəmə orqanları (elektron ədalət məhkəməsi) dəstəkləyir. AzərbaycandaElektron dövlətin yaradılması "Elektron Azərbaycan" proqramı daxilində həyata keçməli və dövlət idarəçiliyinin keyfiyyətinin artırılmasına yönəldilməlidir. E-dövlətə hazırlıq indeksinə görə, Azərbaycan lider ölkələr siyahısında olmasa da, bu istiqamətdə müəyyən işlər görülməkdədir. Dövlət orqanlarının hər biri yuxarıdan aşağıya, öz səlahiyyətləri çərçivəsində öz funksiyalarını həyata keçirirlər. İnternet şəbəkəsinin imkanlarından istifadə etməklə dövlət qurumlarının saytlarının yaradılması, orada bu təşkilatlar, onların strukturları haqqında məlumatın və lazımi sənədlərin yerləşdirilməsi, vakant iş yerlərinə müsabiqələrin elan edilməsi, bəzi kommunal borcların onlayn rejimdə ödənilməsi, abituriyentlərin qəbul imtahanları üçün sənədlərin verilməsi, elektron kitabxanaların yaradılması və s. kimi işlər reallaşdırılmışdır. Proqramda bir çox məsələlərlə yanaşı, dövlət orqanlarında elektron sənəd mübadiləsinin təşkili nəzərdə tutulur. Elektron sənəd dövriyyəsinin tətbiqi sənədlərin hazırlanması və emalına sərf olunan əməyin və vaxtın azalmasını, idarəçilikdə qərarların qəbul edilməsini, icra intizamının yüksəldilməsini və nəzarət mexanizminin sadələşməsini, əhaliyə xidmətin operativliyini, dövlət və özünüidarəetmə orqanlarının fəaliyyəti haqqındakı informasiya və xidmətlərə əlyetərliliyi, tabeçiliyində olan və digər təşkilatlarla əlaqələrin sürətləndirilməsini təmin etməyə imkan verir. Elektron dövlət (ing. e-government) anlayışı çox hallarda Elektron hökumət kimi nəzərdə tutulur. Lakin bu ifadə düzgün anlamda işlədilmir. Belə ki, Elektron hökumət Elektron dövlətin bir qoludur. Müasir beynəlxalq hüquqi sənədlərdə, əsasən insan hüquqları üzrə Avropa məhkəməsinin qərarlarında "government" dedikdə bütünlükdə dövlət nəzərdə tutulur. Analoji olaraq, "three branches

of government" ifadəsində yalnız hökumət deyil, dövlətin hər üç qolu nəzərdə tutulur. Hazırda elektron hökümətin qurulmasında elektron seçkilərin keçirilməsi tətbiq olunmaqdadır.

Demokratiya və texnologiyalar mərkəzinin (ing. Center for Democracy and Technology - CDT) direktoru Ceyms Dempsi Elektron dövləti bu cür təsvir etmişdir: Elektron dövlət İKT-dən istifadə etməklə hökuməti vətəndaşlar üçün daha əlyetərli, effektiv və məsuliyyətli etmək məqsədi daşıyır. Elektron dövlətə keçid dövlət qulluqçularının hər birinin iş otağının kompüterlə təchiz olunması demək deyildir. Əksinə, Elektron hökumətdə dövlət qulluqçuları ilə digər vətəndaşlar arasında qarşılıqlı münasibət dəyişməlidir.

Elektron dövlətin məqsədi öz idarəetmə fəaliyyətinə İKT-ni tətbiq etməklə dövlət xidmətlərini vətəndaşın, biznes dünyasının ixtiyarına vermək və daha təsirli və səmərəli bir idarəetməyə nail olmaqdır. E-dövlət xidmətləri hökumət vətəndaş (G2C), hökumət biznes (G2B), hökumət-hökumət (G2G), hökumət qulluqçu (G2E) və hökumət qeyri-kommersiya təşkilatları (G2N) əlaqələri üzərində qurulmuşdur.

G2B (government-to-business)- hökumət və biznesin qarşılıqlı əlaqəsi. Dövlət strukturları ilə özəl şirkətlər arasında elektron formada qarşılıqlı əlaqə metodlarının ümumi işarəsi

G2C (government-to-citizen)- hökumət və vətəndaşların qarşılıqlı əlaqəsi.

g2g- gap otaqlarında I’ve got to go (mən getməliyəm.) ifadəsinin abreviaturası.

G2G (government-to-government)- hökumətin dövlət qulluqçuları ilə, hökumətin hökümətlə qarşılıqlı əlaqəsi.

Beləliklə, elektron dövlət - İKT-dən istifadə etməklə dövlətfəaliyyətinin informasiya aspektlərini həyata keçirir. Buna misal olaraq ölkəmizdə beynəlxalq təcrübəyə əsaslanan “Asan” xidmətin fəaliyyəti mühüm əhəmiyyət kəsb edir.

# III BÖLMƏ
# Siyasipartiyalar və partiya sistemləri

## 1.Partiya anlayışı və siyasi partiyaların təşəkkülü

Siyasi partiya və partiya sistemi siyasi elmin mühüm tədqiqat obyektlərindən biridir. Müasir cəmiyyət həyatını partiyalarsız təsəvvür etmək çətindir. Bu fenomenin çoxölçülü olması ona dair müxtəlif təriflərin olması ilə bağlıdır. “Partiya ” anlayışı “hissə”, “ayrılıqda”, bütövün tərəfi, siyasi reallıq və siyasi sistem mənasını verir. Latın dilində “pars” hissə və “partire ”ayırmaq sözlərindən əmələ gəlibdir. Partiya anlayışı antik dövrdə işlədilsə də, ilk partiyalar XIII əsrdə İngiltərədə parlamentin yaranması ilə meydana gəlmişdir. Artıq XVIII əsrin sonlarından etibarən Avropada müasir tipli partiyalara yaxın olan siyasi təşkilatlar fəaliyyət göstərirdilər. Siyasi partiyalar XIX əsrə qədər formalaşmış və partiya termini bu dövrdə hakimiyyət daxilində rəqabət aparan və ya hakimiyyətə təsir göstərən siyasi qruplar kimi başa düşülmüşdür. Artıq XIX əsrin ortalarından başlayaraq, siyasi partiyalar özünün yüksək inkişaf səviyyəsinə çatdı. Birinci dünya müharibəsi illərində isə onlar dünyanın əksər dövlətlərində mühüm ictimai-siyasi hadisəyə, başlıca siyasi amilə çevrildilər. XX əsrin ortalarından başlayaraq (ikinci dünya müharibəsindən sonra) siyasi partiyalar dünyanın bir çox dövlətlərinin konstitusiyalarında təsbit olunmağa başladı. Dünyanın əksər dövlətlərində hazırda siyasipartiyalar haqqında maddə həmin dövlətlərin konstitusiyalarında öz əksini tapmışdır. Siyasi elm daxilində siyasipartiyaları öyrənən sahə partiologiya adlanır. Müasir dövrdə partiologiyada siyasipartiyaların demokratiya ilə qarşılıqlı əlaqəsi ideyası qərarlaşmışdır. Siyasipartiyalar yarandığı ilk gündən ona münasibət birmənalı olmamışdır. Məsələn Frensis Bekona görə, partiyalar ictimai münaqişələrin və qiyamların mənbəyidir. Tomas Hobbs isə belə hesab edirdi ki, partiyaların fəaliyyətinə yol verən hökmdarlar,

əslində, öz düşmənini hasarına buraxırlar ki, bu da vətəndaşların rifahına ziddir.

Partiyanın mahiyyətinə müxtəlif yanaşmalar olsa da, bunların arasında üç başlıca mövqe seçilir.

1.Partiyanı liberal ənənələrlə bağlayan və insan qrupları kimi başadüşən ideoloji doktrina (B.Konstan). Burada ənənəvi mövqedən partiyanın müəyyənləşdirilməsi seçki prosesi, namizədlərin irəli sürülməsi və peşəkar siyasi elitanın hazırlanması ilə əlaqələndirilir.

2.Siyasipartiyanın dövlət sistemində fəaliyyət göstərən təşkilat olmaqla, təsisatlı struktur baxımından başa düşülməsi (M.Dyüverje). Burada siyasipartiyanın mahiyyəti təşkilat aspekti ilə tükənmir; siyasipartiya ideya motivləri, doktrinalar və proqramlarla, ictimai rəyə təsir və s. ilə qovuşur. Siyasipartiyanın başa düşülməsinə təsisatlı yanaşmanın mütləqləşdirilməsi heç də siyasi birtərəflik deyildir, bu yanaşma tədqiqatçılıq münasibətində açıq şəkildə sinfi mübarizə nəzəriyyəsinə qarşı istiqamətlənir;

3.Siyasipartiyaların müəyyən siniflərin mənafelərinin ifadəçisi kimi şərhi (marksizm).

Siyasielmdə siyasipartiyanın müəyyənləşdirilməsinə fərqli yanaşmalar da diqqəti cəlb edir. Burada əsasdiqqət siyasipartiyanın strukturunun xüsusiyyətlərinə, uzun müddətli mövcudluğuna, sosial sabitlik amillərinə verilir. Partiyanın çoxsaylı elmi tərifi olsa da, bunlardan dördü əsas meyar kimi fərqləndirilir:

1.Hər bir partiya ideologiyanın daşıyıcısıdır və eləcə də dünyanı, insanı xüsusi tərzdə qiymətləndirmək qabiliyyətinə malikdir;

2.Partiya təşkilat olaraq siyasətin ən müxtəlif səviyyələrində insanların kifayət qədər uzunmüddətli birliyidir;

3.Partiyanın məqsədi hakimiyyəti ələ almaqdan və həyata keçirməkdən ibarətdir; (yəni ona səsverməkdən fəal üzvlüyə qədər)

4.Bütünlüklə partiyalar özünün xalq tərəfindən müdafiə olunmasını təmin etməyə çalışır, yəni ona səsverməkdən fəal üzvlüyə qədər.

Siyasipartiyanın çoxmiqyaslı olması onun mərkəzi, başlıcası isə yerli orqanlara malik olduğunu ifadə edir.

Partiya hakimiyyəti o zaman əldə etməyə cəhd edir ki, təzyiq qrupları hakimiyyətə təsir göstərməyə çalışırlar. Partiyanın seçkilər vasitəsilə xalqın müdafiəsinə arxalanması onu seçkilərdə və parlamentin həyatında iştirak etməyən klublardan fərqləndirir. Partiyadan fərqli olaraq təzyiq qrupları ayrı-ayrı qrupların mənafeyini müdafiə edir. Kütlələrin ümumi mənafeyini ifadə etməyə cəhd edən partiyalarla digər siyasi təşkilatlar arasındakı hədd şərti əhəmiyyət daşıyır. Bəzən klublar və ya təzyiq qrupları tez-tez partiyalarla birləşir. Siyasipartiya ideoloji əsasa malik könüllü ittifaq olmaqla hakimiyyəti ələ almağa və ya dövlət hakimiyyətində iştirak etməyə istiqamətlənir. Bu partiya üçün siyasi proqramın reallaşdırılması vasitəsidir. Bəzi siyasət alimlərinin fikrincə, partiya ümumi səsvermə hüququnun qərarlaşması ilə, yəni Fransa inqilabı dövründə "klubların", siyasi qrupların və onların nümunələrinin təzahürü ilə təkamül tapmışdır. Amerika-İngilis tədqiqatçılarına görə isə partiyalar onların indiki səviyyədə başa düşülməsi anlamda XVII-XVIII əsrlərdə yaranmışdır.

XVIII əsrin ortalarında ingilis filosofu D.Yum ilk dəfə olaraq partiyanın mənafeyi üzrə, bu və ya digər şəxsiyyətlə bağlılığı baxımdan "affektə görə partiya", "prinsipə görə partiya" təsnifatının verilməsini təklif etdi. XIX əsrin əvvəllərində ingilis alimi Berk Yumun "prinsip üzrə partiyalar" haqqında tezisindən istifadə edərək, partiyanın elmi tərifini verdi. Berkə görə, partiya ümumi prinsiplər əsasında yaranan və milli mənafeyi birgə səylərlə təmin etmək üçün birləşən insanlar qrupudur. Müasir partiyalar XIX əsrin ikinci yarısında Avropada formalaşmışdır. Bu baxımdan siyasipartiyaları Avropa mədəniyyəti sferasında təşəkkül tapan və sonralar müasir dünyanın digər mədəni regionlarında yayılan siyasi təsisat kimi də başa düşmək olar. Siyasi elmdə M.Veberin partiyaların tarixini dövrləşdirmək təklifi hamı tərəfindən qəbul edilmişdir.

1861-ci ildə Böyük Britaniyada ilk kütləvi siyasi birlik olan liberal partiya yarandı. İlk kütləvi fəhlə partiyası- Ümumi Almaniya Fəhlə İttifaqı 1863-cü ildə F.Lassalın rəhbərliyi altında yarandı. Artıq XIX əsrin sonlarında kütləvi siyasipartiyalar dünyanın əksər ölkələrində təşəkkül tapmışdır. Partiyalaşma prosesində tədricən ümummilli partiyalar seçicilərin yeni-yeni qruplarını öz sıralarına cəlb etmişdir. Nəticədə partiyalar bu və ya digər sosial təbəqənin mənafeyinin uzlaşdırılmasına gətirib çıxaran təşkilat kimi bərqərar olmuşdur. Məhz bu cəhət partiyadaxili fraksiyaların təzahürünü şərtləndirir. Fraksiyaların qəbul etdiyi proqram partiyanın ümumi proqramından müəyyən cəhətləri ilə fərqlənir. Siyasi birlik daxilində fraksiyaların yaranması partiyaların siyasi xəttini daha da mükəmməlləşdirir, seçicilərin müxtəlif təbəqələri arasında təsirini qoruyub saxlamağa imkan yaradır, cəmiyyətdəki plüralist mənafelərin çoxcəhətliliyini nəzərə almağı şərtləndirir. Siyasipartiya cəmiyyətdəki təbəqələrdən birinin nüfuzunu daha çox qazanırsa və uzun müddət hansı təbəqə tərəfindən müdafiə olunursa, həmin təbəqə siyasipartiyanın sosial bazası adlanır. Dünyanın demokratik dövlətlərinin siyasi həyatında partiyalarla yanaşı, çoxsaylı ittifaqlar, assosasiyalar, ictimai hərakatlar və s. mövcuddur. Partiyalar kimi bunlar da öz tərəfdarlarının mənafelərini müdafiə edirlər. Amma partiyadan fərqli olaraq, onlar bütövlükdə cəmiyyət üçün faydalı olan müxtəlif problemlərin həllinə istiqamətlənirlər (məsələn, ətraf mühitin qorunması, istehlakçıların hüquqlarının müdafiəsi və s.). Eyni zamanda ictimai birliklər hakimiyyətə yiyələnməyə çalışmırlar. Onlar siyasi proseslərə təsir göstərmək və konkret qərarların qəbul olunması uğrunda mübarizə aparırlar.İctimai birliklərdən fərqli olaraq, partiya özünəməxsus xüsusi funksiyalara və onları həyata keçirmək üçün səciyyəvi üsullara, müəyyəndaxili təşkilata və struktura, siyasi fəaliyyət proqramına və digər ideoloji istiqamətləndirmə sisteminə malikdir.

Siyasipartiyaların təsnifatı üçün xeyli meyarlar mövcuddur. Bu meyarlar siyasipartiyaların praktikasının müxtəlif elementlərinin

əhəmiyyətindən asılıdır. Təsisatlı yanaşmanın tərəfdarları təşkilati meyardan istifadə edirlər, liberal ənənə üçün təsnifatın başlıca olaraq ideoloji əlaqələrin xarakteri nöqteyi-nəzərdən verilməsi məqsədəuyğun hesab olunur. Marksistlər öz konsepsiyalarında partiyanın təsnifatında sinfi meyarın əsas rol oynadığını irəli sürürlər. Marksist konsepsiyaya görə, partiyaların sosialist, burjua, xırda burjua və eləcə də milli-demokratik (milli inqilabçı), klerikal və s. tipləri vardır. Siyasi ədəbiyyatdapartiyaların təsnifatı onların siyasi sistemdə yeri və roluna görə verilir. Bu meyaragörə, partiyaların dövlətə qovuşan, avtoritar, parlament tiplərinin mövcudluğu nəzərə çarpdırılır. Dövlətə qovuşan partiyanın ideologiyası dövlətin ideologiyasına çevrilir, partiya elitası isə dövlət idarələrini və dövlət idarəetmə sistemini formalaşdırır. Dövlətə qovuşmayan,lakin siyasi rejimin əsasını təşkil edən və onun tərəfindən müdafiə və himayə edilən partiyalar avtoritar partiyalar adlanır. Bu partiyalar əsasən radikal islahatçı milli hərəkatlar nəticəsində gənc dövlətlərdə təşəkkül tapır.Məsələn, postsovet məkanında “Xalq cəbhəsi”bazasında yaranan partiyalar.

Parlament partiyaları rəqabətli siyasi sistemlərdə fəaliyyət göstərirlər; belə partiyalarda iki təşkilati mərkəz mövcuddur.

Siyasi elmdə partiyaların təsnifatına təşkilati struktur meyarı baxımdan yanaşmaq cəhdi də diqqəti cəlb edir:

1.Mərkəzləşdirilmiş,iyerarxiyalı təşkil olunan, güclü rəhbərlik mərkəzinə malik olan, vahid proqram xəttini yerinə yetirən formalaşmış partiya;

2.Mərkəzləşdirilməmiş başlıca olaraq siyasi sistemdə fəaliyyət göstərən partiyalar.Bu partiyaların səciyyəvi cəhəti ondan ibarətdir ki, burada partiya sistemi ikinci dərəcəli rol oynayır, siyasi həyatın qlobal, bütöv təşkilinə iddialı deyildir.

3.Kadr partiyaları -azsaylı olması, üzvlüyə azad və sadələşdirilmiş qəbul qaydası, siyasətçilərinin ciddi statusa malik olmaması ilə fərqlənirlər. Belə partiyalar əsasən peşəkar siyasətçilərdən formalaşır və onlara maliyyə yardımı göstərmək imkanına malik

olan maliyyə elitasına arxalanırlar. Məsələn, ABŞ-dakı iki ən nüfuzlu partiyanı demokratları Rokvellerin qruplaşmaları, respublikaçıları isə Amerikanın iri biznesinin "dəyirmi stol"unun və Texasın "günəş məntəqəsi"nin üzvləri müdafiə edirlər;

4.Kütləvi partiyalar- çoxsaylı üzvlərə malik olması, öz sıralarında10%dən artıq vətəndaşı birləşdirməsi və müntəzəm surətdə onların səsini qazanması ilə fərqlənirlər;

5.Üzvlüyü dəqiq və formal prinsiplərlə müəyyənləşdirilən partiyalar (Yəni nizamnamə, partiyaya qəbul formaları və şərtləri, parlament uğrunda mübarizə metodları, partiya üzvlərinin cəzalandırma və mükafatlandırması və s.);

6.Üzvlüyünə qəbulu azad surətdə həyata keçirən partiyalar.Belə partiyalara mənsubiyyət mövcud partiyanın namizədinə səs verməkdə ifadə olunur (Məsələn, ABŞ-da).

Siyasi partiyaların təsnifatının meyarlarından biri də partiya rəhbərliyi təsisatıdır. Buraya kollektiv rəhbərlik, şəxsi rəhbərlik, harizmalı rəhbərlik,konseptual rəhbərlik və s. daxildir. Qrupa rəhbərlik edən liderkollektivdə arbitr rolunu yerinə yetirir, başlıca rəhbərlik istiqamətini müəyyən edir. Formal surətdə təsdiqlənən başçı tipli-şəxsi rəhbərlik adlanır.

Harizmalı rəhbərlikhakimiyyətin tamamilə liderin əlində cəmləşməsinə deyilir. Müxtəlif sosial qrupların mənafelərini əks etdirən rəhbərliyə konseptual rəhbərlik deyilir. Partiya siyasi prosesin bütün mərhələlərini əhatə edən iki qrup funksiya yerinə yetirir. Partiyanın daxili funksiyasına rəhbərliyin seçilməsi, partiya büdcəsinin formalaşması və s. aiddir. Partiyanın xarici funksiyasına siyasi hakimiyyətin əldə edilməsi və bundan istifadə olunması uğrunda mübarizəyə istiqamətlənməsi və onu müdafiə edən əhali qruplarının mənafelərinin reallaşması daxildir. Partiyalar hakimiyyətlə bağlı olan bu və ya digər iddialarını irəli sürməklə əhali ilə dövlət strukturları arasındakı əlaqələri, vətəndaşların siyasi iştirakçılığının təsisatlaşmasını təmin edirlər.

## 2.Partiya sistemləri: tipləri və inkişaf meylləri

Siyasi sistemdə partiyaların rolunu aydınlaşdırmaq üçün partiya sistemlərinin xarakteristikası mühüm əhəmiyyət kəsb edir. Partiya sistemi müxtəlif tipli partiyaların bir-biri ilə, eləcə də dövlətlə və digər hakimiyyət təsisatları ilə sabit əlaqə və münasibətlərinin məcmusudur.

Partiya sistemi siyasi hakimiyyətin təşkilinin elə formasına qarşı çıxır ki, burada ya partiya birləşmələri mövcud deyildir və yaxud da onların mövcudluğu son dərəcə rəsmi xarakter daşıyır (məsələn, Kubada və Şimali Koreyada olduğu kimi). Cəmiyyətin sosial strukturunun xarakteri, fəaliyyətdə olan qanunvericilik (seçki qanunları) və sosial-mədəni ənənələr partiya sistemlərinin formalaşmasına təsir göstərən amillərdəndir. Eyni zamanda həmin prosesə tarixi, iqtisadi, sosial, ideoloji, etnik və s. amillərdə təsir göstərir. Majoritar tipli seçki sisteminin fəaliyyət göstərdiyi yerdə bir qayda olaraq, iki partiyalı sistem və ya bir hakim partiya sistemi formalaşır. Proporsional seçki sistemi isə, əksinə, hakimiyyət orqanlarında xeyli siyasi qüvvələrin təmsil olunması şansını təmin etməklə, çoxpartiyalı sistemin və partiya koalisiyalarının yaranmasına yol açır, yeni partiyaların təşəkkülünü yüngülləşdirir. Sosial-mədəni ənənələrdə partiya sisteminin yaranması- na əhəmiyyətli təsir göstərir. Dünyanın müxtəlif ölkələrində partiya sistemləri çoxcəhətli və spesifik xarakterə malikdir. Belə ki, ölkədə fəaliyyət göstərən partiyaların sayı baxımından aşağıdakı partiya sistemləri fərqləndirilir:

Birpartiyalı sistem-özündə istibdad və demokratik variantları əks etdirir;

Biryarım partiya sistemi-tərkibində hakim partiyadan və baxışlarına görə ona yaxın, lakin az tanınan təşkilatdan təşkil olunan koalisiya fəaliyyət göstərir;

İki partiyalı sistem-rəqabətdə olan, hamı tərəfindən nisbətən eyni dərəcədə tanınan iki partiyanın mövcudluğu;

İkiyarım partiya sistemi-bu halda iki nüfuzlu partiya vasitəçilik fəaliyyəti ilə əlaqələndirilir, eləcə də "üçüncü" qüvvə kimi rol oynayan alternativ təşkilat bu iki rəqibin barışmasına imkan yaradır. Çoxpartiyalı sistem-sayı üçdən çox olan partiyalar.

Bu partiya sistemlərindən hər birinin üstün və çatışmayan cəhətləri vardır. Məsələn, Suriya, İspaniya və Yaponiyada çoxpartiyalı sistemin üstünlüyü təkbaşına idarə edən partiyanın xeyirinədirsə, siyasi cəhətdən sabit inkişaf edən Niderland, Belçika, Avstriya, Danimarka və digər dövlətlərdə çoxpartiyalılıq hakim partiyasız daha faydalıdır. Eyni zamanda ABŞ-da, Kanadada, İngiltərədə, İrlandiyada, Avstraliyada və bir çox ölkələrdə təsis edilən ikipartiyalı model vətəndaşlara seçmək, hökumətə kursu dəyişmək, cəmiyyətdə sabitlik imkanı yaradır.

Siyasi ədəbiyyatda partiya sistemləri rəqabətdə olan və rəqabətdə olmayan (birpartiyalı) partiya sistemləri kimi nəzərdən keçirilir. Rəqabətdə olan partiya sistemi öz növbəsində çoxpartiyalı, ikipartiyalı və hakim partiyadan ibarət çoxpartiyalı sistemə ayrılır.

Çoxpartiyalı sistem-ümummilli əhəmiyyət kəsb edən və siyasi həyatda müstəqil rol oynayan çoxsaylı siyasi partiyalarla səciyyələnir (məsələn, Fransada, İtaliyada). Çoxpartiyalılıq şəraitində parlamentdə təmsil olunan partiyalardan heç biri müstəqil surətdə hökumət yaratmaq iqtidarında deyildir. Bu səbəbdən icraedici hakimiyyət koalisiya zəminində, partiyalararası əsasda formalaşır.

İkipartiyalı sistem-ölkədəki iki böyük və daha nüfuzlu siyasi partiyaların qarşılıqlı fəaliyyəti əsasında təşəkkül tapır. İkipartiyalılıq şəraitində aparıcı siyasi partiyalardan hər biri seçkilərin nəticələrinə görə, müstəqil surətdə hökuməti formalaşdırmaq imkanına malik olur. Seçicilərin rəğbətinin azalması əsas partiyaların ölkənin idarə olunmasında bir-birini əvəz etməsinə gətirib çıxarır. Qeyd edək ki, "tam" ikipartiyalılığa (başqa sözlə, ikipartiyalılığa çox və ya az "təmiz" formada) əsasən İngilis-

Amerika ölkələrində (məsələn, ABŞ, Böyük Britaniya, Yeni Zellandiya və b.) təsadüf edilir. Eyni zamanda çoxpartiyalılıq özünün klassik formasında daha aydın şəkildə roman xalqlarında-tarixən qədim Roma ilə bağlı olan xalqlarda (Fransa, İtaliya, İspaniya, Latın Amerikası dövlətləri və b.) təzahür edir.

Hazırkı şəraitdə hakim partiyadan ibarət çoxpartiyalı sistem xeyli yayılmışdır. Plüralist mahiyyət kəsb etməklə, o, ölkədə mövcud olan xeyli siyasi partiyalardan birinin xüsusi imkanlarını ifadə və təmin edir.

Birpartiyalı sistem rəqabətdə olmayan partiya sistemi tipi olmaqla, siyasi plüralizmin tam qeyri-mövcudluğu ilə səciyyələnir, ciddi şəkildə desək, partiya sistemi kimi nəzərə çarpmır. Onun formalaşması şəraiti müxtəlif ola bilər: o, kifayət qədər inkişaf etməmiş sosial differensasiya, patriarxal ənənələrin hökmranlığı (inkişaf etməkdə olan ölkələrdə) nəticəsində, eləcə də konkret-tarixi amillərin təsiri altında (SSRİ-də vətəndaş müharibəsi nəticəsində) təşəkkül tapır.

Partiya sistemlərinin təşəkkülü yollarını tədqiq edən ilk politoloq Moris Dyuverje hesab olunur. Seçki ilə partiya sisteminin qarşılıqlı əlaqəyə malik olduğunu sübut etmək məhz ona məxsusdur. Dyuverje Partiya sistemlərini araşdırarkən “üç sosial qanunu” işləyib hazırlamışdır:

1.Proporsional seçki sistemi bir-birindən asılı olmayan, sərt daxili struktura malik çoxlu partiyalarla səciyyələnən çoxpartiyalı sistemin yaranmasına gətirib çıxarır

2.İki turda keçirilən majoritar səsvermə sistemi qarşılıqlı əlaqələrə və kompromislərə can atan, öz mövqeyini çevikliklə dəyişə bilən bir neçə partiyanın mövcud olduğu partiya sisteminin meydana gəlməsinə şərait yaradır.

3.Bir turda keçirilən majoritar səsvermə sistemi iki partiyanın rəqabətdə olduğu partiya sisteminin formalaşmasını şərtləndirir.

Birpartiyalı, ikipartiyalı və çoxpartiyalı sistemlər adətən, müxtəlif siyasi rejimlərə malik olan ölkələrdə təşəkkül tapır. Belə

bir cəhəti qeyd etmək vacibdir ki, cəmiyyətin demokratikləşməsi səviyyəsi heç də bilavasitə partiya sistemlərinin tipi ilə bağlılıq kəsb etmir.Lakin hər halda XX əsrin siyasi tarixi təsdiqləyir ki, çoxpartiyalılıq (əgər o deklorativ xarakter daşımırsa) cəmiyyətin siyasi həyatının, ümumiyyətlə, onun bütün sferalarının demokratikləşməsi üçün əlverişli şərait yaradır.

Çoxpartiyalı sistemin mövcudluğu kompleks amillərlə: sosial, milli, ideoloji, dini, tarixi və təsisatlı amillərlə şərtlənir. Partiya sistemləri sosial maraqları və siyasi baxışları qruplaşdırır, onlara yerli və ümummilli səviyyədə özünü ifadə imkanı yaradır, ictimai-siyasi qüvvələri, o cümlədən seçiciləri təşkil edir, onların nümayəndəli orqanlara deputatların irəli sürülməsində və istiqamətləndirilməsində yardımçı olur. Siyasi nöqteyi-nəzərdən demək olar ki, partiya sistemləri hakimiyyətin həyata keçirilməsinin ikinci yoludur. Çoxpartiyalılıq bilavasitə sosial təbəqələrlə bağlıdır və onların müxtəlifliyini əks etdirir. Eyni zamanda çoxpartiyalılığın mövcudluğu siyasətdə qrup mənafelərinin çoxcəhətliliyinin təmsil olunmasının optimal imkanları və siyasi koalisiyanın potensialının reallaşması, sosial münaqişələrin həlli üçün zəruridir. Onun neqativ tərəfi isə mənafelərin aqreqasiyası (ümumiliyi) ilə parlament çoxluğunun sabitliyinə qarşıdurma mənbəyi olmasıdır. Müasir dövrdə siyasi partiyaların və partiya sistemlərinin strukturunun yeni istiqamətdə inkişafı və onların kütlələrə real təsirinin güclənməsi ilə bağlı partiya sistemlərinin tərəqqisində özünəməxsus, spesifik meyllər üzə çıxar.

# IV BÖLMƏ
# Parlament başlıca demokratik təsisatdır

## 1.Siyasi demokratiya anlayışı

Qədim dünyadan hazırkı dövrədək demokratiyanın təşəkkülü və inkişafı yüzilliklər ərzində fəlsəfi-nəzəri planda təhlil edilmişdir və tədqiqatçılar onun müxtəlif praktikasını empirik baxımdanda mənalandırmışlar. Bu səbəbdən də müxtəlif dövlətlərdə demokratik quruculuğun çoxsaylı normativ modeli yaranmışdır. Bu problem ayrı-ayrı dövlətlərin və xalqların son dərəcə əhəmiyyət verdiyi vacib məsələ kimi nəzərə çarpır. XX əsrin sonları və XXI əsrin əvvəllərində posttotalitar inqilab ölkələrin böyük qruplarında demokratiyaya yol açmaqla və dünyanın siyasi mənzərəsini dəyişdirməklə, "qlobal demokratikləşmə" haqqında danışmağa imkan yaratdı. Demokratiyanın nəzəri cəhətdən müxtəlif şərhlərinə baxmayaraq, son nəticədə həmin şərhlər iki daha ümumi mövqe ilə tamamlanır.

"Sərvət yönümü" nöqteyi-nəzərinin tərəfdarları demokratiyanı hakimiyyətdə müəyyən idealları və prinsipləritamamilə təcəssüm etdirən siyasi quruluş kimi nəzərdən keçirirlər. Demokratiyanın bu cür müəyyənləşdirilməsi onun sosial mənasını və əhəmiyyətini ifadə edir. Siyasi ədəbiyyatda demokratiya xalq hakimiyyəti sistemi kimi qiymətləndirilir və bu da onun etimologiyasına (yunanca demos-xalq,cratos-hakimiyyət deməkdir) tamamilə uyğun gəlir.

"Rasional-prosedur" mövqeyin tərəfdarları isə bildirirlər ki, demokratiya məhz o zaman mümkündür ki, cəmiyyətdə hakimiyyətin resurslarının yayılması o dərəcədə geniş xarakter kəsb edir ki, ictimai qruplardan heç biri rəqibini özünə tabe etmək və ya hakimiyyət hegemonluğunu saxlamaq iqtidarında olmur. Kompromisə nail olmaq, funksiya və səlahiyyətlərin qarşılıqlı bölgüsü siyasətin demokratik təşkili mövcudluğunu ifadə edən prosedura və texnologiyalardır. Demokratiyanın bu cür başa

düşülməsini ilk əsaslandıranlardan biri Maks Veberdir.Onun plebisit (ümumi səsvermə) idarəetmə nəzəriyyəsində demokratiya hökmranlıq "vasitəsi", ümumi "xalq iradəsi" kimi səciyyələndirilir. Onun fikrincə, vətəndaşlar öz mənafelərini müdafiə etmək üçün özünün hakimiyyətə və idarəetmə aparatına nəzarət hüququnu ümumxalq səsverməsi yolu ilə seçilən harizmalı liderə verməlidir. Bu səbəbdən Maks Veber iddia edir ki, demokratiya "xalqın etibar etdiyi lideri seçdiyi zaman" həyata keçirilən prosedura və razılığın məcmusudur. Müasir siyasi elmdə daha əvvəlki tarixi mərhələlərdə işlənib hazırlanan və qeyd etdiyimiz yanaşmalar çərçivəsində təzahür edən xeyli ideya (marksizm, liberalizm və s.) öz əksini tapmışdır. Eyni zamanda dəyişən reallığı, demokratik proseslərin dinamikasını nəzərə alan bir sıra nəzəriyyələr də formalaşmışdır.

Demokratiya nəzəriyyəsinin inkişafında plüralizm tərəfdarları mühüm xidmət göstərmişlər. XVII-XVIII əsrlərdə plüralizm termini X.Volf (1679-1754) tərəfindən elmi dövriyyəyə gətirilsə də, demokratik nəzəriyyənin işlənib hazırlanması üçün həmin terminden məhz XX əsrin birinci yarısında istifadə olundu (Q.Laski, D.Trumen, R.Dal). Qeyd olunan konsepsiyada demokratiya onun müxtəlif qüvvələr arasında diffuziyası şəraitində formalaşan hakimiyyətin təşkilinin tipi kimi nəzərdən keçirilir. Demokratiya nəzəriyyəsinin inkişafında A.Leyphartın da mühüm xidməti olmuşdur. A.Leyphart konsosial demokratiya ideyasını irəli sürməklə, plüralist demokratiya konsepsiyaları sistemini təkmilləşdirmişdir. Son onilliklərdə əksər dünya ölkələrində bazar demokratiyası nəzəriyyəsi də geniş yayılmışdır. Burada hakimiyyətin mövcud sisteminin təşkili demokratik sistemə bənzərlik kimi səciyyələnir. Kütləvi kommunikasiyanın strukturunda elektron sistemin meydana gəlməsi və rolunun artması tel-demokratiya ideyasını həyati zərurətə çevirdi. Bu halda demokratiya üçün ənənəvi proseduranın mövcudluğu, hakimiyyətin texniki cəhətdən təchiz olunması səviyyəsi və qarşılıqlı interaktiv

təsvir sistemi (TV, internet) vətəndaş strukturu ilə əlaqələndirilir (seçkilər, referendum, plebisit zamanı).

S.Hantinqton bəzi avtoritar rejimlərin demokratiyaya keçid prosesini demokratikləşmənin üçüncü dalğası kimi səciyyələndirir. Onun fikrincə, həmin prosesin başlıca məzmunu demokratik prinsiplərin və təsisatların dünyanın əksər ölkələrində yayılmasından ibarətdir. Qeyd edək ki, S.Hantinqton "üçüncü dalğa" konsepsiyasını O.Tofflerin "Üçüncü dalğa" əsərinin təsiri altında işləyib hazırlamışdır. S.Hantinqton özünün "Üçüncü dalğa" və "XX əsrin sonunda demokratikləşmə" adlı əsərlərində totalitarizmdən və avtoritarizmdən demokratiyaya keçidin zəmini, gedişi və perspektivini təhlil edərək, müasir dövrdə baş verən dəyişikliklərin geniş və bütöv mənzərəsini açıqlayır. Eyni zamanda Hantinqton qlobal siyasi dəyişiklərin şərhində "demokratik dalğa" və ya "demokratikləşmə dalğası" anlayışını işlədir. Amerika politoloqu F.Şmitter Hantinqtondan fərqli olaraq, demokratik proses dalğasının digər dövrləşməsini təklif edir. Burada hər iki alim demokratikləşmə mərhələsinin birinci dalğasını məkan və zaman çərçivəsində məhdudlaşdıraraq, onu məhz kontinental Avropaya aid edir. Müasir demokratik inkişafın müxtəlif formaları demokratiyanın səviyyəsini ölçməyə imkan verən meyarın müəyyənləşdirilməsini aktuallaşdırır. Demokratiyanın inkişaf səviyyəsinin ölçü metodu demokratik audit adlanır. Bu metod cəmiyyətin siyasi inkişaf vəziyyətinin monitorinqi kimi səciyyələnir. Demokratiyanın ölçüsünə dair ilk cəhd XX əsrin ikinci yarısına aiddir. Siyasi nəzəriyyədə demokratiyanın səviyyəsini müəyyənləşdirən bir neçə metod formalaşmışdır. Onlardan biri də sərvət metodu adlanır. Demokratiyanın səviyyəsini müəyyənləşdirməyə istiqamətlənən belə yanaşma R.Dalın demokratiya-poliarxiya konsepsiyasının təsiri altında təşəkkül tapmışdır. Bu yanaşmadan istifadə edən R.Qastil onu siyasi və vətəndaş hüququ ölçüsünün göstəriciləri sisteminə daxil etmişdir. İkinci yanaşma poliarxiyanın iki göstəricisini (mübahisə və

iştirakçılıq) ölçən obyektiv indikatorunüzə çıxarılmasına istiqamətlənmişdir. Həmin yanaşmanın müəllifi fin politoloqu T.Banhanen hesab olunur. Demokratiyanın səviyyəsinin ölçməsində digər yanaşma təsisatlı metod adlanır. İkinci dünya müharibəsindən sonrademokratikləşmə prosesinin təhlili üçün K.Caqqes və T.Qar demokratiya və avtoritariyanın xüsusi göstəricilər toplusunu işləyib hazırlamışdılar. Bu müəlliflərin "Polity III" adlanan toplusunda bütün siyasi sistemlər təsisatlı strukturundan asılı olaraq, bir-birinə uyğun gələn (uzlaşan) və bir-birinə uyğun gəlməyən (uzlaşmayan) sistemlərə ayrılırlar. Müasir siyasi nəzəriyyə demokratikləşməyə, sosial-siyasi transformasiyanın gedişinə təsir göstərən amillərin məcmusunu və xarici şəraiti geniş aydınlaşdırır.

Demokratiya yunan dilində üç söz birləşməsindən ibarət olmuş, demos-xalq, kratos-hakimiyyət, kratein-ağalıq etmək, xalqın hakimiyyəti mənalarını ifadə edir. Bu termini ilk dəfə antik yunan tarixçisi Heredot işlətmişdir. İctimai fikir və siyasi elm tarixində demokratiya anlayışı uzun müddət və bütövlükdə yunan filosofu Aristotelin həmin anlayışa münasibəti mənasında başa düşülmüşdür. Demokratiya xalqın vasitəsilə idarəetmə formasıdır, hakimiyyətin peşəkar siyasətçilər tərəfindən həyata keçirilməsidir. O, xalqın ümumi iradəsinin formalaşması prosesi deyildir. Məhz liderlə təmsil olunan qrupların mənafelərinin rəqabətə əsaslanan mübarizəsidir, sıravi vətəndaşa sosial strukturun rəhbər tərkibini müəyyən etməyə, rəhbərliyə isə öz hakimiyyətini leqallaşdırmağa imkan yaradan mexanizmdir. Eyni zamanda demokratiya münaqişəli mənafelərin rəqabətini təşkil edir və qaydaya salır, məğlubiyyətə uğrayan qrupun hakimiyyətdə iştirak etməsinidavam etdirmək hüququnu saxlayır. Demokratik şəraitdə hər bir qrup öz davranışının strategiyasını sərbəst seçmək imkanı əldə edir. Hakimiyyətin demokratik təşkilinin spesifikliyi və unikallığı onun üsullarının universallığında və siyasi qaydaların təşkili mexanizmində ifadə edilir. Demokratiyanın formalaşmasının belə ümumi universal üsullarının mövcudluğu birbaşa, plebisit və

nümayəndəli demokratiyanın mexanizminin fəaliyyəti ilə bağlıdır. Birbaşa demokratiya qərarların hazırlanması, müzakirəsi, qəbulu və reallaşmasında vətəndaşların bilavasitə iştirakını nəzərdə tutur.Əhəmiyyətinə görə, hakimiyyətin mövcud formasına yaxın olan plebisit xalqın açıq iradəsini nəzərdə tutur, lakin qərarın hazırlanmasının yalnız müəyyən mərhələsi ilə bağlıdır.

Demokratik prosesin əhəmiyyətli istiqamətlərindən biri nümayəndəli (seçkihüququnu əks etdirən) demokratiyadır. Demokratiyanın real məzmunu onda ifadə olunur ki, o, xalq tərəfindən seçilən insanların hakimiyyətidir. Bu cür hakimiyyət nümayəndəli demokratiya adlanır. Belə demokratiya vətəndaşların siyasi iştirakçılığının daha mürəkkəb formasıdır. Beləki, bütün xalqın həyata keçirə biləcəyi siyasi hakimiyyət, başqa sözlə, bilavasitə demokratiya şəraiti yalnız idealdır. Nümayəndəli demokratiya vətəndaşların qanunverici və ya icraedici hakimiyyətə, yaxud müxtəlif vasitəli strukturlara (partiyalar, həmkarlar ittifaqları, hərəkatlar) seçdikləri nümayəndələr vasitəsilə qərarların qəbulu prosesinə bilavasitə (dolayısı ilə) cəlb olunmalarıdır. Eyni zamanda demokratiya, hər şeydən əvvəl, xalq hakimiyyətinə əsaslanan dövlət quruluşu forması kimi mənalanır. Müasir demokratiyanın universal xarakteri yalnız onun ən əhəmiyyətli təsisatlarına və mexanizminə deyil, eləcə də hakimiyyətin ideya əsaslarına aiddir. Cəmiyyətin demokratik siyasi təşkilində dövlətin funksiyası demokratiyanın qorunması və inkişafı zərurəti ilə müəyyən olunur.Bu halda hakimiyyət kifayət qədər güclü olmalıdır. Demokratiyanın möhkəmlənmədiyi şəraitdə, demokratik cəmiyyətin təşəkkülünün ilk mərhələsində güclü hakimiyyət asanlıqla diktaturaya (avtoritar və totalitar) çevrilir. Həmçinin demokratiya idarəetmənin, cəmiyyətin siyasi və sosial təşkilinin, dövlətin və hakimiyyətin başlıca formalarından biridir. Demokratik cəmiyyətin xalqın siyasi qərarların işlənib hazırlanmasına təsiri hüquq ilə səciyyələnir. Eləcə də bu hüquq demokratik təsisatlarda, xüsusilə kütləvi informasiya vasitələrində təkliflər və ya tənqid formasında, seçkiqabağı

kampaniyada iştiraketməkdə üzə çıxır. Qərarların işlənib hazırlanmasında xalqın siyasi iştirakçılığına konstitusiya vasitəsilə təminat verilir. Müasir demokratik hüquqi dövlətdə xalq hakimiyyətin mənbəyi kimi çıxış edir. Demokratiya şəraitində xalq öz nümayəndələrini seçir, onlara hər hansı bir məsələni həll etmək hüququ verir. Bu şəraitdə qanun yalnız vətəndaşları hakimiyyətin özbaşınalığından deyil, eləcə də hakimiyyətin özünü vətəndaşlardan müdafiə edir. Qeyd edək ki, demokratiyanın mahiyyəti və universal xarakteri onun prinsipləri ilə təsdiqlənir. Demokratiya iki başlıca prinsiplə-azadlıq və bərabərlik prinsipi ilə səciyyələnir. Demokratik dövlətdə bütün vətəndaşlar siyasi həyatın iştirakçıları olmaq etibarilə bərabər hüquqludur. Belə dövlətlərdə bərabərlik iki səviyyədə-qanun qarşısında bərabərlik və siyasi hüquq bərabərliyi kimi səciyyələnir. Demokratik dövlətdə bütün vətəndaşlar tutduğu vəzifəsindən asılı olmayaraq bərabər hüquqludur. Eyni zamanda belə quruluşa malik dövlətlərdə hər bir vətəndaş seçmək və seçilmək hüququna malikdir. Başqa sözlə desək, demokratiyanın əsasını şəxsiyyətin azadlıq hüququ, insanın şəxsiyyətinə hörmət təşkil edir. Ümumdünya insan haqqları Bəyannaməsinin müqəddiməsində deyilir: "bəşəriyyət dediyimiz bir ailənin bütün üzvlərinin ləyaqətinə, onların bərabər və ayrılmaz hüquqlarına hörmət etmək azadlığın, ədalətin və ümumi sülhün əsasını təşkil edir". Demokratiya dərisinin rəngindən, cinsindən, dilindən, dinindən, ictimai vəziyyətindən, mülki vəziyyətindən və silkindən asılı olmayaraq bütün vətəndaşların bərabərliyini nəzərdə tutur. Lakin bərabərlik sözünü geniş mənada başa düşmək lazımdır: bu, həm imkanların bərabərliyidir, həm qanun qarşısında bərabərlikdir, həm də nümayəndəlik bərabərliyidir. Yəni, demokratiya insanların dövlətin idarəedilməsində iştirak etmək hüququ, öz fikrini ifadə etmək və eşidilə bilmək imkanıdır. Demokratiya vətəndaşların hakimiyyətdə real şəkildə iştirak etməsi və ona nəzarət etmək imkanı əldə etməsi ilə başlanır. Beləliklə, demokratiya ona görə şəxsiyyəti cəlb edir ki, o, hər şeydən əvvəl, insanın özünü ifadə

etmək, özünü həyatda reallaşdırmaq arzusuna cavab verir, o, təşəbbüs üçün, azad yaradıcılıq üçün bir stimuldur. Eyni zamanda cəmiyyətin tərəqqisinin hərəkətvericiqüvvəsi kimi demokratiyanın inkişafı ictimai nəzarətin sosial funksiyasını və ictimai tənqidi şərtləndirir.Müasir dövrdə siyasi demokratiyanın formalaşması şəraitinə münasibətdə iki başlıca elmi yanaşma mövcuddur.

Struktur yanaşmanın (istiqamətin) tərəfdarları belə bir mövqedən çıxış edirlər ki, demokratik qaydalar müəyyənedici makro amillərin təsiri altında meydana gəlir. Eyni zamanda buraya iqtisadi və sosial strukturlar, cəmiyyətin hüquqi normaları, müvafiq ənənələr, adətlər və s. kimi amillər də aid edilir.

Mülkiyyət münasibətlərini siyasi qaydaların təşəkkülünün başlıca amili hesab edən marksistlərə görə, demokratiya cəmiyyətin müvafiq sosial-iqtisadi inkişafı ilə formalaşmalıdır. İkinci elmi yanaşma prosedur istiqamətdirki, onun tərəfdarları həmin ideyaya etiraz etsələr də, onlara görə,demokratiyanın həyata keçrilməsi üçün ilkin şərtlərə etinasızlıq lazım deyildir. Bu yanaşmanın tərəfdarlarına görə, demokratiyaya keçidin və onun qərarlaşmasının başlıca şərti idarə edən elitanın xarakterindən, onun siyasi dəyərləri və ideallarından, hökmranlıqda istifadə etdiyi ən əhəmiyyətli taktikadan və texnologiyadan ibarətdir. Demək olar ki, vətəndaşların yüksək rifah halından kənarda, müəyyən mənəvi ənənələrsiz, müvafiq siyasi-mədəni zəmindən məhrum olan demokratiya qeyri-mümkündür. Müasir dövrdə dünyada siyasi proseslər gedişatında faktiki olaraq heç kim tərəfindən seçilməyən "dünya hökuməti" (dünyanın daha inkişaf etmiş ölkələrinin rəhbərlərindən ibarət) formalaşır, bu "hökumətin" fəaliyyətinə haqq qazandıran "suverenliyin məhdudlaşdırılması" və ya "transmilli demokratiya" konsepsiyaları təzahür edir və reallaşır. Bu cür yanaşma da dünyada birmənalı başa düşülmür. Məsələn, Küveytə hücum edən İraqa qarşı Küveytə kömək edən Avropa dövlətlərinin hərəkətlərini demokratik ölkələrin əksəriyyəti müdafiə etdisə, NATO-nun Kosovada etnik münaqişəni hərbi əməliyyatla həll etməsi bu dövlətlər tərəfindən

etirazla qarşılandı. Dünyanın bir sıra milli dövlətləri demokratiyanın bu cür kosmopolit modelinə oriyentasiyanı arzulamır, dövlətlərarası və transmilli qüvvələr mərkəzinin təsirinə tabe olmaq istəmirlər.

İnsan haqqlarına riayət edilməsi sivil cəmiyyətin göstəricisidir.Hüquq qanunla tanınmış tələbdir. Bu, o deməkdir ki, onun həyata keçirilməməsi ədalətsizliyin mövcudluğundan xəbər verir. Hüquq anlamının özü onu nəzərdə tutur ki, bütün qanuni tələblər təmin edilməlidir.İnsan hüquqları və azadlıqları heyvanların, bitkilərin və s. hüquqlarından köklü surətdə fərqlənir. Hüquq və azadlıqlar müəyyən prinsiplərə söykənir. Dünya dövlətlərində bu prinsiplər şəxsiyyətin hüquqi statusuna necə baxılmasını müəyyən edir, bütün hüquq sistemində onun mövqeyini əsaslandırır. Azadlıq hüququ fərdin davranış imkanlarını ifadə edir. Geniş mənada azadlıq insanın təbii vəziyyətidir. Dar mənada azadlıq konkret olaraq bu və ya digər hərəkəti etmək imkanının olub-olmaması ilə məhdudlaşır. Azadlıq hüququ vətəndaşlığından asılı olmayaraq, hər bir şəxsə məxsusdur və ayrılmaz hüquqdur. Qədim tarixə malik azadlıq hüququ uzun müddətli mübarizələr nəticəsində formalaşmışdır.

1995- ci il noyabr ayının 12-də milli özünüdərk kontekstində ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış, Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarını, azərbaycançılığı, xalqın milli ləyaqət hissini və milli mənini özündə əks etdirən müstəqil Azərbacanın ilk Konstitusiyasının ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının bariz göstəricisidir.

27 noyabr 1995-ci ildən qüvvəyə minən, beş bölmədən, on iki fəsildən və 158 maddədən ibarət olan Azərbaycan Respublikasının Konstitusiyası hüquqi, dünyəvi və demokratik ideyalara əsaslanır.Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında əks olunan prinsipləri əsas götürərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin

edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək, təntənəli surətdə aşağıda qeyd olunan niyyətlərini bəyan edir:

Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;

Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək;

Vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq;

Xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq;

Ədalətli, iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək,ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək.

Sadalanan bütün bu niyyətlər humanist,demokratik xarakter daşıyır.

## 2.Parlament başlıca demokratik təsisatdır

Qeyd edək ki, ilk parlamentlər XII-XIII əsrlərdə təşəkkül tapmışdır. Parlament anlamı da məhz XII-XIII əsrlərdə işlədilmişdir. Bu termin latın dilində “parla”sözündən götürülmüş və danışmaq mənasını ifadə edir. Mahiyyət etibarilə latın sözü olan “parlamentum” termini ilk əvvəl monarxların nahardan sonrakı söhbətini səciyyələndirirdi. Parlamentin vətəni İngiltərə hesab olunur. Bu dövlətdə parlament sözü hər hansı müzakirə mənasını bildirirdisə, sonralar “formal yığıncaqları” parlament adlandırırdılar. İlk dəfə olaraq 1265-ci ildə “İngiltərənin ali şurası” təsisatı parlament kimi təsdiqlənir. Məhz bu mənada parlamentin klassik vətəni İngiltərə hesab olunur. Belə ki, İngiltərənin görkəmli siyasi xadimi Uinston

Çörçill "Britaniyanın yaranması" adlı kitabında yazırdı: "Parlament termini siyasi mənada İngiltərədə XIII əsrdə işlədilmişdir".

Parlament mürəkkəb və ziddiyyətli siyasi fenomendir. Eyni zamanda parlament öz fəaliyyətini demokratik prinsiplər və dəyərlər əsasında həyata keçirən hər bir dövlətin zəruri atributudur. O, yüksək seçkili nümayəndəli orqandır, bəzi hallarda isə qismən təyin olunma formasında təşkil edilir. Dünyanın bir sıra ölkələrində parlament müxtəlif cür, məsələn, ABŞ və Latın Amerikası ölkələrində (Braziliya, Boliviya, Meksika, Venesuela) Konqres, Finlandiyada Seym, Norveçdə Stortinq, İsveçdə Riqsdaq, Türkiyədə Böyük Millət Məclisi, Rusiyada Duma, Ukraynada Rada, Azərbaycanda isə Milli Məclis adlanır. Qeyd edək ki, parlament müasir dövrdə Böyük Britaniya, Fransa, İtaliya, Yaponiya, Kanada, Belçika, Hindistan və digər ölkələrdə ali nümayəndəli orqan kimi fəaliyyət göstərir.

Parlament terminin mahiyyətini düzgün və əhatəli başa düşmək üçün onun səlahiyyətlərivə funksiyaları barədə dolğun təsəvvürə malik olmaq vacibdir. Parlamentin səlahiyyətləri məsələsində onun hüquqi mövqeyi, ölkənin siyasi həyatında rolu mühüm amildir. Ümummilli nümayəndəli təsisat olmaq etibarilə parlament dövlət hakimiyyətinin digər orqanları ilə qarşılıqlı münasibətlərin zəruri şərtidir. Dünyanın müxtəlif ölkələrində parlamentlərin səlahiyyətləri eyni olmasa da, həmin səlahiyyətləri üç qrupa ayırmaq olar. Birinci qrupa aid olan parlamentlər öz səlahiyyətlərinin həddini aşmaq hüququna malik deyildir. Burada məhkəmə parlamentin hüquqi əsası olmayan təşəbbüslərini konstitusiyaya zidd hərəkət kimi qiymətləndirir və eləcə də parlamentin təşəbbüs xarakterli qərarını qeyri-qanuni saymaqla yanaşı, onu qanunvericilik imkanlarından məhrum edir. Səlahiyyətinə görə birinci qrupa aid olan parlamentlərə ABŞ və Fransa parlamentlərini misal göstərmək olar. İkinci qrupa aid olan parlamentlər səlahiyyətlərinə görə qeyri-məhdud fəaliyyət istiqamətinə malik olurlar. Bu qrupa daxil olan parlamentlərin

hüquqi baxımdan bu və ya digər məsələ üzrə qanun qəbuletməyə səlahiyyətləri çatır. İkinci qrupa daxil olan parlament səlahiyyətləri bir sıra ölkələrdə, məsələn, Böyük Britaniya, Yeni Zelandiya, İtaliya və İrlandiyada parlament sisteminin əsası hesab olunur. Eyni zamanda İtaliya və İrlandiyada konstitusiya nəzarəti tətbiq olunur ki, bu da parlamentin nəzərdə tutulan geniş səlahiyyətlərinin məhdudlaşdırılması deməkdir.

Səlahiyyətlərinə görə üçüncü qrupa daxil olan parlamentlərin fəaliyyətinin fərqləndici cəhəti bundan ibarətdir ki, onların səlahiyyət sferası vahid prinsip üzrə müəyyən olunur. Bu mənada Hindistan parlamenti səciyyəvidir.Ümumiyyətlə, parlament xalqın mühüm siyasi təsisatı, onun müstəqilliyinin aparıcı qüvvəsi kimi qiymətləndirilir.Müasir dövrdə dünyanın əksər dövlətlərində hakimiyyət sistemində parlamentin mərkəzi mövqeyinin müəyyən dərəcədə zəifləməsi nəzərə çarpır.

Parlament anlayışının mahiyyətini əhatəli dərk etmək baxımdan onun funksiyaları haqqında dürüst nəzəri təsəvvürə malik olmaq məqsədəuyğundur.İngiltərədə konstitusiyalı monarxiyanın təşəkkül tapdığı dövrdən başlayaraq, əksər Avropa ölkələrinin hüquq və sosioloji ədəbiyyatında parlamentin funksiyalarının müəyyənləşdir-ilməsi istiqamətində mühüm addımlar atılmışdır.İngilis hüquqşünası və sosioloqu Sidney Lou parlamentin funksiyalarını aşağıdakı qaydada müəyyənləşdirmişdir:

1. Qanunverici fəaliyyət.
2. İdarəetmə və icra sahəsində nəzarət.
3. Maliyyə siyasəti və dövlət gəlirlərinin tənzim olunması.
4. Cinayətkarlığa və şikayətlərə dair məsələlərin müzakirəsi.
5.Dövlət xadimlərinin sınaqdan keçirilməsi, parlament müzakirələrində seçilməsi və müvafiq nazir vəzifələrinə təyin olunması.

Sidney Lou bu funksiyaları parlamentin qanunvericilik fəaliyyətinin “başlıca kateqoriyaları” adlandırır.

Parlamentin funksiyaları barədə Robet Karrtərəfindən təklif olunan fikir də mühüm əhəmiyyətə malikdir;

Siyasətin müəyyən edilməsi və ya siyasi xəttin parlament tərəfindən rəsmən təsdiqi.

Dövlət xəzinəsi üzərində nəzarət.

İnzibati aparat üzərində və qanunların həyata keçirilməsi prosesinə nəzarət.

İctimai rəyə təsir.

Robert Karrın əsaslandırdığı bu funksiyalar universal xarakter daşıyır və dünyanın əksər ölkələrində məqbul hesab olunur. Bu funksiyalar özündə, hər şeydən əvvəl, qanunvericilik mahiyyətini əks etdirir. Robert Karrın irəli sürdüyü funksiyalar sxeminin diqqəti cəlb edən digər cəhəti ictimai rəyin təsirinin siyasi baxımdan mənalandırılmasıdır. Qeyd edək ki, parlamentin başlıca məqsədi qanunlar qəbul etməkdir. Eyni zamanda müasir parlamentin qanunvericilik fəaliyyəti ciddi dəyişikliklərə məruz qalmışdır. Müasir dövrdə parlament qanunverici orqandan qanun təsdiq orqana çevrilibdir. Bu cəhəti dünyanın nüfuzlu hüquqşünasları və politoloqları da təsdiqləyirlər. Dünya ölkələrinin əksəriyyətində qanunvericilik təşəbbüsləri hökumətə məxsusdur. Məsələn,İngiltərə hökumətində nazirlər kabinetinin tərkibində Lordprezidentin və nümayəndələr palatasının liderinin başçılıq etdiyi qanunvericilik təklifləri komitəsi fəaliyyət göstərir. Bu komitə bilavasitə hökumətin qanunvericilikproqramının işlənib hazırlanması ilə məşğuldur.İngiltərə parlamentinin fəaliyyəti isə hökumətin qanun layihələrini nəzərdən keçirmək səlahiyyəti ilə məhdudlaşır. Prezident idarəçiliyinin mövcud olduğu ölkələrdə isə, konstitusiyaya görə, hökumət qanunvericilik təşəbbüsündən məhrumdur. Hökumət qanunvericilik təşəbbüsünü dolayı yolla həyata keçirməyə məcburdur. Bu cəhət ABŞ-ın nümunəsində aydın nəzərə çarpır. Məsələn, ABŞ prezidenti parlamentin qanunvericilik fəaliyyətinə formal, sırf informasiya xidməti daşıyan müraciət və ya məktub vasitəsilə təsir göstərir. Həqiqətdə isə

prezidentin konqresə göndərdiyi məktub qanunvericilik gücünə malikdir.

Parlament anlayışı ilə bağlı biliklərimizi zənginləşdirmək baxımdan parlament üzvünün (deputatın) hüquqi mövqeyinə dair konkret təsəvvürə yiyələnmək də siyasi əhəmiyyətə malikdir. Parlament üzvü peşəkar qanunverici şəxs olmaq etibarilə bütün milləti təmsil edir. Deputat mandatı dövlət vəzifələrində və digər vəzifələrdə çalışan şəxslərlə müqayisədə deputata müəyyən üstünlük verir və onun hüquqi mövqeyini möhkəmləndirir. Eyni zamanda deputatın peşəkarlığı nəzəri cəhətdən hakimiyyətin bölünməsi prinsipi ilə şərtlənir. Bu prinsip isə qanunverici və icraedici hakimiyyətin birləşməsini qadağan edir.

Parlamentlə parlamentarizmin nisbəti məsələsini açıqlamaq da vacib və faydalıdır.

Qanunvericilik orqanlarının icraedici orqanlardan üstünlük təşkil etdiyi dövlətlərdə siyasi hakimiyyət sistemi parlamentarizm adlanır. Parlamentarizm bu və ya digər ölkədə cəmiyyətə dövlət rəhbərliyi sistemidir. Bu sistem qanunverici və icra funksiyalarının dəqiq bölüşdürülməsi, qanunvericilik orqanı olmaq etibarilə parlamentə digər dövlət orqanlarına nisbətən üstünlük verilməsi ilə səciyyələnir. Eyni zamanda parlamentarizm şəraitində hökumət parlament tərəfindən təşkil olunur və onun qarşısında məsuliyyət daşıyır. Eləcə də parlamentarizm dövlət hakimiyyəti və idarəçiliyi mexanizimində seçkili orqanın formal cəhətdən başlıca mövqe tutmasıdır. Parlamentarizm XIX əsrdə yüksək inkişaf etmiş və o, kapitalizmin təşəkkül tapdığı ilk dövr üçün səciyyəvi olan siyasi hakimiyyət sistemidir. Müasir dövrdə isə parlamentarizmə nisbətən idarəçilik orqanlarının rolunun artması və hökumətlərin parlamentin bir çox funksiyalarını, eləcə də qanunvericilik funksiyasını öz əlinə alması diqqəti cəlb edir.

Qeyd edək ki, dünya ölkələrinin parlamentləri mahiyyətinəvə fəaliyyət xarakterinə görə fərdi, özünəməxsus cəhətlərə malikdir. Eləcə də həmin parlamentlərə bir sıra ümumi əlamətlər də xasdır.

Müasir dövrdə parlamentlər əsasən üç başlıca əlamət üzrə sistemləşdirilir: parlamentin sturukturu , parlamentin səlahiyyətlərinin həcmi, sosial tərkib.

Parlamentlər strukturuna görə ikipalatalı (bikameral) və ya birpalatalı (unikameral)ola bilər. Parlamentlərin təşəkkül tarixi ikipalatalılıqla səciyyələnir.

XX əsrin ikinci yarısından etibarən müstəmləkə sistemindən azad olan və müstəqil inkişaf yoluna qədəm qoyan ölkələr praktiki olaraq ikipalatalı parlament sistemini inkar etmiş və birpalatalı parlamentə üstünlük vermişlər. Hazırda dünya parlamentlərinin əksəriyyəti birpalatalıdır.İkipalatalı və birpalatalı parlamentlərin formalaşması ümumi və fərqli cəhətlər kəsb edir. Həmin palataların təşəkkülünün ümumi əlamətlərindən biri ondan ibarətdir ki, ikipalatalı parlamentin aşağı palatası və birpalatalı parlament ümumi, bərabər və birbaşa seçki əsasında şəxsi və gizli səsvermə yolu ilə təşkil olunur. İkipalatalı parlamentin yuxarı palatası birbaşa, bəzi hallarda isə dolayı yolla, yəni çoxdərəcəli seçki əsasında təşkil olunur.ABŞ, İtaliya və s. dövlətlərdə yuxarı palata birbaşa seçki əsasında formalaşırsa, Fransa, Hindistan və digər ölkələrdə bu dolayı yolla həyata keçirilir. Birpalatalı və ikipalatalı parlamentdə komitələr, yaxud komissiyalar fəaliyyət göstərirlər. Komissiyalar parlamentin köməkçi orqanlarıdır. Qanunverici parlament komissiyaları parlament komissiyaları içərisində başlıca rola malikdir. Eyni zamanda qanunverici parlament komissiyaları daimi, müvəqqəti və xüsusi formada mövcuddur. Daimi komissiyalar yarandığı vaxtdan parlamentin səlahiyyət müddəti başa çatana qədər fəaliyyət göstərirlər. Müvəqqətikomissiyalar öz fəaliyyətini müvafiq parlament qanunvericiliyində nəzərdə tutulan qayda əsasında, palataların səlahiyyət vaxtının müxtəlif məqamlarında dayandırır. Xüsusi komissiyaların fəaliyyətini səciyyələndirən cəhət isə onlarda peşəkar parlament üzvlərinin təmsil olunmasıdır, onlar yəni yüksək səviyyədə ixtisaslaşdırılmış komissiya kimi formalaşmasıdır.

İkipalatalı parlament sistemi əsasən federativ dövlət formasının mövcud olduğu ölkələrdə geniş yayılmışdır. Birpalatalı parlament isə başlıca olaraq unitar dövlətlərdə (Panama, Boliviya, Azərbaycan və s.) təşkil olunur. İkipalatalı parlamentin həyata keçirdiyi səlahiyyətlər birpalatalı parlamentə malik ölkələrdə məhz mövcud vahid palata tərəfindən icra olunur. Birpalatalı parlamentdə müzakirə edilən müxtəlif məsələlər əvvəl ayrı-ayrı komitələrdə və ya komissiyalarda nəzərdən keçirilir, bundan sonra parlamentin ümumi müzakirəsinə təqdim olunur. İkipalatalı parlamentdə isə müzakirə edilən məsələlər əvvəl aşağı, sonra isə yuxarı palatada müzakirə olunur və müvafiq qərarlar qəbul edilir.

Unitar dövlət olan Azərbaycan Respublikasının Milli Məclisi də birpalatalıdır.Birpalatalı və ikipalatalı parlamentlər üçün səciyyəvi olan ümumi prinsiplər Azərbaycan Respublikasının Milli Məclisinin sturukturunda, sosial tərkibində və səlahiyyətlərində öz əksini tapmışdır.

## 3.Seçki sistemləri

Seçki sistemi son dərəcə mürəkkəb və dinamik hadisədir. Hər bir ölkədə onun konkret məzmunu müxtəlifdir və ayrı-ayrılıqda konkret ölkə çərçivəsində seçki sisteminin məzmunu vaxtı gələndə çoxsaylı şəraitin təsiri altında dəyişir. O, yerli orqanlardan tutmuş ölkə Prezidentinə qədər nümayəndəli hakimiyyət sisteminin formalaşması prosesinin həyata keçirilməsi üsuludur.

Seçkilər müasir demokratik cəmiyyətdə siyasi prosesin ayrılmaz hissəsidir. O, böyük siyasətə üz tutan insana əlverişli imkan, parlamentin deputatı (millət vəkili), qubernator və ya ölkə prezidenti olmağa isə zəmin yaradır. Eyni zamanda seçkilər cəmiyyətin siyasi sisteminin yeniləşməsinin ən əhəmiyyətli texnologiyasıdır.

Seçkilərin effektivliyinin başlıca amili isə vətəndaş cəmiyyətinin yetkinlik dərəcəsi və onun səviyyəsinə uyğun olan partiya sisteminin inkişafıdır. Demokratik seçkilər bir sıra prinsiplərlə müəyyən olunur. Onlar dəyərli mahiyyət kəsb etməklə, seçkilərin nümayəndəli mexanizmini təmin edir. Bu prinsiplər seçki qanunvericliyi ilə müəyyən olunur; həmin qanunvericiliyin başlıca vəzifəsi insanın ən əhəmiyyətli hüquqlarından birini- səsvermə hüququnu və ya səs hüququnu təmin etməkdən ibarətdir.

“Səsvermə” çox qədim termindir. Bu termin bizə qədim Spartadan gəlib çıxmışdır. Spartada dövlət hakimiyyətinin ali orqanı (qerusiya) ümumi iclas (apela) gedişində ümumi qışqırıq (qışqırma səsi) vasitəsilə formalaşmışdır, başqa sözlə, qerusiyanın üzvü o adam seçilirdi ki, iclasdakılar onun seçilməsi üçün daha çox qışqırırdılar. Antik Afinadan isə bizə “seçki qutusu” anlayışı bəxş edilmişdir. Qədim afinalılar səsvermə gedişində seçki qutusuna məhz qara və ağ rəngdə daşları-bülletenləri atırdılar. Burada qara “əleyhinə”, ağ isə “leyhinə” mənasında işlədilirdi. Səs hüququ ən başlıca hüquqdur, onsuz digər hüquqlar ciddi məna kəsb etmir. Demokratik seçkilərin ümumbəşəri dəyərlərini inkar etmək hakimiyyət iddiasında olan sosial-siyasi qüvvələrin avtoritar və ya

totalitar mövqeyini ifadə edir. Məsələn, rus bolşevizmi, İtaliya faşizmi və alman milli-sosializmi buna misal ola bilər.

Ümumi seçki hüququ ölkənin bütün vətəndaşlarının dövlət hakimiyyəti orqanlarının və digər orqanların seçilməsində iştirakı hüququnu nəzərdə tutur. Demokratiya şəraitində ümumi seçki hüququnun həyata keçirilməsinin ən zəruri üsullarından biri məhz səsvermə sayılır.

Müasir demokratik seçkilərin vacib prinsiplərindən biri bərabər seçki hüququdur. Burada qanunvericilik orqanına deputatlar seçilir, hər bir deputat (millət vəkili) eyni sayda seçicilərdən seçilir, hər bir seçici isə ümumi elektoral qərara eyni dərəcədə təsir göstərir. Bəzi hallarda vətəndaşların ayrıca kateqoriyalarının seçki hüququnun genişləndirilməsi üçün bərabərlik prinsipinin pozulmasının məcburiliyi yaranır (xüsusi qaydaların tətbiqi yolu ilə). Bu halda dövlət orqanlarındakı yerlərin bir hissəsi əhalinin müəyyən təbəqəsinə verilir.Məsələn, Cənubi Afrika Respublikasında və Zimbabvedə bu güzəşt irqi azlığın nümayəndələrinə şamil edilirsə, Livanda, Belçikada və bəzi digər ölkələrdə etnik qruplar üçün nəzərdə tutulur.

Seçkilərin digər prinsipi onların birbaşa olmasıdır. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, inkişaf etmiş parlament demokratiyasına malik ölkələrin əksəriyyətində seçicilərin parlamentin üzvlərini, prezidenti, siyasi hakimiyyətin digər orqanlarının nümayəndələrinibirbaşa, heç bir təmsilçi, vasitəçi, nümayəndə olmadan seçirlər.

Demokratik seçkilərin ən mühüm prinsipi bəhsləşmədir. Demokratiyanın qərarlaşmasının əhəmiyyətli şərti olan bu prinsip rəqabət aparan partiyaların, hərəkatların, namizədlərin seçkilərdə iştirakını ifadə edir. Ayrı-ayrı sosial birliklərin mənafelərini ifadə edən siyasi partiyalar müxtəlif sosial təbəqələrin və qrupların seçkilər vasitəsilə siyasi sistemə cəlb olunmasına cəhd edirlər. Bəhsləşmə prinsipi bəzi ölkələrdə qanunvericilikdə təsdiqlənmişdir. Ədalətli bəhsləşmə prinsipinin təmin edilməsinə şərait yaradılması

demokratik seçkilərin bərqərar olmasının əsas şərtidir. Burada səsvermə prosedurasına aid olan prinsip bütün demokratik dövlətlərdə qəbul olunan gizli səsvermədir. Səsvermənin bu prinsipi seçicilərə xaricdən təsiri xeyli dərəcədə azaldır. Qanunda bu prinsipin pozulmasına qarşı sərt cəza nəzərdə tutulur.

Demokratik seçki prinsipinə seçkilərə ictimai nəzarət imkanınıda aid etmək olar. Eyni zamanda demokratik seçki prinsipinə seçkiqabağı mübarizədə imkanların bərabərliyi və müntəzəmlik, vaxtaşırılıq kimi prinsiplər də aid edilir.

Seçkilərin mahiyyəti onun funksiyası vasitəsilə üzə çıxır. Seçkilər öz demokratik təbiətinə uyğun olan bir sıra funksiyalar yerinə yetirir. Onların ən əhəmiyyətli funksiyalarından biri fəaliyyətdə olan nümayəndəli sistemin yaradılmasıdır.

Müxtəlif sosial qrupların mənafeləri yalnız fərqləndiyinə görə yox, eləcə də bir-birinə zidd olduğu üçün seçkilər əhalinin müxtəlif qruplarının mənafelərinin dincrəqabəti funksiyasını yerinə yetirir. Belə şəraitdə partiyalar münaqişəli vəziyyətdə olan müxtəlif sosial qrupların təmsilçilərinə çevrilirlər. Seçkinin başlıca funksiyalarından biri hakimiyyət orqanlarının formalaşdırılması funksiyasıdır. Həmin funksiya seçkili hakimiyyət orqanlarının formalaşmasına xidmət edir. Bu funksiya ilə əlaqə kəsb edən digər funksiya dövlət təsisatlarının formalaşdırılmasinin legitim üsuludur. Ümumiyyətlə, seçkilər vətəndaş cəmiyyətində demokratikləşmənin əsasını və fəaliyyətini təşkil edən köklü vasitələrdən biridir. Vətəndaşların seçki hüququ mövqeyini bu funksiya səciyyələndirir. Digər əhəmiyyətli funksiyalardan biri də əhalinin geniş təbəqələrininsiyasi proseslərə cəlb olunması funksiyasıdır. Seçkilər əhalinin siyasi fəallığının daha da yüksəlməsinə xalqın hakimiyyətin mənbəyi kimi çıxış etməsinin praktiki təsdiqinə istiqamətlənir. Səsvermədə iştirak etməkdən kənarlaşmaq absenteizm adlanır. Seçkilərin gedişində, eləcə də nümayəndəlik münasibətlərinin təsisatlaşmasısosial funksiyanı reallaşdırır. Eyni zamanda seçkinin təmsilçilik təsisatı münasibətlərininyaradılmasına istiqamətlənən funksiyasıda özünəməxsus

əhəmiyyətə malikdir. Seçki hüququ ilə bütün vətəndaşların seçkili orqanlara seçilməsi və orada təmsil olunması hüququ nəzərədə tutulur.Seçkifunksiyasına həm də siyasi sosiallaşmanı aid etmək olar.

Seçki sistemi siyasi hakimiyyətin nümayəndəli dövlət orqanlarının legitim təşəkkülünü təmin edən və tənzimləyən qaydaların, üsulların və proseslərin məcmusudur. Səsvermə prosesini reallaşdırmaq məqsədilə həyata keçirilən konkret seçki forması seçki anlayışında ifadə olunur. Dünya dövlətlərinin hər birində seçki haqqında qanunvericilik öz xüsusiyyətlərinə malikdir. Hər bir ölkənin tarixi, mədəni, siyasi, sosial inkişaf xüsusiyyətləri ilə şərtlənən spesifik seçki normalarına malik olmasına baxmayaraq, orada bəzi ümumi prinsiplərdə mövcuddur. Həmin prinsiplər seçki sistemlərinin tipləri barədə fikir söyləməyə imkan yaradır. Siyasi ədəbiyyat seçki sistemlərinin üç başlıca tipi fərqləndirilir: majoritar (mütləq və nisbi çoxluq), proporsional və qarışıq. Majoritar-fransız dilində majerite sözündən götürülüb, coxluq deməkdir. Yeni seçki sisteminin əsasını çoxluq prinsipi təşkil edir. Burada seçkilər bir qayda olaraq, təkmandatlı dairədə keçirilir və səslərin əksəriyyətini əldə edən namizəd qalib gəlir və deputat seçilir. Majoritar sistemin daha çox yayılmış növü nisbi və mütləq çoxluq sistemidir.

Nisbi çoxluq seçki sistemində namizədin mandat əldə etməsi üçün seçkiqabağı mübarizədə rəqiblərindən çox səs toplaması kifayətdir. Mütləq çoxluq seçki sistemində isə deputat mandatını əldə etmək üçün səslərin 50%-dən çoxunu (50% və 1 səs ) qazanmaq lazımdır. İki namizəd arasında deputat mandatı uğrunda mübarizədə lazımı səs olmadıqda onda ikinci tur keçirilir və burada nisbi çoxluq variantından istifadə olunur.

Proporsional seçki sistemi ilə müqayisədə majoritar sistem universal xarakter daşıyır. Bu sistem yalnız parlament seçkisində deyil, həmçinin yüksək dövlət vəzifələrini təmsil edən şəxslərin, eləcə də prezidentin seçilməsi üçün tətbiq edilir. Majoritar sistem daha güclü siyasi cərəyanın mövqeyini möhkəmlətməklə, qanunvericilik orqanlarında qüvvələrin yerbəyer edilməsi üçün

şərait yaradır, parlament sturukturlarından kiçik və orta imkanlara malik olan partiyaların sıxışdırılmasına istiqamətlənir və eləcə də iki və ya üçpartiyalı sistemin təşəkkülünü stimullaşdırır. Eyni zamanda parlamentdə liderlik edən partiyanın güclü mövqeyi sabit hökumətin formalaşmasına, onun effektli və ardıcıl siyasi kurs həyata keçirməsinə imkan yaradır. Məsələn, ABŞ və İngiltərə kimi dövlətlərdə parlamentdə yerlər uğrunda iki güclü partiya mübarizə aparır. Dünyanın əksər demokratikyönlü dövlətlərində majoritar seçki sistemi üstünlük təşkil edir. Majoritar sistemin başlıca çatışmazlığına kiçik partiyaların və birliklərin öz nümayəndələrinin dövlət orqanlarında təmsil olunması imkanlarını kəskin şəkildə məhdudlaşdırılması aiddir.

Qeyd edək ki, Azərbaycan Respublikasının 24 avqust 2002-ci ildə keçirilmiş referendumuna əsasən Konstitusiyada edilmiş dəyişikliyə uyğun olaraq, hazırda Milli Məclisə seçkilərdə majoritar seçki sistemi tətbiq edilir (maddə 83).

Proporsional seçki sistemiseçkilərin yalnız çoxmandatlı ümumdövlət orqanları dairəsində keçirilməsini nəzərdə tutur. Bu sistem majoritar seçki sistemi ilə müqayisədə müasir dünyada daha geniş və çox yayılmışdır. Eyni zamanda bu sistem çoxpartiyalılığın inkişafına imkan yaradır. Majoritar seçki sistemi kimi proporsional sistemdə müxtəlif cür keçirilir:

a) Ümumdövlət səviyyəsində proporsional seçki sistemi. Bu seçki sistemində seçicilər seçki təşkilatlarına və partiyalara bütün ölkə miqyasında səs verirlər. Belə olan təqdirdə seçki dairəsi ayrılmır;

b) Çoxmandatlı dairələrə əsaslanan proporsional seçki sistemi. Belə vəziyyətdə deputat mandatları siyasi partiyaların və təşkilatların seçki dairəsində təsiri əsasında bölüşdürülür. Bu seçki sistemini fərqləndirən dəyərli cəhət ondan ibarətdir ki, onun köməyi ilə formalaşan hakimiyyət orqanları cəmiyyətin real siyasi mənzərəsini səciyyələndirir. O, dövlətlə vətəndaş cəmiyyətinin əks əlaqəsini təmin edir və son nəticədə siyasi plüralizmin inkişafına

imkan yaradır. Bu seçki sistemi tam şəkildə İsraildə və Niderlandda qərarlaşıbır. Majoritar seçki sistemindən fərqli olaraq, proporsional sistemdə seçki dairəsi bütün ölkə miqyasında təşkil edilir və deputat mandatları partiyaların topladığı səsə uyğun olaraq bölüşdürülür. Proporsional seçki sistemində mandatların paylanmasında bütün partiyaların iştirakı mümkün deyildir. Burada daha nüfuzlu partiyaların parlamentdə təmsil olunmasını təmin etmək məqsədilə dünya təcrübəsində seçki baryeri prinsipi tətbiq olunur.

Ümumiyyətlə, seçki sistemləri öz təşəkkülü və inkişafında böyük yol keçmişdir. İkinci dünya müharibəsindən sonrakı dövrdə qarışıq seçki sistemi formalaşmağa başlamışdır. Qarışıq seçki sistemi majoritar və proporsional seçki sistemlərinin çatışmazlıqlarını minimuma endirmək məqsədilə bu iki sistemin uyğunlaşdırılmasını nəzərdə tutur, yəni onların xüsusiyyətlərini özündə əks etdirməklə səciyyələnir. Seçki sisteminin təkmilləş-dirilməsi təcrübəsi təsdiqləyir ki, qarışıq seçki sistemi dahademokratik mahiyyət kəsb edir və siyasi sabitliyin əldə olunması üçün effektlidir. Qarışıq seçki sistemində çoxmandatlı dairənin yerinə təkmandatlı dairə yaradılır. Seçkilərdə iştirak etmək hüququ 4-5 partiyaya verilir, lakin qalib kimi yalnız 2-3 partiya gözdən keçirilə bilər. Bu sistem sabit partiya blokunun yaradılmasına, effektli seçki kampaniyasının keçirilməsinə və hakimiyyətin əldə olunmasına imkan verir. Qarışıq sistemdə namizədlərin siyahısına partiyalaryox, onların nümayəndələri daxil edilir və ona görə də səsvermə zamanı seçim, hər şeydən əvvəl, yalnız partiya proqramı üzrə deyil, fərdi qaydada baş verir. Qeyd edək ki, 1995 və 2000- ci ildə Azərbaycan Respublikasının Milli Məclisinə keçirilən seçkilərdə qarışıq seçki sistemindən istifadə edilmiş və 125 millət vəkilinin 100-ü majoritar, 25-i isə proporsional sistem əsasında seçilmişdir. Hazırda isə respublikamızda yalnız majoritar seçki sistemi tətbiq olunur.

Namizədin seçkiqabağı mübarizəyə qoşulması haqqında rəsmi ərizəsindən sonra geniş miqyaslı seçki kampaniyası başlanır. Bu

kampaniyanın gedişində həll ediləsi məsələlər çoxsaylı və mürəkkəbdir. Ona xüsusilə namizədin seçki platformasını irəli sürməsi aiddir. Eyni zamanda seçki platforması hər hansı namizədin, partiyanın və ya qrupun fəaliyyət proqramı və siyasi tələbidir. Namizədin platformasının geniş reklamın həyata keçrilməsi ilə bərabər, eyni zamanda seçkiqabağı kampaniyanın strategiyası və taktikası formalaşdırılır. Seçki strategiyası elə informasiyaların məcmusudur ki, onun məzmununun açıqlanmasına bütün seçki kampaniyası tabe olacaqdır.

Seçki kampaniyasının konkret strategiyası başlıca olaraq, real situasiyaya uyğun olan mövcud resurslarla, kampaniyanın miqyası ilə müəyyən olunur. Bir qayda olaraq, seçkilər miqyası etibarilə müxtəlif səviyyələrdə keçirilir:parlament və prezident seçkiləri (ümummilli); bələdiyyə və inzibati ərazi seçkiləri (yerli) .

Seçki kampaniyasında bu və ya digər texnoloji üsulların seçilməsi bilavasitə seçilmiş taktikadan asılıdır, yəni situasiyanın inkişafı və fəaliyyətdə olan şəxsin məqsədi ilə birbaşa müəyyənləşən üsul və qaydaların məcmusu ilə şərtlənir.

Taktikanın məqsədinamizəd, onun proqramının başlıca məqsədi haqqında əhalini məlumatlandırmaqdan, seçicilərdə məhz bu namizədin müdafiə edilməsinə istiqamətlənən rəy, mülahizə, inam, qiymətləndirmə və s. formalaşdırmaqdan ibarətdir.

Seçkiqabağı kampaniyada çoxcəhətli taktiki üsullardan istifadə olunmasına baxmayaraq, seçki prosesinin bütün iştirakçıları tərəfindən çox və ya az reallaşdırılan bir neçəbaşlıca taktiki istiqaməti fərqləndirmək olar. Seçkiqabağı kampaniyanın başlıca taktiki istiqamətlərinə şüar yazılmış plakatın hazırlanması, informasiyalı vəziyyət, siyasi reklamın hazırlanması və yayılması, namizədin seçicilər qarşısında çıxışının təşkil edilməsi daxildir. Qeyd olunduğu kimi demokratiya ümumxalq, müstəqil və açıq seçkiləri nəzərdə tutur. Lakin burada həm praktik, eləcə də fəlsəfi mənada bir çox çətinlik və ziddiyyətlər vardır, çünki seçicilər öz qabiliyyətləri və ictimai həyatda iştirakına görə bir-birindən

fərqlənən adamlardır, onların müxtəlif həyat təcrübəsi, öz istəkləri və maraqları var. Demokratik seçkilər rəqabət şəraitində vaxtaşırı keçirilən, nümayəndəli və qəti seçkilərdir. Seçkilərin prosesində hökuməti tənqid etməyə, öz tənqidini nəşr etdirməyə və alternativ təklif etməyə dair geniş azadlıqlara malik olan vətəndaşlar hökumətdə əsas qərarlar qəbul edəcək olan şəxsləri seçirlər.

Beləliklə, seçkilər cəmiyyətin demokratikləşməsinin başlıca şərtidir.Cəmiyyətin demokratikləşməsi seçkilərin ədalətli həyata keçirilməsindən xeyli dərəcədə asılıdır.

# V BÖLMƏ
# Siyasi rejim, siyasi şüur,siyasi ideologiya və siyasi mədəniyyət

## 1.Siyasi rejim anlayışı

Siyasi rejim cəmiyyətin siyasi həyatının şəraitini ifadə edir, bu və ya digər ölkənin konkret tarixi inkişaf mərhələsinə xas olan mühiti səciyyələndirir. Müxtəlif mənafelərin inteqrasiyası, onların hakimiyyət strukturlarında ifadəsi, siyasətin qarşılıqlı sosial fəaliyyətinin tənzimlənməsi siyasi rejimin vasitəsilə həyata keçirilir. Latın dilində reqimen sözündən əmələ gələn və idarəetmə anlamını ifadə edən rejim anlayışı siyasi münasibətlərin vəziyyətini və xarakterini, cəmiyyətin siyasisisteminin funksional parametrlərini müəyyənləşdirir. Siyasi rejim cəmiyyətdə hakimiyyətin həyata keçirilməsinin üsul və metodlarının məcmusudur. Eyni zamanda o, özündə konkret tarixi şəraitdə cəmiyyət daxilində siyasi qüvvələrin nisbətinin nəticəsi olan siyasi azadlığın vəziyyətini əks etdirir. Dünyanın hər bir ölkəsində siyasi rejim siyasi hakimiyyətin real mənzərəsini əks etdirir. Siyasi rejim müəyyən dövlət tipi üçün səciyyəvi olan siyasi münasibətlərin, dövlət hakimiyyətində və cəmiyyətdə təşəkkül tapan münasibətlərin ideologiyasının, hakim formasının, siyasi mədəniyyətin vəziyyətinin məcmusudur. Siyasi məqsədlər sistemi, ümumi doktrina, eləcə də cəmiyyətin və dövlətin inkişafının forma və üsulları siyasi rejimin xarakterindən asılıdır.

Hakimiyyət rejimlərinin təsnifatına ilk cəhd antik müəlliflər tərəfindən edilmişdir.Yunan mütəfəkkiri Platon dövlət idarəçiliyinin aşağdakı tiplərini fərqləndirmişdir: aristokratiya (yaxşıların hakimiyyəti), timokratiya (şöhrətpərəstlərin hakimiyyəti), oliqarxiya (çoxlarının hakimiyyəti), demokratiya (hamının hakimiyyəti), tiraniya (zorakı hakimiyyət). Platona görə, təkamül gedişində demokratiyadan sonra hökmən tiraniya gələcəkdir. Digər yunan mütəffəkiri Aristotel dövlət idarəçiliyinin altı formasını qeyd etmiş və onları

müsbət və mənfi xüsusiyyətlərəmalik cütlüyə ayırmışdır: monarxiya - tiraniya; aristokratiya - oliqarxiya; politiya-demokratiya. Aristokratiyanıarzu olunan dövlət quruluşu hesab edən Aristotel cütlüyün ilk hissəsini müsbət, ikinci hissəsini isə mənfi idarəetmə tipi adlandırmışdır. Hakimiyyət və idarəetmə tiplərinin təsnifatı və təhlili siyasi fikir tarixində digər görkəmli nümayəndələr tərəfindən də nəzərdən keçirilmişdir. N.Makiavelli, F.Bekon, T.Hobbs, B.Spinoza, Ş.Monteske və başqaları siyasi rejimin mahiyyətini və onu doğuran səbəb və şəraiti müəyyənləşdirmək üçün müxtəlif meyarlardan istifadə etmişlər.

Hazırda "siyasi rejim" anlayışı ilə bağlı iki nöqteyi-nəzər mövcuddur.Onlardan biri siyasi-hüquqi və ya təsisatlı mövqe ilə bağlıdır, digəri sosioloji metodla əlaqədardır. Birinci qrupa daxil olan, siyasi təhlilin təsisatlı istiqamətini təmsil edən amillər "rejim" anlayışını idarəetmə və ya dövlət quruluşu ilə eyniləşdirməyə meyl edirlər.

İkinci qrupa daxil olanların fikrincə, cəmiyyət və dövlət arasında elə əlaqələrə birinci dərəcəli əhəmiyyət verilir ki, onlar, real surətdə təşəkkül tapmışdır. Bu halda rejim yalnız hakimiyyətin (dövlət quruluşunun) forması vəancaq strukturu kimi deyil (ona xas olan siyasi iradənin reallaşdırılması metodları ilə), həm də daha geniş əhəmiyyət kəsb edən aspektdə, yəni qarşılıqlı sosial və siyasi münasibətlərdə uyğunluğa malik olan anlayış kimi nəzərdən keçirilir. Siyasi elmdə siyasi rejimin səciyyəvi anlayışını ilk müəyyənləşdirənlər M.Dyüverje, Q.Lassuel , J.L.Kermon və başqaları olmuşdur.

Siyasi rejim cəmiyyətin ümumi çərçivələrində (struktur və müvəqqəti xarakterli çərçivədə) fəaliyyət göstərən hakimiyyətin müəyyən strukturlarının məcmusu olmaqla, onun sabitliyini qarşısına məqsəd qoyur və bunun üçün təşəkkül tapan sosial mənafelərə və spesifik metodlara əsaslanır. Bir sözlə, siyasi rejim siyasi hakimiyyətin həyata keçirilməsi metodlarının, üsullarının, vasitələrinin məcmusudur. Siyasi rejimin dörd mühüm əlamətə

bölünən xarakteri vardır: partiyaların sayı; açıq müxalifətin mövcudluğu; vətəndaşlarınsiyasi azadlığının səviyyəsi; azad seçkilərin mövcudluğu.

Siyasi rejim anlayışından istifadə etməklə, cəmiyyətdə siyasi idarəetmənin hansı metodlarla həyata keçirilməsini bilmək olar. Siyasi rejimlərin demokratik, totalitar və avtoritar növləri vardır. Demokratik siyasi rejim xalqın hakimiyyətin mənbəyi kimi tanınması ilə bağlıdır və vətəndaşların siyasi həyatda geniş iştirakı və onların siyasi hüquq və azadlıqlarının praktiki reallaşması vasitəsilə hakimiyyət strukturlarının formalaşması prosesini təmin etməlidir. Nəhayət, demokratik siyasi rejim xalq hakimiyyətini, başqa sözlə, bütün hakimiyyətin xalqa verilməsini, onun siyasi təsisatlara nəzarəti vasitəsilə cəmiyyətin və dövlətin real idarə olunması imkanlarını nəzərdə tutur. Praktiki həyatda əsil, "xalis" demokratiya (xalq hakimiyyəti), hər şeydən əvvəl, real gerçəkliyin nəzəri modelli, nümunəsi kimi çıxış edir. Cəmiyyətindemokratik təşkili haqqında nəzəri təsəvvürlər Aristotel, N.Makiavelli, T.Hobbs, C.Lokk, Ş.Monteske, J.J.Russo, T.Cefferson, A.Tokvil, M.Veber və başqalarının əsərlərində öz əksini tapmışdır.

Totalitarizim antidemokratik rejimin (avtolitarizm, hərbi diktatura, istibdad idarəçiliyi və s. ilə yanaşı) növlərindən biridir. Bu rejim dövlət tərəfindən cəmiyyətin və hər bir insanın həyat fəaliyyətininbütün sferalarının tam (total) qaydada sərt nizama salınması və zorakı vasitələrləonların üzərində nəzarətin həyata keçirilməsidir. Total rejim şəraitində dövlət hakimiyyəti məhdud insanlar qrupunun və ya siyasi liderin, "rəhbərin" əlində cəmləşir və totalitarizmlə avtoritarizmin tipoloji əlaqəsini üzə çıxarır.

"Totalitarizm" termini latın dilində tam, bütövlük mənasını ifadə edir. Bu termini siyasi söz ehtiyatına Benito Mussolini gətirmişdir. 1923-cü ilin payizinda İtaliyada Mussolininin başçılığı altında "totalitar hakimiyyət" təşəkkül tapdı. Totalitarizmdə mülkiyyət bütövlükdə dövlətə məxsusdur və ya ona sərt nəzarət edilir, bu isə inhisarçı hakimiyyəti doğurur, istər-istəməz siyasətin

və hakimiyyətin vasitələri bir yerdə birləşir və dövləti ümumi məcburetmə hakimiyyətinə gətirib çıxarır. Bu rejim şəraitində fərdin iqtisadi azadlığının vacib şərti hesab olunan vətəndaş cəmiyyəti praktiki olaraq nəzərə çarpmır. Ənənəvi istibdad rejimlərindən fərqli olaraq, total sistem müəyyən müddət idarə edənlərlə idarə olunanlar arasında konsensusu saxlayan daxili birliyi ilə fərqlənir. Beləliklə, cəmiyyətin zor gücünə dəyişdirilməsini nəzərdə tutan inqilabi ideyalar totalitar dünyagörüşlərin əsasını təşkil edir.

Avtotarizm adətən totalitarizmlə demokratiya arasında aralıq vəziyyətə malik olan rejim tipi kimi səciyyələnir. Avtotarizmin müəyyənləşdirilməsi üçün hakimiyyət və cəmiyyətin münasibətlərinin xarakteri mahiyyətli əhəmiyyət kəsb edir. Həmin münasibət inamdan çox məcburetmə əsasında təşəkkül tapır. Bu rejim şəraitində dəqiq işlənib hazırlanmış rəhbər ideologiya mövcud deyildir.

Avtotarizm siyasi təfəkkürdə, rəylərdə və hərəkətlərdə məhdud və nəzarətdə olan plüralizmə yol verir, müxalifətin mövcudluğu iləbarışır. Cəmiyyət həyatının müxtəlif sferalarına rəhbərlik bir o qədər totallıq kəsb etmir.Vətəndaş cəmiyyətinin sosial-iqtisadi infrastruktura, istehsal, həmkarlar ittifaqı, təhsil müəssisələri, kütləvi təşkilatlar, kütləvi informasiya vasitələri üzərində sərt məhdudlaşdırılan nəzarət yoxdur.Avtoritar rejim hakimiyyət ugrundareal siyasi rəqabətə, cəmiyyət həyatının ən mühüm məsələləri üzrə qərarların qəbul olunmasında əhalinin faktiki iştirakına sərt münasibət bəsləyir. Bu rejim şəraitində şəxsiyyətin hüququ, azadlığı təhrif olunur və pozulur, seçki prosedurası saxta, zahiri xarakter daşıyır, xalq hakimiyyətdən uzaqlaşdırılır və onun formalaşmasında və həyata keçirilməsində real surətdə iştirak etmir. İcraedici hakimiyyət bütün arzuolunmaz terrorçu metodlarla müxalifətə divan tutmaq üçün bilavasitə zorakılıq tətbiq etmək imkanlarını daim saxlayır. Avtoritar rejimlər arasında teokratik rejimi xüsusilə fərqləndirmək olar. Teokratik

rejimdə ümumi hakimiyyət məhdud qrupun, müəyyən tayfanın əlində cəmləşir, idarəetmədə həddən artıq mərkəzləşmə həyata keçirilir (Məsələn, İranda Ayətolla Xomeyninin rejimi). Avtoritar rejimin ifrat ifadəsinə hərbi rejimlər-Çilidəki Pinoçet, ərəb şərqiölkələrindəki vətandaş diktaturaları misal ola bilər. Bu rejimlərdə birbaşa zorakılığa istiqamət götürülür, iqtisadiyatın hərbiləşdirilməsi baş verir, kütlələrdə fanatizmə sitayiş diqqəti cəlb edir. Avtoritar rejimin təsnifatına çoxcəhətli yanaşmaları və üs-üstə düşməyən nöqteyi-nəzərləri əsas götürərək, onun aşağdakı tiplərini qeyd etmək olar: mütləqiyyət-monarxiya, hərbi avtoritar (hərbi xunta), avtoritar-bürokratik və inqilabi-populist ( geniş yayılan). Bu rejim cəmiyyətin totalitarizmdən demokratiyaya keçid şəraitində hakimiyyətin həyata keçirilməsinin zəruri tipidir, eləcə dəinqilabi dəyişikliklər dövründə və digər ekstremal şəraitlərdə, məsələn, müharibə, iqtisadi böhran, cinayətkarlıq və s. zamanı hakimiyyətin həyata keçirilməsidir.Bu cür şəraitdə avtoritar hakimiyyət keçid dövrünün tələbatı kimi çıxış edir və gələcəkdə (meydana çıxan ictimai problemlərin pozitiv həlli zamanı) demokratiyaya tərəf transformasiya oluna bilər. Eyni zamanda avtoritar rejim bir qayda olaraq, siyasi qüvvələrin kəskin qütbləşməsi ilə müşahidə edilən ictimai quruluşların əvəz olunması zamanı baş verir. Bu zaman cəmiyyətdə baş verən uzunmüddətli iqtisadi vəsiyasi böhranın demokratik vasitələrlə aradan qaldırılması mümkün olmur. Avtoritar rejimlər əsasən XX əsrin ikinci yarısında Asiya, Afrika və Latın Amerikasının müstəmləkəçillikdən xilas olan bir sıra ölkələrində təşəkkül tapdı. 1953 - cü ildə keçmiş SSRİ - də Stalinin ölümündən sonra totalitar rejimin avtoritar rejimə çevrilməsi başlanır. Totalitarizmdən avtoritarizmin fərqi burejimin məqsədlərini, tarixi vəzifələrini başa düşməklə bağlıdır. Totalitarizm bir qayda olaraq, utopik ideyalarla əlaqədardır. Məsələn, üçüncü “reyx” min il yaşamağı nəzərdə tuturdu. Keçmiş sovet kommunist sistemi də əbədi mövcud olacağını bəyan edirdi. Avtoritar rejim cəmiyyətin köklü, inqilabi surətdə yenidən

dəyişdirilməsini qarşısına məqsəd qoymur. Onun məqsədi konkret vəzifələri həyata keçirməkdən, ölkəni çətin vəziyyətdən xilas etməkdən ibarətdir.

Beləliklə, antidemokratik rejimlər tarixən öz ömrünü başa vurmuş və müxtəllif amillərin təsiri altında onların demokratiya tərəfə təkamülü baş vermişdir.

## 2.Siyasi şüur anlayışı

Siyasi şüurun məzmununun müəyyənləşdirilməsi yalnız sosial mənafelər meyarı ilə məhdudlaşmır. Siyasi şüurun öyrənilməsinin mühüm funksional istiqaməti həm də onun nəzəri-ideoloji formalarını tədqiq olunmasında təzahür edir. O, bütün sosial qurumların və təbəqələrin dövlətə münasibətlərini, sosial qruplar arasındakı qarşılıqlı münasibətlər sferasını əhatə edir. Siyasi şüur insanın bütün hissi və nəzəri, dəyərli və normativ rasional və şüuraltı təsəvvürlərinin məcmusunu əks etdirən ən ümumi kateqoriyadır. Eləcə də o, insanın siyasi sturukturlarla münasibətini ifadə edir. Siyasi şüur elə idealları, normaları və görüşləri əks etdirir ki, o, məhz bunlarla istiqamətlənir və onlardan hakimiyyət mexanizminə uyğunlaşmaq üçün istifadə edir. Eyni zamanda o, özünə xas olan funksiyaları siyasətdə yerinə yetirir. Məzmununa görə, siyasi şüur ictimai həyatın siyasi sferasının bütün təsisatlı olmayan konponentlərini əks etdirir. Müasir elmdə siyasi şüurun məzmunu ilə bağlı iki başlıca konseptual yanaşma mövcuddur. Birinci mövqeyin-biheviorçu yanaşmasının tərəfdarları siyasi şüuru insanın rasional təfəkkürünün forması kimi araşdırırlar. Siyasi şüur insanın təfəkkürünü siyasətdə qaydaya salan mənəvi hadisə kimi səciyyələndirilir.

İkinci mövqe aksioloji yanaşma isə siyasi şüuru sosial təfəkkürün müəyyən səviyyəsinə daxil edir.Bu mövqeyə görə, siyasi

şüura həm də müxtəlif adi, ümumbəşəri görüşlər və insani dəyərlər aiddir, lakin siyasi şüurun mahiyyəti insanların qabiliyyəti və onların qurup mənafelərinin müəyyənləşdirilməsi iləbunları digər qurup tələbatları ilə müqayisə etməklə, həmçinin bu mənafelərin və tələbatların reallaşdırılması üçün dövlətin istifadə etdiyi üsul və vasitələrlə şərtlənir.

Cəmiyyətin siyasi şüurunda insanların praktiki fəaliyyəti ilə bu fəaliyyətin sosial şəraiti arasındakı nisbət öz əksini tapır. Siyasi şüur məhz dövlət hakimiyyətinin mahiyyətini dərk etmək tələbatı kimi meydana gəlmişdir. Dövlət hakimiyyəti isə ilk növbədə, müxtəlif sosial qrupların mənafelərini ifadə edir. Eyni zamanda siyasi şüur dövləthakimiyyətinə münasibətdə sosial qrupların fəaliyyətini istiqaməti və ictimai münasibətlərini əks etdirir. İqtisadi və sosial mənafelərin bilavasitə belə şərtlənməsi siyasi şüurun spesifikliyini doğurur və bu zəmində xüsusi siyasi mənafelər formalaşır. Siyasi şüur ictimai şüurun digər tərəflərinə nisbətən iqtisadibazislə daha sıx bağlıdır.Siyasi ədəbiyyatda siyasi şüurun iki formasının-adi-praktiki (siyasi psixologiya) və ideoloji-nəzəri (siyasi ideologiya) mövcudluğu qeyd olunur. Siyasi şüurun digər mühüm komponenti siyasi dəyərlər və mülahizələrdir.Bu komponent vasitəsilə şəxsiyyət və ya ictimai qruplar siyasi gerçəkliyə öz münasibətlərini bildirirlər. O, birmənalı təzahür etmir və iki başlıca səviyyədə (psixoloji və ideoloji) üzə çıxa bilər.

Psixoloji səviyyədə dəyərlər və mülahizələr siyasət haqqında emosional-hissi formada çıxış edir və siyasi hadisə və halların hissi dərkedilməsilə tamamlanır, onlara münasibətdə hiss, əhval-ruhiyyə və emosiyada ifadə olunur. Bu səviyyədə dəyər və mülahizələr siyasi hadisələrin dərkedilməsi ilə müsbət, mənfi və neytral şəkildə ifadə edə bilər.

İdeoloji səviyyədə dəyərlər və mülahizələr mücərrəd xarakter kəsb edir və siyasi məqsədlər, eləcə də görüşlər sistemi formasında üzə çıxır. Bu səviyyədə dəyərlər və mülahizələr nəzəri biliklər və təsəvvürlər əsasında formalaşır.

Siyasətin mühüm amili kimi çıxış edən siyasi şüur cəmiyyətin siyasi sisteminin fəaliyyətini, siyasi proseslərin istiqamətlənməsini, siyasi fəaliyyətin xarakterlərini və insanların davranışını əhəmiyyətli dərəcədə müəyyənləşdirir. Siyasi şüur, ictimai şüurun xüsusi formasıdır. O, insanların siyasi gerçəkliyə münasibətini ifadə edən görüşlərin, məqsədlərin və dəyərlərin məcmusu kimi çıxış edir.

Siyasi mədəniyyətlə sıx bağlı olan siyasi şüurun əsasını siyasi gerçəklliyə aid biliklər təşkil edir.

Siyasi şüurun sturukturuna qnoseoloji (koqnitiv), aksioloji, sosioloji (funksional), ideal və psixoloji elementlər daxildir.

## 3.Siyasi şüurun ideoloji komponenti

Siyasi şüurda ideologiya mühüm yer tutur. Şəxsiyyət və ictimai qruplar praktiki fəaliyyətlərində ideoloji məqsədləri, prinsipləri, doktrinaları başlıca siyasi dəyər kimi qiymətləndirirlər, çünki ideoloji dəyərlər xeyli dərəcədə onların siyasi səylərini müəyyənləşdirir. Siyasi ideologiya siyasi şüurun daha təsirli forması olmaqla, dövlətin və digər vacib hakimiyyət təsisatlarının fəaliyyətini istiqamətləndirir və cəmiyyətin bütövlüyünü təmin edir. İdeologiya terminini elmi dövriyyəyə ilk dəfə fransız tədqiqatçı filosofu Antuan Destyut deTrasi bəxş etmişdir. O, istər XVIII əsrin sonunda yazdığı "Düşünmək qabiliyyəti haqqında etüdlər" əsrində, istərsə də dörd cilddən ibarət "İdeologiyanın ünsürləri" adlı əsərində ideologiyanı "ideyaların təşəkkülü və insan təfəkkürünün qanunları haqqında elm" kimi əsaslandırmağa cəhd etmişdir. Maarifçilik dövründə təşəkkül tapan siyasi ideologiya arzu edilən ideal cəmiyyət haqqında təsəvvürləri əks etdirirdi. Müasir elmdə ideologiya termininin şərhində müxtəlif mövqelər nəzərə çarpır. T.Parsons ideologiyanı geniş tutumlu anlayış kimi şərh edərək, ona funksional yanaşma kontekstində diqqət yetirir.

İdeologiyaya direktiv (göstəriş) xarakterli münasibət marksizmə məxsusdur. Marksizmdə ideologiya sinfin köklü mənafeyinin ifadəsi kimi vurğulanır. İdeologiyaya kulturoloji yanaşma isə onun mədəniyyət kontekstində araşdırılmasıdır və ideologiyanı sonuncunun mühüm elementi kimi nəzərdən keçirir. Bu məsələlər M.Veberin, K.Manheymin, E.Dürkheymin əsərlərində əsaslandırılır. İdeologiya siyasi ideyaların, görüşlərin, dəyər və məqsədlərin məcmuunun sistemləşdirilmiş növü, həmçinin fərdi və eləcə də ictimai şüurun tərkib hissəsi olmaqla bu konteksdə siyasi ideologiya kimi çıxış edir. Siyasi ideologiya siyasi xarakterli ideyalar vasitəsilə hakimiyyət münasibətləri sistemi və cəmiyyətin siyasi quruluşu barədə təsəvvürləri birbaşa əks etdirir. İdeologiya özündə kütləvi emosiyanı, hazırlıq və həmrəylik hissini, sosial əhval-ruhiyyəni əks etdirir. Siyasi ideologiyanın hakimiyyət sferasında rolu onun ictimai şüura yiyələnməsinin xarakterindən asılıdır. Siyasi ideologiyanın başlıca funksiyalarına sərvət yönümü, səfərbəredici, inteqrativ, dayandırıcı-məhdudlaşdırıcı, iştirakçılıq və proqnozlaşdırma, aksioloji, müəyyən sosial qrupların mənafeyini ifadəsi, müdafiəsi və s. daxildir. Siyasi ideologiyanın bu funksiyaları, onları siyasi şüurun digər formalarından (məsələn, siyasi psixologiyadan) fərqləndirən iki xüsusiyyət sayəsində: total əhəmiyyətə (qloballığa) idealı olmaq və normativlik əsasında yerinə yetirilir. İdeologiya və siyasətin nisbəti məsələsi ciddi nəzəri və praktiki problemdir. Eyni zamanda siyasi ideologiyanın köməyi ilə insanların dünyagörüşü təşəkkül taparaq inkişaf edir, siyasi dəyərlər və sərvət yönümü formalaşır. İdeologiya qrup halında olan və ictimai mənafelərin ifadəsini təmin edən siyasi və ictimai təşkilatların aləti kimi nəzərə çarpır, ideoloji birləşmə isə ağır həyati sınaqlarda özünü böyük yaradıcı qüvvə kimi sübut etmişdir. Bir məqamıda qeyd etmək lazımdır ki, total siyasətin total ideologiyalaşması təhlükəlidir, belə halda cəmiyyətin siyasi həyatı özünün bütün çoxcəhətli təzahürlərində vahid ideoloji doktrina əsasında nəzərə çarpır. Həmçinin ideologiya sosial qrupların siyasi

reallığa münasibətini müəyyənləşdirir, eləcə də cəmiyyətin siyasi inkişafının prinsipial istiqamətini əsaslandırır. Siyasi tarix yüzilliklər ərzində xeyli ideoloji doktrinaların təzahürü və tənəzzülünü nümayiş etdirmişdir. Dini və milliideologiya, anarxizm və tyermondializm, ekologizm və xristian-demokratik ideologiyalar qüdrətli siyasi hərəkatları istiqamətləndirmişlər. Onların əhatə dairəsi çox genişdir, özündə həm mötədil (mülayim), eləcə də radikal, ekstremist ideya-siyasi cərəyanları birləşdirir. Siyasi ideologiyanın "sol" və "sağ" cərəyanlara ayrılması da mümkündür. Müasir dövrün başlıca siyasi-ideoloji cərəyanlarına liberalizm-neoliberalizm, mühafizəkarlıq-neomühafizəkarlıq, marksizm (kommunist və sosialist ideo- logiyası), sosial-demokratiya, faşizm aid edilə bilər.

Liberalizm ideyası antik dövrün mütəfəkkirləri sayılan Demokrit və Lukretsi Karr tərəfindən irəli sürülmüşdür.O, müstəqil ideoloji cərəyan olmaq etibarilə XVII-XVIII əsrlərin sonunda ingilis maarifçiləri C.Lokk, T.Hobbs, C.Mill və A.Smitin siyasi fəlsəfəsi əsasında formalaşdırılmışdır. Şəxsiyyətin azadlığının insanın başlıca hüququ elan edilməsi,eləcə də onun mülkiyyət sistemi ilə əlaqələndirilməsi bu baxımdan diqqəti cəlb edir. Liberalizm öz konsepsiyasının əsasının azad rəqabət idealından, sərbəst bazar münasibətlərindən və sahibkarlıqdan ibarət olduğunu elan etdi. Bu dünyagörüşün əsasını universal şəxsi azadlıq idealı ilə əlaqədar olan fərdiyyətçilik,humanizm və rasionalizm, insanın şəxsi dəyəri və xüsusi mülkiyyətdən özgələşməmək, azad bazar və rəqabət təşkil edir. Hazırda klassik liberalizm öz əsassızlığını büruzə vermiş və neoliberalizm forması kəsb etmişdir. Neoliberalizmi yeni tarixi formanı məhz iqtisadiyyatda dövlət idarəçiliyinin güclənməsi və sosial məqsədlərin rolunun artması doğurmuşdur. Neoliberalların siyasi proqramında idarə edənlərlə idarə olunanların konsensusa gəlməsi, kütlələrin siyasi prosesdə iştirakının zəruriliyi, idarəetmə qərarlarını qəbulu qaydalarının demokratikləşməsi ideyası başlıca yer tutur.

Siyasi ideologiyalardan biri də XVIII əsrin sonunda təşəkkül tapan mühafizəkarlıqdır. Bu termini həmin dövrdə ilk dəfə işlədən F.Şatobrian olmuşdur. Mühafizəkarlığın dünyagörüşü bütöv sistem olmaq etibarilə ənənəvi, əxlaqi və maddi dəyərlərə istinad edən cəmiyyətin təsdiqlənməsinə əsaslanır.

Mühafizəkarlıq ideyasını təşkiledən ən mühüm cəhətlər dini dünyagörüşünə yönələn irrasionalizm, milli dəyərlərlə bağlı olan ənənəviçilik və tarixi həyat tərzidir. İkili mənəvi hadisə olan mühafizəkarlıq bir tərəfdən müəyyənedici inersiya ədalət və adətlə bağlı olan psixoloji durum, təfəkkür tərzi, müəyyən həyati temperament, əvvəlki idarəetmə sisteminə üstünlük verən köhnəpərəst şüur sistemidir (məzmun və məqsədlərindən asılı olmayaraq), digər tərəfdən isə siyasətdə və bütövlükdə həyatda müvafiq davranış modelidir, öz fəlsəfi əsasları ilə səciyyələnən xüsusi ideoloji mövqedir. O, özündə siyasi iştirakçılığa dövlətə, sosial qaydalara və siyasi fəaliyyətə, partiyalara, ittifaqlara müəyyən münasibət prinsiplərini birləşdirir, mövcud qaydaları qoruyub saxlamağa cəhd edir. Mühafizəkarlığın mənəvi ataları İ.De Mestr, Z.De Bonald, E.Berk, sonralar X.Kortes, R.Pil, O.Bismark və başqaları sosial qaydaları şüurlu surətdə yenidən təşkil etmək haqqında fikrin qeyri-təbiiliyini təsdiqlənməyə cəhd etmişlər. Mühafizəkar ideoloqların fikrincə, siyasi qaydaların əsasını kompromisə əsaslanan tədrici islahat təşkil edir. Hazırkı dövrdə mühafizəkarlıq dünyadakı dəyişikliklərlə uyğunlaşır. XX əsrin 70-ci illərinin birinci yarısından etibarən mühafizəkarlıq neomühafizəkarlıq simasında çıxış etməyə başlayır. Onun tanınmış nümayəndələri İ.Kristol, N.Podqorets, D.Bell, Z.Bjezinski və başqaları hesab olunur. Neomühafizəkarlıq vətəndaşla dövlətin qarşılıqlı əxlaqi məsuliyyətini və onların qarşılıqlı yardımını, hüquqa hörmət edilməsini, həddən artıq demokratiyaya qeyri-inamı, dövlət qaydalarını möhkəmliyinə əsasla- nan ailə və dini mənəvi üstünlüyünü, sosial sabitliyi cəmiyyət üçün başlıca şərt hesab edir. Onun siyasi məqsədini, oriyentasiyasını praqmatizm fərqləndirir.

Müasir dövrün başlıca siyasi ideoloji cərəyanlarından biri marksizmdir,yəni kommunnist və sosialist ideologiyasıdır. Sosializm ideyası dünyaya çoxdan məlum olsa da, bu ideyanın nəzəri cəhətdən rəsmiləşməsi yalnız XIX əsrin ortalarında reallaşdı. Həmin dövrdə yaranan marksist (kommunist) ideologiyası yetkin olmayan kapitalizmin kəskin sinfi ziddiyyətləri şəraitində təşəkkül tapmışdır. Marksizmin siyasi proqramı özündə hakimiyyət münasibətlərinin və mülkiyyət münasibətlərinin inqilabla dəyişdirilməsi tələblərini təcəssüm etdirir, bu dəyişikliklərə kommunist partiyası tərəfindən rəhbərlik edilməsi zərurətini elan edir, keçid dövründə proletariat diktaturası dövlətinin yaradılması və onun böyüyərək ümumxalq dövlətinə çevrilməsi ideyasını irəli sürür. Burada insanların ümumi bərabərliyi başlıcakommunist idealı kimi çıxış edir. Qeyd edək ki, marksizmin bəzi konseptual müddəaları praktikada kifayət qədər təsdiqlənmədi. Belə ki, nəticə etibarilə bu ideologiyanın müasir dünyaya təsiri xeyli dərəcədə zəiflədi.

Müasir dövrdə sosial-demokratiya ideologiyası daha geniş yayılmışdır. XX əsrdə sosial-demokratiya ideologiyası ictimai şüura daha çox təsir göstərən ideologiya olmuşdur. Sosialist ideologiyasının qolu olan sosial-demokratiya Birinci Dünya müharibəsini və Rusiyadakı bolşevik inqilabını xüsusi tənqidi səviyyədə qiymətləndirməyə cəhd etmişdir. Müasir sosial-demokratiya plüralist dünyagörüşünə (marksizmə, yenikantçılığa, tənqidi rasionalizmə və s.) əsaslanaraq azadlıq, ədalət və həmrəylik ideyasını müdafiə edir. Sosial demokratların siyasi proqramı özündə ictimai islahat, sosial müttəfiqlik,hüquqi dövlət, sosial oriyentasiyalı qarışıq iqtisadiyyat, siyasi plüralizm və demokratiya tələblərini əks etdirir. Onların ideologiyasının əhəmiyyətli komponenti əxlaqi dəyərlər sistemindən və siyasi fəaliyyətin etik stimulundan ibarətdir. Sosialdemokratların "demokratik sosializm"modelinin həyata keçirilə bilməməsi "ümumi rifah dövləti" ideyasının reallaşması çətinlikləri ilə bağlıdır.

Nəhayət, müasir dövrün başlıca siyasi- ideoloji cərəyanlarından biri də faşizmdir. Bu ideologiya XX əsrin 20-ci illərində yaranmışdır. Faşizm termini latın dilində fasio, italiyanca isə fassismo sözlərindən götürülmüş, dəstə, birləşmə mənasını ifadə edir. Bu ideologiyanın banisi İtaliya sosialistlərinin sol qanadının keçmiş lideri B.Mussolini hesab olunur. Onun nəzəriyyəsi Platonun, Hegelin elitar nəzəriyyələrinə əsaslanmaqla, mahiyyət etibarilə son dərəcə millətçilik, dövlətin "sonsuz iradəsi" və onu idarə edən siyasilərin elitarlığı mövqeyindən çıxış edir və bu mövqeyin təbliğinə istiqamətlənir. Faşizm ideologiyasının növlərindən biri Hitlerin (Şiklqruberin) nasional-sosializmidir. Alman nasional-sosializmi (milli sosializmi) İtaliya faşizmi ilə sovet kommunizminin bəzi cəhətlərini özündə birləşdirir. Bu faşist ideologiyasının əsasını irqi, etnik, sinfi, yerliçilik münasibətləri təşkil edir. Hazırda faşizm ideologiyası müxtəlif cərəyanlar formasında təzahür edir. Hazırkı şəraitdə dünyanın siyasi həyatına təsir göstərən həmin cərəyanlardan biri ekstremist ideologiyadır. Məhz belə şəraitdə antikonstitusiya istiqamətli, cəmiyyətin sabitliyinə və təhlükəsizliyinə qorxu yaradan siyasi təşkilatlar və hərəkatlar meydana çıxır. Hazırda ultrasağ (sağ ekstremist) ideya-siyasi cərəyanı dünyada ciddi ictimai təhlükə yaradır. Bunlara faşizm, nasizm (neonasizm) aiddir. Onlar praktikada siyasi terrorizmə, zorakılığa, totalitar metodlara, ictimai həyata nəzarət olunmasına, milli zülmə, soyqırıma və müharibələrə gətirib çıxarır. Bundan fərqli olaraq, ultrasol (sol ekstremist) ideologiya isə təcili inqilab, radikalsosial-siyasi çevriliş, volyuntarizm və siyasi dözümsüzlük ideyasını fəaliyyət proqramının əsası kimi qəbul edir. Eyni zamanda onların sırasına anarxizmin müxtəlif cərəyanlarını trotskisizmi və neotrotskisizmi(dünya inqilabı ideyalarını), o cümlədən siyasi terrorizmə meylli olan "yeni solları" aid etmək olar.

## 4.Siyasi mədəniyyət

Siyasi mədəniyyət terminindən ilk dəfə alman filosofu və maarifçisi İ.Herder (1744-1803) tərəfindən istifadə olunmuşur. XIX əsrin sonu-XX əsrin əvvəllərində müxtəlif siyasi hadisələrin təhlilində təhlil edilmişdir. Lakin siyasi mədəniyyət nəzəriyyəsi bu elmi terminin işlədilməsindən xeyli sonralar, XX əsrin 50-ci illərinin sonlarında və 60-cı illərin əvvəllərində irəli sürülmüşdür. Belə ki, siyasi mədəniyyət ideyası vətəndaşların və təsisatların siyasi davranışının motivləşməsini dərindən tədqiq etməyə, xeyli münaqişələrin səbəblərini üzə çıxarmağa imkan yaratdı. Bunsuz siyasət üçün ənənəvi olan səbəbi hakimiyyət və resursların bölüşdürülməsi uğrunda mübarizəni izah etmək mümkün olmazdı. Siyasi mədəniyyət özünəaid nəzəriyyə çərçivəsində cəmiyyətin siyasi sistemi üzərində yüksələn özünəməxsus mədəni-yaradıcı üstqurum kimi nəzərdən keçirilir. O, siyasi aləmin keyfiyyət tərəfinin açıqlamağa imkan yaradır. Siyasi mədəniyyət konsepsiyasının təşəkkülü prosesi, daha çox isə onun məzmununun müəyyənləşdirilməsi məsələsi mübahisələr doğurmuşdur. Bu mübahisələrdə iki başlıca nöqteyi-nəzər üzə çıxmışdır. Birinci baxışa görə, siyasi mədəniyyət siyasi mövqelərin məcmusudur. İkinci baxışa görə isə siyasi mədəniyyət davranışla əlaqələndirilir. Hazırkı dövrdə siyasi mədəniyyətin mahiyyəti və məzmununa aid üç başlıca mövqe vardır. Bir qrup alimlər onu siyasətin bütün subyektiv məzmunu ilə eyniləşdirir və mənəvi hadisələrin məcmusu kimi qiymətləndirirlər (Q.Almond, S.Verba, D.Duvayn və b.). İkinci qrup alimlər isə onu normativ tələblərin təzahürü mənasında izah edirlər və ya insanın siyasətdəki davranışının nümunələri kimi açıqlayırlar (C.Vayt, C.Pleyno). Üçüncü qrupa görə isə siyasi mədəniyyət praktiki davranışda təcəssümünü tapan siyasi fəaliyyətin üsulu, siyasi fəaliyyət tərzi kimi başa düşülür (İ.Şapiro, P.Şaron, V.Rozenbaum). Siyasi mədəniyyətin belə başa düşülməsi insanın dövlətlə qarşılıqlı fəaliyyətinin praktiki formalarını

açıqlayır. Qeyd edək ki, siyasi həyatın konkret təzahürü xeyli dərəcədə cəmiyyətin siyasi mədəniyyətindən asılıdır. Bu mühüm cəhəti nəzərə almadan siyasi hadisələrin və proseslərin mahiyyətini düzgün başa düşmək və qiymətləndirmək mümkün deyildir. Siyasi mədəniyyət cəmiyyətin mənəvi mədəniyyətinin tərkib hissəsini təşkil edir. Daha doğrusu, insan tərəfindən yaradılanların hamısı (maddi və mənəvi sərvətlər) mədəniyyətin mahiyyətini və məzmununu səciyyələndirir. Bir sözlə, mədəniyyət özündə maddi və mənəvi dəyərləri, insanların istehsal prosesini, bu prosesdə təşəkkül tapan münasibətləri, o cümlədən də informasiyanın və mədəni sərvətlərin verilməsini (ötürülməsini) təcəssüm etdirir. Eyni zamanda siyasi mədəniyyət müvafiq siyasi təsisatlarda və dəyərlərdə təzahür edərək siyasət sferasında insanların yaradıcı fəaliyyəti kimi çıxış edir. Siyasi mədəniyyətdə xeyli nəsillərin siyasi həyatının ümumiləşmiş təcrübəsi təcəssüm olunur. O, siyasi fəaliyyətin prinsiplərini və normalarını, xüsusilə siyasi rəhbərliyi, mövcud siyasi təsisatları, vətəndaşların siyasi şüursəviyyəsini, onların siyasət haqqında əldə etdikləri biliklərin dərəcəsini, siyasi sferada davranış üsulunu və s. səciyyələndirir. Hazırkı dövrdə siyasi mədəniyyət anlayışı cəmiyyətin həyati təzahürlərinin bütövlüyünün ifadəsi olan fikirlərlə daha çox zənginləşir. Siyasi mədəniyyət spesifik mənəvi hadisə olmaqla, ümumi hakimiyyət sferasında təzahür edir və onun keyfiyyət bütövlüyünü səciyyələndirir. O, cəmiyyətin siyasi sistemi ilə qarşılıqlı əlaqə kəsb edir. O, həm də siyasi sistemin fəaliyyəti prosesində siyasi münasibətərin xarakteristikası kimi başa düşülməlidir. Onun neqativ və pozitiv ünsürləri məhz mövcud siyasi sistemlə şərtlənir. Siyasi mədəniyyətin məzmununa yalnız siyasi sistemin müdafiə olunmasına xidmət edən sərvətlər deyil, həm onun dəyişdirilməsinə təsir göstərən ünsürlər daxildir. O, siyasi davranış vasitəsilə reallaşır, dinamik mahiyyət kəsb etməklə bu və ya digər formada varislik keyfiyyətlərini təcəssüm etdirir. Siyasi mədəniyyət siyasi həyatın özünəməxsus yarımsistemidir, yəni siyasi mədəniyyət

anlayışı özündə şüurun, siyasətin və mədəniyyətin əlamtlərini birləşdirir. Onun mahiyyətini və məzmununu dolğun başa düşmək üçün onun sturukturunun açıqlanması vacibdir. Siyasi mədəniyyətin sturukturunu təşkil edən ünsürlər sosial-iqtisadi, milli-mədəni, ictimai-tarixi və digər uzunmüddətli amillərlə şərtlənir. Onun sturukturuna eyni zamanda uzun müddət ərzində formalaşan müxtəlif nəsillərin ənənələri, siyasi praktikanın fəaliyyətdə olan normaları, müxtəlif ictimai-siyasi təsisatların qarşılıqlı münasibətləri haqqında ideyalar, konsepsiyalar və inamlar daxildir.

Siyasi mədəniyyətin sturukturuna eləcə də mövcud siyasi sistemə münasibətdə insanların fəaliyyət yönümü, ayrı-ayrı fərdlər, cəmiyyət və dövlət arasında münasibətlərin prinsipləri daxildir. Eyni zamanda siyasi mədəniyyətin müxtəlif daxili sturukturları subyektin siyasi davranışının formalaşması texnologiyasını, konkret ölkənin siyasi mədəniyyətinin təşəkkül mərhələlərini, müxtəlif subyektlərin (elita, elektorat, ayrıca ölkələrin və regionların sakinləri) mövcudluğunu ifadə edir. Siyasiədəbiyyatda eyni zamanda siyasi mədəniyyətin sturukturu dövlət hakimiyyətinə münasibət və siyasi hadisələri qiymətləndirmək səviyyəsində nəzərdən keçirilir. Onun sturukturunu formalaşdıran cəhətlər sırasında ümumi əhəmiyyət daşıyan siyasi biliklər, siyasi təfəkkür tərzi, siyasi təfəkkür mədəniyyəti, siyasi davranış və fəaliyyət qabiliyyəti, siyasi hisslər və emosiyalar əhəmiyyətli yer tutur.

Siyasi mədəniyyət siyasi həyatda müəyyən konkret funksiyalar həyata keçirir. Onun funksiyaları siyasi təfəkkürün formalaşmasında, sosial hadisə və prosesləri siyasi cəhətdən düzgün təhlil edib qiymətləndirməkdə əhəmiyyətli rol oynayır.Siyasi mədəniyyətin başlıca funksiyalarına eyniləşdirmə, oriyentasiya, idraki, normativ, proqramlaşdırma, adaptasiya, tənzimləyici, əlaqələndirmə, inteqrasiya, aksioloji, sosiallaşma, səfərbəredici, sosial təşkilatçılıq və s. aiddir. İctimai inkişaf gedişində bu və ya digər ölkədə siyasi mədəniyyətin müxtəlif tipləri işlənib hazırlanmışdır. Siyasi mədəniyyətin tipləri, hər şeydən əvvəl,

vətəndaşların siyasi davranış tərzində müəyyən dəyərləri və standartları ifadə edir. Onun tiplərinin təsnifatının əsasını ictimai-tarixi, milli-mədəni, iqtisadi, mənəvi, dini və başqa amillər təşkil edir. Müasir siyasi ədəbiyyatda siyasi mədəniyyətin tiplərinin təsnifatına ciddi maraq göstərilir.

Siyasi mədəniyyətin əhatə dairəsinə görə daha geniş, böyük tipləri bunlardır: liberal-demokratik, avtoritar, totalitar. Siyasi mədəniyyətin səciyyəvi cəhəti ondan ibarətdir ki, o, cəmiyyətin təbii-tarixi inkişafının məhsuludur, kollektiv siyasi yaradıcılığın nəticəsidir, siyasi təcrübənin sabit tərəfini möhkəmləndirir, total xarakter daşıyır, çünki siyasi münasibətlər siyasi mədəniyyətlə nüfuz edici imkanlarını artırır, əhalinin əsas kütləsinin siyasi şüurunu və siyasi davranışını səciyyələndirir. İnsanın davranış standartlarını, mədəni sərvətləri və dəyərli fəaliyyət yönümünü mənimsəməsi prosesi onun konkret siyasi sistemə uyğunlaşmasına imkan yaradan cəhətlərin və bacarığın formalaşmasına gətirib çıxarır. Belə olan təqdirdə insan müəyyən funksiyanı yerinəyetirir. Elmi ədəbiyyatda həmin funksiya siyasi sosiallaşmaadlanır. Bu termini siyasi elmə ilk dəfə Q.Haymengətirmişdir. Onun "Siyasi sosiallaşma" əsərində bu məsələyə toxunulmuşdur. Bu proses XX əsrin 20ci-illərindən başlanmışdır. Siyasi sosiallaşma mürəkkəb və ziddiyyətli proses olduğu üçün elmdə o, müxtəllif səpkidə şərh edilir. L.Koen, L.Lipton, T.Parsons, K.Luman, A.Qelen, E.Erikson, E.Fromm, D.İston və başqaları öz elmi yaradıcılıqlarında siyasi sosiallaşmaya aid fikirlər söyləmişlər. Qeyd edək ki, siyasi mədəniyyət kontekstində təşəkkül tapan siyasi sosiallaşma məsələsi nisbi müstəqillik kəsb edən nəzəri-praktiki problemdir. Siyasi sosiallaşma cəmiyyət tərəfindən və mədəni ənənələrdə, dəyərlərdə və siyasi davranış normalarında cəmləşən siyasi və sosial təcrübənin şəxsiyyət tərəfindən mənimsənilməsi prosesidir. Siyasi sistemin inkişafı nəticəsində bu və ya digərsiyasi mədəniyyət tipi dəyişir və ya möhkəmlənir. Eyni zamanda siyasi sosiallaşma prosesində üç başlıca məsələ həll edilir:

- cəmiyyətin yeni üzvlərinə onun siyasi mədəniyyətinin və şüurunun başlıca elementlərinin bəxş edilməsi;

- siyasi fəaliyyət və yaradıcılıq naminə fərdin zəruri siyasi təcrübə əldə etməsi üçün əlverişli şəraitin yaradılması;

- dəyişikliyin zəruri şərti kimi siyasi mədəniyyətin müvafiq elementlərinin yeni şəklə salınması.

Qeyd edək ki, siyasi sosiallaşma ikitərəfli prosesdir: onun gedişində bir tərəfdən şəxsiyyətin mövcud hakimiyyət sisteminə, digər tərəfdən isə hakimiyyətin öz vətəndaşlarının ehtiyac və tələblərinə uyğunlaşması təmin olunur. Elə bu səbəbdən də onu hakimiyyət təsisatları ilə vətəndaşlar arasında qarşılıqlı inamın yaranması və saxlanılması kimi səciyyələndirmək olar. Fasiləsizliyi ilə fərqlənən bu proses təcrübənin açıq və ya gizli formada ötürülməsi ilə səciyyələnir.

Siyasi ədəbiyyatda siyasi sosiallaşmanın üç başlıca mərhələsimüəyyənləşdirilir. Birinci mərhələ uşaqlıq yaşı ilə bağlıdır və adətən üç-beş yaşdan başlanır. Onun əsasını gerçəkliyin irrasional dərk olunması təşkil edir. Fərdin siyasi sosiallaşmasına ilk təsir göstərən başlıca təsisat ailədir. Siyasətə dair ilk təsəvvürlər ailədə, kütləvi informasiya vasitələrindən və yaxın əhatə dairəsindən əldə olunur. İkinci fəal fəaliyyət mərhələsi siyasi müstəqil marağın mövcudluğu, müəyyən siyasi ölçünün seçimi və qəbul olunması, davranışın rasional sübut edilən əsasları ilə müəyyənləşir. Üçüncü mərhələsiyasi sosiallaşmanın əvvəlki mərhələsinin xarakteristikasının inkişafı ilə bağlıdır. Eyni zamanda burada şəxsiyyətin siyasi oriyentasiyasında əldə edilən həyat təcrübəsi və siyasi təcrübə daha böyük rol oynayır. Qeyd edək ki, siyasi sosiallaşmanın təsisatlarına diqqət yetirilməsi çox vacibdir. Siyasi ədəbiyyatda həmin təsisatlar şəxsiyyətin siyasətə cəlb olunması “vasitəsi ” kimi müəyyənləşdirilir, eləcə də sosiallaşma agentləri adlandırılır. Onun təsisatlarına və ya agentlərinə ailə, təhsil sistemi, ictimai və siyasi təsisatlar (təşkilatlar), kilsə, məscid, kütləvi informasiya vasitələri və ayrıca hadisələr (məsələn, inqilab,

repressiyalar, aclıq və s.) aid edilir. Bu sosiallaşma vasitələri insanın inam və etiqadlar sisteminə həlledici təsir göstərir. Siyasi sosiallaşmanın bütün mərhələlərindəkütləvi informasiya vasitələri xüsusi rol oynayır. KİV-lər vətəndaşların siyasi mövqeyinə böyük təsir imkanlarına malikdir; elektron informasiya vasitələrini də buraya aid etmək olar. Bu prosesdə siyasi görüşləri həyati reallıqlarla əlaqələndirməyə imkan yaradan praktiki siyasi təcrübə xüsusi roloynayır. Siyasi sosiallaşmada siyasi oriyentasiya sabit xarakter kəsb edir, möhkəm inama və həyati məqsədlərə çevrilir. Qeyd olunduğu kimi hər hansı bir cəmiyyətdə kütləvi informasiya vasitələrinin məqsədi vətəndaşları məlumatlandırma yolu ilə maarifləndirməkdir. Demokratik cəmiyyətdə bu vəzifə xüsusi əhəmiyyət kəsb edir, çünki ağıllı qərar qəbul etmək üçün insanların düzgün obyektiv informasiyası olmalıdır. Demokratik ölkələrdə çap məmulatı, televiziya və radio proqramları əhəmiyyətli dərəcədə cəmiyyətin real surətdə mövcud olan və ya gözlənilən tələblərini və maraqlarını əks etdirir. Qeyd olunduğu kimi totalitar rejimdə mətbuatın bütün materialları siyasi-ideoloji elita tərəfindən müəyyənləşdirilir. Totalitarizm şəraitində siyasi təbliğat planlı, mərkəzləşdirilmiş və dövlət tərəfindən senzura vasitəsilə nəzarət edilən xarakter daşıyır.

Siyasi təbliğatın köməyi ilə insanların şüuruna sistematik olaraq həmin ölkənin siyasi rəhbərliyinin həmin konkret anda lazım bildiyi görüşlər və dəyərlər yeridilir. Məsələn, keçmiş SSRİ-dəki təbliğat sistemindən danışarkən qeyd etmək lazımdır ki, rəsmi tərbiyə və təhsil sistemi bütünlükdə bu təbliğat sisteminin ixtiyarında idi.

Totalitarizmdən fərqli olaraq demokratik cəmiyyətdə müxtəlif nöqteyi-nəzərlər, mövqelər və baxışlar mövcuddur. Bu müxtəliflik cəmiyyətdə tarazlığı pozmur. Əksinə, başqalarının mövqeyini bilmək imkanı, azad mədəni ideya rəqabəti islahatların optimal kursunu seçməyə imkan yaradır.

Beləliklə, demokratik cəmiyyətdə kütləvi informasiya vasitələri hökumətin və hakimiyyətin digər sistemlərinin fəaliyyətinə nəzarət etməlidirlər. Müstəqillik və obyektivlik standartlarına əsaslanan kütləvi informasiya vasitələri, çox da mükəmməl olmasa da, hakimiyyət strukturlarının bəyanatları arxasında gizlənmiş həqiqəti aşkara çıxara bilirlər. Onların köməyi ilə rəsmi şəxslərin öz fəaliyyətləri haqqında hesabat vermələrinə nail olmaq olar. Hazırkı şəraitdə texniki inkişafın bugünkü səviyyəsi imkan verir ki, məlumat verməklə yanaşı, ictimai rəyin formalaşmasına əvvəllərə nisbətən daha sərbəst surətdə təsir göstərilsin. Ona görə də müasir dünyada kütləvi informasiya vasitələrini qanunverici hakimiyyət, icra və məhkəmə hakimiyyətləri ilə yanaşı, dördüncü hakimiyyət adlandırırlar.

# VI BÖLMƏ
# Siyasi münaqişələr və konsensus. Vətəndaş cəmiyyəti

## 1. Siyasi münaqişələr və konsensus

Dünyanın müxtəlif ictimai-siyasi quruluşa malik olan bütün cəmiyyətlərində münaqişələr mövcud olmuşdur. Qeyd edək ki, münaqişə və əməkdaşlıq ictimai inkişaf prosesində həmişə qarşılıqlı əlaqə kəsb etmişdir. Münaqişə latınca konfliktus sözündən əmələ gəlmiş və toqquşma mənasını ifadə edir. Münaqişə məqsədləri uyğun gəlməyən, öz məqsədlərini həyata keçirmək naminə bir-birinə qarşı mübarizə aparan iki və daha çox tərəfin toqquşmasıdır. Belə ki, münaqişə iştirakçıları öz məqsədlərinin uyğun gəlmədiyini birmənalı deyil, müxtəlif cür dərk edirlər. Qeyd edək ki, siyasi münaqişənin təbiəti barədə siyasi elmdə müxtəlif maraqlı fikirlərmövcud olmuş və bu gün də müəyyən mübahisələrə səbəbolsa belə, siyasətin münaqişəli mahiyyətə malikolması barədə ideya elmdə XIX əsrdə öz ifadəsini tapmışdır. Onun mahiyyətini başa düşmək baxımdan "münaqişə" anlayışının məzmununun müəyyənləşdirilməsinə iki istiqamətdə münasibət bildirilmişdir. A.Tokvil, Q.Zimmel, K.Bouldinq, L.Kozer və digər görkəmli alimlərə görə, münaqişə siyasətin başlıca mənbəyidir. E.Dyurkheym, M.Veber, C.Dyui və başqa alimlərə görə isə siyasətin mahiyyətini anlamaq üçün münaqişə ikinci dərəcəli əhəmiyyətə malikdir. Bu tədqiqatçılar münaqişələrin çoxunu siyasi proseslərin anomaliyası (qeyri-adiliyi), siyasətin özünü isə "sosial həmrəyliyin" müdafiəsi kimi qiymətləndirmişlər. E.Dyurkheym və C.Dyui öz elmi əsərlərində bu fikri daha çox əsaslandırmağa çalışmışlar. Cəmiyyətə münaqişələrin və əməkdaşlığın, konsensusun və mübarizənin mövcudluğuna hətta hakimiyyət təsisatlarının özü müxtəlif səviyyədə və dərəcədə təsir göstərir. Münaqişələr siyasi birliklər arasında və ya onların daxilində təşəkkül tapır və müxtəlif formalarda təzahür edir. Münaqişələrin

mənbəyi ictimai qrupların mənafelərinin müxtəlifliyi ilə şərtlənir. Siyasi birliklər daxilində münaqişələr, hər şeydən əvvəl, siyasi elita ilə cəmiyyətin digər hissəsi arasındakı ziddiyyət kimi meydanaçıxa bilər. Belə vəziyyətlərdə cəmiyyətin geniş əhali kütləsi siyasi elitanı çoxluğun marağının ifadəsi kimi yox, ilk növbədə azlığın mənafeyinin təmsilçisi baxımdan qiymətləndirir. Yəni siyasi həyat ən müxtəlif şəkildə-açıq və gizli, dinc və zorakı xarakter daşıyan münaqişələrin, ziddiyyətlərin təsiri altında inkişaf edir. Münaqişənin subyektinə aşağdakılar daxildir: fərdlər, kiçik və böyük qruplar, qeyri-rəsmi əsasda yaranan və rəsmi cəhətdən təşkil olunmuş sosial birliklər, iqtisadi və siyasi xarakterli məhdud ictimai təşkilatlar, siyasiləşdirilmiş sosial hərəkatlar və s.

Münaqişə insanların fəaliyyətində müxtəlif obyektiv və subyektiv meyillərin toqquşması, nəzəriyyələrin, ideyaların, məktəblərin mübarizəsi, fəaliyyətin müəyyən sferalarında hökmranlıq uğrunda qarşıdurma nəticəsində əmələ gəlir.

Münaqişələr aqonist(barışan) və antaqonist (barışmaz) hissələrə bölünür. Aqonist münaqişələrin həllində yol verilən səhvlər nəticə etbarilə həmin münaqişələrin xroniki formaya keçməsinə imkan yaradır və hətta antaqonist münaqişəyə çevrilməsinə səbəb olur. Eyni zamanda münaqişə vəziyyətində olan tərəflərin qarşılıqlı surətdə güzəştə getməsi ilk növbədə antaqonist münaqişələrin kəskinliyini aradan qaldırır, sonra isə güzəşt taktikasının daha da inkişaf etdirilməsi həmin münaqişənin aqonist xarakter kəsb etməsinə gətirib çıxarir. İdeoloji, siyasi, əxlaqi təzyiq cəhdi kimi münaqişənin təqlid olunması halları da yarana bilir.

Fərdlərin, kiçik qrupların qarşıdurmasında onların mənafeləri, hərəkətləri toqquşur. Böyük qrupların qarşıdurmasında münaqişə ictimai əhval-ruhiyyənin və ictimai rəyin toqquşması ilə müşahidə olunur ki, bu da fərdlərin və kiçik qrupların münaqişəli davranışında nəzərə çarpır. Qeyd edək ki, münaqişə üfüqi və şaquliistiqamətdə baş verə bilər. Üfüqi istiqamət sosial və siyasi sturukturun daxilində yaranan münaqişəni, şaquli istiqamət isə rəhbər sturukturlarla

tabelikdə olanlar, nəzarətedici orqanlarla onların tabeliyində olan fərdlər, qruplarla təşkilatlar və liderlə idarə edilənlər arasındakı münaqişəni əks etdirir. Eyni zamanda münaqişə cəmiyyətin sosial və siyasi sturukturunda səviyyəsi, miqyası və kəskinliyi ilə fərqlənir. Siyasi ədəbiyyatda daha əhəmiyyətli münaqişə o hesab olunur ki, eyni vaxtda sosial və siyasi sturukturun bütün səviyyələrini əhatə edir və münaqişə iştirakçılarının hamısına toxunur. Daxili münaqişələr cəmiyyətdə sabitliyin pozulma- sına gətirib çıxarırsa, beynəlxalq münaqişələr müharibələrlə nəticələnə bilər, bu isə böyük dağıntılara, maddivə mənəvi sərvətlərin məhvinə səbəb olur. Qeyd edək ki, münaqişəli tərəflər arasındakı ziddiyyətlər kəskinləşdikdə onlar zorakılıq vasitələrinə də əl ata bilərlər. Eləcə dəmünaqişə fərdlərin və qrupların davranışının əsasını təşkil edir, hakimiyyət sturukturlarının dəyişməsini və siyasi proseslərin inkişafını şərtləndirir. O, həmdə siyasi subyektlərin qarşılıqlı fəaliyyətini reallaşdıran, bütün siyasi proseslərin səmərəliliyinə əlverişli təsir göstərən sosial hadisədir. Əgər cəmiyyətin bütün üzvləri arasındakı daimi konsensus bərqərar olsaydı, onda ictimai inkişaf dayanardı. Bunu münaqişələr tarixivə müasir münaqişələrin mahiyyəti bir daha təsdiqləyir. Münaqişələrin digər aspektləri ilə müqayisədə siyasi münaqişə daha geniş, əhatəli və çoxcəhətli anlayışdır. Siyasi münaqişə müxtəlif qüvvələrin irimiqyaslı toqquşmalarını, məsələn, inqilabları və əksinqilablarımüxtəlif dövlətlər arasındakı qarşıdurmanı, müharibələri, partizan hərəkatını, bir sözlə, münaqişəli tərəflərin bütün münasibətlər sferasını ehtiva edir. Siyasi münaqişənin ictimai inkişaf, sosial idarəetmə və ictimai münasibətlərin ahəngdarlığı baxımdan əhəmiyyətinin öyrənilməsi vəzifəsi siyasi biliyin yeni müstəqil sahəsi kimi “konfliktologiyanın” yaranmasına səbəb olmuşdur.

Konfliktologiya bir sıra elmlərin, ilk növbədə isə sosiologiya, politologiya və siyasi psixologiyanın qovuşuğunda yaranmışdır.

Müasir konfliktologiyanın ən mühüm problemi münaqişələrin zəruriliyini proqnozlaşdırmaq və onların neqativ nəticələrini

azaltmaq yollarını müəyyənləşdirməkdən ibarətdir. Bu elm sahəsinə dair tədqiqatlar sırasında R. Darendorjun və L. Kozerin elmi işləri xüsusilə diqqəti cəlb edir. Qeyd edək ki, münaqişələr dinamikliyə malikdirlər. Onlar münaqişəli şəraitdən yaranır. Tədqiqatçılar siyasi münaqişələrin mənbəyini əsasən iki başlıca amillə- qeyri-sosial və sosial amillə əlaqələndirirlər. Siyasi münaqişələrin başlıca səbəbləri sırasında müəyyən sosial dəyərlərin çatışmazlığı da özünəməxsus rol oynayır. Lakin həmin səbəblərdən ən önəmlisi hakimiyyət, maddi ehtiyyatlar və ictimai nüfuzdur.

Cəmiyyətdəki müxtəlif sosial qrupların və fərdlərin can atdıqları müəyyən dəyərlərin çatışmaması siyasi münaqişələrin mənbələrindən biridir. Son illər bəzi nəzəriyyəçilər belə bir qənaətə gəlirlər ki, siyasi münaqişələrin təbiəti insanların təlabatından doğur. Siyasi elmə zəruri təlabat kimi daxil olan bukonsepsiyaya görə, münaqişələr məhz adamların təlabatının kifayət qədər təmin edilməməsi nəticəsində yaranır. Siyasi münaqişələrin digər mənbələrindən biri isə vətəndaşların müəyyən sosial, etnik, dini və sair birliklərə mənsub olduğunu dərk etmələri ilə əlaqədardır. Onun təsnifatında beynəlxalq xarakterli və siyasətdaxili münaqişələrə xüsusi əhəmiyyət verilir. Beynəlxalq münaqişələr dövlətlər arasında meydana çıxan ziddiyyətlərin kəskinləşməsindən doğur. Qeyd edək ki, Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağla əlaqədar Ermənistanın ölkəmizə ərazi iddiaları Azərbaycanla Ermənistan arasında ziddiyyətlərin dərinləşməsinə, sosial böhran vəziyyətini yaranmasına gətirib çıxardı və nəticədə respublikamız Ermənistanın silahlı təcavüzünə məruz qaldı. Siyasətdaxili münaqişələrə xas olan ziddiyyətlər isə hakimiyyətin müxtəlif subyektləri arasındakı qarşılıqlı fəaliyyəti açıqlayır və siyasi proseslərin xarakterini əks etdirir. Hakim elita ilə müxalifətdə olan elita və mərkəzi hakimiyyətlə yerli hakimiyyət arasında qarşılıqlı fəaliyyət, qruplar və fərdlər arasındakı mübahisələr məhz siyasətdaxili münaqişələr vasitəsilə üzə çıxır. Bəşəriyyətin ən yeni siyasi tarixi təsdiqləyir ki, siyasi kompromis yolu ilə qarşılıqlı nəzarət sisteminin yaradılması

vasitələri ilə nəinki daxili, həmçinin irimiqyaslı beynəlxalq siyasi münaqişələri həll etmək mümkündür, yəni siyasi münaqişələri konsensusa nail olmaq yolu ilə həll etmək olar.

## 2. Vətəndaş cəmiyyəti

Vətəndaş cəmiyyəti ideyası Yeni dövrün ən mühüm siyasi ideyalarından biridir. XVII əsrin ortalarında Avropada meydana gələn "vətəndaş cəmiyyəti" anlayışı müəyyən təkamülə məruz qalmaqla, bir neçə konsepsiyanın və nöqteyi - nəzərin yaranmasını şərtləndirmişdir. Lakin o, daim "dövlət" anlayışına qarşı duran fenomen kiminəzərdən keçirilmışdır. Siyasi fikirdə vətəndaş cəmiyyəti anlayışına aid iki başlıca klassik nəzəriyyə mövcuddur: liberal doktrina və marksist konsepsiya. Vətəndaş cəmiyyətinə aid liberal mövqeyin mənşəyi T.Hobbs və C.Lokkun dövrünə təsadüf edir. Onlar "vətəndaş cəmiyyəti" anlayışını insan cəmiyyətinin tarixini əks etdirmək, insanın təbii vəziyyətdən sivil həyata keçməsini ifadə etmək üçün işlətmişlər. Sivilizasiyanın, dövlətin nə olduğunu bilməyən insan "vəhşi", "təbii" vəziyyətində ümumi qarşılıqlı düşmənçilik və müharibə, hərcmərclik şəraitində inkişaf edir. Qeyd edək ki, dövlətəqədərki vəziyyətdə cəmiyyət sivil ictimai - siyasi qaydalara və vətəndaş cəmiyyətinə qarşı qoyulur. Cəmiyyətin və insan həyatının təbii başlanğıcı kimi insanın təbiəti deyil, məhz sivillik, birsözlə, birgə yaşamaq üçün insanın müstəsna qabiliyyətinə malik olması göstərilir. Vətəndaş cəmiyyəti insanın qidaya, paltara, mənzilə olan başlıca təlabatının ödənilməsinin şərti kimi təsdiqlənir. Dövlətlə vətəndaş cəmiyyəti arasındakı münasibətlər ictimai müqaviləyəəsaslanırdı. Dövlət və vətəndaş cəmiyyəti insanların başlıca təlabatının ödənilməsi və fərdin həyat fəaliyyətinin təmin olunması üçün birgə şərait yaratdıqları üçün həmin münasibətlər mahiyyət etbarilə sivil xarakter kəsb edirdi. Dövlət vətəndaşın ayrılmazhüququnu qoruyur və hakimiyyətin

köməyi ilə təbii düşmənçiliyi məhdudlaşdırır, vətəndaş cəmiyyəti isə hakimiyyətin hökmranlığının qarşısını alır. Vətəndaş cəmiyyətinə aid liberal görüşlərdə G.Hegelin konsepsiyası xüsusi yer tutur. G.Hegel vətəndaş cəmiyyətini etatist (ictimai həyatın bütün sferalarına dövlətin təzyiqi) mövqedən nəzərdən keçirmişdir.Ona görə, vətəndaş cəmiyyəti əməyin köməyi ilə öz gündəlik təlabatını ödəyən fərdlərin məcmusudur. Vətəndaş cəmiyyətinin əsasını xüsusi mülkiyyət təşkil edir.

Vətəndaş cəmiyyəti haqqında spesifik klassik görüşlərdən digəri marksist konsepsiyadır. Bu konsepsiya G. Hegelin tezisini təkzib edir. Marks vətəndaş cəmiyyətini qlobal cəmiyyətin əsası, fərdin həyat fəaliyyətini isə tarixi inkişafın həlledici amili hesab edirdi. O, vətəndaş cəmiyyətini bilavasitə istehsaldan inkişaf edən ictimai təşkilat kimi nəzərdən keçirmişdir. K. Marks kapitalizm şəraitində vətəndaş cəmiyyəti və dövlət arasında ziddiyyətlərin aradan qaldırılması imkanlarını yeni tipli cəmiyyətin-kommunizm yaranması ilə ( dövlətin olmadığı cəmiyyətlə ) əlaqələndirirdi.

XX əsr vətəndaş cəmiyyəti haqqında konsepsiyaların başlıca müddəalarına yeni maraq doğurdu. İnsan hüquqları, şəxsi həyatın toxunulmazlığı, azad sahibkarlıq, plüralizm, qanunçuluq, aşkarlıq məhz bu qəbildəndir. Əlbəttə, vətəndaş cəmiyyətinə aid yeni müddəaların işlənib hazırlanması obyektiv və subyektiv xarakterli amillərlə bağlıdır. Bu baxımdan postindustrial mərhələnin yeni sosial reallıqları və müəlliflərin ideoloji tərəfkeşliyi daha önəmlidir.

Vətəndaş cəmiyyəti sosial, iqtisadi, mədəni məkan formasında nəzərə çarpır və burada xüsusi mənafelərini reallaşdıran və fərdi seçim edən azad fərdlər qarşılıqlı fəaliyyət göstərirlər. Vətəndaş cəmiyyəti və dövlət bir-birini tamamlayır. İlkin vətəndaş cəmiyyəti olmadan hüquqi demokratik cəmiyyət qurmaq qeyri - mümkündür. Vətəndaş cəmiyyətini hüquqşünaslıq, iqtisadi nəzəriyyə, tarix, fəlsəfə və sosiologiya öyrənirsə, xüsusi əhəmiyyətli rol məhz politologiyaya məxsusdur. Politologiya vətəndaş cəmiyyətinin siyasi və ictimai təsisatlarla, bütövlükdə dövlətlə, hakimiyyətin

federal və yerli orqanları ilə qarşılıqlı fəaliyyətinin xarakteri və formalarını tədqiq edir. Vətəndaş cəmiyyətini oyrənən elmlərin nailiyyətlərinə əsaslanaraq, politologiyabu cəmiyyətin təşəkkülünün səbəblərini və şəraitini, onun sturukturunu, təkamül istiqamətini öyrənir. Yəni politologiya vətəndaş cəmiyyətinin bütöv mənzərəsini yaradır. Vətəndaş cəmiyyətinin təşəkkülünü və şəraitini şərtləndirən xüsusi və ümumi səbəblər çox olsa da, onun əsas üç başlıca ümumi səbəbini göstərmək olar. Birinci səbəb xüsusi mülkiyyətlə bağlıdır. Yəni inkişaf etmiş demokratik cəmiyyətdə əhalinin əksəriyyəti xüsusi mülkiyyətçidir. Burada iri biznesin nümayəndələri azsaylıdır. Orta siniflər kəmiyyət etibarilə çoxluq təşkil edir. Məhz xüsusi mülkiyyət konkret firmaların çoxcəhətliyi ilə vətəndaş cəmiyyətinin mövcudluğunu zərurətə çevirir. Vətəndaş cəmiyyəti elə mühitdir ki, müasir insan qanuni yolla öz təlabatını təmin edir, öz fəaliyyətini inkişaf etdirir, qrup halında tədbirlərin(nümayişlərin, aksiyaların) və ictimai həmrəyliyin dəyərini dərk edir. İkinci səbəb birinci səbəblə sıx bağlıdır. Burada əsas məsələ azad bazar iqtisadiyyatıdır. Qeyd edək ki, demokratik cəmiyyət digər azadlıqlarla yanaşı, öz qanunları üzrə inkişaf edən təsərrüfat sisteminə də malikdir. Ancaq qanunlara riayət etməklə sahibkarlıq fəaliyyətini uğurla həyata keçirmək olar. Vətəndaş cəmiyyətinin təşəkkülü və fəaliyyətinin zəruriliyinin üçüncü səbəbi ondan ibarətdir ki, demokratik cəmiyyət öz vətəndaşlarının mənafelərini və təlabatlarını maksimum təmin etməlidir. O, demokratik cəmiyyətin vətəndaşlarının son dərəcə müxtəlif mənafelərinin mövcudluğunu ifadə edir. Bu cəmiyyətin fəal həyatının əsas şərti sosial azadlıqdır, demokratik dövlət idarəçiliyidir. Azadlıq vətəndaş cəmiyyətinin əsasıdır.Sosial azadlıq insanın cəmiyyətdə özünü reallaşdırması üçün imkan yaradır. Onun zəruriliyi və mövcudluğu imkanı haqqında məsələnin nəzərdən keçirilməsi vətəndaş cəmiyyətininsəciyyələndirilməsinə əsas verir. Vətəndaş cəmiyyətinin başlıca funksiyası cəmiyyətin maddi, sosial və mənəvi təlabatının daha çox ödənilməsindən ibarətdir. Eyni

zamanda vətəndaş cəmiyyəti dövlət çərçivəsindən kənarda və dövlətin qarışmadığı şəxsiyyətlərarası münasibətlərin məcmusunun inkişafını özündə təcəssüm etdirir. Vətəndaş cəmiyyəti bütün ictimai sferalarda öz təşkilatları və birlikləri ilə təmsil olunur. Onun sturukturunu məhz bu təşkilatlar və birliklər səciyyələndirir. Bu özünü iqtisadi, sosial-siyasi və mənəvi sferalarda göstərir. Vətəndaş cəmiyyətinin sosial-siyasi sferası özündə aşağıdakıları birləşdirir: ictimai-siyasi təşkilatlar və hərəkatlar, vətəndaşların ictimai fəallığının müxtəlif formaları(mitinqlər, yığıncaqlar, nümayişlər, tətillər), yaşayış yerlərində və ya əmək kollektivlərində ictimai özünüidarə orqanları; qeyri-dövlət kütləvi informasiya vasitələri.

Vətəndaş cəmiyyəti təşkilatlarının xeyli hissəsi bir sıra demokratik dövlətlərdə XX əsrin başlanğıcında təşəkkül tapmışdır. Məsələn, 1906-cı ildə Amerika milli assosasiyası sosial reklamların köməyi ilə öz ölkəsinin əhalisini Niaqara şəlaləsi naminə enerji kompaniyasının fəaliyyətinin çox zərərli nəticələrini aradan qaldırmağa çağırdı. Qeyd edək ki, ABŞ-da uzun müddət ictimai informasiya komitəsifəaliyyət göstərmişdir. Bu qeyri - dövlət təşkilatının vəzifəsi ölkədə və ondan kənarda baş verən hadisələr barədə obyektiv və geniş informasiyanı təmin etməkdən ibarət olmuşdur. İkinci Dünya müharibəsi illərində komitə Reklam Şurası formasında təşkil edildi, onun məqsədi faşist Almaniyası üzərində qələbə əldə etmək üçün milləti səfərbər etməkdən ibarət idi. İndi Reklam Şurası SPİD-ə qarşı mübarizə, eləcə də savadsızlığa, uşaqlar üzərində zorakılığa qarşı mübarizə kompaniyasına başlamışdır. Reklam Şurasını Amerikanın işgüzar dairələri maliyyələşdirir. Bu şura vətəndaş cəmiyyəti təşkilatlarının mühüm rolunu, həyat tərzinin təkmilləşdirilməsində xidmətlərini aydın şəkildə təsdiqləyir. Vətəndaş cəmiyyətinin mənəvi sferası fikir, söz azadlığını təmin etməyə, vətəndaşların öz rəyini açıq şəkildə bildirmək üçün real imkanlar əldə etməsinə, yaradıcı birliklərin müstəqilliyini reallaşdırmağa istiqamətlənməlidir. O, insanların həyat tərzi, mənəviyyatı, elmi yaradıcılığı, mənəvi cəhətdən

təkmilləşməsi ilə bilavasitə bağlıdır. Vətəndaş cəmiyyəti mənəvi sferada həm də milli və insani borcu yerinə yetirən çoxsaylı təşkilatlara malikdir. Onun sturukturu ictimai sferalara müvafiq olaraq təşəkkül tapır və təkmilləşir. Müasirdemokratik cəmiyyətlərdə vətəndaş cəmiyyətinin sturukturu daha da təkmilləşir və fəallıq istiqamətləri güclənir.

Dövlətlə vətəndaş cəmiyyətinin qarşılıqlı fəaliyyəti ən mühüm məsələlərdən biridir. Bu qarşılıqlı fəaliyyət vətəndaş cəmiyyətinin təzahürü ilə yaranır. Politologiya elmində uzun müddət "dövlət" və "vətəndaş cəmiyyəti" anlayışları fərqləndirilməmişdir, onlar sinonim anlayışlar kimi işlədilmişdir. Qərb siyasi elmində vətəndaş cəmiyyətinə aid iki başlıca mövqe mövcuddur. Birinci mövqeyə görə, vətəndaş cəmiyyətidövlətə və onun hər cür formasına qarşı çıxan şəxsiyyətlərarasımünasibətlər məkanını ifadə edir. Vətəndaş cəmiyyəti fərdlərin gündəlik tələbatının reallaşdırılması sferası olmaq etibarilə şəxslərin bir-biri ilə qarşılıqlı fəaliyyətinin bütün tarixi kompleksini təcəssüm etdirən sosial universallıqdır. İkinci mövqe tərəfdarları isə vətəndaş cəmiyyətini Qərb mədəniyyətinin fenomeni, Qərb sivilizasiyanın mövcudluq forması kimi əsaslandırmağa cəhd edirlər. Beləliklə, vətəndaş özünüdərketməsi müvafiq sosial-mədəni mühit şəraitində formalaşmışdır. Azadlıq, mülkiyyət və əməksevərlik kimi dəyərlərdə öz əksini tapan vətəndaş- ların demokratik sərvət yönümü fərdlərin özünütəsdiq istəyində ifadə olunur.

Müasir demokratik dövlətlərdə praktiki olaraq, hakimiyyət sturukturları sistemində vətəndaş cəmiyyəti təşkilatları ilə əlaqə yaratmaq üçün xüsusi orqanlar fəaliyyət göstərirlər. Vətəndaş cəmiyyətində onu təşkil edən təşkilatların muxtar xarakteri və müstəqilliyi heç də o demək deyildir ki, onların fəaliyyətində xoşagəlməz hallar olmaya bilər. Buna görə də vətəndaş cəmiyyətini təşkil edən təşkilat və birliklər üzərində müxtəlif formada nəzarətin həyata keçirilməsi tamamilə zəruri və qanunauyğundur. Belə formalardan biri dövlət və ictimai təşkilatların nümayəndələrindən

ibarət birgə orqanların yaradılmasıdır. Demokratik rejim dövlətlə vətəndaş cəmiyyətinin sıx qarşılıqlı fəaliyyətini nəzərdə tutur. Bu, siyasi və iqtisadi sabitliyin əsasını təşkil edir. Əlbəttə, dövlət və vətəndaş cəmiyyətinin qarşıdurması gözlənilləndir, lakin bu azömürlüdür.

Beləliklə, vətəndaş cəmiyyətinin mövcud olduğu şəraitdə dövlət cəmiyyətdə müxtəlif qüvvələrin arasında kompromis yaradır. Vətəndaş cəmiyyətinin iqtisadi əsasını şəxsi mülkiyyət hüququ təşkil edir. Əks təqdirdə elə bir şərait yaranır ki, hər bir vətəndaş dövlətə dövlətin diktə etdiyi şərtlərlə xidmət etməli olur.

Buradan belə bir nəticə çıxır ki, vətəndaş cəmiyyətində müxtəlif sosial, siyasi, mədəni, və s. hərəkatlar, ittifaqlar, qruplar,bloklar, partiyalar azlıqların mənafeini ifadə edirlər. Onlar həm dövlət təşkilatları ola bilərlər, həm də müstəqil. Bu, ayrı-ayrı şəxslərə demokratik cəmiyyətdə özlərinin vətəndaş hüquqlarını və vəzifələrini ifadə etmək imkanı verir. Bu təşkilatların fəaliyyətinə cəlb olunmaqla siyasi qərarların qəbul edilməsinə təsir göstərmək olur.

# VII BÖLMƏ
# Cəmiyyətin həyat fəaliyyətində siyasətin rolu

## 1.Siyasət cəmiyyətin həyat fəaliyyətinin başlıca sferasıdır

Siyasi həyat əbədi mövcud olmayıbdır. Onun yaranma tarixi qədim dövrə təsadüf edir. Siyasi həyat ibtidai icma cəmiyyətinin dağılması və sosial cəhətdən qeyri-yekcins cəmiyyətin meydana çıxması ilə təşəkkül tapır. Bu qanunauyğunluqcəmiyyətin siyasi sisteminə də aiddir. Cəmiyyətin siyasi sistemi yarandığı ilk dövrlər yetkin səviyyədə olmadığı kimi, siyasi həyat da təşəkkülünün başlanğıcında məhdud çərçivədə olmuş və siyasi fəaliyyət prosesində adamlar kiçik təlabatla kifayətlənmişlər. Quldarlıq cəmiyyətinin qərarlaşması ilə nəinki siyasi sistemdə, eləcə də siyasi həyatda köklü keyfiyyət dəyişiklikləri baş verir. Siyasi sistemin ən mühüm ünsürü kimi siyasət aləminin başlıca kampanenti olan dövlət və onunla birlikdə hakimiyyət təşəkkül tapır. Dövlət sturukturları ilə yanaşı ilk partiyalar yaranır. Əlbəttə, "partiya" anlayışı hər şeydən əvvəl, bu və ya digər şəxslə, şəxslər qrupu və hər hansı sülalə ilə yaxınlığı ehtiva edirdi. Bir sözlə, aristokratik qruplaş- malar kimi meydana gələn ilk partiyalar həmin ictimai subyektlərin tərəfdarları kimi səciyyələnirdilər. Siyasi sistemin inkişafı cəmiyyətdə başverən ciddi dəyişiklikləri əks etdirirdi. Bu dəyişikliklər isə müxtəlif sosial təbəqələr arasında mövcud olan ziddiyyətlərlə şərtlənirdi. Bu səbəbdən də uzun əsrlər boyu siyasi həyatın başlıca istiqaməti rəqabət münasibətlərindən ibarət olmuşdur. Nəticə etibarilə cəmiyyətin siyasi həyatı siyasi sistemin yeni ünsürləri hesabına genişlənmiş və zənginləşmişdir.Orta əsrlər cəmiyyətinin ilk dövrlərində bu və ya digər ölkədə imtiyazlı yuxarı dairələr siyasi sistemin və təbii ki, siyasi həyatın formalaşdırılmasında müstəqil rol oynayırdılar. Bu təbəqələr özlərinə məxsus inzibati və məhkəmə hakimiyyəti yaradır, əhali üzərinə vergilər qoyur və əmlak senzi tətbiq edirdilər. İngiltərədə ilk

parlamentin, Fransada və Niderlandda kortesin (ali qanunverici orqanın) təşəkkülü siyasi həyatın yeni mütərəqqi istiqamətdə inkişafının təzahürü idi.Siyasi həyat insanın və cəmiyyətin siyasi varlığının mənəvi, hissi, emosional və praktiki-predmetli formasıdır. Siyasi həyat insanların və cəmiyyətin siyasətə münasibətini və siyasətdə iştirakını səciyyələndirir. Siyasi həyatı anlayışı sosial, iqtisadi, mədəni, mənəvi, maddi, dini həyatla və ictimai həyatın digər növləri ilə oxşarlıq təşkil edir. O, dəyişkən və dinamik olmaqla bərabər, yüksəliş və tənəzzül məqamlarına da məruz qala bilir. Siyasi həyatı cəmiyyətin iqtisadi, sosial və mənəvi sferalarından fərqləndirən əhəmiyyətli cəhət ondan ibarətdir ki, bütövlükdə cəmiyyət məhz dövlət tərəfindən təşkil və idarə olunur. Belə ki, siyasətin predmeti dövlət hakimiyyətidir. Siyasət ümumi rifahın əldə olunmasına istiqamətlənən fəaliyyətdir. Qədim yunan filosofu Aristotel siyasəti insan fəaliyyətinin yüksək forması adlandırmışdır. O, özünün "Politika" adlı əsərində bu barədə yazırdı: "Ədalət yalnız siyasi həyatda mümkündür. Çünki siyasi birgəyaşayışın bütün sistemi hüquqa əsaslanır" (Aristotel. Politika). İctimai həyatın bütün sferaları onlara xas olan fəaliyyət növləri ilə səciyyələnir.Siyasi həyatın başlıca məzmununu təşkil edən siyasi fəaliyyət insanların həyat fəaliyyəti sistemində xüsusi yer tutur. O, subyektin fəallığının xüsusi formasıdır.İnsanların siyasi fəaliyyəti onların davranışı ilə sıx bağlıdır. Siyasi fəaliyyət kimi, siyasi davranışın da mahiyyəti siyasi sferada fəallıq təzahür etdirməkdən ibarətdir.

## 2.Beynəlxalq münasibətlər və xarici siyasət. Geosiyasət və müasirdünya

Beynəlxalq münasibətlər bir sıra elm sahələrinin-diplomatiya tarixinin, beynəlxalq hüququn, dünya iqtisadiyyatının, hərbi strategiyanın və digər elmlərin tərkib hissəsidir. Beynəlxalq münasibətlərin predmetində beynəlxalq münasibətlər nəzəriyyəsi

xüsusi əhəmiyyət daşıyır. Bu mənada Stenli Hoffmanın qeyd etdiyi kimi, beynəlxalq münasibətlər nəzəriyyəsi qədim tarixə malikdir. Fukididhələ iki min bundan əvvəl, müstəqil siyasi vahidlər arasında münasibətlərin dərin təhlilini vermişdir. Qədim dövrdən başlayaraq münaqişələrin və müharibələrin səbəbləri,xalqlar arasında sülh və əmin-amanlığın yaradılması, onların qarşılıqlı əməkdaşlığı və digər bu kimi məsələlərin araşdırılmasına məqsədyönlü diqqət yetirilmişdir. Tədricən nisbi müstəqilliyə malik olan bu elmi sfera beynəlxalq münasibətlər nəzəriyyəsi kimi təşəkkül tapır. Bu proses XX əsrin ikinci yarısından sonra daha da surətlənir. Həmin dövrdə onun sosiologiyalaşması istiqamətində ilk cəhdlər nəzərə çarpır və nəticə etibariləbeynəlxalq münasibətlərin sosiologiyası nisbi müstəqillik kəsb edən elm sahəsi kimi formalaşır və inkişaf edir. Hazırda müasirbeynəlxalq münasibətlər nəzəriyyəsinin təsnifatı mühüm elmi tədqiqat obyektinə çevrilmişdir. Bu nəzəriyyənin təsnifatında başlıca istiqamətlər siyasi idealizm, siyasi realizm, modernizm, transmillilik, neomarksizm və sair hesab olunur. Beynəlxalq münasibətlər nəzəriyyəsinə qlobal və xüsusi mövqedən yanaşılması müasir tədqiqatçıların səciyyəvi fəaliyyət istiqamətidir. Xüsusi mövqedən, başqa sözlə, çoxcəhətli məsələlərin deyil, məhz müəyyən problemin tədqiqi, zənnimizcə, özünəməxsus maraq doğurur. Bu mənada Kanada alimi Baqat Koraninin beynəlxalq aktorlar nəzəriyyəsi, Corc Modelskinin, Samir Aminin və Karl Kayzerin beynəlxalq münasibətlər çərçivəsində qarşılıqlı fəaliyyət nəzəriyyəsi, Lyussi Puarenin, Devid Singerin və İohan Qaltunqun strategiya, münaqişələr və dünyanın tədqiqi nəzəriyyəsi, Karl Doyçun inteqrasiya nəzəriyyəsi, İmis Klodun və Jan Siotisin beynəlxalq təşkilatlar nəzəriyyəsi diqqəti cəlb edir. Müasir beynəlxalq münasibətlərnəzəriyyəsinin işlənib hazırlanmasında Amerika alimi Hans Morgentaunun tədqiqatları mühüm əhəmiyyətə malikdir. Hans Morgentaunun 1948-ci ildə çapdan çıxan "Millətlər arasında siyasi münasibətlər. Hakimiyyət uğrunda mübarizə" adlı

kitabı nəinki ABŞ-da, eləcə də Qərb ölkələrində xeyli siyasət adamlarının ciddi marağına səbəb olmuşdur.

Tədqiqatçılar "beynəlxalq münasibətlər" anlayışının mahiyyətini açıqlamağa xüsusi diqqət yetirirlər. R.Aronun "münasibətlərin tənzim olunması nümunəsi dövlətlərarası müqavilələrdir" fikri maraq doğursa da, bununla razılaşmayan tədqiqatçılar da vardır. Amerika alimi D.Kaporazonun fikrincə, hazırkı şəraitdə beynəlxalq münasibətlərdə başlıca fəaliyyət göstərən dövlətlər deyil, məhz siniflər, sosial-iqtisadi qruplar və siyasi qüvvələrdir. Biheviorçuluq məktəbinin nümayəndəsi D.Singerə görə isə beynəlxalq münasibətlərdən başlamış qlobal birliklərədək hamısının davranışı öyrənilməli,onlarındünya meydanında nüfuzu nəzərə alınmalıdır. C.Rozenau isə belə qənaətdədir ki, son onilliklərdə dünya siyasətində baş verən dəyişikliklər xalqların və cəmiyyətlərin qarşılıqlı asılılığını şərtləndirir. Qeyd edək ki, beynəlxalq münasibətlərin mahiyyətinin və spesifikliyinin mühüm ünsürlərindən biri onun iştirakçılarının müəyyənləşdirilməsidir. Fransız sosioloqu R.Aronun fikrincə, "beynəlxalq münasibətlər siyasi vahidlər arasında münasibətlərdir: bu anlayış yunan polisini, Roma və ya Misir imperiyasını, eləcə də Avropa monarxiyasını, burjua respublikalarını və ya xalq demokratiyasını özündə təcəssüm etdirir".Beynəlxalq münasibətlərin məzmununu başlıca olaraq dövlətlər arasındakı münasibətlər təşkil edir. Bu münasibətlər xalqlar, dövlətlər sistemi arasında formalaşan siyasi, iqtisadi, diplomatik, hərbi, mədəni, elmi-texniki əlaqələr və qarşılıqlı münasibətlərdir. Beynəlxalq münasibətlərdə dövlətlərarası münasibətlər başlıca rol oynayır.

Siyasi elmin tərkib hissəsi olan beynəlxalq münasibətlərin poli- tologiyası özünəməxsus spesifiklik kəsb edir. Beynəlxalq siyasət, onun sosial təbiəti, qanunauyğunluğu, fəaliyyəti və inkişafı beynəlxalq münasibətlərin politologiyasının predmetinin mühüm tərəfidir.

Beynəlxalq münasibətlər dövlətlərin yaranması ilə təşəkkül tapır. XX əsrin sonunda SSRİ-nin dağılması nəticəsində dünyada

yeni müstəqil dövlətlər yarandı. Hazırda bütün müstəqil dövlətlər arasında beynəlxalq münasibətlər mövcuddur.

1815-ci ildə Vyana konfransı nəticəsində Avropada beynəlxalq münasibətlər sistemi təşəkkül tapmağa başlayır. Beynəlxalq münasibətləri tənzimləyən ilk təşkilat 1935-ci ildə yaradılan Millətlər Cəmiyyətidir. İkinci dünya müharibəsindən sonra, 1945-ci ilin oktyabrında yeni beynəlxalq təşkilat-BMT fəaliyyətə başladı. BMT-nin başlıca məqsədi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaqdan və möhkəmləndirməkdən, eləcə də onun iştirakçıları arasında əməkdaşlığı inkişaf etdirməkdən ibarətdir. BMT-nin əsas orqanlarından biri Təhlükəsizlik Şurasıdır. Təhlükəsizlik Şurasının daimi üzvü olan beş böyük dövlət-Rusiya, ABŞ, Çin, Böyük Britaniya və Fransa şuranın qərar qəbul etməsində önəmli rol oynayırlar. Amma buna baxmayaraq, təəssüflə qeyd etməliyik ki, Şuranın qəbul etdiyi bəzi qərarlar-məsələn, Azərbaycan Respublikasının mənafeyinə uyğun gələn Dağlıq Qarabağ barədə dörd qətnamə (822, 853, 874, 884) indiyədək həyata keçirilməyibdir. XX əsrin ikinci yarısından başlayaraq dövlətlərarası birliklərdən ən təsirlisi Şimali Atlantika Bloku (NATO) və Varşava Müqaviləsi Təşkilatı olmuşdur. NATO-dan fərqli olaraq Varşava Müqaviləsi Təşkilatı SSRİ-nin süqutu ilə əlaqədar dağılmışdır. Regional dövlətlərarası birliklər sırasında dünya siyasətində mühüm rol oynayan Ərəb Dövlətləri Liqasını, Cənub-Şərqi Asiya ölkələri Assosasiyasını, Asiya Sakit Okean Şurasını,Afrika Birliyi Təşkilatını, İslam Konfransı Təşkilatını, Beynəlxalq İnkişaf və Yenidənqurma Bankını, İslam İnkişaf Bankını və digər nüfuzlu təşkilatları göstərmək olar. Beynəlxalq münasibətlərin subyektləri arasında beynəlxalq iqtisadi birliklər mühüm rol oynayırlar. Dünya siyasətinə təsir göstərən belə iqtisadi birliklərdən beynəlxalq təşkilatlardan biri Avropa İqtisadi Birliyidir. Beynəlxalq münasibətlərin digər mühüm komponenti ümumdünya hökumət və qeyri-hökumət siyasi təşkilatlarıdır. Müasir dünyada sağlam siyasi münasibətlərin təşəkkülündə 1949-cu ildən fəaliyyət

göstərən hökumətlərarası təşkilat-Avropa Şurası və ATƏT (Avropada əməkdaşlıq və təhlükəsizlik təşkilatı) mühüm rol oynayırlar. Daxili siyasətin məntiqi davamı olan xarici siyasət dövrümüzün ən aktual və mürəkkəb problemlərindəndir. Xarici siyasətin mahiyyəti bu günə qədər kəskin elmi mübahisələr predmeti kimi davam edir. Hans Morgentaunun fikrincə, xarici siyasət, hər şeydən, milli mənafe ilə müəyyən olunur. Milli mənafe insanın dəyişməz təbiəti, coğrafi şərait, sosial-mədəni və tarixi ənənələrlə əlaqədar olduğu üçün obyektiv xarakterə malikdir. Onun fikrincə, ölkə həyatının daxili amilləri olmaq etibarilə siyasi rejim, ictimai rəy dəyişə bilər və dəyişirdə-bunlar milli mənafeyə təsir etmək qabiliyyətinə malikdir, lakin milli mənafe siyasi rejimin xarakteri ilə bağlı deyildir. Daxili siyasətlə xarici siyasətin əlaqəsinə dair digər mövqelər də mövcuddur. Məsələn, geosiyasi konsepsiya, "varlı Şimal" və "yoxsul Cənub" nəzəriyyələri, eləcə də "dünya mərkəzi" ilə "dünya əyalətinin" asılılığına dair neomarksist nəzəriyyə səciyyəvidir. Qeyd edək ki, xarici siyasətin uğurları ölkə daxili əlverişli şəraitlə əlaqəlidir. Hər hansı ölkədə daxili siyasi proseslərin məqbul vəziyyəti dünya siyasətində layiqli yer tutmağa mühüm təkan verir. Müasirbeynəlxalq siyasi nəzəriyyədə diqqəti cəlb edən istiqamətlərdən neorealizm və sturukturalizmdir. Bu nəzəriyyələrin tərəfdarlarına görə, xarici siyasətin müəyyən olunmasında milli mənafelər yox, məhz beynəlxalq sistemin daxili dinamikası həlledici rol oynayır. Dünyanın qarşılıqlı asılılığı konsepsiyasının tərəfdarlarına görə isə daxilivə xarici siyasət ümumi əsasa malikdir. Transnasionalizm məktəbinin tərəfdarları isə transmilli münasibətləri önə çəkirlər. Xarici siyasət dövlətin iqtisadi, demokratik, hərbi, elmi-texniki və mədəni potensialına əsaslanır.

Dövlətin geosiyasi vəziyyəti onun xarici siyasətinə həlledici təsir göstərir. Geosiyasi vəziyyətlə bağlı dövlət bir tərəfdən özünə müttəfiqlər seçir, digər tərəfdən isə öz rəqibləri ilə qarşılıqlı münasibətləri inkişaf etdirir. Geosiyasət nədir? Geosiyasət

beynəlxalq münasibətlər nəzəriyyəsinin ən başlıca anlayışlarından biridir. Geosiyasət ərazi-məkan xüsusiyyətlərinin dövlətlərin və dövlətlər blokunun yerli, regional, kontinental və qlobal beynəlxalq proseslərin vəziyyətinə təsiri imkanlarını və konkret tarixi formalarını səciyyələndirir. Geosiyasətin tarixi təşəkkülü cəmiyyətin həyatında coğrafi amillərin rolunun tədqiqi ilə bağlıdır. İnsanların fəaliyyətinin bütövlükdə təbii mühitlə şərtlənməsi barədə təsəvvürlər coğrafi amil konsepsiyasının metodoloji əsası olmuşdur.

Geosiyasətin xüsusi bir elmi-tədqiqat sahəsinə çevrilməsi və onun nəzəri-metodoloji əsasları birdən-birə meydana çıxmamışdır. Bunun üçün bəşəriyyət uzun bir nəzəri və praktik inkişaf dövrü yaşamışdır.

Geosiyasət əsasən XIX əsrin sonlarından başlayaraq və XX əsrin birinci yarısında xüsusi elmi istiqamətə çevrilmişdi. Bu proses o zaman daha çox akademik elmi-ehtiyac kimi deyil, dövrün dövlət siyasətini planlaşdırmaq və siyasi xadimlərə praktik tövsiyələr vermək ehtiyacı kimi meydana gəlmiş və əsasən tətbiqi elm kimi formalaşmışdır. Geosiyasət yalnız XX əsrin əvvəllərindən başlayaraq, Avropada elmi biliklərin inkişafı, xüsusən, yeni siyasi reallıqların dərk edilməsi tələbatı ilə bir qədər də inkişaf etmiş və tədricən akademik elmə çevrilmişdir.

Klassik geosiyasətçilər bu elmə ilk dövrlərdə sosial-fəlsəfə anlamda yanaşır və geosiyasətdən əsasən milli maraqların qorunması məqsədilə istifadə edirlər. Bu zaman ölkənin məkan, ərazi və sosial xarakterisitikası kimi coğrafi amillərdən dövlətlərarası münasibətlərdə istifadə olunmasına xüsusi diqqət yetirilirdi.

Dövlətin coğrafi vəziyyəti, məkan xarakteristikası, ərazisi, əhalisi, qonşuları və s. məsələlər klassik geosiyasət yaradıcılarının əsas tədqiqat obyekti idi.

Qədim dünyanın filosof, səyyah və tarixçilərindən tutmuş, XVI-XIX əsrlərin dövlət başçıları və onların ətrafındakı intellektual mütəfəkkirlərə qədər hər kəs yaşadığı ölkə və ərazilərin təbii,

coğrafi, tarixi, mədəni, hərbi və geosiyasi məsələlərini öyrənir, cəmiyyət həyatını planlaşdırır və idarə edir, qonşularla bu və ya digər münasibətlər qurur və ünsiyyətə daxil olurdu.

Sadəcə bu fəaliyyəti bəhs olunan dövrdə ümumiləşdirən və elmi əsaslarla formalaşdıran geosiyasət adlı elmi mərkəzlər yox idi.

Geosiyasət elminin ilkin mənbələrini və intellektual əsasını XVII -XIX əsrlərdə Avropa və dünyada mərkəzləşmiş dövlət müstəmləkəçilik hərəkatını başlayan, geniş geosiyasi təfəkkürə malik olan bəzi krallar, dövlətbaşçıları, hərbi sərkərdələrin və onları əhatə edən coğrafiyaçı-səyyah alimlərin, qabaqcıl mütəfəkkirlərin ideya və düşüncələri, onlara məxsus əsərlər təşkil edirdi.

Bir əsrdən çoxdur ki, dünya siyasətşünaslığıda "Geosiyasət elmi" termini istifadə olunur. Bir elm kimi geosiyasətin mahiyyəti və hüdudları, obyekti və predmeti ilə bağlı bütün bu dövr ərzində də diskussiyalar keçirilir və mübahisələr aparılır.

Geosiyasət gənc olduğu qədər də dinamikdir, bəşəriyyətin siyasi düşüncə tərzindəki dəyişikliklərə müvafiq olaraq sürətlə dəyişir və inkişaf edir.

Həm ənənəvi klassik, həm də müasir geosiyasətdə "geosiyasət" anlayışının universal formulu yoxdur. Bu hal əslində inkişaf etməkdə olan və formalaşması davam edən ictimai elmlərin hamısı üçün xarakterikdir.

Geosiyasətin elm kimi formalaşması prosesi dünyada XIX əsrin sonlarından başlanır və siyasi coğrafiyanın predmet sahəsinə müəyyən müdaxilələrlə inkişaf edərək təxminən 1950-ci illərdə əsasən başa çatır.

Əsasını Böyük coğrafi kəşflər təşkil edən "siyasi coğrafiyadan" o, illərdə insanlar tamam başqa vəzifələrin həllini tələb edirdi. Bunların sırasında Böyük coğrafi kəşflər nəticəsində əldə olunan məlumatların ümumiləşdirilməsi, yəni coğrafi və siyasi əlaqələrin, hədəflərin sistemləşdirilməsi, köhnə və yeni coğrafi və siyasi əlaqələrin, hədəflərin sistemləşdirilməsi, köhnə və yeni

dünyanın coğrafi xəritəsinin yenidən cızılması və s. xüsusilə aktual idi.

Geosiyasət klassikləri ilkin olaraq bu elmə dövlətlərin yeni ərazilər və yeni geosiyasi şərait üzərində "sərəncam vermək", "qərar qəbul etmək" funksiyasını ifa edən sahə kimi baxırlar.

"Siyasi coğrafiyanın" əsasını 1897-ci ildə yazdığı "Siyasi coğrafiya" əsəri ilə alman alimi Fridrix Ratsel (1844-1904) qoymuş, geosiyasət anlayışını isə təxminən 20 il sonra elmi ədəbiyyata İsveç mənşəli alim Rudolf Cellen (1864-1922) gətirmişdir.

Rudolf Çellen özünün "Dövlət həyatın forması kimi" adlı əsərində geosiyasəti "konkret məkanda yerləşən, daim genişlənən və inkişaf edən, coğrafi və bioloji orqanizmin qovuşduğu dövlət haqqında elm kimi" xarakterizə etmişdir.

F.Ratselə görə, geosiyasət dövlətin öz ətrafına, qonşularına, ilk növbədə yerləşdiyi coğrafi məkana münasibətini öyrənir və coğrafi məkan münasibətlərindən (ətraf aləmdən) irəli gələn, yaranan problemlərin həllini qarşısına məqsəd qoyur.

Ratsel geosiyasəti, həm də coğrafi cəhətdən izah edilmiş siyasət, öz müstəqil tədqiqat sahəsi olmayan bir aralıq elm kimi dəyərləndirir, onu daha çox siyasətə yaxın olan, diqqətini siyasi şəraitlərə, onu coğrafi aspektlərinin təhlilinə və coğrafi şərhinə yönəldən sahə hesab edirdi.

Geosiyasətin keçmiş SSRİ-də digər sosialist ölkələrində çox maraqlı tarixi keçmişi olmuşdur. Baxmayaraq ki, 1917-ci ilə qədər Rusiya geosiyasət məktəbi dünyanın ən aparıcı və qabaqcıl mərkəzlərindən sayılırdı, inqilabi çevriliş nəticəsində hakimiyyətə gələn bolşeviklər bu elmə qeyri-rəsmi şəkildə qadağa qoydular. Odur ki, Geosiyasət uzun müddət XX əsrin 80-ci illərinə qədər bəhs olunan məkanda qanundankənar elm, imperialist dünyasının ərazi ideallarına və xarici işğallarına bəraət qazandıran saxta burjua nəzəriyyəsi kimi təqdim edilmiş və onun əsas tədqiqat obyektlərinin və predmetinin öyrənilməsini "iqtisadi və siyasi coğrafiyanın" üzərinə qoymuşlar.

XX əsrin 80-ci illərindən başlayaraq elmi fikrin bu istiqaməti bütün sosialist dünyasında, o cümlədən SSRİ məkanında yenidən qiymətləndirilməyə başlandı. Əvvəkli yanaşmalardan tədricən intina olunaraq "geosiyasət elmini" mənfi burjua nəzəriyyəsi kimi deyil, ayrı-ayrı coğrafi amillərlə məkanın yerləşməsi, müəyyən təbii ehtiyatların siyasi qiymətləndirilməsi, iqlimin əhali sıxlığı və onun inkişaf sürəti kimi amillərlə müəyyənləşən məxsusi dövlət siyasəti, xüsusən də strateji xarici siyasət sahəsi-Qərb siyasi konsepsiyası kimi dəyərləndirməyə başladılar.

Qeyd etmək lazımdır ki, SSRİ-də 1917-1991-ci illərdə geosiyasi məktəblər adı altında qurulan elmi-tədqiqat mərkəzləri olmasa da Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvləri üçün xüsusi olaraq məxfi məruzələr, xidməti materiallar ayrıca institutlarda, hərbi Akademiyalarda hazırlanırdı və məxfi qriflərlə tədqiqatçılardan gizlədilir. Ölkənin xarici siyasəti, bu və ya digər dövlətlərlə strateji münasibətləri əslində, dövlətin geosiyasi biliklərinə, elmi tədqiqatların nəticələrinə sökənərək onun strateji maraqlarını ifadə edirdi. Ölkə ali məktəblərində bilavasitə geosiyasət fənni tədris olunmasa da, siyasi coğrafiya, topoqrafiya, politologiya, hərbi strategiya və digər fənlərin tərkibində tələbələrə geosiyasi biliklər öyrədilirdi.

SSRİ dağılandan sonra geosiyasi tədqiqatlar həm bütün dünyada, həm də postsosialist ölkələrində daha da artmış, onun anlayışları, obyektləri genişlənmiş və zənginləşmiş, konkret və tətbiqi məzmun kəsb edərək müasir dünyada baş verən dəyişikliklərə fəal müdaxilə etməyə və təkan verməyə başlamışdır. Əlbəttə, bu vəziyyət ilk növbədə geosiyasətin bir çox sahələrinin elmi bazasının genişlənməsi ilə bağlı olmuşdur.

Hazırda geosiyasət təkcə dünya nizamının dəyişdirilməsində əsas ideya və alət deyil, həm də aparıcı ölkələrin strateji siyasətinin və insanlığın gələcək taleyinin proqnozlaşdırılmasında açar rolunu oynayır.

Geosiyasət dövlətə öz məkanını və bu məkanda yaşayan əhalisini (vətəndaşını) yarana biləcək hər hansı xarici təhlükələrdən qorumaq haqqında biliklər verir.

Müasir siyasətşünasların geosiyasətin özünəməxsus xarakteristikası kimi təqdim etdikləri cəhətlərdən biri də ondan ibarətdir ki, dünyanın sonrakı siyasət bölgüsü ilə coğrafi və iqtisadi region bölgüsü arasında uyğunsuzluq müşahidə olunur. Yaxud dövlətlərin siyasi sərhədləri ilə dünyanın mədəni-informasiya bölgüsü qətiyyən üst-üstə düşmür. Odur ki, geosiyasət tədqiqatçıların bu elmin əsasları, predmeti, subyekti və obyekti ilə bağlı bəzi düşüncələri elmi-texniki tərəqqinin müasir dövrdəki nailiyyətləri çərçivəsində yeni qiymətləndirmə tələb edir.

Beləliklə, ümumiləşdirmə apararaq demək olar ki, müasir dövrdə geosiyasəti-məqsədli və subyektiv, elmi və ideoloji, nəzəri və praktiki fəaliyyət sahəsi olaraq bütöv planetin (qitə, region, ölkə, quru, dəniz, hava, hərbi kosmik və s. məkanların) vəziyyətini bu vəziyyətə təsir göstərən amilləri (coğrafi tarixi, siyasi, ideoloji, demoqrafik, informasiya, müdafiə, dini-mənəvi, sosial-iqtisadi, kommunikasiya və s.) ölkələrin və ölkə birliklərinin geostrateji inkişafının hərəkətverici qüvvələrini və fəaliyyətinin əsaslarını öyrənən elm kimi xarakterizə etmək olar. Geosiyasət elmini ABŞ-ın "Amerikana" geosiyasi ensiklopediyasında dövlətin strateji potensialını və gücünü öyrənən elm kimi qiymətləndirmişlər.

Amerikan politoloqu G.Qeddisin fikrincə desək, geosiyasət son nəticədə dövlətlərin geosiyasi kodlarının hazırlanmasına xidmət edir. Geosiyasi kod hər bir ölkənin özü, qonşuları, dostları və rəqibləri haqqında elmi institutlar vəzifə və hədəflərini, geostrateji və təhlükəsizlik doktrinalarını müəyyən edən qanunlar və fəaliyyətlər toplusudur. Eyni zamanda geosiyasət dünyada baş verən beynəlxalq, regional dövlətlərarası siyasi prosesləri bilavasitə öyrənən beynəlxalq münasibətlərə istinad edir və reaksiya verir. Siyasi elmdə geosiyasətin obyekti və predmeti ilə bağlı mübahisələr də artıq bir əsrə yaxındır ki, davam edir.

Geosiyasətin vəzifələri, obyekti və predmeti ilə bağlı fikirlərini ən dolğun şəkildə F.Ratsel və R. Çellen ifadə etmişdir. Ratselə görə geosiyasət siyasi amillərin məkanla qarşılıqlı münasibətlərinin ölkənin ərazisinə, əhalisinə və subyektlərin mədəni davranışlarına təsirini öyrənir. Rasteldən fərqli olaraq Çellen isə geosiyasətin tədqiqat obyektlərini və tərkibini üç yerə bölmüşdü.

Monopolitika – konkret dövlətin siyasi əhatəsini, xarici aləmin və siyasi müttəfiqlərin ona göstərdiyi təsir və təzyiqi öyrənir;

Morfopolitika – dövlətin ərazisinin formasını, ölçülərini öyrənir;

Fiziopolitika- dövlətin ərazisinin geostrateji məzmun keyfiyyətlə- rini və s. öyrənir.

Eyni zamanda Çellen dövlət həyatının müxtəlif aspektlərini öyrənən beş elm sahəsini xüsusi qeyd etmişdir. Buraya- geopolitika, ekopolitika, demopolitika, sosiopolitika, kratopolitika daxildir. Çellen burada birinciliyi məhz geopolitikaya vermişdir. Ona görə geopolitikanın əsas vəzifəsinin də bir orqanizm olaraqdövlətin böyüməyə və genişlənməyə olan ehtiyacını, dünya ərazilərinin bölüşdürülməsi hesabına bu ehtiyatın ödənilməsinin vacibliyini əsaslandırmaqdan ibarət olduğunu qeyd etmişdir. Çellen hesab edirdi ki, böyük dövlətlər əhalisinin artan tələbatını ödəmək üçün planlı şəkildə öz "həyati məkanlarının" genişləndirilməsi ilə məşğul olur. Onun fikrincə geosiyasət də bu məsələdə dövlətin əsas aləti rolunu ifa etməlidir. Eyni zamanda digər klassik alman geosiyasətçisi K.Haushofer geosiyasəti "dövlətin coğrafi təfəkkürü" kimi dəyərləndirirdi. Haushoferə görə dövlətin geostrateji məkan və ərazi xarakteristikasının düzgün dəyərləndirilməsi doğru siyasi qərarların verilməsi və əsaslı praktiki fəaliyyətin qurulması bütün qələbələrin əsasını təşkil edir. Bu anlamda o, geosiyasəti "praktiki siyasi rəhbərlik sənəti" kimi qiymətləndirdi. ABŞ-da geosiyasətin yaradıcılarından olan N.Spaykmen geosiyasətin əsas vəzifəsinin"coğrafi yerləşmə xarakteristikasından asılı olaraq

dövlətin təhlükəsizliy ilə bağlı məsələləri öyrənməkdən ibarət olduğu qənaətində idi. Həmçinin geosiyasətin predmetinə həm keçmişdə, həm də müasir dövrdə bir qayda olaraq-dünya və regional problemlərin həllində geosiyasi subyektlər arasındakı qarşılıqlı münasibətləri aid edirlər. Eyni zamanda müasir dövrdə informasiya müharibələrini, subyektlərarası informativ-psixoloji təsiretmə və ictimai fikrin idarə olunması məsələlərini də aid etmək olar. Bu elmin predmeti dəyişikliyə məruz qalsa da, onun obyekti müəyyən mənada sabit olaraq qalır.

Müasir dövrdə geosiyasət həm də dövlətin uzunmüddətli milli maraqları, məkan xarakteristikası və bu əsasda yürütdüyü siyasət arasındakı qarşılıqlı bağlılığı tədqiq edir. Hazırda müasir geosiyasətin əsasını daha çox geoiqtisadiyyat təşkil edir.

XXI yüzillikdə dünyanın postindüstrial modeldən qloballaşma prosesinə keçməsi geosiyasi vəziyyəti də müvafiq olaraq dəyişdirir və yeni - yeni keyfiyyətlər qazandırır. Hər bir elm sahəsi kimi, geosiyasətin də məzmunu onun əsas elmi anlayışlarında-kateqoriyalarında öz əksini tapır. Geosiyasət siyasi institutların, ilk növbədə dövlət və dövlət birliklərinin məkan üzərində nəzarətinin əsaslarını, imkanlarını, forma və mexanizmlərini öyrənir. Onun kateqoriyaları geosiyasi məkanın xarakteristikasının, strukturunun və inkişaf dinamikasının müxtəlif aspektləriniəks etdirərək, çətin və mürəkkəb geosiyasi məsələlərin başa düşülməsində bu elmin tədqiqatçıları üçün açar rolunu oynayır.

Klassik geosiyasətdə kateqoriya anlayışı xüsusi tədqiqat obyekti olmamışdır. Onlar coğrafi amillərin cəmiyyətin siyasi, sosial vəziyyətinə və tərəqqisinə təsirini öyrənmək, siyasətin məkan və digər coğrafi amillərlə (təbii ehtiyatlar, əhali, istehsal münasibətlərinin yerləşməsi və.s.)əlaqəsini açmaq üçün məxsusi geosiyasi kateqoriyalarla yanaşı, digər elmlərin, məsələn: coğrafiyanın (geoməkan və onun xarakteristikası, coğrafi mühit, məsafə və.s.), hərbi elmin (güc tarazlığı, təsir dairəsi, bufer zona,

təhlükəsizlik zolağı və. s.), fəlsəfənin (milli maraq, milli ideya, milli sivilizasiya və. s.) sahələrin kateqoriyalardan da istifadə edirlər.

Sonrakı dövrdə klassik geosiyasətin bir elm kimi inkişaf etməsi ilə onun məxsusi kateqoriyalar sistemi və anlayışları da genişlənir və məzmunca zənginləşir. Məsələn, bəzi klassik geosiyasətçilər artıq bu elmin hərbi aspektərini "geostrategiya" kateqoriyası ilə ifadə etməyə başlayıblar. Bundan başqa geostrategiyanın tərkibinə daxil olan "quru", "dəniz", "hava məkanlar " və " qüvvələri " anlayışları meydana çıxır.

Anqlo-saks və kontinenetal Avropa klassik geosiyasət banilərinin yaradıcılığa başlaması ilə elmi dövriyyə, məsələn H. Makinderlə "dünya siyasətinin ox anlayışı-hartlənd", Spaykmenlə "rimlənd, sahil zonaları", Smitlə "dəniz və kontinental güclər" "tallasokratiya və tellurokratiya", Mehenlə, Danilevski, Milyutin və b. ilə "atlantizm", "avrasiyaçılıq", Haushoferlə "kontinental blok" və. s. geosiyasi anlayışlar daxil edilir.

Geosiyasətin müasir inkşafı və geosiyasi fikirlərin sonrakı transformasiyası fonunda siyasətşünaslar bu elmin məxsusi anlayış və kateqoriya aparatının genişləndirilməsi qayğısına xüsusi önəm vermişlər.

Müasir dünyanın geosiyasi strukturunun əsasları və xarakteristikasını, qloballaşan və transmilliləşən dünyada dövlətlərarası geosiyasi münasibətlərin tənzimlənməsini, milli və dövlət maraqlarının tarazlığını nizamını və dinamizmini, beynəlxalq və regional inteqrasiya proseslərinin meyllərini yalnız geosiyasi anlayışların və kateqoriyaların dəqiq, hərtərəfli qavranılması və təsnifatı yolu ilə həyata keçirmək olar.

Əksər geosiyasət alimlərinin fikrincə bütün dövrlərdə geosiyasət elminin əsas kateqoriyası kimi-geosiyasi məkan qəbul edilmiş və onun üzərində nəzarət imkanlarını araşdıran müxtəlifkonsepsiyalar irəli sürülmüşdür.

Geosiyasi məkanı: dövlət və ya dövlətlər ittifaqının nəzarətində olan coğrafi, iqtisadi, siyasi, inzibati-hüquqi, mədəni,

təhlükəsizlik, informasiya və. s. sahələrin kompleks əhatə olunduğu, lakin xarici aləmdən konkret sərhədlərlə ayrılmamış (qeyri-məxsusi) ərazilərdən ibarətdir.

Geosiyasətin digər kateqoriyası geosiyasi xətt kateqoriyasıdır. Bu kateqoriya geosiyasi məkanın vacib struktur yaratma amili hesab olunur və quru, dəniz, hava xətlərini, vacib mal, xammal daşıma yollarını və kommunikasiyalarını birləşdirən strateji dəhlizlərə deyilir. Geosiyasi xətlər həmişə böyük dövlətlərin gizli geostrateji mübarizə obyekti olmuş və bu gün də olmaqdadır.

Geosiyasətin əsas kateqoriyalarından biri də Dünya sistemi kateqoriyasıdır. Dövlət və xalqların yer kürəsindəki qlobal təsir imkanlarının, güclərinin və ortaq maraqlarının uyğunlaşdırıldığı qarşılıqlı fəaliyyət müstəvisinə dünya sistemi kateqoriyası deyilir. Qədim dünyanın yunan şəhər-dövlət hökmranlıq sistemindən başlamış ABŞ-ın hegemonluğunu ehtiva edən “yeni dünya nizamı “adlanan müasir dövrəqədər sistem- daxili güc tarazlığını mərhələ - mərhələ dəyişmiş və bir-birini əvəz etmişdir. Qeyd edək ki, müasir dünya sisteminin rəsmi idarəetmə orqanı Birləşmiş Millətlər Təşkilatı hesab olunur.

Geosiyasət elminin digər kateqoriyası Geostrategiyadır. Bu kateqoriya dövlətlərin müəyyən olunmuş geosiyasi vəzifələrini və milli təhlükəsizlik doktrinalarının yerinə yetirilməsi strategiyasıdır. Geosiyasi dəyərləndirmə yolu ilə dövlətin xarici siyasətinin bir istiqamətinə çevrilən geostrategiya ölçüsünə (qlobal, regional və ölkələrarası) və məkan amillərinə görə (quru, dəniz, hava, kosmik geostartegiya) təsnif olunur.

Müasir dövrdə geosiyasətin əsas kateqoriyalarından biri də geoiqtisadiyyatdır. Beynəlxalq iqtisadi münasibətlərin qloballaşması dünyada bütöv iqtisadi sistem yaradaraq dövlət və dövlət birliklərinin milli iqtisadiyyatını, təsərrüfatını getdikcə bir-birindən asılı vəziyyətə salmışdır. Birbaşa transmilli və xarici inverstisiya bazasında yüksək texnoloji istehsal proseslərinin və əlaqələrinin beynəlmilləşməsi, ölşüsünə görə qlobal,iş rejiminə görə

fasiləsiz maliyyə və xammal bazalarının yaranması dünya iqtisadi həyatını tam qloballaşdırmışdır. Dünyanın iqtisadi maraq mübarizəsi,iqtisadi rəqabət, iqtisadi əməkdaşlıq və tərəfdaşlıq kimi xarakterizə edilən indiki geoiqtisadi proseslərə ayrı-ayrı dövlətlər və onlara məxsus korporasiyalar, milli və transmilli kommersiya strukturları, formal və qeyri-formal beynəlxalq, regional və yerli iqtisadi təşkilatlar qoşulmuşlar.

İqtisadi qloballaşma beynəlxalq əmək bölgüsünü dərinləşdirmiş və onun meyllərini müəyyən etmişdir. İnsanların sərbəst hərəkəti milli sərhədləri aşmış və bazar meyarlarını dəyişdirmişdir. Belə ki, qlobal iqtisadi proseslər dünyanın yeni geoiqtisadi məkan və münasibətlər anlayışını meydana gətirmişdir. Bunlar da geosiyasətin müasir kateqoriyalarından hesab olunan geoiqtisadiyyata aid edilir. Həmçinin geosiyasətin dövlət, geosiyasi rəqabət, qüvvələr tarazlığı, ekspansiya, qərb, şərq və s. kimi kateqoriyaları da vardı.

Geosiyasət öz tədqiqat obyekti və predmeti olan ayrıca elm sahəsi kimi dünyada baş verən dövlətlər və bloklararası geosiyasi münasibətləri, geoiqtisadi, geostrateji prosesləri müxtəlif metodlarla öyrənir və özünəməxsus tətbiqi tövsiyələrlə sıxış edir.

Geosiyasətin əsas funksiyalarından biri onun tətbiqi və praktik elm sahəsi olmasındadır. Bu funksiya ilk növbədə empirik informasiyanın toplanması və təhlilində idarəetmə ilə bağlı konkret qərar və qətnamələrin işlənib hazırlanmasında özünü biruzə verir.

Geosiyasətdə praktiki göstərişlər onu verənlərin xarakterindən, şəxsiyyətindən, istinad etdiyi məlumatların obyektiv və subyektiv olmasından asılı olaraq iki hissəyə bölünür: obyektiv və subyektiv. Bundan başqa geosiyasətin aşağıdakı funksiyaları da vardır.

Qavrama funksiyası, proqnozlaşdırma funksiyası, və ideoloji funksiya.

Qavrama funksiyası-dünyanın geosiyasi xəritəsində qlobal və regional proseslərin dərk edilməsi və qavranılması üçün mühüm zəmin yaradır.

Proqnozlaşdırma funksiyası-geosiyasi proqnozlaşdırma qüvvələrin, sahələrin inkişafı barədə dolğun və dürüst məlumat vermək, onların qarşılıqlı münasibətlərinin inkişafını müəyyənləşdirmək, ölkə və ya ittifaqların konfiqurasiyasını aydınlaşdırmaq, onların beynəlxalq və yerli (etnik) münasibətlərin inkişafına təsirini öyrənmək, baş verə biləcək lokal münaqişələri yoluna qoymaq, qarşısını almaq və yaxud münaqişə ocaqlarını söndürmək üçün tədbirlərin hazırlanması məqsədilə həyata keçirilir.

İdeoloji funksiya-geosiyasət nəzəri və praktiki elm sahəsi olmaqla yanaşı, həm də dövlətlər üçün xarici ideoloji vasitə funksiyasını icra edir. Əvvəlki funksiyalar kimi geosiyasətin ideoloji funksiyası da çoxşahəlidir. Qeyd edək ki, beynəlxalq aləmdə və yerli cəmiyyətlərdə geosiyasət bütün dövrlərdə ideoloji silah funksiyasını yerinə yetirərək praktikada dünyanın güclü dövlətlərinin vəkili kimi çıxış edir.

Eyni zamanda geosiyasət amillərinin sistemləşdirilməsi dövlətlərə imkan verir ki, "təbii sərhədlər" və həyati məkan barədə öz məqsədlərini həyata keçirsinlər və tarixə zidd mürtəce siyasətə haqq qazandırsınlar. Buna misal olaraq İsrailin Ərəb ölkələrinə, Ermənistanın Azərbaycana geosiyasi təcavüzkarlığı işğalçılıq səlnaməsində çirkin səhifələrdir. Müasir dünyada şərait hər şeydən əvvəl onunla səciyyələnir ki, geosiyasi tarazlıq pozulmuşdur. Kifayət qədər effektli çoxqütblüdünya əvəzinə, bir "fövqəl-dövlətin"- ABŞ-ın hökmranlığına əsaslanan son dərəcə qeyri-sabit geosiyasi vahid təşəkkül tapmışdır. Bununla belə müasir dünyada pozulmuş tarazlığın bərpa olunması və hazırda təşəkkül tapan birqütblülüyə zidd mövqeyin formalaşması meyli nəzərə çarpır. ABŞ və onunmüttəfiqlərinin hegemonluğuna qarşı ola bilsin ki, "Rusiya-Çin-Hindistan" üçbucağı təşəkkül tapsın və buraya Şimali Koreyanı da əlavə etsək yanılmarıq. Həmçinin son zamanlar İran və Türkiyənin də Rusiyaya meyilliliyi nəzərə çarpmaqdadır. Bunu Yaxın Şərqdə baş verən mürəkkəb siyasi proseslərlə əlaqələndirmək olar. Yaxın Şərq ölkələrində baş verən inqilablar, təlatümlər, siyasi

çəkişmələr və vətəndaş müharibələri, o cümlədən İŞİD terror təşkilatının İraq və Suriyadakı amansız özbaşınalıqları dünyada pozulmuş tarazlığın acı nəticəsidir. Eyni zamanda eyninüfuzlu güc mərkəzinə çevrilən Avropanın imkanları da nəzərə alınmalıdır. Bu da öz növbəsində gələcəkdə dünyada bir qütblülükdən çox qütblülüyə keçidi şərtləndirir.

## İstifadə olunmuş ədəbiyyat

1. Aristotel. Politika. Bakı: 1997.
2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Elm, 2009.
3. Əliyev H.Ə. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı: 1997.
4. Mehdiyev R. Azərbaycan:tarixi irs və müstəqillik fəlsəfəsi. Bakı:2001.
5. Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. Bakı: 2003.
6. Əfəndiyev M.Ə. Politologiya. Dərslik. Bakı: Elm, 2011.
7. Əfəndiyev M.Ə. Siyasi elm. Bakı: Siyasət, 2010.
8. Şirəliyev H.İ., Əhmədov Ə.C. Politologiya. Dərslik. Bakı: Təbib,1997.
9. İbadov N.S. Müqayisəli politologiya. Bakı: 2010.
10. Yadigar T. Politologiya. Bakı: 2008.
11. Nəbiyev F.H. Siyasi təfəkkür. Bakı: 2003.
12. Piriyev A, Əfəndiyeva X. Sosiologiya və politologiya fənnindən mühazirə mətnləri. Bakı: 2009.
13. Zbiqnev Bjezinski. Böyük şahmat taxtası. Amerikanın hökmranlığı və onun geostrateji imperativləri. Bakı: 2011.
14. Ələkbərova N.İ. Siyasi elmin tarixi və metodologiyası.Bakı:2005.
15.Səttarov M. İnsan və cəmiyyət haqqında düşüncələr. Bakı:2000.
16.Hacıyev Z. Fəlsəfə.Dərslik. Bakı:2001.
17.Tağıyev Ə., Şükürov M. Etnopolitologiya. Bakı:2000.
18.Məmmədzadə İ. Qloballaşma və müasirləşmə şəratində fəlsəfəninaktuallığıhaqqında. Bakı:2009.
19.Əfəndiyev M., Səadət Məcid qızı. Şəxsiyyət-mədəniyyət sistemi.Sosial-fəlsəfi təhlil. Bakı:2008.
20.İmanov H.R. Fəlsəfənin əsasları. Bakı:2007.
21.Əhmədli C.T. Cəmiyyət-siyasət-ideologiya: siyasi biliklərin əsasları. Bakı:1997.
22.Əfəndiyev M. Siyasi elmin problemləri. Bakı:1998.
23.Əfəndiyev M. Siyasi və hüquqi təlimlər tarixi. Bakı:2006.

24.Hikmət Babaoğlu. Azərbaycan beynəlxalq münasibətlərin aktorukimi. Bakı:2007.
25.Tağıyev Ə. İnsan və siyasət. Bakı:2005.26.Piriyev A. Siyasi strategiya və milli təhlükəsizlik problemi. Bakı:2002
27.Həsənov Ə.M. Geosiyasət. Dərslik. Bakı:2010.
28.Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı:2005.
29.Həsənov Ə.M. Azərbaycan və ATƏT. Bakı:1997.
30.Həsənov Ə.M. Heydər Əliyev Azərbaycanın xarici siyasət strategiyasınınyaradıcısıdır. Heydər Əliyev yolu: Azərbaycan inkişafın yeni mərhələsində.Bakı:2007.
31.Həsənov Ə.M. Heydər Əliyevin xarici siyasətində nəqliyyat-kommunikasiyavə enerji dəhlizləri məsələsi. Heydər Əliyev ideyaları: XXI əsrdə Azərbaycanınınkişaf yolu. Bakı:2009.
32.Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918-1920).Bakı:1993.
33.Həsənov C. SSRİ-Türkiyə: Soyuq müharibənin sınaq meydanı. Bakı:2005.
34.Hacıyeva A. Beynəlxalq münasibətlər tarixi (1871-1919). Dərs vəsaiti.Bakı:2001
35.Mahmudov Y.M. Azərbaycan diplomatiyası. Bakı:1996.
36.Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı:1990.
37.Rəsulzadə M.Ə. Bolşeviklərin Şərq siyasəti. Bakı:1994.
38.Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı:2005.
39.Mehdiyev R. Yeni siyasət: inkişafa doğru. İki clddə. Bakı:2008.
40.Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyətvə xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı:1996.
41.Qasımov M. Birinci Dünya müharibəsi illərində böyük dövlət-lərin Azərbaycansiyasəti. (1914-1918-ci illər). 3 hissədə. Bakı:2000, 2001, 2004.

42.Qasımov M. Xarici dövlətlər və Azərbaycan (aprel işğalından SSRİ yaradılanaqədərki dövrdə diplomatik-siyasi münasibətlər). Bakı:1998.
43.Qasımlı M. SSRİ-Türkiyə münasibətləri (Türkiyədə 1960-cı il çevrilişindənSSRİ-nin dağılmasınadək). I-II cild. Bakı:2007, 2009.
44.Məmmədov A.S. Beynəlxalq münaqişələr. Bakı:2000.
45.Məmmədov C.A. Geosiyasət. Qısa mühazirə kursu. Bakı:2005.
46.Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı:1992.
47.“Azad Ev”. Minilliyin çağırışı. Bakı:2002.
48.Həsənov C. Sovet dövründə Azərbaycanın xarici siyasəti (1920-1939).Bakı:2012.
49.Axundova E. Heydər Əliyev. Şəxsiyyət və Zaman. I hissə. Bakı:2007.
50.Orucov Ə. Azərbaycan xalqı milli özünüdərk yollarında: XIX əsrin sonu-XX əsrin əvvəlləri (tarixi-fəlsəfi aspekt). Bakı:2012.
51.Həsənov Ə.M. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizliksiyasəti. Bakı:2011.
52.Vəliyeva S. Milli dövlətçilik hərəkatının yüksəlişi və Xalq Cümhuriyyətidövründə azərbaycançılıq ideyası. Bakı:2003.
53.Vəliyeva S. Azərbaycançılıq milli ideologiya və ədəbi-estetik təlim kimi.Məsələnin qoyuluşuna dair. Bakı:2002.
54.Seyidzadə D. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar.Bakı:2004.
55.Musayev H. Beynəlxalq terrorçuluğa qarşı mübarizədə xüsusi xidmətorqanlarının fəaliyyətinin prinsip və xüsusiyyətləri. Bakı:2009.
56.İsgəndərzadə M. Politologiyanın əsasları. Bakı:2012.
57.İbrahimli X. Politologiya. Bakı:2012.
58.Abbasbəyli A. Dünya siyasəti. Bakı:2014.
59.Həsənov Ə., Vəliyev A. Azərbaycanın və xarici ölkələrin siyasi sistemləri.Bakı:2007.
60.Ruintən K. Ermənistanın Azərbaycana təcavüzü və dünya siyasəti.Bakı:2008.

61.Eyyubov A. Diplomatiyanın əsasları. Bakı:2010.
62.Tağıyev Ə., İsmayılov D. İlk həqiqi liberal və müasir siyasi fəlsəfənin atası:Con Lokk. Bakı:2009.
63.Mehdiyev R. İkili standartların dünya nizamı və müasir Azərbaycan.Bakı:2015.
64.Kissincer H. Diplomatiya. Bakı:2015.
65.Qafarov V.V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi(1917-1922). Bakı:2011.

## Türk dilində

66.Akçura Y. Türkçülüyün tarihi. İstanbul: 1998.
67.Akçura Y. Üç tarz-ı siyaset. Ankara: 1998.
68.Akşin A. Atatürkün Dış Politika İlkeleri ve diplomasisi. Ankara:1991.
69.Karaca A. Azerbaycanın yakın tarihine kısa bir bakış. İstanbul:1982.
70.Kılıç S. Türk-Sovyet ilişkilərinin doğuşu. İstanbul: 1998.
71.Kurat A.N. Türkiye ve Rusya. Ankara: 1990.
72.Resulzade M.E. Azerbaycan problemi. Ankara: 1996.
73.Saray M. Atatürk ve Türk dünyası. Ankara: 1995.
74.Yıldırım H. Türk-Rus-Ermeni münasebetleri (1914-1918).Ankara:1990.
75.Yüceer N. Birinci Dünya savaşında Osmanlı ordusununAzerbaycan veDağıstan harekatı. Ankara: 1996.

## Rus dilində

76.Алексеева Т.А. Современные политические теории.М., 2000.
77.Амелин В.Н. Социология политики. М., 1992.
78.Антология мировой политической мысли. В.5.м.М., 1999.
79.Арон Р. Демократия и тоталитаризм. М.,1993.

80.Атаман Г.В. Теория государственного управления: Курслекций. М.,2009.
81.Гаджиев К.С.Политология. М., 2009.
82.Дмитриев А.В. Конфликтология.М., 2000.
83.Дугин А.Т. Философия политики. М., 2000.
84.Зеркин Д.П. Основы политологии. Ростов-на-Дону, 1997.
85.Иванов В.Н. Политическая психология. М., 1990.
86.Козырев Г.И. Политическая конфликтология. М., 2008.
87.Леунхарт А. Демократии в многосоставных обществах.Сравнительное исследование.М., 1997.
88.Лиман Н. Власть. М., 2001.
89.Макеев А.В. Политология. М, 2000.
90.Макиавелли. Государь М., 1990.
91.Мелвиль А.Ю. Демократический транзиты.М., 1999.
92.Мухаев Р.Т. Теория политики.М., 2005.
93.Мухаев Р.Т. Политология. М.,2009.
94.Растау Д.А. Международньй отнощения. М., 1996.
95.Соловьев А.И. Политология. М.,2006.

## İngilis dilində

96.Huntinqton S. The Third Wave: Democratization in the LafeTwentiethCentury. London: 1991.
97.Schmitter Ph.C. Democratization. Waves of // Encyclopedia ofDemocracy. V.2. New York, 1995.
98.Heed D. Democracy and Qlobal Order Cambridqe, 1995.
99.Morgenthom H. Politics amonq Nations: The Struqqle for PowerandPeacl N.Y. 1978.
100.Fukuyama F. The end of History and Last Man. The Free Press.1992.
101.Hoqwood B.W., Ginn L. Policy Analysis for the Real World.Oxford.1984.

# MÜNDƏRİCAT

**Ön söz** ........................................................................................

**I Bölmə. Politologiya siyasət haqqında elmdir** ............................
1. Siyasi elmin meydana gəlməsi və inkişafı ..................................
2. Politologiyanın predmeti,kateqoriyaları,funksiyaları,metodları ............................
3. İntibah və maarifçilik dövrlərinin, XIX-XX əsrlərinin siyasi ideyaları ........................................................................
4. Azərbaycanda siyasi fikrin meydanagəlməsi və inkişafı .............

**II Bölmə. Siyasi hakimiyyət** ........................................................
1. Hakimiyyətin məzmunu və təzahür xüsusiyyətləri .....................
2. Hakimiyyət problemində siyasi lider və siyasi liderliyin xüsusi əhəmiyyəti .......................................................................
3. Dövlət başlıca siyasi təsisatdır.Dövlətin mənşəyi, mahiyyəti və səciyyəvixüsusiyyətləri ..................................................
4. Elektron hökumətin əsas fəaliyyət prinsipləri və əhəmiyyəti..........................................................................................

**III Bölmə. Siyasipartiyalar və partiya sistemləri** .........................
1. Partiya anlayışı və siyasi partiyaların təşəkkülü ..........................
2. Partiya sistemləri: tipləri və inkişaf meylləri .............................

**IV Bölmə. Parlament başlıca demokratik təsisatdır** ....................
1. Siyasi demokratiya anlayışı ........................................................
2. Parlament başlıca demokratik təsisatdır .......................................
3. Seçki sistemləri ..........................................................................

**V Bölmə. Siyasi rejim, siyasi şüur,siyasi ideologiya və siyasi mədəniyyət** ........................................................

1.Siyasi rejim anlayışı........................................................................

2.Siyasi şüur anlayışı ....................................................................
3.Siyasi şüurun ideoloji komponenti ..............................................
4.Siyasi mədəniyyət .......................................................................

**VI Bölmə. Siyasi münaqişələr və konsensus.Vətəndaş cəmiyyəti**...................................................................
1. Siyasi münaqişələr və konsensus. ................................................
2. Vətəndaş cəmiyyəti ....................................................................

**VII Bölmə. Cəmiyyətin həyat fəaliyyətində siyasətin rolu** ..........
1.Siyasət cəmiyyətin həyat fəaliyyətinin başlıca sferasıdır ..............
2.Beynəlxalq münasibətlər və xarici siyasət. Geosiyasətvə müasir dünya ...........................................................................

**İstifadə olunmuş ədəbiyyat** .........................................................

ƏLİYAR AĞAGÜL oğlu ORUCOV

# POLİTOLOGİYA

## DƏRS VƏSAİTİ

Naşir: Ceyhun Əliyev
Dizayner: İradə Əhmədova
Texniki redaktor: Natiq Paşayev
Operator: Tərlan Quliyeva

Tiraj:500; ş.ç.v 11,75. Format: 60x84 16/1
***Kitab hazır deopozitivlərdən çap olunub***
"Ecoprint" nəşriyyatının
mətbəəsində çap olunmuşdur.
Tel: +994 55 216 09 91